# MÜNDƏRİCAT




3

ƏLİ HƏSƏNOV:
ON BEŞ İLLİK PREZİDENTLİK DÖVRÜNÜN MÖHTƏŞƏM ZƏFƏR SALNAMƏSİ




9

İBRAHİM ƏLİYEV:
İFLAS ƏRƏFƏSİNDƏ
SSRİ-DƏ MİLLİ MƏSƏLƏ

18

ŞAMXAL MƏMMƏDOV: MÜASİR DÖVRDƏ RUSİYANIN CƏNUBİ QAFQAZ SİYASƏTİ VƏ ONA MÜXTƏLİF BAXIŞLAR

22

MAİS ƏMRAHOV: AZƏRBAYCAN-TÜRKİYƏ MƏDƏNİ ƏLAQƏLƏRİNDƏ TÜRKSOY-UN ROLU

26

ИРАДА НУРИЕВА: ВНЕШНЕПОЛИТИЧЕСКИЕ ОТНОШЕНИЯ МЕЖДУ ОСМАНСКОЙ ТУРЦИЕЙ И АЗЕРБАЙДЖАНСКОЙ ДЕМОКРАТИЧЕСКОЙ РЕСПУБЛИКОЙ (1918-1920) ГОДЫ

30

FUAD BABAYEV: SOVET İTTİFAQI VƏ YUQOSLAVİYANIN SÜQUTU NƏTİCƏSİNDƏ YARANMIŞ SİLAHLI MÜNAQİŞƏLƏR: OXŞAR VƏ FƏRQLİ CƏHƏTLƏR



14

İSMAYIL QASIMOV:
XALQ RƏSSAMININ MİSSİYASI

34

VÜQAR HÜSEYNOV: İNFORMASİYA TEXNOLOGİYALARININ SİYASİ PROSESLƏRƏ TƏSİRİ

39

MEHDİ İSMAYILOV: AZƏRBAYCAN-POLŞA SİYASİ ƏLAQƏLƏRİ

44

VƏFA NAĞIYEVA: SOSİONOMİK PEŞƏ NÜMAYƏNDƏLƏRİNDƏ EMOSİONAL TÜKƏNMƏ SİNDROMUNUN (ETS) FORMALAŞMASINA TƏSİR GÖSTƏRƏN AMİLLƏR




49 | SEVDA YUSİFOVA:
"İNFORMASİYA CƏMİYYƏTİ" VƏ AZƏRBAYCAN

53 | AFAQ ZEYNALOVA:
AZƏRBAYCAN RESPUBLİKASINDA MÜSTƏQİLLİK İLLƏRİNDƏ DÖVLƏT İDARƏETMƏ SİSTEMİ SAHƏSİNDƏ NORMATİV-HÜQUQİ BAZANIN YARADILMASI (1993-2003)

57 | İLHAM ƏLİZADƏ:
BAKI-TBİLİSİ-CEYHAN VƏ CƏNUBİ QAFQAZ BORU KƏMƏRLƏRİNİN TİKİNTİSİNDƏ BP VƏ TƏRƏFDAŞLARININ ROLU

66 | SEVİNC HƏSƏNOVA:
İDARƏÇİLİKDƏ STRESS PROBLEMİ

69 | NİSA PAŞAYEVA:
AZƏRBAYCANIN DİASPOR SİYASƏTİNİN HƏYATA KEÇİRİLMƏSİNDƏ XARİCİ ÖLKƏLƏRDƏ FƏALİYYƏT GÖSTƏRƏN AZƏRBAYCAN GƏNCLƏRİNİN İCTİMAİ TƏŞKİLATLARININ YERİ VƏ ROLU

72 | NEMAN ŞÜKÜROV: RABİTƏ MÜƏSSİSƏLƏRİNDƏ LOGİSTİK İDARƏETMƏNİN TƏHLİLİ





75 | ŞƏRƏF MƏMMƏDOVA:
AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ DÖVRÜNDƏ MÜSTƏQİL MƏTBUATIN ƏSASLARINI ŞƏRTLƏNDİRƏN AMİLLƏR





62 | ŞAHLAR ŞƏRİFOV:
RAŞİDİLƏR DÖVRÜNDƏ SASANİLƏRƏ QARŞI BAŞ VERƏN DÖYÜŞLƏR



**GEO STRATEGİYA**

**Təsisçi:**
**"Kaspi" Geosiyasi Araşdırmalar Mərkəzi**

**Baş redaktor:**
**Əli Həsənov**
**Redaktor:**
**İbrahim Əliyev**
**Redaktor müavini:**
**İsmayıl Qasımov**

**Korrektor:**
**Leyla Binyatova**

**Dizayner:**
**İman Hüseynov**



**Redaksiya heyəti:**

**Əli Həsənov**
**Mübariz Qurbanlı**
**Səlahəddin Xəlilov**
**Rüstəm Məmmədov**
**Rasim Musabəyov**
**Çingiz İsmayılov**
**Musa Qasımlı**
**İbrahim Əliyev**
**Ərəstun Mehdiyev**
**Cəfər Cəfərov**
**Elman Nəsirov**
**Hikmət Məmmədov**
**Elçin Əhmədov**



**Ünvan:**
**Mətbuat pr. 23M. Beynəlxalq Mətbuat Mərkəzinin 4-cü mərtəbəsi.**
**Tel: (+994 12) 537 16 05**
**Faks: (+994 12) 537 16 05**
**E-poçt:**
**strategiya.az@mail.ru**



**"Azərbaycan" nəşriyyatının mətbəəsində çap olunmuşdur.**

**Sifariş № 3213**



**Redaksiyanın icazəsi olmadan dərgidəki materiallardan istifadə etmək qadağandır.**



***"GEOSTRATEGİYA"*** jurnalı Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən Azərbaycan Respublikasının dissertasiyaların ***Tarix, Antropologiya, Siyasi elmlər, Fəlsəfə, Sosiologiya və İqtisadi elmlər*** üzrə əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısına salınmışdır.

# Geosiyasət



ƏLİ HƏSƏNOV
Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi, tarix elmləri doktoru, professor

## ON BEŞ İLLİK PREZİDENTLİK DÖVRÜNÜN MÖHTƏŞƏM ZƏFƏR SALNAMƏSİ



*Bu il müsəlman aləmində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ölkəmizdə geniş qeyd edilir. Prezident İlham Əliyev bu hadisəni xalqımızın tarixinin çox mühüm və şərəfli səhifələrindən biri kimi xarakterizə edərək demişdir: "Biz haqlı olaraq fəxr edirik ki, müsəlman aləmində ilk demokratik respublikanı Azərbaycan xalqı yaradıbdır. Bu, bir daha göstərir ki, azərbaycanlılar azadlıqsevər və mütərəqqi xalqdır". Dövlətimizin başçısı Cümhuriyyətin tarixinə, onun qurucularının xatirəsinə daim böyük hörmətlə yanaşır. Bir neçə il bundan əvvəl Prezidentin Sərəncamı ilə Bakının mərkəzində Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə abidə ucaldılmış, 2018-ci il "Azərbaycan Xalq Cümhuriyyəti Ili" elan olunmuşdur. Lakin Prezident Ilham Əliyevin Azərbaycan Xalq Cümhuriyyətinə və onun qurucularının xatirəsinə ən böyük ehtiramı onların ideyalarını yaşatması, demokratiya arzularını reallaşdırması, Azərbaycanın müstəqilliyini və suverenliyini etibarlı şəkildə qorumasıdır, desək heç də yanılmarıq...*

*Bir neçə gün bundan əvvəl Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 27-ci ildönümünü qeyd etdik. Orta və yaşlı nəsil müstəqilliyin ilk illərinin necə ağır keçdiyini yaxşı xatırlayır. Bir tərəfdən, SSRİ-nin süqutu ərəfəsində Azərbaycanın Dağlıq Qarabağ bölgəsində baş qaldıran separatizm daha da güclənmişdi,*

***Ermənistanın təcavüzü nəticəsində torpaqlarımızın 20 faizi işğal edilmişdi, soydaşlarımızın 1 milyona qədəri qaçqın və məcburi köçkünə çevrilmişdi, digər tərəfdən isə ənənəvi iqtisadi-ticarət əlaqələri pozulmuşdu, ölkəni iqtisadi və siyasi böhran bürümüşdü. Yalnız 1993-cü ildə Heydər Əliyev Azərbaycanda rəhbərliyə qayıdandan sonra ölkə tədricən bu böhrandan çıxdı, ictimai-siyasi sabitlik, milli-vətəndaş birliyi yaradıldı və cəmiyyət həyatının bütün sahələrində yenidənqurmaya başlanıldı. Ümummilli Liderin siyasi kursunun yeganə düzgün yol olduğunu görən xalqımız 2003-cü il oktyabrın 15-də keçirilən seçkilərdə bu siyasətin layiqli davamçısı kimi cənab İlham Əliyevi dəstəkləyərək 76,8 faiz səslə onu özünə yeni Prezident seçdi. Cənab İlham Əliyevin ali dövlət vəzifəsində ilk günlərdən başlayaraq nümayiş etdirdiyi yüksək idarəçilik məharəti, qətiyyətli və milli maraqlara söykənən daxili və xarici siyasəti, seçkiqabağı təşviqat dövründə səsləndirdiyi "Mən hər bir azərbaycanlının prezidenti olacağam!" ifadəsi qısa müddətdə ona xalq arasında geniş populyarlıq, sonsuz inam və etibar qazandırdı. Elə bu səbəbdən 2008, 2013 və 2018-ci illərdə keçirilən prezident seçkilərində də İlham Əliyev yenidən inamlı qələbə qazandı. Oktyabrın 15-də Prezident İlham Əliyevin dövlət başçısı kimi fəaliyyətinin 15 ili tamam olur. Bununla əlaqədar olaraq, cənab İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti postundakı fəaliyyətinin 15 illiyi haqqında bəzi düşüncələrimi oxuculara çatdırmaq istəyirəm.***

*Ümumi formada qiymətləndirsək, cənab İlham Əliyev özünün 15 illik prezidentliyi dövründə,* **ilk növbədə, ümummilli lider Heydər Əliyev tərəfindən təməli qoyulmuş vətəndaş birliyi platformasına söykənərək daxili ictimai-siyasi sabitliyi daha da möhkəmlətmiş, əhalinin təhlükəsizliyini, insanların əsas hüquq və azadlıqlarını, ölkənin əmin-amanlığını təmin etmiş, vətəndaşların rifah halının getdikcə yüksəlməsinə nail olmuşdur. Hazırda tərəddüd etmədən söyləmək olar ki, daxili milli-vətəndaş birliyi, hakimiyyətin yürütdüyü siyasətin geniş əhali tərəfindən dəstəklməsi əsasında bərqərar olmuş möhkəm ictimai-siyasi sabitlik əmsalına görə Azərbaycan postsovet məkanında birinci yerdə dayanır. Bununla yanaşı, digər əsas daxili inkişaf parametrləri - makroiqtisadi sabitlik, dinamik inkişaf edən iqtisadiyyat, sosial və mənəvi təminat sisteminin dinamikası, müsbət demoqrafik vəziyyət, miqrasiya və urbanizasiya proseslərinin dövlətin nəzarəti altında saxlanması, dövlət idarəçiliyinin effektivliyi və s. üzrə də Azərbaycan son 15 ildə region ölkələri içərisində birinci üçlükdə öz yerini möhkəmləndirmişdir.**

***İkincisi,* Prezident İlham Əliyevin yürütdüyü uğurlu daxili və xarici siyasət, formalaşdırdığı səmərəli dövlət idarəçiliyi sayəsində son 15 ildə Azərbaycanın regional və beynəlxalq nüfuzu getdikcə artmış, Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazdakı geosiyasi, geoiqtisadi və hərbi-geostrateji mövqeləri daha da güclənmişdir. Ölkənin təbii ehtiyatlarından, coğrafi mövqeyindən, maddi, mənəvi və insan resurslarından səmərəli istifadəyə, transmilli nəqliyyat-kommunikasiya və enerji dəhlizləri sahəsində həyata keçirilən uğurlu regional siyasət və düzgün mövqe seçiminə, daxili və xarici siyasətin müstəqillik əmsalına, sosial-iqtisadi inkişafın davamlılıq və dinamiklik göstəricilərinə, gələcək inkişaf potensialına və digər parametrlərinə görə də hazırda Azərbaycan regionun özünü tam təmin edən dövlətləri sırasında ilk üçlükdə qərarlaşmışdır.**

*Ayrı-ayrı sahələr üzrə təhlil aparsaq görərik ki,* son 15 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə **Azərbaycanda demokratik təsisatların möhkəmləndirilməsi, siyasi plüralizmin, insan hüquq və azadlıqlarının təmin edilməsi, vətəndaş cəmiyyəti institutlarının gücləndirilməsi** istiqamətində ardıcıl siyasət həyata keçirilmişdir. Məhz bunun nəticəsidir ki, hazırda ölkədə 55 siyasi partiya, 3 mindən çox qeyri-hökumət təşkilatı (4 mindən çox qeyri-kommersiya təşkilatı), 5 mindən çox kütləvi informasiya vasitəsi, habelə sıralarında 2 milyona yaxın insanı birləşdirən həmkarlar ittifaqları sərbəst fəaliyyət göstərir.

2012-ci ildə "Siyasi partiyalar haqqında" Qanuna edilmiş əlavələrə görə, siyasi partiyaların fəaliyyətinin maliyyələşdirilməsi üçün hər il dövlət büdcəsindən vəsait ayrılır. Siyasi partiyalar ölkədə azad, şəffaf və demokratik şəraitdə keçirilən prezident, parlament və bələdiyyə seçkilərində fəal iştirak edir. Bu isə Azərbaycanda siyasi plüralizmin və çoxpartiyalı demokratik siyasi sistemin formalaşdığını göstərir.

Ölkədə vətəndaş cəmiyyəti institutlarının, o cümlədən qeyri-hökumət təşkilatlarının müstəqilliyinin və maliyyə imkanlarının artırılmasına ciddi əhəmiyyət verilir. Cənab Prezidentin sərəncamları ilə 2007-ci ildə "Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Konsepsiyası" təsdiq edilmiş, bu sahədə ixtisaslaşmış qurum kimi Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası yaradılmışdır. 2008-ci ildə fəaliyyətə başlayan Şura ictimai təşəbbüsləri dəstəkləyərək QHT-lərin minlərlə layihəsini maliyyələşdirmişdir.

Azərbaycanda söz və məlumat azadlığının təmin olunması, demokratik, plüralist mətbuatın formalaşması dövlət siyasətinin əsas istiqamətlərindən birini təşkil edir. Prezident İlham Əliyev keçən dövr ərzində KİV-lərin maddi-texniki bazasının möhkəmləndirilməsi, jurnalistlərin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində çoxsaylı qərarlar qəbul etmiş, müvafiq fərman və sərəncamlar imzalamışdır. Hazırda ölkədə KİV-lərin ümumi sayı 5 mini, Az.domenində qeydiyyata alınmış internet saytlarının sayı isə 20 mini ötmüşdür. 10 milyona yaxın əhalinin 80 faizi internet, 3 milyona qədəri isə sosial şəbəkə istifadəçisidir. Azərbaycanda 11 ümumrespublika, 4 peyk, 13 regional, 17 kabel, 25 internet (İP) televiziyası, 16 radio fəaliyyət göstərir. 2005-ci ildə ikinci dövlət kanalının bazasında İctimai Televiziya və Radio Yayımları Şirkəti təsis edilmiş və fəaliyyətə başlamışdır.

2008-ci ildə cənab Prezident "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası"nın təsdiq edilməsi, 2009-cu ildə isə Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması haqqında sərəncamlar imzalamışdır. İndiyə qədər Fond vasitəsilə medianın inkişafına ümumilikdə 60 milyon manat vəsait yönəldilmişdir. Bundan başqa, cənab İlham Əliyevin sərəncamlarına əsasən jurnalistlər üçün dövlət hesabına 410 mənzildən ibarət iki yaşayış binası tikilmiş və KİV nümayəndələrinin istifadəsinə verilmişdir. Hazırda 255 mənzildən ibarət üçüncü binanın tikintisi davam edir.

Prezident İlham Əliyevin hakimiyyəti illərində siyasi sferada olduğu kimi, **iqtisadi sahədə də ciddi uğurlar qazanılmışdır**. Onun rəhbərliyi ilə son 15 ildə həyata keçirilmiş ardıcıl və məqsədyönlü iqtisadi siyasət nəticəsində ölkədə planlı sosialist iqtisadiyyatından **bazar iqtisadiyyatına keçid prosesinin başa çatması təmin edilmişdir**. Bu dövrdə ÜDM-də özəl sektorun payı 80 faizi ötmüş, makroiqtisadi sabitlik möhkəmləndirilmiş, rəqabətqabiliyyətliliyinə görə Azərbaycan iqtisadiyyatı MDB məkanında birinci yerə yüksəlmişdir. 2004-2018-ci illər ərzində iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun və bölgələrin davamlı yüksəlişi məqsədilə regionların sosial-iqtisadi inkişafına dair üç dövlət proqramı icra olunmuşdur. Hazırda dördüncü proqramın qəbul edilməsinə hazırlıq görülür.

Ötən dövr ərzində **qeyri-neft sənayesi ardıcıl şəkildə inkişaf etdirilmiş, ölkə iqtisadiyyatı üçün mühüm əhəmiyyət kəsb edən və müasir texnologiyalara əsaslanan minlərlə yeni müəssisə fəaliyyətə başlamışdır.** 2014-cü ilin dekabrında təsdiq edilmiş "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"na uyğun olaraq, ölkə ərazisində çoxsaylı sənaye parkı və məhəllələri, texnoparklar (Sumqayıt, Balaxanı, Mingəçevir, Qaradağ, Pirallahı, Neftçala, Masallı və s.) yaradılmış, istehsal sahələrinin genişləndirilməsi, qeyri-neft sənayesinin ixrac imkanlarının

artırılması və innovativ istehsalın inkişaf etdirilməsi istiqamətində ciddi tədbirlər görülmüşdür. Sumqayıtda alüminium, karbamid, plastik emalı zavodları, "SOCAR Polymer" şirkətinin polipropilen və yüksək sıxlıqlı polietilen zavodları (bu zavodlara qoyulan sərmayənin həcmi 800 milyon dollardan çoxdur), Balaxanıda məişət tullantılarının təkrar emalı zavodu, Bakı gəmiqayırma zavodu, Gəncə, Naxçıvan və Neftçalada avtomobil zavodları, Sumqayıt, Gədəbəy və Daşkəsəndə qızıl-mis emalı zavodları, Gəncə alüminium yarımfabrikatı, kənd təsərrüfatı texnikası zavodları və digər sənaye müəssisələri həmin illərdə istifadəyə verilərək ölkənin iqtisadi potensialının gücləndirilməsində mühüm rol oynayır.

**Aqrar sektorda həyata keçirilən islahatlar, kənd təsərrüfatı məhsulları istehsalçılarına edilən güzəşt və yardımlar ölkə iqtisadiyyatında bu sahənin ardıcıl inkişafına zəmin yaratmışdır**. 2003-2018-ci illərdə meliorasiya tədbirlərinə ayrılan vəsaitin həcmi 6 dəfə, bu sahəyə əsaslı kapital qoyuluşu 21 dəfə artmışdır. Ölkədə 4 iri su anbarı (Taxtakörpü, Şəmkirçay, Göytəpə və Tovuzçay), 4 min kilometr suvarma kanalları, 2,4 min kilometr kollektor-drenaj şəbəkələri tikilmiş və bərpa olunmuş, 360 min hektar torpağın su təminatı, 264 min hektar sahədə meliorativ vəziyyət yaxşılaşdırılmış, 219 min hektar yeni suvarılan torpaq sahəsi əkin dövriyyəsinə daxil edilmişdir. Prezident İlham Əliyevin təşəbbüsü ilə ənənəvi kənd təsərrüfatı sahələrinin, o cümlədən pambıqçılıq, taxılçılıq, baramaçılıq, üzümçülük, çayçılıq, sitrus meyvəçiliyi, çəltikçilik və arıçılığın dirçəldilməsi, fındıq, badam, xurma, zeytun, nar bağlarının genişləndirilməsi istiqamətində görülən işlər ölkənin ixrac potensialını əhəmiyyətli dərəcədə artırmışdır.

On beş il ərzində **Azərbaycan iqtisadiyyatı 3,2 dəfə, qeyri-neft sektoru 2,8 dəfə, sənaye istehsalı 2,6 dəfə, kənd təsərrüfatı 1,7 dəfə artmış, qeyri-neft ixracı 4,1 dəfə çoxalmışdır. Azərbaycanın valyuta ehtiyatları 1,8 milyard dollardan (2004) 46 milyard dollara (2018) çatdırılmışdır. 2003-2018-ci illərdə ölkə iqtisadiyyatına 250 milyard dollar investisiya qoyulmuşdur**. Müstəqillik dövründə Azərbaycana yatırılan sərmayənin 93 faizini təşkil edən həmin investisiyanın təxminən yarısı daxili mənbələrin payına düşür.

Prezident İlham Əliyevin rəhbərliyi ilə **Azərbaycanda nəhəng transmilli energetika və nəqliyyat layihələri həyata keçirilmiş**, 2006-cı ildə Xəzər və Aralıq dənizlərini birləşdirən Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft kəməri (uzunluğu 1767 kilometr), 2007-ci ildə Bakı–Tbilisi–Ərzurum qaz kəməri (uzunluğu 980 kilometr) istifadəyə verilmişdir. 2014-cü il sentyabrın 20-də Avropanın enerji təhlükəsizliyinin, həmçinin Azərbaycanın perspektiv inkişafının və iqtisadi maraqlarının təmin edilməsində böyük rol oynayacaq Cənub Qaz Dəhlizinin təməli qoyulmuşdur. Uzunluğu 3500 kilometr, dəyəri 40 milyard dollardan çox olan bu qlobal layihənin icrası sürətlə getmiş və 2018-ci il mayın 29-da Bakıda Cənub Qaz Dəhlizinin, iyunun 12-də isə onun tərkib hissəsi olan TANAP boru kəmərinin rəsmi açılış mərasimi keçirilmişdir. TAP layihəsinin icrası isə qrafik üzrə davam etdirilir. 1994-cü il sentyabrın 20-də Bakıda imzalanmış "Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında Saziş"in ("Əsrin müqaviləsi") müddəti 2017-ci il sentyabrın 14-də 2050-ci ilə qədər uzadılmışdır. Yeni şərtlərə görə SOCAR-ın payının 11 faizdən 25 faizə qaldırılması, mənfəət neftinin 75 faizinin Azərbaycana verilməsi nəzərdə tutulmuşdur. Bundan əlavə, 8 il ərzində xarici investorlar tərəfindən ölkəyə bərabər hissələrlə bonus kimi 3,6 milyard dollar ödəniləcəkdir. Müqavilənin müddətinin uzadılması Azərbaycanda uzun illər bundan sonra da neftin hasilat səviyyəsinin sabit qalmasına, neft sektoruna xarici investisiya qoyuluşunun təmin olunmasına imkan yaratmışdır.

Prezident İlham Əliyevin təşəbbüsü ilə **Avropa və Asiyanı birləşdirən Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin yaradılması istiqamətində böyük işlər görülmüşdür**. Təməli 2007-ci ildə qoyulmuş Bakı–Tbilisi–Qars dəmir yolunun 2017-ci il oktyabrın 30-da Bakıda rəsmi açılışı olmuşdur. Azərbaycanın Rusiya Federasiyası, İran və Gürcüstanla sərhədinə qədər yeni magistral avtomobil yolları tikilmişdir. 2018-ci il sentyabrın 18-də 204 kilometr uzunluğunda yeni Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi magistral avtomobil yolunun istifadəyə verilməsi ilə Azərbaycan ərazisində "Şimal-Cənub" nəqliyyat dəhlizi layihəsinin reallaşması üçün bütün işlər başa çatdırılmışdır. Azərbaycan siyasi, iqtisadi və strateji baxımdan böyük əhəmiyyətə malik həmin beynəlxalq nəqliyyat dəhlizlərində fəal iştirak etməklə Avrasiyada mühüm tranzit və logistika mərkəzlərindən birinə çevrilmişdir.

Cənab İlham Əliyevin prezidentliyi dövründə **Azərbaycan dünyada sayı məhdud olan kosmik ölkələr sırasına qoşulmuşdur**. 2010-cu ildə "Azərkosmos" Açıq Səhmdar Cəmiyyəti yaradılmış, 2013-cü il ölkədə "İnformasiya Texnologiyaları İli" elan edilmişdir. Həmin il fevralın 8-də Azərbaycanın ilk telekommunikasiya peyki "Azerspace-1", 2014-cü ildə ikinci – Yer səthini müşahidə edən "Azersky" peyki, bu ilin sentyabrında isə daha bir telekommunikasiya peyki - "Azerspace-2" orbitə çıxarılmışdır.

Son 15 ildə **ölkənin sosial-mədəni və təsərrüfat infrastrukturu tamamilə yenilənmişdir**. Bu dövrdə 3100-dən çox məktəb, 642 tibb müəssisəsi tikilmiş, yaxud əsaslı təmir edilmişdir. Yüzlərlə tarixi binada, muzey, teatr və kitabxanada geniş yenidənqurma işləri həyata keçirilmiş, ölkənin bütün ali təhsil ocaqları, həmçinin AMEA-nın nəzdində olan institut və müəssisələr təmir edilərək yeni avadanlıqla təchiz olunmuşdur. Ölkədə 15 min kilometr yol çəkilmiş, 443 körpü inşa olunmuşdur. Bakıda 4 yeni metro stansiyası istifadəyə verilmiş, bir neçə stansiyada yenidənqurma işləri aparılmışdır. Xəzər dənizində ən böyük beynəlxalq dəniz limanı – Ələt Dəniz Ticarət Limanı fəaliyyətə başlamışdır. Azərbaycanda 7 hava limanı tamamilə yenidən qurularaq istifadəyə verilmişdir. Onlardan altısı (Bakı, Gəncə, Naxçıvan, Lənkəran, Qəbələ, Zaqatala) beynəlxalq hava limanı statusu almışdır. Bakının Heydər Əliyev Beynəlxalq Aeroportu dünyanın "5 ulduz"lu 9 əsas hava limanı sırasına daxil olmuşdur.

2003-2018-ci illər ərzində ö**lkədə ümumi generasiya gücü 2500 MVt olan 30 elektrik stansiyası tikilib istifadəyə verilmiş və Azərbaycan regionda elektrik enerjisi ixracatçısına çevrilmişdir**. İlin sonuna qədər 400 meqavat gücündə daha bir elektrik stansiyası da ("Şimal-2") istifadəyə veriləcəkdir. **Bölgələrdə qazlaşdırma sürətlə aparılmış və ölkə üzrə təbii qaz təchizatı 51 faizdən 95 faizə yüksəlmişdir. Nəhəng Oğuz–Qəbələ–Bakı su kəməri layihəsi icra edilmiş, Ceyranbatanda dünyanın ən böyük sutəmizləyici qurğusu inşa olunmuş, regionlarda çoxsaylı subartezian quyuları qazılmış, çaylar boyu yüzlərlə modul tipli kiçik sutəmizləyici qurğular istifadəyə verilmiş, əhalinin fasiləsiz içməli su ilə təminatı yaxşılaşdırılmışdır.**

Prezident İlham Əliyevin təşəbbüsü ilə **əhalinin sosial müdafiəsini gücləndirmək istiqamətində ciddi tədbirlər həyata keçirilmişdir**. Bu məqsədlə vətəndaşların təbii qazdan, içməli su və kanalizasiya xidmətlərindən istifadəyə görə əvvəlki illərdə yaranmış borcları (müvafiq olaraq 327 milyon və 294,2 milyon manat) tam silinmiş, sovet dövründən qalmış əmanətlərə görə 1 milyard manat kompensasiya ödənilmişdir. 15 il ərzində ölkədə 1,9 milyon yeni iş yeri açılmış, maaşlar 5 dəfədən, pensiyalar isə 8 dəfədən çox artırılmış, işsizlik səviyyəsi 5 faizə, yoxsulluq isə 49 faizdən 5,4 faizə endirilmişdir.

Cənab İlham Əliyev prezidentliyi dövründə **ölkədə ictimai və sosial xidmətlər sahəsində ciddi institusional islahatlar aparmışdır**. Onun müvafiq fərman və sərəncamı ilə 2012-ci ildə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar Agentliyi təsis edilmiş, dövlət orqanları tərəfindən əhaliyə göstərilən xidmətləri vahid sistemdə birləşdirən **"ASAN xidmət"** mərkəzləri yaradılmışdır. Bu mərkəzlərə 2013–2018-ci illər ərzində 24 milyona yaxın müraciət daxil olmuş, xidmətlərin əhali arasında bəyənilmə əmsalı 100 faizə yaxınlaşmışdır. Dünyada

Azərbaycanın brendi kimi tanınmış "ASAN xidmət" modeli artıq başqa ölkələrdə də tətbiq edilir. Prezident İlham Əliyev 2018-ci ilin avqustunda əhalinin məşğulluğu, əmək və sosial müdafiəsi ilə bağlı çevik və innovativ xidmətlər göstərilməsi üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nəzdində "Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi"ni (DOST) yaratmışdır.

**Prezident İlham Əliyev şəhid ailələri, müharibə veteranları və əlillərinə daim xüsusi qayğı ilə yanaşır. Son 15 il ərzində şəhid ailələrinə və müharibə əlillərinə dövlət hesabına 5500-dən çox fərdi ev və mənzil, 6 mindən çox minik maşını verilmişdir. İlin sonuna qədər həmin kateqoriyadan olan daha 500 nəfərin yeni mənzillərlə təmin olunacağı nəzərdə tutulmuşdur.** Azərbaycan Prezidenti bu məqsədlə Prezidentin ehtiyat fondundan 20 milyon manat vəsait ayırmışdır.

2003-2018-ci illərdə **məcburi köçkünlərin problemlərinin həlli sahəsində genişmiqyaslı işlər görülmüş, ölkədəki bütün çadır düşərgələri, fin tipli qəsəbələr ləğv edilmiş, yeni salınmış 100-dən artıq qəsəbə və şəhərcikdə 265 min nəfər məskunlaşdırılmışdır.** 2016-cı ilin aprel ayında təhlükəsiz yaşayışı təmin olunmuş Cocuq Mərcanlı kəndi (Cəbrayıl rayonu) qısa müddət ərzində bərpa edilmiş, orada 150 evdən ibarət qəsəbə tikilmiş və köçkünlər öz doğma yurdlarına qayıtmışlar. Eyni zamanda, işğaldan azad olunmuş Şıxarx qəsəbəsində (Tərtər rayonu) 1170 ailə üçün yeni şəhərcik salınmışdır. Bu ilin doqquz ayında 2900 məcburi köçkün ailəsi evlərlə, mənzillərlə təmin olunmuşdur. İlin sonuna qədər daha 2800 ailənin ev və ya mənzillərlə təmin edilməsi nəzərdə tutulmuşdur. Təsadüfi deyil ki, ölkə əhalisinin sosial rifahının yaxşılaşdırılması, habelə Minilliyin İnkişaf Məqsədlərinin həyata keçirilməsi istiqamətində böyük xidmətlərinə görə cənab İlham Əliyev 2015-ci ildə BMT-nin "Cənub-Cənub" mükafatı ilə təltif olunmuşdur.

Prezident İlham Əliyevin rəhbərliyi ilə **Azərbaycan Ordusunun döyüş qabiliyyətinin artırılması, silahlı qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində ardıcıl tədbirlər görülmüşdür.** 2005-ci ildə yaradılmış Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində 1200 adda hərbi təyinatlı məhsul istehsal edilir. Beynəlxalq reytinqlərə görə, Azərbaycanın Silahlı Qüvvələri hazırda dünyada ən güclü 50 ordu sırasında yer tutur. 2016-cı il aprel ayının əvvəlində cəbhə xəttində Ermənistanın növbəti hərbi təxribatı ilə üzləşən ordumuz əks-hücuma keçərək işğalçılara güclü zərbələr endirmiş və qısa müddətdə Ağdərə, Cəbrayıl, Füzuli rayonlarında iki min hektar ərazini düşməndən azad etmiş, işğal altında qalan torpaqlara nəzarət etmək imkanını artırmışdır. 2018-ci ilin may ayında isə Naxçıvan Muxtar Respublikasının 11 min hektardan çox ərazisi, o cümlədən Şərur rayonunun Günnüt kəndi düşməndən azad edilmiş, dövlət sərhədi boyunca əlverişli yüksəkliklər ələ keçirilmiş, Yerevan–Gorus–Laçın yolu nəzarətə götürülmüşdür.

Prezident İlham Əliyev **Ermənistan-Azərbaycan Dağlıq Qarabağ problemi ilə bağlı prinsipial mövqe ifadə etmişdir: "Azərbaycan heç vaxt öz ərazi bütövlüyünün pozulması ilə barışmayacaq, torpaqlarında ikinci erməni dövlətinin yaranmasına yol verməyəcəkdir. Ölkəmizin ərazi bütövlüyü tam bərpa edilməli, azərbaycanlılar əzəli yurdlarına qayıtmalıdırlar". 2003-2018-ci illərdə ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqlarla yanaşı, nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən Dağlıq Qarabağ münaqişəsinə dair mühüm qərarların qəbul edilməsinə nail olunmuşdur.** BMT Baş Assambleyasının 60-cı (2006) və 62-ci (2008) sessiyalarının qəbul etdiyi "Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət" adlı qətnamələrdə zəbt olunmuş Azərbaycan ərazilərində ermənilərin məskunlaşdırılması, orada yanğınlar törədilməsi faktları pislənilmiş, BMT Təhlükəsizik Şurasının 822, 853, 874 və 884 nömrəli qətnamələrinin yerinə yetirilməsinin vacibliyi vurğulanmışdır. AŞPA-nın (1416 saylı "ATƏT-in Minsk Konfransının məşğul olduğu Dağlıq Qarabağ bölgəsi üzərində münaqişə", 2005), Avropa Parlamentinin ("Avropa İttifaqının Cənubi Qafqazda strategiyasına dair tələb", 2010) qətnamələrində, Avropa İttifaqının "Şərq tərəfdaşlığı" Sammitinin Bəyannaməsində (2017) və Avropa İttifaqı – Azərbaycan "Tərəfdaşlıq Prioritetləri" razılaşmasında (2018), Qoşulmama Hərəkatı dövlət və hökumət başçılarının XVI (Tehran, 2012) və XVII (Marqarita, 2016) sammitlərinin, İƏT-in XI (Seneqal, 2008) və XII (Misir, 2013) zirvə toplantılarının yekun sənədlərində, ECO-nun 13-cü sammitinin (İslamabad, 2017) yekun bəyanatında Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına hörmət ifadə edilmiş, münaqişənin məhz bu prinsiplər əsasında həllinin vacibliyi qeyd olunmuşdur. Eyni zamanda, NATO-nun 2006-cı ildən bəri keçirilən zirvə toplantılarının, o cümlədən Nyuport (2014), Varşava (2016) və Brüssel (2018) sammitlərinin yekun kommunikelərində Cənubi Qafqazdakı münaqişələrin ölkələrin ərazi bütövlüyü, suverenliyi və Helsinki Yekun Aktına əsaslanaraq həlli prinsipinin öz əksini tapması Azərbaycanın mənafeyinə cavab verir.

Prezident İlham Əliyevin **milli maraqlara söykənən xarici siyasəti nəticəsində Azərbaycan müstəqil mövqeyi ilə seçilən dövlət kimi tanınmış, onun beynəlxalq nüfuzu getdikcə yüksəlmişdir. 2011-ci ildə Azərbaycan 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilmiş, 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatına üzv qəbul edilmişdir.** 2019-2022-ci illər Azərbaycan Respublikasının Hərəkata sədrlik dövrüdür. Azərbaycan Avropa İttifaqına üzv olan 9 ölkə ilə strateji tərəfdaşlıq əlaqələri qurmuş və müvafiq sənədlər imzalamışdır.

Prezident İlham Əliyev **milli-mənəvi dəyərlərin, dini etiqad azadlığının, konfessional və etnik rəngarəngliyin, multikulturalizm və tolerantlıq ənənələrinin qorunub saxlanmasını və inkişafını təmin etmişdir. 2003-2018-ci illər ərzində ölkədə 220-dən çox məscid, kilsə, sinaqoq tikilmiş və ya bərpa olunmuşdur.** Xüsusi dini-mənəvi və tarixi-mədəni əhəmiyyət kəsb edən Bibiheybət məscid-ziyarətgah kompleksində, Təzəpir, Əjdərbəy, İçərişəhər Cümə və Həzrət Məhəmməd məscidlərində təmir və yenidənqurma işləri aparılmışdır. Şamaxı Cümə məscidi və Gəncədə "İmamzadə" dini-mədəniyyət abidəsi əsaslı bərpa edilmiş, Bakıda Qafqazın ən böyük məscidi olan Heydər Məscidi (2014), Hacı Cavad Məscidi (2018) və dağ yəhudiləri üçün sinaqoq (2011) tikilərək dindarların istifadəsinə verilmişdir. Hazırda ölkə ərazisində 2250 məscid, 14 kilsə, 7 sinaqoq sərbəst fəaliyyət göstərir.

Prezident İlham Əliyevin sərəncamları ilə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yaradılmış (2014), 2016-cı il Azərbaycanda "Multikulturalizm İli" elan edilmişdir. Azərbaycan sivilizasiyalararası dialoq, tolerantlıq və humanitar əməkdaşlıq mövzusunda çoxsaylı beynəlxalq tədbirlərə ev sahibliyi etmiş, bir sıra qlobal təşəbbüslər irəli sürmüşdür. 2008-ci ildə Bakıda Avropa Şurasına üzv dövlətlərin mədəniyyət nazirlərinin toplantısına İslam ölkələri mədəniyyət nazirləri də dəvət edilmişdir. Həmin forumda Azərbaycan Prezidenti sivilizasiyalar, xalqlar və mədəniyyətlər arasında dialoq və əməkdaşlığın inkişafı naminə "Bakı Prosesi" təşəbbüsü ilə çıxış etmişdir. Sonrakı illərdə bu çərçivədə çoxsaylı beynəlxalq tədbir və layihələr həyata keçirilmişdir.

Prezident İlham Əliyev **gənclərin sosial, təhsil, karyera və mədəni inkişaf məsələlərinin həllini təmin etmək məqsədilə 2005-2021-ci illəri əhatə edən 3 dövlət proqramı təsdiq etmişdir.** Eyni zamanda, "2007–2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində minlərlə gənc xarici ölkələrin qabaqcıl tədris ocaqlarında təhsil almağa göndərilmişdir. Ölkə gənclərinin elm, təhsil, mədəniyyət və digər sahələrə yönəlmiş layihələrin reallaşdırılmasına kömək göstərilməsi, onların fəaliyyətinin stimullaşdırılması məqsədilə 2011-ci ildə Gənclər Fondu yaradılmış, 2013-cü ildə gənclər üçün Prezident mükafatı təsis edilmişdir.

Prezident İlham Əliyevin qayğısı sayəsində **ölkədə idman və bədən tərbiyəsi sahəsində sürətli inkişaf prosesi getmiş, böyük uğurlar əldə edilmişdir.** Bakıda və bölgələrdə 43 Olimpiya İdman Kompleksi, xeyli sayda idman qurğuları, stadionlar və digər idman meydançaları tikilib istifadəyə verilmiş, mövcud idman obyektləri yenidən qurulmuşdur. Azərbaycan idmançıları ildən-ilə öz nəticələrini yaxşılaşdırır, yüksək nailiyyətlər əldə edirlər. İdmançılarımız 2004-cü il Afina Olimpiadasında 5 medal (1 qızıl, 4 bürünc), 2008-ci il Pekin Olimpiadasında 6 medal (1 qızıl, 1 gümüş və 4 bürünc), 2012-ci il London Olimpiadasında 10 medal (2 qızıl, 2 gümüş, 6 bürünc), 2016-cı il Rio-de-Janeyro Olimpiya Oyunlarında isə 18 medal (1 qızıl, 7 gümüş, 10 bürünc) qazanmışlar. Sonuncu Olimpiya oyunlarında qazanılmış medalların sayına görə Azərbaycan dünyada 14-cü, Avropada 7-ci, MDB ölkələri arasında 2-ci, müsəlman aləmində isə 1-ci olmuşdur.

2015-ci ildə **Azərbaycan tarixdə ilk dəfə keçirilən Avropa Oyunlarına ev sahibliyi etmişdir.** 50 ölkəni təmsil edən 6 min idmançının iştirak etdiyi Oyunlarda komandamız ümumi hesabda 2-ci yeri tutmuş, 21-i qızıl olmaqla 56 medal qazanmışdır. 2017-ci ilin mayında Bakıda keçirilmiş IV İslam Həmrəyliyi Oyunlarında isə Azərbaycan komanda hesabında 1-ci yerə çıxmışdır. 2016-cı ildən etibarən Bakıda hər il ümumi auditoriyası 500 milyon nəfərdən çox olan "Formula 1" yarışları təşkil edilir.

**Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyasını, çoxşaxəli islahatlar proqramını yaradıcılıqla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan bir sıra qabaqcıl ölkələrin onilliklər boyu keçdiyi inkişaf mərhələsini sürətlə adlayaraq, postsovet məkanında keçid dövrünü başa vuran ilk ölkə olmuşdur.** Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı Azərbaycanda həyata keçirilən islahatlara yüksək qiymət vermişdir. Davos Dünya İqtisadi Forumunun hesablamalarına əsasən, **Azərbaycan iqtisadiyyatı rəqabətqabiliyyətliliyinə görə dünya miqyasında 35-ci, ümumi infrastrukturun inkişafına görə isə 26-cı yerdə qərarlaşmışdır (2017). Forumun "İnklüziv inkişaf indeksi" adlı illik hesabatında (2017) Azərbaycan inkişaf etməkdə olan 80 ölkə arasında 3-cü yerə yüksəlmişdir.**

Əslində, Azərbaycana gələn hər bir kəs mötəbər beynəlxalq təşkilatların hesabat və reytinqləri ilə tanış olmasa belə, təkcə paytaxt Bakı şəhərinə nəzər salmaqla son 15 ildə böyük bir sıçrayışın baş verdiyinə əmin ola bilər. **Prezident İlham Əliyevin müəyyən etdiyi inkişaf konsepsiyasına əsasən 2003-2018-ci illərdə həyata keçirilən abadlıq və quruculuq işləri sayəsində Bakı dünyanın ən gözəl şəhərlərindən birinə, regionun biznes və mədəniyyət mərkəzinə, cəlbedici turizm və istirahət məkanına çevrilmişdir.** Şəhərin tarixi görkəmi müasir və zövqlü tikililərlə tamamlanmış, Bakının yeni simvol və rəmzləri olan Heydər Əliyev Mərkəzi, Bayraq Meydanı, "Alov qüllələri", "Baku Crystal Hall" və digər inşaat kompleksləri dünyanın memarlıq inciləri sırasına daxil olmuşdur. Şəhərin ictimai-mədəni və nəqliyyat-təsərrüfat infrastrukturu müasir tələblərə uyğunlaşdırılmış, yeni küçə, körpü və yol ötürücüləri tikilmiş, yaşıllıq və parklar salınmış, ekoloji şərait yaxşılaşdırılmış, dənizkənarı bulvar 3,5 kilometrdən 16 kilometrə qədər uzadılmışdır. Paytaxt ərazisindən çıxarılan sənaye müəssisələrinin yerində modern tipli şəhərsalma layihələri reallaşdırılmışdır.

**Dövlət və cəmiyyət həyatının bütün sahələrində fundamental dəyişikliklərin baş verdiyi ötən 15 il ərzində Azərbaycan xalqı həmişə öz liderinə güvənmiş, ona ən güclü dayaq olmuşdur. Prezident İlham Əliyev respublikamızın sürətli inkişafından, qazanılan nailiyyətlərdən bəhs edərkən həmişə böyük fəxrlə bildirir ki, bu uğurların əsasında məhz ölkədəki sağlam ictimai-siyasi mühit, xalqla iqtidarın birliyi dayanır. Şübhəsiz, bu cür qarşılıqlı inam şəraitində Prezident İlham Əliyev hələ uzun illər xalqı öz arxasınca daha yüksək zirvələrə və böyük qələbələrə doğru aparacaqdır.**

**MƏNBƏLƏR**


*1. Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında nitqi. - "Azərbaycan" qəzeti, 10 oktyabr 2018-ci il.*

*2. Azərbaycan Prezidenti İlham Əliyevin Milli Məclisdə Azərbaycan parlamentinin 100 illiyi münasibətilə təntənəli iclasda nitqi. - "Azərbaycan" qəzeti, 22 sentyabr 2018-ci il.*

*3. Azərbaycan Prezidenti İlham Əliyevin Bakı şəhərinin azad edilməsinin 100 illiyinə həsr olunmuş paradda nitqi. -"Azərbaycan" qəzeti, 16 sentyabr 2018-ci il.*

*4. Azərbaycan Prezidenti İlham Əliyevin Almaniyanın Federal Kansleri ilə birgə mətbuat konfransında nitqi. -"Azərbaycan" qəzeti, 26 sentyabr 2018-ci il.*

*5. Azərbaycan Prezidenti İlham Əliyevin Xəzəryanı dövlətlərin başçıları Aktau Zirvə toplantısında nitqi. - "Azərbaycan" qəzeti, 13 avqust 2018-ci il.*

*6. Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında nitqi. - "Azərbaycan" qəzeti, 10 iyul 2018-ci il.*

*7. Azərbaycan Prezidenti İlham Əliyevin Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyi münasibətilə Bakıda təntənəli hərbi paradda nitqi. - "Azərbaycan" qəzeti, 27 iyun 2018-ci il*

*8. Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyənin Əskişəhər şəhərində TANAP layihəsinin açılış mərasimində nitqi. - "Azərbaycan" qəzeti, 13 iyun 2018-ci il*

*9. Azərbaycan Prezidenti İlham Əliyevin Səngəçal terminalında Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasimində nitqi. - "Azərbaycan" qəzeti, 30 may 2018-ci il*

*10. Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə rəsmi qəbulda nitqi. - "Azərbaycan", 29 may 2018-ci il.*

*11. Azərbaycan Prezidenti İlham Əliyevin 28 May – Respublika Günü münasibətilə rəsmi qəbulda nitqi. - "Azərbaycan", 27 may 2017-ci il.*

*12. Azərbaycan Prezidenti İlham Əliyevin Bakıda IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun rəsmi açılışında çıxışı - "Azərbaycan" qəzeti, 6 may 2017-ci il.*

*13. Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin birinci rübünün yekunlarına sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında nitqi. - "Azərbaycan" qəzeti, 11 aprel 2017-ci il.*

*14. Azərbaycan Prezidenti İlham Əliyevin V Qlobal Bakı Forumunun açılışında çıxışı - "Azərbaycan" qəzeti, 17 mart 2017-ci il.*

*15. Azərbaycan Prezidenti İlham Əliyevin Əl-Cəzirə televiziyasına müsahibəsi - "Azərbaycan" qəzeti, 18 fevral 2017-ci il.*

*16. Mehdiyev R.Ə. Azərbaycan: qloballaşma dövrünün tələbləri: keçmişin dərsləri, bu günün reallıqları və gələcəyin perspektivləri. Bakı: XXI-YNE, 2005, 464 s.*

*17. Mehdiyev R.Ə. "Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşdirmə xətti. Bakı: Şərq-Qərb, 2008, 216 s.*

*18. Mehdiyev R.Ə. Azərbaycan - 2003-2008: Zaman haqqında düşünərkən. Bakı: Şərq-Qərb, 2009, 240 s.*

*19. Həsənov Ə.M. Azərbaycanın milli inkişaf və təhlükəsizlik siyasətinin əsasları. Bakı: Zərdabi, 2016, 700 s.*

*20. Həsənov Ə.M. Azərbaycanın geosiyasəti. Bakı: "Zərdabi LTD", 2015, 1048 s.*

*21. Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı: Azərbaycan, 2005, 752 s.*

*22. Əhmədov E.İ. Ermənistanın Azərbaycana təcavüzü: təhlili xronika (1987-2011). Ensiklopedik nəşr. Bakı: 2012, 912 s.*

*23. http://www.heydar-aliyev.org*

*24. http://www.president.az*

*25. http://www.mehriban-aliyeva.org*

26. http://www.heydar-aliyev-foundation.org
27. http://www.aliyev-heritage.org
28. http://www.azerbaijan.az
29. http://www.cabmin.gov.az
30. http://www.meclis.gov.az
31. http://www.mfa.gov.az
32. http://www.azstat.org
33. http://www.eco.gov.az
34. http://www.preslib.az

**Açar sözlər:** *dövlət müstəqilliyi, dövlət idarəçiliyi, sosial-iqtisadi inkişaf, makroiqtisadi sabitlik, siyasi plüralizm, vətəndaş cəmiyyəti, xarici siyasət, enerji təhlükəsizliyi.*
**Ключевые слова:** *государственная независимость, государственное управление, социально-экономическое развитие, макроэкономическая стабильность, политическийплюрализм, гражданское общество, внешняя политика, энергетическая безопасность.*
**Key words:** *state independence, public administration, socio-economic development, macroeconomic stability, political pluralism, civil society, foreign policy, energy security.*

**Али Гасанов,**
**помощник Президента Азербайджанской Республики**
**по общественно-политическим вопросам,**
**доктор исторических наук, профессор**

## ГРАНДИОЗНАЯ ПОБЕДНАЯ ЛЕТОПИСЬ 15-ЛЕТНЕГО ПЕРИОДА ПРЕЗИДЕНТСТВА

### РЕЗЮМЕ

В начале статьи подробно анализируются идеологические основы политики национального развития общенационального лидера Гейдара Алиева, построенной на независимойгосударственности Азербайджана. В то же время, изучается понятие сильного государства, отраженное в государственном учении Гейдара Алиева, и его экономические, политические, социальные и нравственные основы.

В статье отмечается, что Ильхам Алиев, очень успешно и динамично продолжающий эту политику, за 15 лет президентства, опираясь на платформу гражданскойсолидарности, основа которой была заложена общенациональным лидером Гейдаром Алиевым, еще более укрепил внутреннюю общественно-политическую стабильность, обеспечил безопасность населения, основные права и свободы граждан, спокойствие в стране, добился постепенногоповышения благополучия граждан.

Наряду с этим, в статье подчеркивается, что по коэффициенту прочной общественно-политической стабильности, воцарившейся на основе внутреннего национального гражданского единства, поддержки большинством населения политики власти в современный период, Азербайджан занимает первое место на постсоветском пространстве.

В статье отмечается, что по внутренним параметрам развития – макроэкономической стабильности, динамично развивающейся экономике, динамики системы социальногои морального обеспечения, позитивной демографической ситуации, государственному контролю за процессами миграции и урбанизации, эффективности государственного управления и др. Азербайджан за последние 15 лет укрепил свое место в первой тройке среди стран региона.

В то же время, в статье научно обосновывается, что благодаря внешней политике Президента Ильхама Алиева, опирающейся на национальные интересы, Азербайджан признан как государство, отличающееся независимой позицией, неуклонно повышается его международный авторитет.

Наряду с этим, в статье на фактах широко анализируются успехи Азербайджана в экономической сфере, а также доводится до внимания осуществление в Азербайджанепод руководством Президента Ильхама Алиева гигантских транснациональных энергетических и транспортных проектов.

Кроме того, в статье обосновывается проведение в Азербайджане за последние 15 лет последовательной политики по укреплению демократических институтов, обеспечению политического плюрализма, усилению институтов гражданского общества. В статье отмечается, что для финансирования деятельности политических партий, активно участвующих в выборах, проводящихся в стране в свободных, прозрачных и демократических условиях,ежегодно выделяются средства из бюджета, и это свидетельствует о формировании в Азербайджане политического плюрализма и многопартийной демократической политической системы.

**Ali HASANOV**
**Assistant to the President of the Republic of Azerbaijan for Publicand Political Issues,**
**Doctor of Science in History, Professor**

## GRANDIOSE TRIUMPHANT ANNALS OF 15-YEAR PRESIDENCY

### SUMMARY

The article begins with a thorough analysis of the ideological foundations of the national development policy of national leader Heydar Aliyev, which was built on the basis of independent statehood of Azerbaijan. The article studies the concept of a strong state, reflected in Heydar Aliyev's state doctrine, as well as its economic, political, social and moral foundations.

The article says that during 15 years of his presidency, President Ilham Aliyev, relying on a civil unity platform, the foundation of which was laid by national leader Heydar Aliyev, has strengthened internal public and political stability, ensured security of the population, the fundamental rights and freedoms of the people, tranquility in the country, and succeeded in gradually improving well-being of citizens.

The article notes that Azerbaijan ranks first in the post-Soviet area thanks to internal national-civil unity and the strong public and political stability factor, which is based on the broader public support for the government's policy.

The article says that over the past 15 years Azerbaijan has reinforced its position in the top three among the regional countries on key parameters of internal development, including macroeconomic stability, dynamic economic development, dynamics of public and moral security system, positive demographic situation, effective government control of migration and urbanization processes and effective public administration.

The article provides a scientific proof of Azerbaijan`s recognition as a state that has its independent standing and enjoys gradually increasing international influence thanks to President Ilham Aliyev's foreign policy, which is based on national interests.

The article features a factual analysis of Azerbaijan's economic achievements, highlighting huge transnational energy and transport projects being implemented in the country under the leadership of President Ilham Aliyev.

The article also substantiates Azerbaijan`s consistent policy that has been pursued under President Ilham Aliyev over the past 15 years with the aim of strengthening democratic institutions, ensuring political pluralism, human rights and freedoms and cementing civil society institutions. The article says that the funding is annually allocated from the state budget in order to finance the activities of political parties that are involved in the elections held in a free, transparent and democratic fashion, describing this as indicative of the formation of political pluralism and multi-party democratic political system in Azerbaijan.

# Tarix



İBRAHİM ƏLİYEV
Tarix üzrə fəlsəfə doktoru

## İFLAS ƏRƏFƏSİNDƏ SSRİ-də MİLLİ MƏSƏLƏ




Bəşəriyyətin inkişafının müxtəlif mərhələlərində etnik mənsubiyyət amili özünü bu və ya digər şəkildə büruzə vermişdir. Həyati məkan və resurslar uğrunda cərəyan edən permanent mübarizə aktuallığını qoruyub saxlamış, inkişaf və müasirləşmə prosesində formasını, intensivliyini dəyişsə də öz ilkin mahiyyətindən uzağa gedə bilməmişdir. Rusiya imreriyasının varisi kimi tarix səhnəsinə çıxmış Sovet dövlətinin həyatında milli məsələ həmişə aktual olmuşdur. Hakim Kommunist partiyasının diqqət ayırdığı, daim narahat olduğu sahələrdən biri kimi milli sahədə yeridilən siyasətə, xüsusən onun ideoloji cəhətdən əsaslanmasına çox böyük enerji və vəsait sərf olunurdu. Ciddi cəhdlə SSRİ-də mill məsələnin həll olunduğu təlqin edilir, bundan fərqli fikirlərin qarşısı sərt şəkildə alınırdı. Məlum olduğu kimi, 1970-ci illərdə hətta bu ölkədə insanların yeni bir tarixi birliyi olan “sovet xalqının” təşəkkül tapması ideyası geniş şəkildə cəmiyyətə və dünyaya təbliğ edilir, onun təsdiqi üçün çoxsaylı kitablar yazılırdı. (1. s. 232)

Lakin bütün bu cəhdlərə baxmayaraq, artıq 1980-ci illərdə SSRİ-nin və dünya sosializm sisteminin süqutu ərəfəsində milli məsələdə də bütün gizli və ziddiyyətli məqamlar üzə çıxmağa başladı və bu vaxta qədər təbliğ edilən və dəstəklənən müddəaların əsassızlığı praktikada üzə çıxdı. Eyni zamanda mövcud ideoloji şablonlardan geri çəkilmələr artıq xeyli əvvəl özünü göstərməyə başlamışdı. Milli məsələ bu dovlətin iflası ərəfəsində xüsusi təsirə malik idi. Onun araşdırılması postsovet məkanda müasir durumun çox məsələlərini dana aydın təsəvvür etməyə imkan verir.

Sovet hakimiyyətinin mövcudluğunun son onilliklərində ali hakimiyyətdə çox gözəl başa düşürdülər ki, bu ictimai-iqtisadi sistemin və həmin prinsiplər üzərində qurulmuş Sovet cəmiyyətinin belə davam eləməsi mümkün deyildir. Rəsmi səviyyələrdə inkişaf etmiş sosializm, kommunizm quruculuğunun uğurla davam etdirilməsindən danışılsa da, artıq bu yalançı təbliğata inananlar o qədər də çox deyildi. Xüsusi işgüzar dairələrdə isə ictimai həyatın bütün sahələrində dərinləşən böhranın törədə biləcəyi reallıqlardan çıxış edilərək yeni-yeni planlar hazırlanır, istənilən nəticə üçün variantlar götür-qoy edilirdi.

Deyilən bu məqamlar SSRİ kimi nəhəng çoxmillətli dövlətin milli siyasətinə də aid idi. Kağız üzərində Sovetlər dövlətində, dünya sosializm düşərgəsində milli məsələnin tam həllindən danışılsa da, həm real həyatda, həm də partiya və dövlət hakimiyyətinin bütün səviyyələrində bu sahədə necə bir qorxunc təhlükənin gizləndiyini, hər an partlayışla nəticələnə biləcəyini dərk edirdilər.

Soyuq müharibə şəraitində dünya sosializm düşərgəsi ilə üz-üzə dayanan Qərb dünyası də bu zəif cəhəti dərindən dərk edir və ondan istifadə etməyə çalışırdılar. Xüsusən də, bu sahədə uydurma bir səbəb



axtarmağa ehtiyac yox idi. Sovet reallığının özü bu cür təbliğat üçün kifayət qədər geniş material verirdi.

Sovet dövlətinin ictimai-iqtisadi, sosial-siyasi və mənəvi-ideoloği böhranının dərinləşdiyi son onillillərdə milli münasibətlər sisteminin əyər-əskiklikləri tam çılpaqlığı ilə üzə çıxır. Buna görə də SSRİ-nin və bütün dünya sosializm sisteminin son nəfəsində milli amil son dərəcə aktuallaşaraq, onun dağılmasında əvəzsiz rol oynadı.

Sovet dövlətinin süqutunu hazırlayan "yenidənqurma" rəhbərliyinin milli məsələdə atdıqları addımların bir hədəfi var idi ki, o da imperiyanı yeni əsaslarla qoruyub saxlamaq, çoxsaylı xalqları bir dövlət çərçivəsində saxlayan ideologiya aradan qalxandan sonra onun tərkibindən qopub ayrılmış və ya ayrılmağa can atan əraziləri öz çərçivəsində, ən azı isə öz təsir dairəsində saxlamaq olmuşdur.

Başa düşürdülər ki, sovet sosialist ictimai-iqtisadi quruluşu və ideologiyası iflasa uğrasa da ondan əvvəlki sistemi bərpa etmək, o vaxt əsarət altında olan xalqları həmin çərçivədə və həmin qaydalar əsasında saxlamaq mümkün deyildir. Lakin imperiya ambisiyaları qalırdı və bu ambisiya postimperiya məkanında mövcud istəkləri müasirləşmiş şəkildə qoruyub saxlamağa çalışırdılar.

Millətlərin dirçəlməsindən çox onların müəyyən çərçivəddə saxlanılmasına yönəlmiş milli siyasət Sovet dövlətinin bütün tarixi boyu davam etmiş, zamanın və real tendensiyaların təsiri altında müəyyən qədər dəyişsə də, mahiyyətcə olduğu kimi qalmışdı. Sovet dövlətinin bütün tarixi boyunda bəyan edilən internasionalizm hay-küyü altında xalqlara ayrı-seçkilik qoyan, qeyri-rus, qeyri-slavyan, qeyri-xristian xalqlara münasibətdə fərqli xətt yeridən siyasət praktikada möhkəm yerinə malik idi.

SSRİ-nin dağılması ərəfəsində real parçalanmaq və xalqların müstəqillik əldə edərək Rusiyanın orbitindən çıxmaq təhlükəsi yaxınlaşdıqca bu "qara gün üçün" qorunub saxlanmış, yaradılaraq bəslənmiş cürbəcür vasitələr 1980-ci illərdə tədricən ortaya çıxmağa başlayır.

İttifaq dövlətinin təməlində olan nəzəri əsaslardan tutmuş praktikada həyata keçirilən siyasətin çatışmayan cəhətləri, ideya ilə, şüarlarla real əməllərin bir birinə ziddiyyət təşkil etməsi, internasionallıq pərdəsi altında yeridilən milli siyasətin yaratdığı mühit yeni şəraitdə çoxmillətli dövləti qoruyub saxlamaq qabiliyyətini itirmişdi. Milli məsələdə uzun illər boyu toplanmış problemlər bəyan olunmuş internasionalist şüarlarla ziddiyyət təşkil edir, praktikada ayrı-ayrı xalqlara və millətlərə münasibətdə tətbiq edilən prinsiplər qoyulan ideallardan uzaq idi. İstənilən məqamda əlverişli şəraitdə bu sahədə olan problemlər müxtəlif münaqişələrin alovlanması üçün zəmin ola bilərdi.

Nə qədər ki, ölkədə ictimai-siyasi vəziyyət nəzarət altında idi, partiya və hökumətin iradəsinə tabe olurdu, bu ziddiyyətlər o qədər də hiss olunmurdu. Milli məsələ dövlətin hələ güclü olduğu və hər şeyi nəzarət altında saxladığı dövrdə aktual deyildi. Lakin ölkədə ictimai-iqtisadi həyatın problemləri artdıqca, bütün başqa məssələrdə olduğu kimi, milli münasibətlər sahəsində də narazılıqlar artmaqda idi. Milli münasibətlər həssas bir məsələ olaraq hər bir çətinliyin, əyintinin, ədalətsiz qərarın fonunda dərhal özünü büruzə verirdi. Milli zəmində elə məqamlar var idi ki, onların qabardılması milli zəmində narazılıq ocaqlarının alovlanması üçün kifayət edirdi.

Brejnevin ölümündən sonra SSRİ-nin bir dövlət kimi dağılmasına qədərki dövrdə bir birindən fərqlənən mərhələlər açıq-aşkar şəkildə müşahidə olunurdu. Lakin onların çoxluğuna baxmayaraq, bütövlükdə iki mərhələni bir birindən fərləndirmək lazımdır.

Birinci mərhələ 1982-85-ci illəri əhatə edir. Y.Andropovun və K.Çernenkonun ölkəyə rəhbərlik etdikləri dövrdə onların iş prinsipi qətiyyətliliyi, kəsərliliyi ilə fərqlənsə də, bu dövrü bir məsələ birləşdirirdi. Həmin dövrdə dövləti, sosializm cəmiyyətini, uzun illər ərzində çoxmillətli Sovet cəmiyyətinin əldə etdiyi nailiyyətləri xilas etməyə cəhd edirdilər. Bunun üçün onların dərindən düşünülmüş, elmi və praktik cəhətdən əsaslandırılmış proqramları olmasa da, onların ölkəni ictimai-iqtisadi təməlindən və təməl prinsiplərindən uzaqlaşdırmaq fikri olmamışdı. Ölkədə uzun illər boyu üst-üstə yığılmış problemləri həll etməyə gücləri və səriştələri kifayət etməsə də, onlar situasiyanı xilas etmək istəyirdilər.

1985-1991-ci illəri əhatə edən ikinci mərhələ xilas missiyası arxa plana keçir. Ölkədə uzun illər boyu kök salmış neqativ tendensiyalar gələcək iflas üçün zəmin hazırlamaqla yanaşı bu iflasda maraqlı olan qüvvələri də formalaşdırmışdı. Bu qüvvələr Sovet dövlətinin onlar üçün yaratmış olduğu məhdudiyyətləri aradan qaldırmaq üçün düşmənlə də əməkdaşlıq etməyə hazır idilər. Günü-gündən onların sırası genişlənirdi. Sosializm sisteminin iflasının tərəfdarları böyük imkanlar əldə edir, dövlət və partiya orqanlarına nüfuz edir, vacib mövqeləri ələ keçirirdilər. Ən qorxulusu isə o idi ki, əhali içərisində pozuculuq işi aparır, sosializm dəyərlərinin gözdən salır, insanlarda bu pozucu fəaliyyətə biganəlik hissi təlqin edirdilər. Onların bu pozuculuq fəaliyyətinə isə Sovet dövlətinin və partiyanın nəzəriyyəsində və praktik fəaliyyətində malik olduqları neqativ amillər münbit şərait yaradırdı.(2; 3;4;5;)

İqtisadi həyatda bu amil ictimai mülkiyyət adı altında dövlətin əlində mərkəzləşdirilmiş mülkiyyətin və həyati resursların idarə edilməsində yol verilən talanlar, bürokratik əngəllər, korrupsiya və rüşvətxorluq, millətlərin iqtisadi inkişafına münasibətdə ayrı-seçkilik, nəhayət, iqtisadiyyatın təbii inkişaf qanunlarının pozularaq süni şəkildə subyektiv və avantürist planlar qurmaqda özünü büruzə verirdi. Bir birini inkar edən ziddiyyətli qərarların verilməsi, xaos üçün şərait yaradan addımların atılması ölkənin sosial-iqtisadi, siyasi-mənəvi əsasını zəiflədirdi.

Milli münasibətlər sistemində iflasın əsasında duran amillər isə daha mürəkkəb idi. Sovet dövlətinin bütün mövcud olduğu dövrdə milli respublikalara münasibətdə yeritdiyi real xəttin cəmiyyətin nəzəri əsaslarına uyğun gəlməməsi, ayrı-ayrı xalqlara və millətlərə bütün məsələlərdə neqativ mənada fərq qoyulması, ideoloji bəyanatlarda bayraq edilən norma və prinsiplərin ziddinə olaraq millətlərin maraqlarının arxa planda olması, milli kadrların partiya və dövlət vəzifələrində, idarəçilik orqanlarında təmsilçiliyində olan yarıtmaz praktika, iqtisadi inkişafda milli respublikalara əyalət düşüncəsi lə yanaşılması, milli respublikalara müxtəlif məsələlərdə

fərqlərin qoyulması, bu sahədə yaranan neqativ tendensiyanın və münaqişə zemininin saxlanmasına xidmət edirdi. Digər tərəfdən isə sürətləndirilmiş templərlə birtipli əhali kütləsi formalaşdırılması istiqamətində aparılan xətt, dövlətin üzərində dayandığı norma və prinsiplərin ziddinə olaraq, yazılmamış qanunlar əsasında idarəetmələr, artıq Sovet hakimiyyətinin yeddinci onilliyyində heç kim üçün sirr deyildi. Sovet dövlətinə qarşı duran xarici və daxili qüvvələr də milli məsələdə bu reallıqdan istifadə edirdilər.

"Yenidənqurma" dövründə milli məsələdə atılan hər bir addım, qəbul olunan hər bir qərar obyektiv olaraq narazılıqların yaranmasına, milli-etnik zəmində qarşıdurmalara gətirib çıxarırdı. Yenidənqurma platformasının məqsədləri haqqında, qeyd olunduğu kimi, birmənalı fikir yoxdur. Lakin onun Sovet dövlətində və sosializm dünyasında köhnə ictimai-iqtisadi və siyasi-ideoloji iflasına nail olmaq kimi məqsədinin olmasına dəlalət edən kifayət qədər faktlar mövcuddur. Bu faktlar xeyli sayda tədqiqatçıların bu siyasətin həmin məqsədə xidmət göstərməsi qənaətinə gəlməsinin əsasında dayanır. Milli münasibətlərə aidiyyəti və təsiri olan məsələlərin qabardılması, münaqişə yarada bilən faktların ortaya atılması, münaqişəyə sövq edən qərarların qəbul edilməsi və addımların atılması, zənnimizcə, təsadüfi deyildi və konkret hədəflərə yönəlmişdi, ilk baxışda təsadüfi olması təsirini bağışlasa da, son dərəcə dəqiqliklə, məqsədyönlü şəkildə həyata keçirilir və lazımi effektə nail olunurdu.

Milli sovet sosialist respublikalarının maraqları nöqteyi nəzərdən imperiyaların dağılması faktına yanaşdıqda, qeyd etmək lazımdır ki, xalqların öz müstəqilliklərinə qovuşması nöqteyi nəzərindən haqqında danışılan proses mütərəqqi xarakter daşıyırdı. Eyni zamanda inkişaf prosesində xalqların bir-birinə yaxınlaşması, qloballaşma prosesi nəticəsində vahid ictimai-iqtisadi, siyasi və mənəvi məkanın təşəkkülü, ümumi hüquqi normaların bütün dünyanı əhatə etməsi müsbət bir hadisədir. Lakin praktikada bu prosesin müsbət cəhətləri ilə yanaşı kifayət qədər bəlalı və neqativ nəticələr verməsi də reallıqdır. Qlobal proseslər ümumi maraqlara müəyyən qədər müsbət təsir etsə də, ayrı-ayrı dövlətlərin subyektiv siyasəti, hegemonluq uğrunda gedən mübarizədə heç də həmişə kiçik xalqların və onların dövlətlərinin maraqlarını nəinki nəzərə almır, hətta kobud şəkildə taptalayır. Tarix sübut etdi ki, SSRİ dövlətinin yaranması, bu ideya altında çoxsaylı xalq və millətlərin vahid məkanda birləşdirilməsi zamanı da millətlərin üzləşdiyi neqativ tendensiyalar ümumi qanunauyğunluqdan kənarda qalmır. Buna görə də bütün cəhətlərinə baxmayaraq, xalqların öz dövlətlərinin yaradılmasına gətirib çıxaran proses müsbət xarakter daşıyırdı.

Lakin SSRİ-nin çoxmillətli bir dövlət olaraq dağılması sivil qaydada deyil, xüsusən milli respublikalar üçün fəlakətli bir formada baş verirdi. Uzun illər ideoloği pərdə rolunu oynamış internasionalizm, xalqlar dostluğu ideyalarından imtina edilməsi birbaşa onları qarşı-qarşıya qoydu. İmperiya ambisiyaları ilə çıxış edən Sovet dövləti ideoloği buxovlarından imtina etdikdən sonra imperiyanı köhnə sərhədlərində saxlamaq üçün Sovet tarixi boyunca qorunub saxlanmış vasitələri istifadə etdilər. "Yenidənqurma" dövründə milli məsələyə toxunan bütün məqamlarda atılan hər bir addım, qəbul edilən hər bir qərar bu zəmində münaqişələrin alovlanmasına gətirib çıxardı.

Milli zəmində münaqişələrin aşkar şəkildə üzə çıxması 1986-cı ilin dekabrında Qazaxıstan SSR-in rəhbərliyində milli heysiyyata toxunan dəyişikliklə başlandı. Qeyd etmək lazımdır ki, Qazax D.Kunayevin respublika rəhbərliyində rus G.Kolbinlə əvəz edilməsi adi bir kadr dəyişikliyi deyildi. Görünür bu münaqişənin alovlanması üçün digər amillər yetişmişdi və kadr dəyişikliyi hadisələrin başlaması üçün təkan rolunu oynadı. Doğrudanmı bu kadr dəyişikliyi



elə bir alt məqsədlər güdmürdü və düzəldilə bilən adi bir səhv idi? Bu məsələyə tədqiqatçılar arasında birmənalı fikir yoxdur. Faktlar isə tamamilə bu hadisə barəsində pozitiv fikir deməyə əsas vermir. Bir-birinin ardınca milli münasibətlər sahəsində partiya və dövlət orqanlarının "səhvlər" buraxması, zənnimizcə, təsadüfi deyildi. Buna görə də milli məsələdə mövcud faktların ardıcıl və kompleks şəkildə araşdırılmasına ehtiyac vardır.

Həmin illərdə eyni ssenari ilə SSRİ-nin ən müxtəlif yerlərində milli zəmində münaqişə ocaqlarının alovlandırılması heç təsadüfə bənzəmir. Yuxarıda vurğulandığı kimi, milli münasibətlər məsələsində milli kadrlar probleminin qabardılması, Baltikyanı dövlətlərdə onların əleyhinə yonəlmiş "Molotov-Ribbentrop paktının" ifşası, qonşu respublikalar arasında mübahisəli ərazilər məsələsinin aktuallaşdırılması və bu kimi digər məsələlər Sovet məkanını bürüyən münaqişələrin yaradılması və genişlənməsinə təkan verirdi. Qaldırılmış bu problemlər postsovet məkanında bu günə qədər davam edən münaqişələrin əsasında dayanır.

Milli məsələnin kəskinləşməsinə təkan verən mühüm problemlərdən biri də SSRİ-nin yeniləndirilməsi üçün ittifaq müqaviləsinin hazırlanmasına və imzalanmasına edilən cəhd olmuşdur. Faktları araşdırarkən belə bir reallığı müşahidə etməmək mümkün deyildir ki, bu cəhd SSRİ-ni yeniləşdirmək, ona yeni nəfəs verməkdən daha çox onun dağılmasını sürətləndirməyə hədəflənmişdi. Çünki bu məsələnin qoyulmasında və müzakirəsində onu nizama salmaqdan daha çox narazılıqları qızışdırmaq, məsələnin həllini düyünə salmaq istiqamətində ideyalar irəli sürülür, qarşıdurmalar qızışdırılırdı. Vahid ideologiyanın, sosialist dəyərlər sisteminin iflasa uğradılması, ölkənin hər yerində milli zəmində münaqişələrin alovlandığı şəraitdə yeni ittifaq müqaviləsi məsələsinin ortaya qoyulması münaqişəni qızışdırmaqdan başqa heç nə verə bilməzdi. Partiya və dövlət orqanları, xüsusən M.Qorbaçovun rəhbərlik etdiyi hakimiyyət komandası milli məsələdə problemlərin artmasını xalqların milli şüurunun ayılması, milli özünüdərk prosesinin güclənməsi ilə izah edir, bununla məsuliyyətdən qaçmağa çalışırdılar.

Əslində, milli məsələnin bəyan olunduğu prinsiplərə uyğun gəlməməsi ittifaq dövlətinin yaradılması və milli dövlət quruculuğunun nəzəri təməlində aşkar şəkildə müşahidə olunurdu. Elə həmin dövrdə xalqların milli dövlətçiliyinin təmin edilməsi, onların dövlət quruluşunun müxtəlif formaları ilə təmin edilməsi formal xarakter daşıyırdı. SSRİ yaradılan zaman İ.Stalinin təklif etdiyi "Muxtariyyətləşdirmə" planı bolşevik hakimiyyətinin istəklərini daha düzgün əks etdirirdi. Əslində SSRİ-nin federativ deyil, unitar dövlət olması nəzərdə tutulur, ittifaqa daxil olan respublikalar isə muxtar

hüququnda RSFSR tərkibinə daxil olmalı idi. V.Lenin İ.Stalinin bu təklifini tənqid etmişdi, bu məsələdə ondan fərqli ittifaq yaratmaq planını təklif etmişdi ki, o da tətbiq edilmişdi. Lakin Sovet dövlətinin tarixi sübut etdi ki, bu iki bolşevik liderin planları bir birindən formal cəhətddən fərqlənsə də, mahiyyətcə eyni xarakter daşıyırdı və eyni nəticəyə gətirib çıxarırdı. V.Leninin layihəsində həqiqi reallıq daha ustalıqla ört-basdır edilirdi. Mahiyyət isə dəyişilməmiş qalırdı. Belə əsaslarla ittifaq dövlətinin yaradılması özündə istənilən məqamda milli narazılıq əsasında başlaya biləcək münaqişə üçün potensial təhlükə saxlayırdı. (11; 12, s. 192-193)

1970-80-ci illərdə elmi və siyasi dairələrdə ilk baxışdan haqlı görünən bir ideya cəmiyyətə yeridilməyə başlayır: guya SSRİ-də haqqı tapdalanan birinci növbədə ruslar və Rusiya olmuşdur. Bunu da onunla əsaslandırırdılar ki, Rusiya başqa milli respublikalardan və qeyri-rus millətlərindən fərqli olaraq öz kommunist partiyalarına, real hakimiyyətə malik hökumətinə malik deyildir, bu respublikanın maraqları başqa milli respublikaların maraqlarından fərqli olaraq ümumittifaq maraqlarının kölgəsində qalır. Buna görə də onların problemlərinin həlli arxa plana keçir və tez-tez unudularaq həll olunmamış qalır.

Əslində isə bu fikir real vəziyyəti dolaşdırmaq, insanların diqqətini əsas problemlərdən və həyata keçirilən siyasətin əsl mahiyyətindən yayındırmağa xidmət edirdi. Rusiyanın özünün məxsusi kommunist partiyasının olmaması heç də onların hüquqlarının tapdanması deyil, başqa bir reallıqdan xəbər verirdi. Reallıqda, SSRİ hökuməti, Sov.İKP MK rusiyaya məxsus hakimiyyət strukturları olmaqla müttəfiq respublikalardan yüksəkdə dayanırdı və onları idarə edirdi. Belə bir anlamda sırf Rusiyaya məxsus dövlət və partiya strukturlarının yaradılması isə nəinki Rusiyanın hüquqlarını təmin etmiş olardı, əksinə Rusiyanı başqa respublikalarla eyni səviyyəyə qoymaqla onun hegemon mövqeyinə zərbə vurmuş olardı. Buna görə də bu hüquqların bu şəkildə qabardılması tamamilə başqa məqsədlərə xidmət edirdi.

Mühüm partiya və dövlət sənədlərində SSRİ-də milli məsələnin həll edilməsi haqqında müddəalar təkrar-təkrar yekun tezisi kimi qəbul edilsə də, süqut ərəfəsində baş verən hadisələr bunun tam tərsini sübuta yetirirdi. Kommunist ideologiyasından, onun dəyərlər sistemindən imtina isə milli məsələdə problemləri tam çılpaqlığı ilə göstərdi və bu sahədə münaqişələrin başlaması və dərinləşməsi üçün siqnal rolunu oynadı. Həmin addımların, qəbul edilən qərarların bütöv şəkildə nəzərdən keçilməsi bu həqiqəti əyani şəkildə nümayiş etdirirdi. İctimai-iqtisadi, sosial-siyasi böhranın dərinləşməsi şəraitində müxtəlif milli dövlət qurumlarının fərqli səviyyəsinin, milli dövlət qurumuna malik olmaq şərtlərinin müzakirə obyektinə çevrilməsi, yeni ittifaq müqaviləsinin bağlanması ideyasının ortaya atılaraq bu istiqamətdə danışıqların aparılması ictimai həyatın bütün sahələrində günbəgün dərinləşən böhran şəraitində quruculuğa deyil münaqişələrin qızışdırılmasına xidmət edirdi. Hətta İttifaqın qalıb-qalmaması barədə ümumxalq səsvermısinin keçirilməsi, ittifaq müqaviləsinin mübahisəli variantlarının müzakirəsi bu ittifaqın saxlanmasına deyil, dağıdılmasına xidmət edirdi. (4, s.278). 1991-ci ilin avqustunda SSRİ-nin dağılmasının qarşısını almaq cəhdi kimi qələmə verilən "Avqust qiyamı" oyunu da milli məsələ sahəsində həyata keçirilən oyunbazlığın son nöqtəsi oldu. (5, s.248; 6)

SSRİ-nin dağılmasl Sovet dövlətinin mövcud olduğu dövrdə həyata keçirdiyi ikiüzlü siyasətə son qoydu. SSRİ-nin və dünya sosializm sisteminin iflasının səbəbləri çoxdur. Milli məsələdə yeridilən ayrıseçkilik siyasəti onlardan biridir. İflasın səbəbləri bu dövlətdə və sosializm dünyasında ictimai həyatın bütün sahələrində kök salmış dərin problemlərin nəticəsi idi. Onun qarşısını almaq olardımı, bu iflası törədən səbəblərin aradan qaldırılmasının mümkünlüyü məsələsi daha geniş tədqiqatların mövzusudur. Sovet dövlətinin yeritdiyi milli siyasətin ziddiyyətləri, çatışmazlıqları, səhvləri, qərəzli məqamları vaxtaşırı neqativ nəticələrini göstərirdi. Sosializm nəzəriyyəsinə sadiq olan dövlətdə milli münasibətlər sistemində belə problemlər olmamalı idi, əks haldı bu yarımçıq internasionallığın, xalqlar dostluğunun axırı yox idi və tarixi inkişaf da son nəticədə bunu əyani şəkildə sübut etdi. Haqqında danışılan dövrün milli siyasətində pis cəhət ondan ibarət idi ki, xalqların uzun illər boyu əldə etdiyi yaxınlaşmanın, mehriban qonşuluq münasibətinin üstündən xətt çəkildi, xalqlar, millətlər üz-üzə qoyuldu. Xalqların mənafeyi, onların halal haqları dağıdıcı qüvvələrin maraqlarına qurban verildi.

M.Qorbaçovun rəhbərlik etdiyi komandanın bütün sahələrdə yeritdiyi siyasət ölkəni dağıtmağa, onun sərvətlərini talan etməyə xidmət edirdi. Belə bir vaxtda onlar ilk növbədə dövlətin yükünü öz çiynində apara bilən köhnə partiya və dövlət komandasının axırına çıxdılar. Onların əqidəsinə və məqsədlərinə uyğun gəlməyən şəxsləri hakimiyyətdən uzaqlaşdırdılar. Onlardan biri də o vaxt mühüm partiya və dövlət vəzifəsi daşıyan – Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini Heydər Əliyev idi. 1985-ci ildə Sov.İKP MK-nın baş katibi vəzifəsini keçən gündən dövlətin əvəzolunmaz güclü kadrlarını hakimiyyətdən uzaqlaşdırmaq üçün ən müxtəlif vasitələrdən istifadə edən M.Qorbaçov 1987-ci ilin Noyabr Plenumunda Heydər Əliyevin istefasına nail oldu. Çünki Heydər Əliyev kimi şəxslərin iş başında olduğu şəraitdə o, öz qaranlıq işlərini görə bilmirdi. Hakimiyyətdən uzaqlaşdırılandan sonra Heydər Əliyevə qarşı aparılan böhtan kampaniyası da həmin məqsədə xidmət edirdi. Bu yolla onu susmağa, cəmiyyətdən təcrid etməyə çalışırdılar.

Belə bir şəraitdə milli münaqişələrin məqsədyönlü şəkildə qaldırılması və "idarə edilməsində" şübhə yeri qalmır. Milli məsələlərdə bu vaxta qədər gizlədilən faktların və məsələlərin qaldırılması, əvvəllər qəbul edilmiş norma və standartların şübhə altına alınması milli məsələdə qızışdırıcılıq işinə xidmət edirdi. Bu təhriklərin ən dəhşətlisi üsə xüsusi qüvvələrin vasitəsi ilə bu və ya digər yerlərdə milli qırğınların törədilməsi və onun milli məcraya yönəldilməsi oldu. Sumqayıtda, Bakıda, Fərqanədə, Gürcüstanda və sairə yerlərdə təşkil edilən milli qırğınların bir məqsədi var idi.

Diqqəti 1990-cı ilin martında SSRİ-nin saxlanması bəhanəsi ilə keçirilən referendumun qoyduğu məsələlərə diqqəti yönəltmək istərdik. Orada qoyulan suallar vahid dövləti saxlamaqdan daha çox narazılıqları artıran məsələlərə yönəldir, kütlələrin gözündə gedən dağıdıcılıq prosesinə mənəvi don geyindirdilər. Referendumun bülletenində suallar belə qoyulmuşdu:

1. Bərabərhüquqlu suveren respublikaların isnənilən millətdən olan insanının hüquq və azadlıqlarını tam həcmdə təmin edəcək yeniləşmiş federasiyası kimi SSRİ-nin saxlanmasını zəruri hesab edirsinizmi? (HƏ/YOX)

2. SSRİ-nin vahid dövlət kimi saxlanmasını zəruri hesab edirsinizmi? (HƏ/YOX)

3. SSRİ-də sosializm quruluşunu saxlamağı zəruri hesab edirsinizmi? (HƏ/YOX)

4. Yenilənmiş İttifaqda Sovet hakimiyyətinin saxlanmasını zəruri hesab edirsinizmi? (HƏ/YOX)

5. Yenilənmiş ittifaqda istənilən millətdən olan insanın hüquq və azadlıqlarına zəmanət verilməsini zəruri hesab edirsinizmi?(HƏ/YOX)" (5, s. 247-248; 13)

Sualların qoyuluşundan göründüyü kimi burada dağıdıcılıq

ruhu üstünlük təşkil edir. Əsas problem ondadır ki, bu böyüklükdə dövləti dağıtmağa hədəflənən qüvvələrin məqsədi mövcud şəraitdə ədalətli nəticəyə nail olmaq, hər kəsin halal hüquqlarını təmin etmək deyil, özlərinin məkrli məqsədlərinə çatmaq olmuşdur. SSRİ-nin çatışmayan cəhətləri və həll olunmalı problemi çox idi. Lakin "yenidənqurma" siyasəti onların aradan qaldırılmasına deyil, xalqları uçuruma, qarşıdurmaya, fəlakətlərə, əvəzsiz itkilərə aparırdı. Xüsusən "Novooqaryovcki prosesi" adı ilə məşhur olan yeni ittifaq müqaviləsinin hazırlanması və imzalanmaq üçün müzakirələrin keçirilməsi onun nəyə hədəfləndiyini özündə əks etdirir. (7; 8, s. 39; 9, s.181; 10) Onun törətdiyi fəlakətli proseslər indi də davam edir və hələ də sonu görünmür. Buna görə də çoxlu eybəcərliklərə, çatışmazlıqlara, əyintilərə, yarımçıqlıqlara malik Sovet dövlətini "yenidənqurma" siyasətinin yaratdığı reallıqla müqayisə etmək, hansının düz, hansının əyri olduğunu, hansının yaxşı, hansının pis olduğunu demək düzgün deyil. "Yenidənqurma" siyasəti SSRİ-nin dərin böhran yaşayan varlığının süqutunda son zərbə rolunu oynadı. Lakin ondan sonra gələn reallıq onun xidməti deyildi. Sadəcə olaraq xalqlar yeni reallıqla, münaqişələrlə, yaşamaq uğrunda mübarizə ilə üz-üzə qaldı və hər bir xalq bu bataqlıqdan öz qabiliyyəti, öz imkanları, öz səviyyəsi, öz mənəvi dəyərləri ilə çıxaraq inkişaf edir.

## ƏDƏBİYYAT


*1. 24-й съезд КПСС (30 марта — 9 апреля 1971 года): Стенографический отчет. М.: Госполитиздат, 1971. Том 2. С. 232*

*2. Островский А.В.. Глупость или измена? Расследование гибели СССР М., 2011*

*3. Крючков В. А. На краю пропасти. М., 2003.*

*4. Союз можно было сохранить: Документы и факты о политике М. С. Горбачёва по реформированию и сохранению многонационального государства. М., 2007.*

*5. Станкевич З.А. История крушения СССР: Политико-правовые аспекты. М., 2001.*

*6. Лукьянов.А. Это была отчаянная попытка спасти Союз (рус.) // Независимая газета. — 2010. — 5 мая.*

*7. Горбачёв М. С. Жизнь и реформы: (В 2 кн.). М., 1995. Кн. 2.*

*8. Ельцин Б. Н. Записки президента. М., 1994.;*

*9. Медведев В. А. В команде Горбачева: взгляд изнутри. М., 1994.*

*10. Постановление Верховного Совета СССР от 22 мая 1991 года № 2187-I «О проекте Союзного Договора»)*

*11. Ленин В. И., К вопросу о национальностях или об «автономизации»..Полн. собр. соч., 5 изд., т. 45;*

*12. Проект резолюции о взаимоотношениях РСФСР с независимыми республиками. 11 августа 1922 г. Известия ЦК КПСС. 1989. № 9.*

*13. Постановление СНД СССР от 24 декабря 1990 года № 1853-1 «О сохранении Союза ССР как обновлённой федерации равноправных суверенных республик» // Ведомости СНД и ВС СССР. — 1990. — № 52. — ст. 1158.*



**Açar sözlər:** *SSRİ-nin iflası; M.Qorbaçovun "yenidənqurma" siyasəti; müstəqil dövlətlərin yaranması; milli siyasət; etnik münaqişələr*

**Ключевые слова:** *Распад СССР; политика «перестройки» М.Горбачева; Обретение незавмсимости; национальная политика, этнические конфликты*

**Keywords:** *disintegration of the USSR; the "perestroika" policy of M. Gorbachev; gaining independence; national politics, ethnic conflicts*



**РЕЗЮМЕ**

**Ибрагим Алиев**

**Национальный вопрос в СССР накануне его распада**

В статье рассматриваются проблемы национальных отношения в СССР накануне его распада. Последовательно прослеживаются процесс возникновение и углубления противоречий в национальной политике партии и государства, анализируются причины возникших конфликтов на национальной почве. Отмечаются, что в Советском Союзе национальный вопрос всегда имел большое значение. Однако проводимая национальная политика в этой стране не совсем соответствовала теоретическим основам, декларированной партией и государством. Поэтому всегда оставалось место для возникновения проблем в этой сфере.

Обострение ситуации во всех сферах общественной жизни СССР накануне распада создало благоприятную почву национальной розни и этнических конфликтов. Каждое принятое решение, предпринятый шаг руководством страны в период «перестройки» не только не предотвратил катастрофу в этой сфере, но и усугубило стуации и сблизило крах союзного государства. Несмотря на то, что распад СССР способствовал обретению союзными республиками государственной независимости, эта им обошлось дорогой ценой. Были разграблены богатства страны, сведены на нет достижения, добытые тяжелым трудом людей, по всей стране возникли многочисленные очаги кровавых конфликтов на этнической почве, которые продолжаются по сей день



**SUMMARY**

**İbrahim Aliyev**

**The national question in the USSR on the eve of its collapse**

The article deals with the problems of national (ethnic) relations in the USSR on the eve of its collapse. The process of the emergence and deepening of contradictions in the national policy of the party and the state is consistently traced, and the causes of conflicts that have arisen on ethnic grounds are analyzed. It is noted that in the Soviet Union the ethnic question has always been of great importance. However, the national policy pursued in this country did not quite correspond to the theoretical foundations declared by the party and the state. Therefore, there was always a place for problems in this area.

The aggravation of the situation in all spheres of the public life of the USSR on the eve of the collapse created favorable conditions for national discord and ethnic conflicts. Each decision taken by the country's leadership during the "perestroika" period not only did not prevent a catastrophe in this area, but also aggravated the positions and brought together the collapse of the union state. Despite the fact that the collapse of the USSR contributed to the independence of the republics of state independence, this cost them dearly. The wealth of the country was plundered, the achievements were brought to naught, the hard work of people gained throughout the country, numerous centers of bloody ethnic conflicts arose that continue to this day

# İncəsənət



İSMAYIL QASIMOV
Redaktor müavini

## XALQ RƏSSAMININ MİSSİYASI



***Tanış olaq :***
*YUNESKO Rəssamlar Federasiyasının, Rusiya Rəssamlıq Akademiyasının, Almaniya Rəssamlar Assosiasiyasının üzvü, "Dünya səfiri" beynəlxalq diplomun sahibi, Almaniyada yaşayan Azərbaycanın Xalq rəssamı Əşrəf Heybətov.*

Onun peşəkar karyerası Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun köhnə binasında başlayıb. Əşrəf müəllim 1981-ci ildə orada təhsil alan Prezident İlham Əliyevin dəstəyi ilə rəsm əsərlərinin ilk sərgisinin keçirilməsini məmnunluq hissi ilə xatırlayır. MDBMİ-nun rəhbərliyindən alınan mükafat onun üçün çox əziz və qiymətlidir. O vaxtlar azərbaycanlı rəssamın dünya şöhrətli universitetə təqdim etdiyi bir neçə əsəri hələ də onun qalereyasında nümayiş etdirilir. Bu ilin mart ayında məşhur Moskva Universitetinin rektoru Anatoliy Torkunov "35 il sonra MDBMİ-da" adı altında yenidən onun əsərlərinin sərgisinini təşkil etmişdi. O, sərgi zamanı universitetin arxivindən Aleksandr Zuyev tərəfindən imzalanmış ilk mükafatın nüsxəsini aşkarlayır. Bu yaxınlarda rəssam MDBMİ-nin rektoru A.Torkunovdan Azərbaycan ilə Rusiya arasında mədəni əlaqələrin möhkəmləndirilməsi uğrunda ikinci dəfə keçirilən rəsm sərgisi üçün daha bir təşəkkür diploma almışdır. O, yeganə rəssamdır ki, tarixi qoruq sayılan Bakının Qala kəndində yerləşən muzeydə rəsm sərgisi keçirilib. Rəssam bununla çox fəxr edir, cünki onun babası Əliəşrəf orada məktəb və məscid tikdirmişdir.

**YARADICILIQ**

Rəssam uzun illər Azərbaycandan kənarda yaşamasına baxmayaraq, vətəninin parlaq rənglərini, Abşeron günəşinin özünəməxsus parlaqlığını, öz doğma Azərbaycanının tarixi və milli ənənələrini əsərlərində böyük ustalıqla əks etdirmişdir. Yüksək peşəkarlıq, humanist dünyagörüşü, tükənməz enerji və həyat optimizminin ən yüksək dərəcəsi - bu xüsusiyyətlər həm bir çox ölkələrdə tanınmış rəssamı, həm də Bakı sakinini, Azərbaycan rəssamının ən yaxşı xüsusiyyətlərini və yaradıcı mahiyyətini özündə qoruyub saxlayan Əşrəf Heybətovu xarakterizə edir. Onun rəsmlərinə baxarkən rəssamın doğma torpaqların hüdudlarından kənarda yaşadığına inanmaq çətindir. Azərbaycan rəssamın istifadə etdiyi bütün rənglərdə ustalıqla işlədiyi ən incə detallarda duyulur, sanki əsərdə yaratdığı əlvanlıq, canlılıq, parlaqlıq nəğmələrlə səsləşir. Onun monumental panelləri izləyiciyə müsbət impuls, güc və yaşamaq arzusu verir. Almaniyada yaşayıb belə isti, işıqlı əsərlər yaratmaq hec də asan deyil. Buna görə də Əşrəf müəllimin yaradıcılığını "Azərbaycanın rəngləri simfoniyası!" da adlandırmaq olar.

Azərbaycan Demokratik Respublikasının (ADR) yüzillik yubileyi ərəfəsində, Əşrəf Heybətovun Azərbaycan Müdafiə Nazirliyinin Hərbi Tarixi Muzeyində 28 əsərdən ibarət rəsm sərgisi keçirildi.

Almaniyaya qayıtmaq ərəfəsində, Əşrəf Heybətov Azərbaycan Respublikasının Xalq Rəssamı fəxri adına layiq görüldü.

Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradovun qərarına əsasən, Ə.Heybətovun Almaniyaya həsr olunmuş 100-ə yaxın ağ – qara qrafika əsərləri çap olunub. Bu əsərlər yeni sənət




*Boş söhbət*



*Sivilizasiyaların dialoqu*

albomuna daxil olunacaq. Giriş sözünü F.Muradovun yazdığı albom təqdimatı Komitənin Böyük zalında keçiriləcək. Alman tərəfindən isə Əşrəf müəllimin yaşadığı Koblenz şəhərinin burgomistri Şultz Vasserman çıxış edəcək. Əşrəf Heybətovun Şultz Vassermanla dostluq münasibətlərini və Vassermanın rəssamlığa olan sevgisini mütləq qeyd etmək lazımdır.

Hər il Bakıya gələn Əşrəf müəllim Azərbaycanın bölgələrində görüşlər keçirir - Xızı, İsmayıllı, Şəki və başqa rayonlarda ustad dərsləri verir.

### ÖYRƏNMƏK İSTƏYİ VƏ SƏYAHƏTLƏR

Rəssamın ruhu həmişə yenilik görməyə can atır, onun təsəvvürləri sərhəd tanımır və buna görə də daim dünyanın müxtəlif ölkələrinə və Almaniyanın şəhərlərinə səyahət edir. Bu yay ərzində Almaniyanın şimalında yerləşən yeddi kiçik adaya səyahət edib. Sonda Baltrum adasında dayanır. Bu adada hərəkət üçün nəqliyyat vasitələri və avtomobillərdən deyil, at və velosipedlərdən istifadə edirlər. Almanlar bu adaları gözəl təbiət təsvirləri, sərin Baltik dənizi və sırf romantik Alman arxitekturası ilə təmtəraqlı təmiz və sağlam ərazilərə çeviriblər. Əlbəttə ki, təbiətin gözəlliyi və ətrafdakı tikililər sənətkarda çoxsaylı əsərlər yaratma hissini oyatmaya bilməzdi. Rəssamın yaradıcılığı və səyahətləri barədə danışarkən, qeyd etmək lazımdır ki, əgər onun yaratdığı rəsm əsərləri xronoloji yerləşdirilsə, bu əsərlərə baxmaqla rəssamın səyahətlərini və ayağı dəyən bütün şəhərlərin coğrafiyasını görmək olar.

Rəsmlərə baxdıqca rəssamın dünyagörüşünün genişliyi və yaradıcı maraqlarını duymaq olur. Onun mövzu dairəsinin belə geniş olmağı birbaşa gəzib gördüyü şəhər və kəndlərin təbiətindən, tarixi yerlərdən, həmin yerlərin insanlarından, onların düşüncələrindən qaynaqlanır. Buna əsasən, sənətkarların istirahət üçün yaradılmadığını söyləyə bilərik, çünki yaradıcı düşüncə bir dəqiqə dayanmır. Fərqli ölkələrə səyahət edən Əşrəf Heybətov, hər bir ölkənin mədəniyyətini daha yaxından öyrənmək və öz Vətəni ilə ortaq təmas nöqtələrini tapmağa çalışır. O, Maltaya səhayəti zamanı bu adanın Abşeronla necə oxşar olduğundan təəcüblənmiş və ... Malta silsiləli əsərlərini yaratmışdı.

Onun böyüyüb boya-başa çatdığı İçərişəhər, Abşeron və dəniz mövzusu Əşrəf müəllimin yaradıcılığının əsasını təşkil edir. Əsərlərin bir çoxu sərgilərin keçirildiyi ölkələrə - İordaniya, İsrail, Hindistan, Mərakeş, İran, Misir, Avropa dövlətlərinə həsr olunub. Əsərlər xüsusi mövzularda, məsələn, “Ezoterika”, “Şamanizm”, “Muğam”, “Çiçəklər”, rus peyzajı, tənhalıq mövzularında təsnif edilir. Portret seriyasından olan əsərlərə isə Azərbaycanın Birinci xanımı Mehriban Əliyevaya, əfsanəvi general Kərim Kərimova həsr olunanları göstərmək olar. Elə mövzular vardır ki, rəssam onları işləyərkən bundan çox böyük zövq alır. Böyük panellər və monumental əsərlər rəssama düşüncələrini və yüksək fikirlərini ifadə etmək imkanı verir. Musiqidə ritm olduğu kimi rəsmlərdə də ritm var. Bu, bəlkə də sənətkarın çalışarkən xalq mahnıları, muğamlar və E. Mansurovun mahnılarını dinləməsinin nəticəsidir. Əşrəf müəllim haqqında filmlər çəkilmişdir. Bu filmlərdə onun sevdiyi bəstəkarın, Eldar Mansurovun musiqiləri səslənmişdir. Amma onun ən sevdiyi musiqini soruşduqda gülümsəyərək, - Dövlət Himnimiz deyir.

Ağ-qara şəkillərdən ibarət olan “Şərq dünyası” adlı albom görkəmli şərqşünas-alim Aida İmanquliyevaya həsr olunmuşdur. Rəssam milli sənətin inkişafı üçün xaricdə AR Mədəniyyət Nazirliyinin təşkil etdiyi sərgilərin fəal iştirakçısıdır.

### FIRÇA ƏVƏZİ QƏLƏM

Son bir neçə il ərzində Əşrəf Heybətov on üç fəsildən ibarət olan “Zaman və hadisə” adlı xatirə kitabını yazır. Məsələn, onlardan biri “Sevimli və məşhur” adlanır və Azərbaycanın görkəmli mədəniyyət və incəsənət xadimlərinə həsr olunub. Onlarla görüşləri rəssam həyatının uğuru kimi qiymətləndirir.



*Xocalı faciəsi*

Rəssam, ölkəsinin məşhur və dünya mədəniyyəti tarixinə öz adlarını yazdıqları çoxlu sayda qeyri-adi şəxsiyyətləri və əfsanəvi insanları haqqında qürurla və sevincini gizlətmədən danışır...

Sərgilərindən bəhs edən Əşraf müəllim, 1994-cü ildə Ankarada Rusiyanın Türkiyədəki səfiri A. Çernişov tərəfindən açılan sərgini xüsusi xatırlayır və tədbirin tərcüməçisinin Rusiya prezidentinin hazırkı mətbuat katibi D.Peskovun olduğunu qeyd edir.

### MEHRİBANÇILIQ VƏ XEYRİYYƏÇİLİK

Əşrəf Heybətov bir çox Beynəlxalq və Azərbaycan Cəmiyyətlərinin diplom və fəxri fərmanlarına layiq görülmüşdür. Onun beynəlxalq təşkilatlarda, yüksək vəzifəli şəxslərin iqamətgahlarında, BMT, AŞ, NATO və digər strukturlarda təkrarsız rəsm sərgiləri keçirilmişdir. Bildiyimiz kimi sənətdə abstraksionizm, konseptualizm, kubizm, akademlilik, realizm kimi terminlər mövcud olsa da, Əşrəf Heybətov sonuncu əsərlərində Azərbaycanın landşaftlarını real olaraq göstərməyə çalışır. Yəni sənətkar öz yaradıcılığının mahiyyətini, üstünlüyünü göstərməyə və özünü aldatmağa çalışmır. Ona Vətəni ilə bağlı - təbiəti, milli adət-ənənələri ilə əlaqəli hər şey maraqlıdır. Şübhəsiz ki, rəssamın əməyi sözlərlə təsvir edilə bilməz, rəssamın sənətə olan məsuliyyəti ona rahatlıq vermir və əldə etdikləri razılıq hissi oyatmır.

Əşrəf müəllim elə şəxsiyyətlərdəndir ki, əsərlərini düşünmədən, təmənnasız hədiyyə edir. Azərbaycan İstiqlal Muzeyində onun təqdim etdiyi şəkillər saxlanılır. Onun əsərlərindən aydın başa düşmək olar ki, o, öz vətənini və xalqını necə sevir, onun keçmişini, buqününü və parlaq gələcəyini çəkdiyi şəkillərdə necə vəsf edir. Tanınmış beynəlxalq təşkilatlarda, akademiyalarda, universitetlərdə keçirilən çoxsaylı sərgiləri digər qalereyalardan fərqləndirən əsas cəhəti odur ki, onlar qeyri-kommersiya xarakteri daşıyır və orada rəsm satışı istisna olunur. Onların üstünlüyü ondan ibarətdir ki, sənətkar öz vətənini - Azərbaycanı təsvir edir. Yüksək beynəlxalq səviyyəli şəxslər onun statusunu bilirlər, çünki o, təkcə adi rəssam deyil. Əşrəf Heybətov elə bir statuslu rəssamdır ki, onun sərgilərinin keçirilməsi üçün heç bir maneə yoxdur. Əşrəf müəllim tez-tez rəsmlərini hədiyyə edir. O, hətta onun əsərindən ilhamlanan bir şəxsə də əsərini hədiyyə edə bilər. Səttar belə hədiyyə edərdi, o da belə edir...

### RƏSSAM VƏ ZAMAN

Son illərdə rəssam 60-dan çox dəniz peyzajı yaradıb. Rəssam bu əsərlərində hər il Mərdakanda yerləşən bağ evində çəkdiyi Xəzərin gün və il ərzində necə dəyişdiyini təsvir edib. Rəssam Bakıda olanda yoldaşları və həmkarları ilə görüşür, yaradıcılıq planlarını və maraqlı fikirlərini bölüşür. Məşhur opera divası, SSRİ və RF xalq artisti, "Bolşoy teatr"ın solisti Tamara Sinyavskaya Moskvaya səfəri zamanı sənətçiyə bülleten dərc etdirməyi və ona "Bizim Xəzər" adını verməyini məsləhət görüb. Bu bülleten Müslim Maqomayevin məşhur "Sinyaya veçnost" mahnısına həsr olunacaq - müğənninin vizit kartı. Unudulmaz Müslüm Maqomayevin xatirəsinə və sənətinə hörmət olaraq bu bülleten yaxın zamanlarda Moskvada təqdim olunacaq. Harada olursa olsun, rəssam həmişə Azərbaycanda nə qədər çox istedadlı və fərqli sənətkarların olduğunu söyləyir. O, hesab edir ki, rəssam öz yaradıcılığında zamanın çağırışlarına cavab verməli, onlara öz münasibətini bildirməlidir.

Rəssamın düşüncələri və ideyaları "Sivilizasiyaların dialoqu" və "Bizim əsrin üzü" adlı panolarda təsvir olunub. Onlarda yaradıcı insanın dünyası və bu gün dünyada baş verən bütün hadisələr – ekologiyanın pisləşməsi, iqlim şəraitinin dəyişməsi, itən mənəvi dəyərlər, davam edən müharibələr və yeni qarşıdurmalar yer alıb. Təəsüflər olsun ki, İkinci Dünya müharibəsi bəşəriyyətə bir şey öyrətmədi, rəssam kədərlə qeyd edir. Dünyada baş verən qloballaşma proseslərindən bəhs edən rəssam, Qərbin bizi milli seqmentdən məhrum etdiyini söyləyir, ümumibəşər milli seqment mütləq mövcud olmalıdır ki, insanlar manqurta çevrilməsinlər. Dostu Çingiz Aytmatovun dediyi kimi, "milli kökləri olmayan bir insan manqurt olur". Əşrəf müəllim təəssüflə bildirir ki, Ç. Aytmatovun Nobel mükafatı üçün dörd dəfə namizədliyi irəli sürülsədə, lakin siyasi motivlərlə hər dəfə onun namizədliyi rədd edilirdi. Rəssam Çingiz Aytmatovun Kölndə söylədiyi son sözlərini yada salır: - "Humanizm süquta uğrayıb"...

### GƏLƏCƏYƏ BAXIŞ

Rəssam daim hərəkətdə və dinamik yaradıcılıq prosesindədir və təbii ki, bunların hamısı onun yaradıcılığına təsir edir. Bu baxımdan BMT-nin Bakı ofisində və ya Bakıda Nobel qardaşları

ofisində "Villa Petrolea"da keçiriləcək sərginin hazırlanması və təşkilini qeyd etmək lazımdır. Hal-hazırda danışıqlar aparılır və bu tədbirin detalları müzakirə olunur. Ölkəmizin gözəl guşəsi olan Zaqatala və Qax şəhərlərində də Heydər Əliyev Sarayında ekspress - sərgilər təşkil olunacaq və master-klasslar keçiriləcəkdir. Rəssamın xaricdə səfərinə gəldikdə isə qeyd etmək olar ki, ilin əvvəlində Azərbaycanın səfiri Tarik Əliyevlə görüşünün nəticəsi olaraq ilin sonunadək Mərakeşin Rabat şəhərində rəssamın sərgisi yekunlaşacaq. Azərbaycanlı rəssamın gözəl Şimali Afrika ölkəsinə həsr olunmuş 50-yə yaxın əsərinin Rabat Müasir İncəsənət Muzeyində nümayiş olunması gözlənilir, onlardan ancaq 25-i sərgilənəcək, qalan 25-i isə Azərbaycan mövzularını əks etdirəcək. Bir rəssam bu gözəl fürsətdən faydalanmayaraq Mərakeşlilərə gözəl vətəni olan Azərbaycanı – Odlar Yurdunu necə göstərməyə bilər?!

### EV MUZEYİ

Hamı bilir ki, rəssamların ev interyeri adi insanın ən zəngin bəzədilmiş evinin interyerindən çox fərqlidir, baxmayaraq ki, hər iki tərəf həm gözəlliyi, həm də yüksək incəsənət nümunələrini sevirlər. Lakin rəssamın evi məhəbbət, gözəllik və mənəviyyatın yerləşdiyi sərhədsiz, təmiz və parlaq bir yerdir. May ayında Əşrəf Heybətov "Kaspi" qəzetin təsisçisi, filologiya elmləri doktoru Sona Vəlieva ilə görüşdü. Maraqlı və səmimi söhbət əsnasında, rəssam Prezident İlham Əliyevin 60 illik yubileyi ilə əlaqədar gözəl ev-muzeyini ona təqdim etdiyini və bütün qiymətli sənət əsərlərini, xarici səfərlərdən gətirilmiş rəsm əsərlərini, antikvar əşyaları və suvenirləri Azərbaycan xalqına miras etdiyini söylədi. Əşrəf müəllim Almaniyanın Berlin və Koblenz şəhərlərində olan evlərindəki bütün rəsm əsərlərini və kolleksiyalarını dövlətimizə verməyi planlaşdırır.

Bu baxımdan rəssam, Bakıda olan mənzilinin sərgi sahəsinin genişləndirməsinə ehtiyac olduğunu və dövlətin bu ciddi məsələdə ona kömək etməsini istəyir. O, Azərbaycanın paytaxtının




həmvətənlərinin və qonaqların ziyarət etdiyi bir məkanı, möhtəşəm Dünya mədəniyyətləri muzeyinə çevrilməsini istərdi. Dünya mədəniyyətləri muzeyinin dünyada iki analoqu var: biri Frank-furtda, digəri isə Dərbənddə, sonuncusu isə çox maraqlı bir interyerə malikdir və əlbəttə ki, azərbaycanlı rəssamın əsərlərini öz kolleksiya toplusuna daxil etmək istəyərdi. Əşrəf müəllim isə bu kolleksiyanın ona doğma olan Bakısını bəzəmək üçün əlindən gələni edir. Mənzil-muzeyin eksponatları, kolleksiyaları, ev əşyaları Azərbaycan rəssamının dünya mədəniyyətinə və onun dərin milli daxili dünyagörüşündən xəbər verir. Burada dünya xalqlarının ən gözəl sənət nümunələri, diplom və sertifikatları, BMT, NATO, Vatikan, ADA Universiteti, dünya şöhrətli şəxsiyyətləri, sərgi plakatları, heykəlləri ilə yaddaqalan fotoşəkillər toplanıb. Əşrəf Heybətovun kolleksiyasının xüsusi nümunəsi - Ve-nesiya sənət maskalarının toplusudur. Onların arasında –rəssamın sərgisinin keçirildiyi ölkələrin suvenirləri, kuklalar və ölkə bayraqları vardır. Rəssamın evi onun rəsmləri kimi rəngli, işıqlı və rəngarəngdir. Mənəvi zənginlik bu məkanı məzmunlu və sərhədsiz edir. Mən Əşrəf müəllimi "Dünya vətəndaşı" adlandırsam heçdə yanılmaram, çünki bu, müxtəlif qitələrin xalqlarının milli xarakterinə böyük bir sevgi və dərin nüfuza malik olan çoxsaylı rəsm əsərləri ilə xarakterizə olunur.

### VƏTƏN

Əşrəf Heybətov vətənindən uzaqda yaşasa da, tez-tez Bakıya gəlir, rəsmlərini sərgiləyir və nüfuzlu beynəlxalq forumlarda iştirak edir - ürəyi Vətəni ilə döyünür. Onun bütün düşüncələri və planları Azərbaycanla bağlıdır, onun bütün əsərlərində sevdiyi doğma torpağının milli simvollarını və atributlarını görürük. Əşrəf Heybətovun milli rəssam statusuna malik olmağı onun Azərbaycan naminə çalışması, zəngin mədəniyyətinin təbliği, ölkənin həyatında müsbət və mütərəqqi dəyişikliklərin təbliği üçün daha da güclü təkan verir. Vətəndən uzaqda sənətə sadiq qalmaq və yorulmaz xidmət etmək bəzən vətənpərvərlik hissini gücləndirir. Rəssam üçün Vətən anlayışı - sehrli muğam və milli sənətdir, ölkənin tarixi və etnoqrafiyasıdır, bölgələrin möhtəşəm təbiəti və doğma Mərdəkanın havasıdır. Əşrəf müəllim strateji cəhətdən həmişə Vətəninin inkişafı, uğuru yolunda olduğunu bildirir.

İstedadlı rəssama yeni yaradıcılıq uğurları və tükənməz ilham, bütün arzularını reallaşdırmaq yolunda çox güclü olmaq və bu yolda yaşıl işıq arzulayırıq!

*Azərbaycanlı rəssam missiyasını doğma Azərbaycanının şöhrətlənməsində görür, əvəzolunmaz Səttar Bəhlulzadə və dostu Toğrul Nərimanbəyovun etdikləri kimi. Bir dəfə nə arzuladığını ondan soruşanda rəssam, Bakı, Ankara, Moskvada* ***"Azərbaycan: dünən, bu gün, sabah"*** *mövzusunda böyük bir rəngli panel, kom-pozisiya yaratmaq istədiyini söylədi.*

*Buna görə də hər bir əsəri rəssam tərəfindən bu kompozisiya üçün ömrü boyu hazırladığı eskiz kimi qəbul olunur ...*

# Region



ŞAMXAL MƏMMƏDOV
Tarix üzrə fəlsəfə doktoru

## MÜASİR DÖVRDƏ RUSİYANIN CƏNUBİ QAFQAZ SİYASƏTİ VƏ ONA MÜXTƏLİF BAXIŞLAR



Müasir Rusiya dünyanın başlıca güc mərkəzlərindən olub, fəal və çoxcəhətli xarici siyasət yeridir. Sovetlər birliyinin dağılmasından sonra özünü onun qanuni varisi hesab edən Rusiya nəinki sərhədlərinə yaxın əraziləri, eləcə də Avroasiyanın xeyli uzaq regionlarını da özünün strateji maraq dairəsi bilir, dünyada baş verən hadisələrə ciddi surətdə müdaxilə etməyə cəhd göstərir. Bu da başa düşüləndir. Dünyanın ərazi baxımından bu ən böyük dövləti, ən güclü ordulardan birinə malik, böyük nüvə arsenalı olan, BMT Təhlükəsizlik Şurasının beş daimi üzvündən biri kimi, qlobal sülh və təhlükəsizlik üçün birbaşa məsuliyyət daşıyan Rusiya, başqa cür də ola bilməz. Lakin bu cür möhtəşəm geosiyasi mövqelərə malik olmaqla yanaşı, iqtisadi-maliyyə imkanları, inkişaf tempi, valyuta ehtiyatları kimi parametrlər baxımından Rusiya özünün başlıca rəqibləri olan ABŞ, Avropa Birliyi, Çin kimi güc mərkəzlərindən xeyli geridə qalır. Qüvvələr balansında tarazlığa nail olmaq məqsədilə Rusiya öz hərbi qüvvələrini təkmilləşdirir, hərbi-sənaye komleksini gücləndirir, ara-sıra "əzələ gücü" də nümayiş etdirməkdən çəkinmir. NATO-nun Şərqə doğru genişlənmək cəhdlərindən narahat olan Rusiya Suriyada, Şərqi Avropada, Krımda möhkəmlənməyə çalışır, geosiyasi maraqlar ortada olduqda hətta qonşuları və tərəfdaşları ilə də zor dili ilə danışmaqdan belə çəkinmir. Moskvada kimlərin iqtidarda olması, kimlərin sərəncam verməsindən asılı olmayaraq, bu dövlətin strateji maraqları, geosiyasi məqsədləri dəyişmir. Dünya miqyasında baş verən qlobal əhəmiyyətli proseslərin təsiri altında Rusiya Federasiyasının bir sıra siyasi dairələri bəzi hallarda keçmiş müttəfiq respublikalara özünün itirilmiş mülkləri kimi baxır, onları yenidən öz nüfuz dairəsinə qatmağa çalışırlar. Bu məqsədlə Rusiya iqtidarı MDB, KTMT kimi qurumlar vasitəsilə keçmiş SSRİ məkanında vəziyyəti nəzarətdə saxlamağa, kənar güclərin bura daxil olmasına yol verməməyə çalışır. Bir sıra hallarda buna nail olunmadıqda isə yuxarıda qeyd olunduğu

kimi, “əzələ gücü” nümayiş etdirilir, müstəqil siyasət yeritməyə çalışan, onun geosiyasi maraqlarına cavab verməyən tərəfdaş dövlətlərə münasibətdə siyasi təzyiqdən, qondarma qurumları, separatçı qüvvələri dəstəkləməkdən, birbaşa hərbi müdaxilədən belə çəkinmir. Baltikyanı dövlətlərlə hamar olmayan münasibətlər, Ukraynanın, Gürcüstanın və Azərbaycanın ərazi bütövlüyünün pozulmasında Rusiya Federasiyasının birbaşa və ya dolayısı yolla iştirakı dediklərimizə misaldır.

Rusiya Federasiyası eyni zamanda keçmiş Sovet respublikaları ilə yüz illərlə tarixi olan geniş və hərtərəfli ictimai-siyasi və elmi-mədəni əlaqələrə malikdir. O, regionun sosial-iqtisadi inkişafında, bir sıra qlobal və regional problemlərin həll edilməsi yolunda əvəzsiz tərəfdaşdır. Böyük təbii ehtiyatlara malik bu ölkəni öz qonşuları ilə ortaq tarix, mədəniyyət, problemlər, birgə inkişaf perspektivləri bağlayır. Lakin Rusiyanın çox tez-tez özünü büruzə verən böyük dövlətçilik ambisiyaları, tərəfdaşı olan kiçik dövlətlərin geosiyasi maraqlarını nəzərə almaması, öz mövqeyini onlara zorla qəbul etdirmək təşəbbüsləri neqativ nəticələr verir, dostluq və qonşuluq münasibətlərinə kölgə salır. Bu baxımdan Qafqaz regionu da istisnalıq təşkil etmir. Keçmişdə olduğu kimi, günümüzdə də Rusiyanın böyük dövlətçilik ambisiyalarına, hərbi-siyasi elitasının geosiyasi maraqlarına hədəf olan başlıca ərazilərdən biri də Cənubi Qafqazdır. Rusiya rəsmiləri Qafqaza olan iddialarını gizlətmirlər. RF-nin keçmiş Xarici işlər naziri İ.İvanov 2002-ci ilin oktyabrında Moskvada keçirilən Beynəlxalq konfransda həmin iddiaları aşağıdakı kimi xarakterizə etmişdir: “...Rusiya Qafqaz dövlətidir və bu bölgədə təbii mənafeləri vardır (4). Təqribən 300 illik bir zaman kəsiyində bu zəngin və strateji baxımdan oluqca böyük əhəmiyyət kəsb edən diyarı özünün malikanəsi kimi idarə edən Rusiyanın hakim dairələri günümüzdə də burada mövcudluqlarına iddialıdırlar. Şovinist əhval-ruhiyyəli rus ideoloqları yuxarıda deyildiyi kimi, Cənubi Qafqazı “Rusiyanın itirilmiş torpaqları”(1, 5 və b.) hesab edir, hərbi-siyasi dairələr tarixən ruslara məxsus olmayan bu ərazilərə özlərinin “təhlükəsizlik zolağı” kimi baxır, “yaxın xaric”, daha dürüst desək, “həyati zona” hesab edir və bölgədə möhkəmlənmək istəyən digər beynəlxalq güclərin, xüsusilə də ABŞ-ın və Aİ-nin maraqlarının məhdudlaşdırılması üçün bütün potensial təsir vasitələrindən istifadə edirlər.

Hətta, mütərəqqi əhval-ruhiyyəli, sağlam məntiqə və düşüncəyə malik, Cənubi Qafqaz dövlətləri ilə mehriban qonşuluq münasibətlərinin tərəfdarı olan dairələr belə (2, 6 və b.), öz təhlillərində Cənubi Qafqazın Rusiya üçün böyük strateji əhəmiyyətini vurğulamağı unutmurlar: “Qafqaz regionu Rusiya üçün vacib həyati əhəmiyyət kəsb edir, belə ki, Rusiya dövlətindən Kiçik Asiya, İran və Yaxın Şərqə ən qısa çıxış yolları Azərbaycandan keçir”(6).

Bu dairələr sözdə, deklarativ mahiyyətli bəyanatlarda Cənubi Qafqaz dövlətlərinin ərazi bütövlüyünü, suverenliyini tanısalar da, onları özlərinin “strateji tərəfdaşı”, müttəfiqi adlandırsalar da, əslində çarizmdən və kommunist rejimindən miras qalma “ikili standartlar”, “milli-ayrı seçkilik” siyasətlərindən əl çəkə bilmirlər. Rusiya yüz il əvvəl olduğu kimi, günümüzdə də Cənubi Qafqazın üç respublikasına, üç millətinə fərqli prizmalardan baxır və fərqli müstəvilərdə münasibət sərgiləyir.

Tarixdə olduğu kimi, günümüzdə də Rusiya özünün Cənubi Qafqaz siyasətində başlıca olaraq, bu regionda özü kimi avtoxton




olmayan, bura qonşu regionlardan köçürüb məskunlaşdırdığı, himayə etdiyi erməni toplumuna arxalanır. Ermənilərsə yüz illər boyu kölgəsinə sığındıqları, sayəsində regionda öz qondarma dövlətlərini yaratdıqları Rusiyaya bir forpost, bir əlaltı olmaqla, qonşu xalqlara qarşı vaxtaşırı olaraq yeni-yeni ambisiyalarla çıxış edir, anneksiya, deportasiya, terror və soyqırım siyasəti yürüdürlər. Günümüzdə Cənubi Qafqazda baş verən dramatik hadisələr bir daha göstərir ki, bir vaxtlar böyük güclərin yaxından dəstəyi ilə tarixi Azərbaycan torpaqlarında qurulan erməni dövləti yüz il öncə olduğu kimi, yenə də müstəqil deyildir. Ermənistanın necə adlanmasından, burada kimlərin iqtidara gəlməsindən asılı olmayaraq, bu ölkə öz intəhasız ambisiyalarının əsiri olması üzündən forpost vəziyyətindən çıxa bilmir. Ona görə də Ermənistan Cənubi Qafqazda bir sıra güclərin geosiyasi maraqlarına xidmət edən, digər qonşu dövlətlərin müstəqil siyasət yeritməsi, dünyaya inteqrasiya etməsi yolunda günümüzdə başlıca əngəldir.

Cənubi Qafqaza özünün geosiyasi maraq dairəsi kimi baxan Rusiya siyasətçiləri, NATO sərhədlərinə yaxın olan bu mühüm strateji məkanı kimsəyə güzəştə getmək fikrində deyil. Burada möhkəmlənmək üçün SSRİ-nin dağılmasından sonra yaranan müstəqil dövlətlərlə yüksək səviyyədə hərbi-siyasi ittifaq bağlamaq lazımdır. Lakin qərbyönümlü siyasət yeridən Gürcüstan və müstəqil siyasət yeridən, dünyaya inteqrasiya olunmaqda israrlı olan Azərbaycan öz ərazilərində Rusiyanın hərbi-siyasi mövcudluğunu istəmirlər. Yalnız özünün bütün tarixi ərzində iri dövlətlərə forpost olmağa alışmış Ermənistan bununla razılaşır. Nəticədə bir sıra ikitərəfli və çoxtərəfli hərbi-siyasi müqavilələrlə, habelə KTMT ilə Rusiyaya bağlı Ermənistanın sərhədləri, habelə hava məkanı rus hərbi qulluqçuları tərəfindən qorunur. Ermənistan ərazisində Rusiyanın hərbi bazaları yerləşir. Ölkə iqtisadi cəhətdən də Rusiyadan asılıdır.

Rusiyanın hakim dairələri bəhs edilən regionda öz hegemon rolunu saxlamaq üçün, ermənilərə istinad etməklə yanaşı, digər separatçı qüvvələri də dəstəkləyir, ikili siyasət yeridir. Abxaziya, Cənubi Osetiya və Dağlıq Qarabağda separatçı hərəkatlar maliyyələşdirilir, silahlandırılır və diplomatik müstəvidə bu və ya digər formada himayə edir. Rusiya iqtidarı bir tərəfdən Gürcüstan və Azərbaycanın ərazi bütövlüyünü tanıması barədə bəyanatlar verir, digər tərəfdən bu yolda başlıca təhlükə olan, separatizmə və terrorizmə rəvac verən, onları dövlət siyasəti səviyyəsinə qaldıran



Ermənistana dəstək nümayiş etdirir. Nəticədə terrorçu və işğalçı Ermənistan "Dağlıq Qarabağ" münaqişəsinin beynəlxalq hüquq prinsipləri əsasında həllindən hər vasitə ilə boyun qaçırır, müxtəlif bəhanələrlə problemin həllini uzadır. Rusiya siyasi dairələri də ermənilər kimi münaqişənin tezliklə həllində maraqlı deyillər. Belə ki, münaqişə həll olunarsa və sülh bərqərar olarsa, Rusiyanın regiondakı hərbi-siyasi mövcudluğuna ehtiyac qalmaz. Rusiya təsirindən və təzyiqindən azad olan dövlətlər Qərbə, hətta NATO-ya belə inteqrasiya oluna bilərlər. Bu isə Rusiyanın geosiyasi maraqlarına uyğun gəlmir. Ona lazımdır ki, Ermənistan Qarabağı qaytarmamaq, Azərbaycan isə qaytarmaq üçün asılı olsunlar.

Cənubi Qafqaz regionunda sülhün və sabitliyin olması Rusiyanın hərbi-sənaye kompleksinə də maraqlı gəlmir. Çünki münaqişəyə girən tərəflər Rusiya silah sənayesinin daimi alıcılarıdır. Hərçənd ki, Rusiya iqtidarı dəfələrlə öz strateji müttəfəqi olan təcavüzkar Ermənistana milyardlarla dollar qiyməti olan silah-sürsatı pulsuz olaraq vermiş və ya kreditlə satmışdır. Beləliklə, Rusiya Cənubi Qafqazda status-kvonun saxlanması ilə bir tərəfdən silah və hərbi texnika satışından xeyli miqdar mənfəət əldə edir.

XXI əsrin əvvəllərində olduğu kimi, II onilliyində də RF-nın öz geosiyasi və dövləti maraqları naminə işğalçı və terrorçu erməni dövlətini dəstəkləməsi, onunla iqtisadi-hərbi əməkdaşlığı Rusiya cəmiyyətinin müxtəlif dairələrində birmənalı qarşılanmır. Ümumiyyətlə, XXI əsrin I rübü üçün çoxcəhətli və ziddiyyətli Rusiya-Ermənistan münasibətlərinə baxış məsələsində rus ictimaiyyatinin müxtəlif dairələri fərqli münasibət sərgiləyirlər. Bu baxımdan ermənipərəst siyasi dairələrin, hərbi-sənaye komleksi nümayəndələrinin, oliqarxların və siyasətbazların daxil olduğu hakim elitanın məsələyə münasibəti xüsusilə diqqəti çəkir. Ölkənin hərbi-siyasi gücünü, iqtisadi resurslarını və maliyyə imkanlarını öz əlində cəmləşdirən bu qrup, dövlətin xarici siyasətində erməni amilini lazım bilən, oyuncaq erməni dövlətinə regionda özünün forpostu, "beşinci dəstəsi" kimi baxan, imperiya ambisiyaları ilə çıxış edən, Qarabağ kartından müstəqil Azərbaycana qarşı təzyiq vasitəsi kimi istifadə edən qüvvələri təmsil edir. Rusiya Federasiyası Dövlət Dumasının MDB məsələləri üzrə Komitəsi sədrinin birinci müavini Konstantin Zatulin, Rusiya Liberal Demokrat Partiyasının lideri, Rusiya Federasiyası Dövlət Dumasının vitse-spikeri Vladimir Jirinovski həmin qüvvələrin təmsilçiləridir. Siyasi dairələrə yaxın olan bəzi kütləvi informasiya orqanlarının nümayəndələri də Azərbaycan Respublikasının ərazi bütövlüyünü qəbul etmir, ermənilərin bu torpaqlara köçürülmə bir toplum olmaları barədə məlum tarixi həqiqətlərə göz yumur, təmsil olunduqları qurumlarda açıq erməniрərəst təbliğat aparırlar. "Rossiya-1" dövlət telekanalının aparıcısı, Vladimir Solvyov bu qəbildəndir. 2018-ci ilin iyununda özünün növbəti proqramında o artıq neçənci dəfə olaraq, antiazərbaycan mövqeyini ortaya qoymuşdur: "Arsax o torpaqlardır ki, orada hər zaman ermənilər olublar" (3).

İkinci qrupa Rusiyanın elmi-mədəni ictimaiyyətinin, ziyalıların böyük bir qismini, sağlam düşüncəli siyasi xadimlərini aid etmək olar. Bunların içərisində ermənilərə layiq olduqları kimi yanaşan, bu ac-yalavac ölkəni Rusiya üçün lazımsız yük hesab edən, Ermənistana Rusiyanın forpostu, sattelti kimi baxanlar az deyildir. Məsələn, 2015-ci ilin 12 yanvarında Ermənistanın Gümrü şəhərində yerləşən 102 saylı rus hərbi bazasının əsgəri Valeri Permyakovun 7 nəfərlik Avetisyanlar ailəsini hamılıqla qətlə yetirməsi bu ölkədə böyük rezonansa səbəb olduğu günlərdə Rusiyanın "Exo Moskva" radiostansiyasının şərhçisi, nüfuzlu jurnalist Yuliya Latınina yanvarın 17-də müəllifi olduğu "Kod dostupa" proqramında həmin dairələrin fikrini ifadə edərək demişdi: "Bizim, Rusiyanın satteliti olan Ermənistan adında bir ölkə var…Ermənistan bizdən heç cür yaxa qurtara bilməz: ölkə Azərbaycandan fərqli olaraq Gömrük İttifaqına üzv olub, aydındır nəyə görə. Çünki balaca və yoxsul Ermənistanın yanında qüdrətli və varlı Azərbaycan var. Jurnalist Dalıq Qarabağ münaqişəsinin həllinin ləngiməsində də dolayısı yolla Rusiyanın xarici siyasətindəki erməni amilini etiraf etmişdi: "Azərbaycanı Dağlıq Qarabağı geri qaytarmaqdan saxlayan yeganə səbəb var-Rusiyanın Ermənistana yardımı"(8). Başqa bir misal. 2018-ci ilin mayında Ermənistanda korrupsiyaya uğramış, terrorçu S.Sarkisyan rejiminə qarşı ümumxalq narazılıqları zəminində xarici güclər tərəfindən təşkil və idarə edilən ixtişaşlar zamanı yenidən anti-rus təbliğatın başlanması, qərbə tərəf üz çevirmək lüzumu barədə hay-küyə rəvac verilməsi Rusiya ictimaiyyətinin nəzərindən qaçmamışdı. Həmin günlərdə "Komsomolskaya pravda" radiostansiyasının efirində tanınmış rusiyalı telejurnalist, "Rosneft" şirkətinin vitse-prezidenti və mətbuat katibi olan Mixail Leontyev bunları bəyan etdi: "Gəlin tam açıq danışaq. Ermənistan tarixən siyasi, fiziki və maddi cəhətdən Rusiya üçün yük olub… Biz qanımızla, həyatımızla, qoşunumuzla, qazımızla, pulumuzla bu xalqı xilas etmişik. Əgər onlar bizdən ayrılmaq istəyirlərsə, onda biz hər şeyə son qoymalıyıq… "Siz, bizdən, Rusiyadan başqa heç kimə lazım deyilsiz. Erməni xalqı istisnasız olaraq bizim sayəmizdə bu gün mövcuddur. Bu xalqın bizi şantaj etmək haqqı yoxdur. Rusiya olmasaydı, fiziki cəhətdən nə Ermənistan olardı, nə də bir erməni" (7).

Rusiyanın ictimai-siyasi mühitinin daha sağlam düşüncəli dairələri, gündən-günə iqtisadi böhran məngənəsində boğulmaqda olan, dərin hərbi-siyasi tənəzzül keçirən, beynəlxalq aləmdə getdikcə təcavüzkar dövlət kimi tanınan Ermənistandansa, regionun digər dövlətləri, ilk növbədə isə qüdrətli və tərəqqi edən, etibarlı tərəfdaş olan Azərbaycanla əməkdaşlıq etmək lüzumunu irəli sürürlər. 2017-ci ilin 14 sentyabrında Moskvada keçirilən, habelə, 2018-ci ilin 1 iyulunda Çocuq Mərcanlı kəndində rusiyalı və azərbaycanlı ekspert və deputatların iştirakı ilə keçirilən "Bakı və Moskva arasında geopolitik ox: Azərbaycan Rusiyanın Cənubi Qafqazda yeganə müttəfiqidir" mövzusunda konfrans bu nəticəyə gəlmişdir ki, tanınmış ictimai xadim Aleksandr Duqinin dediyi




kimi, “Avro-Asiya qütbünün formalaşdırılması Azərbaycansız mümkün deyildir” (2).

Saysız-hesabsız sənədlər və materiallar göstərir ki, Azərbaycan Respublikasının 20 min kv km. ərazisinin işğal olunması, bir milyon nəfər sakininin qaçqına və məcburi köçgünə çevrilməsi də məhz Rusiya kommunistləri ilə terrorçu erməni liderlərinin əməkdaşlığı, Rusiyanın silahı və maliyyə yardımı ilə həyata keçirilmişdir. 1992-ci ilin fevralında 366-cı Rusiya motoatıcı alayının birbaşa iştirakı ilə törədilmiş Xocalı faciəsi, Yeltsin hökumətinin işğalçı Ermənistana bir milyard dollarlıq silah verməsi həmin əməkdaşlığın yalnız görünən tərəfləridir. Bu gün imperiya ambisiyalarından əl çəkməyən, keçmiş sovet respublikalarını yenidən müxtəlif yollarla özündən asılı vəziyyətə salmağa çalışan Rusiyanın bir çox siyasi dairələri terrorçu Sarkisyan rejiminin iflasından sonra Nikol Paşinyan administrasiyası ilə əməkdaşlığı davam etdirirlər. Ermənistan kimi cırtdan bir dövlətin BMT, ATƏT kimi beynəlxalq təşkilatların qətnamələrinə məhəl qoymaması, Qarabağ konfliktinin öz ədalətli həllini tapa bilməməsinin səbəblərindən birini də məhz bu əməkdaşlıqda axtarmaq lazımdır. Reallıqsa ondan ibarətdir ki, bugünkü Azərbaycan regionun lider dövlətidir, keçən əsrin 90-cı illərindəki zəif, siyasi cəhətdən pərakəndə Azərbaycan deyildir. Bu gün o, dünyanın hərbi gücünə görə sıralanmada ilk əlliliyə daxil olan, MDB məkanında inkişaf tempinə görə ilk sırada yer alan, iqtisadi baxımdan misilsiz mövqelər qazanan, möhkəm dövlətçiliyi olan bir gücdür. Bu güclə isə həm Rusiya, həm də onun forpostu olan Ermənistan hesablaşmaya bilməzlər.

## ƏDƏBİYYAT


*1.Широкорад А.Б. Утерянные земли Росси. Отколовшиеся республики. Москва, “Вече” 2007, 496 с.;*

*2.Александр Дугин: Формирование евразийского полюса невозможно без Азербайджана https: //www. geopolitica.ru/ article/nachinaetsya-konferenciya-os-moskva-baku*

*3.Владимир Соловьев: “Арцах это та земля, где армяне были всегда”. http: //qafqazinfo.az/news/detail/rusiyanin-dovlet-kanalinda-novbeti-antiazerbaycan-cixis-yene-solovyovdan-221476*

*4.Выступление Министра иностранных дел России И.С.Иванова заключительном пленарном заседании международной конференции “Армяне на рубеже веков и актуальные проблемы международных отношений” / Информационный бюллетень МИД России 09 октября 2002 г./ http://www.mid. ru/press _service/bulletins?p_p_id*

*5.Затулин К. “Россия не может позволить себе роскошь потери своего действительно последовательного союзника на Кавказе-Армении / http://news armenia.am/news /armenia/ sng1-20070201-41633843/*

*6.Максим Шевченко: Ось Москва-Баку нуждается в третьем участнике https: //www. geopolitica.ru/article/ nachinaetsya-konferenciya-os-moskva-baku*

*7.Михаил Леонтьев: “Армяне, не омрачайте наши отношения с братским Азербайджаном!” https://haqqin.az/ news/128088*

*8.http://anspress.com/index. php?a=2&lng=az&cid=1&nid=320403*



**Açar sözlər:** *Geosiyasi müstəvi, ikili standartlar, forpost, anneksiya, supergüc, hərbi pakt.*
**Ключевые слова:** *Геополитический уровень, двойные стандарты, форпост, аннексия, сверхдержава, военный пакт.*
**Key words:** *Geopolitical level, double standards, forpost, annexation, superpower, military pact.*



## РЕЗЮМЕ

После распада Советского Союза Российская Федерация, считая себя его “законным преемником”, делает ставку на Армению, на свою “форпосту” и “пятую колонну”, тем самым обеспечивая свои геополитические интересы и военно-политическое присутствие на Южном Кавказе. Российские политические круги, вооружающие, финансирующие и покровительствующие это террористическое и оккупационное государство, фактически не выполняют своих международных обязательств и пытаются сохранить “статус-кво” вокруг нагорно-карабахской проблемы. Это справедливо вызывает недовольство у демократических и прогрессивных кругов российского общества. Они призывают власти России отказаться от проведения проармянской политики и поддержки оккупационной Армении.



## SUMMARY

After the collapse of the Soviet Union, the Russian Federation, considering itself its "legitimate successor", relies on Armenia, its "outpost" and "fifth column," thereby ensuring its geopolitical interests and military and political presence in the South Caucasus. Russian political circles, arming, financing and patronizing this terrorist and occupying state, do not actually fulfill their international obligations and are trying to preserve the "status quo" around the Nagorno-Karabakh conflict. This justifies discontent among the democratic and progressive circles of Russian society. They urge the Russian authorities to abandon pro-Armenian policy and support to the occupation Armenia.

MAİS ƏMRAHOV
Tarix üzrə elmlər doktoru, professor

# AZƏRBAYCAN-TÜRKİYƏ MƏDƏNİ ƏLAQƏLƏRİNDƏ TÜRKSOY-UN ROLU



XX yüzillik bəşəriyyətin yaddaşına sürətli elmi-texniki tərəqqi, imperiyaların, milli müstəmləkə sisteminin parçalanması, yeni müstəqil dövlətlərin yaranması, demokratiyanın genişlənməsi, hüquqi, dünyəvi dövlət quruculuğu, qloballaşmanın, sülh, sabitlik, əmin-amanlıq uğrunda səylərin artırılması ilə yadda qaldı. XX əsrin 90-cı illəri təkcə Azərbaycan üçün deyil, bütünlükdə türk dünyası üçün əlamətdar hadisələrlə zəngin oldu. Əsrin 90-cı illərinə qədər türk dünyasını beynəlxalq aləmdə təkcə Türkiyə Respublikası təmsil edirdisə, 90-cı illərin başlanğıcında SSRİ-nin dağılması nəticəsində daha beş türk dövləti öz müstəqilliklərini elan etdi.Yeni yaranan türk dünyası, sadəcə bir coğrafiyadan və müstəqil dövlətlərdən ibarət deyildi, fəlsəfəsi, həyata baxışları, estetik anlayışı, dəyərlər sistemi etibarı ilə müstəqil bir мədəni dünya idi. Siyasi əlaqələrin inkişafı ilə bərabər mədəni əlaqələrin genişləndirilməsi sahəsində ümumtürk mədəni birliyi olan TÜRKSOY-un rolu böyükdür.Həmin təşkilat bu gün də uğurla fəaliyyət göstərən beynəlxalq TÜRKSOY təşkilatıdır. (2,s.93)

**TÜRKSOY-un yaradılması.** *Türk mədəniyyəti və incəsənətinin inkişafı üzrə Beynəlxalq Təşkilat* (TÜRKSOY) Azərbaycan Respublikası və Türkiyə Cümhuriyyətinin təşəbbüsü ilə 1992-ci ildə İstanbul və Bakı şəhərlərində keçirilmiş Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkiyə və Türkmənistan respublikaları mədəniyyət nazirlərinin görüşləri gedişində əldə edilmiş razılaşmalar əsasında yaradılmış, TÜRKSOY-un yaradılması və fəaliyyət prinsipləri haqqında Müqavilə həmin ölkələrin mədəniyyət nazirləri tərəfindən 1993-cü il iyulun 12-də Qazaxıstan Respublikasının keçmiş paytaxtı Almatı şəhərində imzalanmışdır. Təşkilatın Nizamnaməsinə görə, o, türkdilli dövlətlərin mədəniyyət nazirlərinin Daimi Şurasının qərarlarına əsasən fəaliyyət göstərir. Sonralar TÜRKSOY haqqında Müqaviləyə müşahidəçi ölkələr simasında Başqırdıstan və Tatarıstan muxtar respublikaları, Şimali Kipr Türk Respublikası, Xakasiya, Tuva, Çuvaşiya və Qaqauz Yeri respublikaları da qoşuldular. Beləliklə, hazırda TÜRKSOY-a 6 üzv və 7 müşahidəçi ölkə daxildir. (3, s.9)

**TÜRKSOY-un quruluşu və iş prinsipləri.** TURKSOY analoqu olmayan inteqrasiya variantıdır. Təşkilatın ali orqanı, mədəniyyət nazirlərinin ildə bir neçə dəfə toplanan daimi şurasıdır. Şuranın işini və daimi nümayəndələrin təmsil olunduğu komitənin fəaliyyətini nazir-koordinator əlaqələndirir. Ümumi rəhbərliyi həyata keçirən baş direktor TÜRKSOY-un bütün fəaliyyətinə cavabdehlik daşıyır, onu beynəlxalq tədbirlərdə təmsil etmək, müqavilələr imzalamaq hüququna malikdir. Təşkilat struktur etibarilə **Mədəniyyət və incəsənət tədbirlərinin birgə keçirilməsi üzrə Komitəyə və İnzibati və hüquqi təmsilçilər üzrə Komitəyə** bölünüb. Təşkilat yarandığı gündən onun Baş Direktoru vəzifəsinə Azərbaycan Respublikasının Mədəniyyət naziri **Polad Bülbüloğlu** seçilmişdir. Hazirda TURKSOY-un Baş direktoru **Düsen Kaseinovdur**. TÜRKSOY-un Baş direktorluğu Türkiyə Cümhuriyyətinin paytaxtı Ankara şəhərində yerləşir, rəsmi dili türk dilidir.

TÜRKSOY-un əsas hədəfləri sırasında türk dilində danışan xalqlar, ölkələr və etnik qruplar arasında mədəni əlaqələrin inkişafı, türk mədəniyyəti nümunələrinin araşdırılması, öyrənilməsi, qorunması və dünyaya çatdırılması, türk mədəniyyətinin müştərək olduğunun sübuta yetirilməsi, türk dövlətləri və toplumları arasında əlifba və dilin saxlanılması dayanır.

TURKSOY YUNESKO, İSESKO, Avropa Şurası, Avrokomissiya, Dövlətlərarası Humanitar Əməkdaşlıq Təşkilatı (DHƏT) və MDB arasında əməkdaşlığın gücləndirilməsinə istiqamətlənmiş bir sıra tədbirlər həyata keçirmişdir. Göründüyü kimi, TÜRKSOY-un fəaliyyət dairəsi çox genişdir. TÜRKSOY YUNESKO-nun (BMT-nin maarif, elm və mədəniyyət işlərinə baxan hökumətlərarası təşkilatı) stukturuna yaxındır. 1996-cı il iyunun 8-də İstanbulda TÜRKSOY-la YUNESKO arasında qarşılıqlı əməkdaşlıq haqqında Müqavilə imzalanmışdır.

**TÜRKSOY-un toplantıları və tədbirləri.** TÜRKSOY-un

fəaliyyəti dövründə müxtəlif ənənələrin, mədəniyyət tədbirlərinin əsası qoyulmuşdur. 1994-cü il mart ayının 21-23-də TURKSOY-un TİKA təşkilatı ilə birlikdə keçirdiyi Novruz bayramı Türkiyədə böyük maraqla qarşılandı və hər ilin martında müntəzəm olaraq keçirilməkdədir” (7,s.15). 1995-cü il avqustun 24-31-də «Manas» eposunun 1000 illiyinə həsr olunmuş Bişkekdə keçirilən təntənəli şənliklərdə iştirak edən TÜRKSOY bu tarixlə əlaqədar olaraq nəfis tərtibatlı “Manas” kitabını nəşr etdirmişdir.

1996-cı il mayın 17-də iyul ayının 3-dək Başqırdıstanın Ufa şəhərində türkdilli ölkələrin “TUQANLIQ” Beynəlxalq Teatr İncəsənəti Festivalı, iyunun 15-də Ankarada böyük tatar şairi Qabdulla Tukayın anadan olmasının 110 illiyi, 1996-cı ilin sentyabrında Türkiyədə Qazaxıstan Respublikasının mədəniyyət günlərinin keçirilməsi və qazax şairi Cambulun 150 illik yubileyinin qeyd olunması, 1999-cu ildə TÜRKSOY-un təklifi ilə “Dədə Qorqud” eposunun 1300 illik yubileyinin keçirilməsi və 1999-cu ilin “Dədə Qorqud ili” adlanması, Türküstan şəhərinin 1500 illiyinin qeyd olunması, Böyük Türk Xaqanlığının 1450 illiyinə həsr olunmuş təntənəli mərasimlərin keçirilməsi (7) YUNESKO-nun baş fəaliyyət proqramına daxil olunması türkdilli ölkələrin mədəni əlaqələrini möhkəmləndirdi. YUNESKO tərəfindən Oş şəhərinin 3000 illiyi, Mahмyd Kaşqarlının “Divani-lüğət it türk” əsərinin 925 illiyi, Məhəmməd bəy Qaramanoğlu tərəfindən türk dilinin dövlət dili elan olunmasının 725 illiyi, Əhməd Yəsəvinin anadan olmasının 900 illiyi tədbirlərində türkdilli dövlətlərin nümayəndələri iştirak etdi (3, s.230).

TÜRKSOY-un fəaliyyətinə böyük önəm verən türkdilli ölkələrin dövlət başçıları, demək olar ki, bütün sammitlərinin yekun bəyannamələrində təşkilatın işini təqdir etmişlər. 1996-cı il Daşkənd Bəyannaməsindən irəli gələn vəzifələri yerinə yetirmək üçün mədəniyyət nazirləri az vaxt ərzində mühüm bir layihəni hazırlaya bildilər. Bu layihələrdən birincisi **Türk dünyasının mədəniyyət və tarixinin yaddaş təqviminin** hazırlanması idi. Bu təqvimdə xronoloji ardıcıllıqla türk dünyasının çoxəsrlik tarixi, dili, ədəbiyyatı, mədəniyyəti və incəsənətinə aid olan hadisələr sistemli şəkildə öz əksini tapıb.

Daşkənd Bəyannaməsindən irəli gələn digər mühüm layihə **Böyük Türk Xaqanlığının 1450 illiyinin keçirilməsi** üzrə proqramını hazırlanması idi. TÜRKSOY 1997-ci il avqustun 25 və 27-də Tuva Respublikasının Qızıl şəhərində Sibirin türkdilli xalqlarının **Böyük Türk Xaqanlığının yaranmasının 1450 illiyinə** həsr olunmuş beynəlxalq konfransında iştirak etdi. (7, s.24)

TÜRKSOY-un fəaliyyətinin tərkib hissəsi kimi Qırğızıstanın xalq eposu “Manas”, Abayın seçilmiş əsərləri, Başqırd xalq eposu Ural Batır, Böyük Türk Xaqanlığının tarixi, Tatar xalq dastanı “İdigey”, “Dədə Qorqud” ensiklopediyası və başqaları nəşr olunmuşdur.

TÜRKSOY-la YUNESKO-nun, Avropa Şurası, ISESCO, MFGS (Müstəqil Dövlətlər Birliyi Humanitar Əməkdaşlıq Beynəlxalq Fondu) arasında protokollar imzalanmışdır. MFGS ilə ortaq şəkildə olaraq “Avrasiya Türkoloqlar Ensiklopedik lüğəti” nəşr olunmuş, ISESCO ilə ortaq şəkildə Rabat-da olan ISESCO Mərkəzində “Fotoşəkillərlə Türk Dünyası” sərgisi açılmış, Qazaxıstanda “Arxiv Bilgilərinin təsnifində yeni texnologiyanın istifadəsi” mövzusunda seminarı keçirilmişdir.

TÜRKSOY-un başlıca fəaliyyət istiqamətlərindən biri də, azsaylı türkdilli xalqların mədəniyyəti, tarixi və ədəbiyyatını öyrənmək və təbliğ etməkdir. (5, s.137)

**Türk xalqları arasında qarşılıqlı mədəni əlaqələrin yeni ənənələri.** Türk Dünyası Mədəniyyət Paytaxtı elan edilməsi və yubileylərin təşkili çərçivəsində qarşılıqlı mədəni əlaqələri möhkəmlətmək istiqamətli yenilikləri diqqətlə izləyən TÜRKSOY 2010-cu ildən etibarən yubileylərin qeyd edilməsinə, 2012-ci ildən etibarən isə mədəniyyət paytaxtı elanına başladı. Yubileylərin keçirilməsini UNESCO təcrübəsindən, mədəniyyət paytaxtı elanı isə Avropa Mədəniyyət Paytaxtı nümunəsindən mənimsəyən TÜRKSOY ilk dəfə 2010-cu ildə Zeki Validi Togan ilinin elanı ilə fəaliyyətə başladı. 2011-ci ilin Abdullah Tukay, 2012-ci il i xakas əsilli Türkoloq Nikolay Katanovun doğumunun 150 illiyi ildönümü kimi ***Katanov ili***; məşhur Azərbaycan dramaturgu Mirzə Fətəli Axundzadənin doğumunun 200-cü il dönümü münasibətiylə ***Axundzadə ili*** elan edildi.

TÜRKSOY
Uluslararası Türk Kültürü Teşkilatı

**Azərbaycan Respublikası və TÜRKSOY.** Müstəqilliklərinin iyirminci ili ərəfəsində türk respublikaları arasındakı əməkdaşlıq daha da genişləndi. 2009-cu il oktyabrın 3-də Naxçıvanda təşkil edilən Türkdilli Ölkələrin Dövlət Başçılarının sammitində Türk Şurası (Türk Dili Danışan Ölkələrin Əməkdaşlıq Şurası) yaradıldı. Oktyabrın 3-ü Türk Əməkdaşlıq Günü olaraq 2010-cu ildən etibarən qeyd olunmağa başladı. 2011-ci il oktyabrında Almatıda Türk Şurasının ilk toplantısı keçirildi. (8,s.42)

Azərbaycan Respublikası TÜRKSOY-un yaradılmasında olduğu kimi, onun sonrakı fəaliyyətində də aparıcı dövlətlərdən biri olmuş və olmaqdadır. TÜRKSOY-un II toplantısı (30 noyabr-2 dekabr, 1992) Bakıda keçirilmiş və təşkilatın fəaliyyətini gücləndirməyə yönəldilən mühüm qərarlar qəbul edilmişdir.1994-1995-ci illərdən başlayaraq vəziyyətin nisbətən sabitləşməsindən sonra ağırlıq mərkəzi xüsusən Azərbaycanın üzərinə düşdü (6). 4 il sonra, 1996-cı il noyabrın 6-7-də Bakıda türk xalqlarının birliyi, ədəbi-mədəni əlaqələri ilə əlaqədar üç mühüm tədbirin (TÜRKSOY-un VIII toplantısı, türk dünyası yazıçılarının III qurultayı və Məhəmməd Füzulinin 500 illik yubileyinin yekun tədbirləri) keçirilməsi sübut edirdi ki, Azərbaycan türk dünyasının liderlərindən birinə çevrilməkdədir. 1996-cı il noyabrın 6-da türk dünyası yazıçılarının Bakıda keçirilən III qurultayında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev demişdir: “ Bu gün Azərbaycan Respublikasının həyatında çox əlamətdar hadisələr baş verir. Günün birinci yarısında Bakıda türk dünyası yazıçılarının III qurultayı açılıbdır, ikinci yarısında isə TÜRKSOY Beynəlxalq Təşkilatının növbəti toplantısı işə başlayır. TÜRKSOY ötən dövrdə böyük yol keçibdir, yaxşı nailiyyətlər əldə edibdir, özünün çox zəruri və böyük gələcəyi olduğunu həm türkdilli dövlətlərə, həm də dünyaya nümayiş etdiribdir”. (9,s.43)

Türk cəmiyyəti ilə mədəni əlaqələrin genişlənməsində **Azərbaycanda Atatürk Mərkəzinin** yaradılması əhəmiyyətli rol oynayır. Son vaxtlar türk və islam ölkələri ilə təmasda Azərbaycanda yüksək səviyyəli bir sıra tədbirlər - iki zirvə toplantısı, 2008-ci ildə Avropada və qonşu regionlarında mədəniyyət nazirlərinin konfransı, 2009-cu ildə türkdilli ölkələrin mədəniyyət nazirlərinin və ayrıca islam ölkələri mədəniyyət nazirlərinin konfransı, 2010-cu ildə dünya dini liderlərinin Sammiti keçirilmişdir. (4)

Türkdilli dövlətlərin rəhbərliyi tərəfindən TÜRKSOY-un fəaliyyəti




daima dəstək və təqdir olunması öz əksini 2009-cu il oktyabrın 2-3-də Naxçıvan şəhərində keçirilmiş türkdilli dövlətlərin Dövlət Başçılarının IX Sammitində qəbul edilmiş Naxçıvan Deklarasiyasında öz əksini tapdı.

Türkdilli ölkələrin dövlət başçılarının IX zirvə toplantısında imzalanmış **"Türkdilli dövlətlərin əməkdaşlıq Şurasının yaradılması haqqında Naxçıvan Saziși"** əsasında təsis edilmiş Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası türkdilli dövlətlər arasında qarşılıqlı əlaqələrin möhkəmləndirilməsində yeni mərhələnin əsasını qoydu. "TÜRKSOY Fondu"nun yaradılması barədə Azərbaycan Respublikası prezidenti İ.Əliyevin təşəbbüsü yekdilliklə dəstəkləndi. TÜRKSOY

**Türk dövlət başçılarının zirvə toplantıları.** Türkdilli dövlətlər arasında siyasi və iqtisadi əlaqələr, o cümlədən mədəni əlaqələr Sovetlər Birliyinin dağılmasından sonra daha intensiv oldu. İlk dəfə Türkiyə Cümhuriyyətinin prezidenti Turqut Özalın təşəbbüsü və ev sahibliyi ilə 1992-ci ildə Ankarada türkdilli dövlətlərin başçılarının förümü keçirildi.

Türkdilli dövlətlərin zirvə toplantısı və yaxud türkdilli dövlətlərin dövlət başçılarının zirvə toplantısı altı türk dövlətinin başçılarının (yaxud dövlətin yüksək rütbəli nümayəndələrinin) iştirakı ilə həyata keçirilən zirvələrdir. 1992-ci ildən başlayaraq təşkil edilən bu zirvələrdə türk dünyasının ortaq qayğıları gündəmə gətirilməkdədir. İndiyə qədər 10 zirvə toplantısı keçirilmişdir. *4-cü zirvəyə qədər* **"Türk zirvəsi"** adlandırılan tədbirlər bundan sonra **"Türk Cümhuriyyətləri dövlət başçılarının zirvəsi"**, *5-ci zirvədən sonra* **"Türkdilli dövlətlərin dövlət başçılarının zirvəsi"** kimi qeyd edilməyə başlandı.

2010-cu ildə İstanbulda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Türkiyə Cümhuriyyətinin Prezidenti Abdullah Gül, Qazaxıstan prezidenti Nursultan Nazarbayev, Qırğızıstan prezidenti Roza Otunbayeva, Türkmənistan prezidenti Qurbanqulu Berdıməhəmmədov türkdilli dövlətlərin 10-cu sammitində iştirak etdilər. Türkdilli dövlətlərin əməkdaşlıq şurasının Katibliyinin, Ağsaqqallar Şurasının, həmçinin Türk Akademiyasının fəaliyyəti müzakirə olundu, regional sülh və təhlükəsizliyin saxlanılması, iqtisadi əməkdaşlığın inkişafı, Qırğızıstandakı vəziyyətin tənzimlənməsi ilə bağlı fikir mübadiləsi aparıldı.

*Türk dövlətləri arasında elm, təhsil və mədəniyyət sahələrindəki əməkdaşlığın inkişafına təkan verən amillər içərisində Türk dövlət və topluluqları dostluq, qardaşlıq və əməkdaşlıq qurultayları xüsusi qeyd edilməlidir.* Bu qurultaylar zamanı türkdilli ölkələrin elmi-mədəni əlaqələri baxımından bir sıra problemlər müzakirə mövzusuna çevrilmiş, təhsil və elm adamları müvafiq sahələr uzrə əməkdaşlığa dair tövsiyə və təkliflərini vermişlər. (7)

**Nəticə.** TÜRKSOY-un yaradılması, bu təşkilatı yaradan ölkələrin dilləri, xalqları, mədəniyyətləri bir-birinə çox yaxın olması zərurətindən irəli gəlmişdir. TÜRKSOY-un yaradılmasında türkdilli xalqların əsasən din deyil, dil prinsiplərinə üstünlük verilmişdir. TÜRKSOY-un əsas üzvləri **Qazaxıstan, Türkiyə, Azərbaycan, Özbəkistan, Qırğızıstan və Türkmənistandır**. Qalan 7 üzv (*Başqırdıstan və Tatarıstan respublikaları, Şimali Kipr Türk Respublikası, Xakasiya, Tuva, Çuvaşiya və Qaqauz Yeri respublikaları*) əsasən müşahidəçi qismində iştirak edirlər. Bu üzvlər əsas üzvlər kimi eyni hüquqa və səlahiyyətə malikdilər. Ümumiyyətlə, TÜRKSOY-un fəaliyyətində demokratik prinsiplər əsas götürülür. Yəni səsvermədə müşahidəçi ölkələr də əsas 6 üzvlər kimi eyni səsvermə hüququna malikdirlər.

TÜRKSOY digər beynəlxalq təşkilatlar kimi dövlətlərin müqaviləsi, razılaşdırılmış nizamnamə əsasında yaradılmışdır. Beynəlxalq təşkilat kimi ***qərargahı, bayrağı, katibliyi, üzvluk haqqı, Mədəniyyət Nazirlərinin Daimi Şurası, dövlət başçıları səviyyəsində***

***sammiti, bayram edilən günü*** vardır.

***Türkdilli xalqların YUNESKO-su adlanan TÜRKSOY*** təşkilatı türk mədəniyyəti və dilinin daşıyıcı olan ölkələrin və xalqların birləşməsi prinsipi əsasında bu ölkələrin dövlət strüktürlarının siyasi mövqelərindən, daxili və xarici siyasətindən asılı olmayaraq mədəniyyət və incəsənət sahəsində əməkdaşlığı müvəffəqiyyətlə həyata keçirir.

Görülmüş işlərlə yanaşı TÜRKSOY-un işində çatışmazlıqlar da qalmaqdadır. TÜRKSOY fəaliyyət istiqamətləri kimi müəyyənləşdirdiyi vəzifələri tam həyata keçırə bilməmişdir. Xüsusi ilə türk dünyasının tarixinin yazılması, ortaq türk əlifbasının yaradılmasına dair fikirlər reallaşmamışdır. Türkdilli dövlətlərin başçılarının zirvə görüşlərinin keçirilməsində yaranan fasilələr türk dünyasında süstlük yaratmışdır.

Türk respublikalarinda mövcud olan münaqişələrin, xüsusu ilə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində türk respublikalarinin dəstəyi qənaətbəxş hesab etmək olmaz.

## ƏDƏBİYYAT


1. *Artun E. Ortak türk folklorunun kureselleşen dunyaya tanıtılması. AMEA-nın Folklor İnstitutu "Ortaq türk kecmişindən ortaq türk gələcəyinə"/ III Uluslararası Folklor Konfransının materialları. Bakı, 13-16 noyabr 2005, s. 537-541*

2. *İsmayılov İ. Türk dünyası XX əsrin 90-cı illərində. Bakı: Zaman, 2001*

3 *Hüseynova F. TÜRKSOY-Türk xalqlarının mədəni inteqrasiyasının təzahuru kimi //Mədəni-Maarif , 2006, № 4, s. 7-10*

4. *Mədəniyyət"qəz., 2010, 30 aprel*

5. *Məmmədli N.A. Mərkəzi Asiyanın türk dövlətləri və Türkiyə. Bakı: AзAмaM, 2005, 233 s.*

6. *Muxtarov K, Azərbaycan Respublikasi və TÜRKSOY // Tarix və onun problemləri. Bakı: Adiloğlu, 2012, s.12-15*

7. *Türk Devlet ve Topluluklarının I, II, II, IV, V və VI-cı türk dövlet ve Topluluklarının dostluk, kardeşlik və İşbirligi Kurultayı, (Komisiyon rapor və sonuc bilgileri) Ankara: Tudev, 1999, 152 s*

8. *Süleymanova S. Dünyanı mədəniyyət xilas edəcək. "Mədəniyyət" qəz., 2011, 6 aprel*

9. *Vəliyev İ., Muxtarov K. Heydər Əliyev və türk dunyası. Bakı: AzAtaM, 2003, 89 s.*



**Açar sözlər:** *TÜRKSOY, dil, mədəniyyət, əlaqələr, əməkdaşlıq.*

**Anahtar kelimeler:** *TÜRKSOY, dil, kültür, ilişkiler, işbirliği.*

**Key words:** *TURKSOY, language, culture, relations, cooperation.*

**Ключевые слова:** *ТЮРКСОЙ, язык, культура, связи, сотрудничество.*



**РЕЗЮМЕ**

**М.И.Амрахов**

**Роль ТЮРКСОЙ в культурных отношениях Азербайджана и Турции**

Создание ТЮРКСОЙ вытекает из необходимости взаимной близости языков, народов, и культуры тех стран, со стороны которых создана настоящая организация. Основными членами ТЮРКСОЙ являются Турция, Казахстан, Азербайджан, Узбекистан, Киргизия и Туркмения. Остальные члены (Башкирия, и Татарстанские Республики, Турецкая Республика Северного Кипра, Хакасия, Тува, Чувашия и Гагаузские Республики) в основном участвуют в качестве наблюдателя. ТЮРКСОЙ как другие международные организации созданы на основе соглашения, и согласованного устава государств. У данной международной организации имеются штаб, знамя, секретариат, членский взнос, Регулярный Совет министров культуры, саммит на уровне глав государств и праздничный день.

ТЮРКСОЙ, который называется ЮНЕСКО тюркоязычных народов занялся осуществлением ряда мероприятий, направленных на укрепление сотрудничества между ЮНЕСКО, ИСЕСКО, Европейским Советом, Межгосударственными Гуманитарными Организациями Сотрудничества (МГОС) и СНГ.

Азербайджанская Республика являлась одним из ведущих государств не только в процессе создания ТЮРКСОЙ, а также в осуществлении его последующей деятельности. II собрание ТЮРКСОЙ (30 ноября – 2 декабря 1992 года) было проведено в Баку, где были приняты важнейшие решения, направленные на укрепление деятельности организации. 6-7 ноября 1996 года проведение трех важнейших мероприятий в связи с единством тюркских народов, и с их литературно – культурными связями (VIII съезд ТЮРКСОЙ, III съезд писателей тюркского мира и итоговые мероприятия 500 годовщины Мухаммеда Физули) уже доказало, что Азербайджан превращается в один из лидеров тюркского мира.



**SUMMARY**

**Amrahov M.I.**

**Role of TURKSOY in cultural relations of Azerbaijan and Turkey**

Establishment of TURKSOY was forwarded from the necessity of closeness of languages, people and cultures of the countries, establishing such organization. Key members of TURKSOY: Turkey, Kazakhstan, Azerbaijan, Uzbekistan, Kirgizstan and Turkmenistan. Other members (Bashkurdistan and Tataristan Republics, Northern Cyprus Turkish Republic, Khakasiya, Tuva, Chuvashia and Gagauz local republics) participate as an observer mainly. TURKSOY, as other international organizations, was established on the basis of agreed articles of association and contracts of states. It has its main office, flag, secretary, membership fee, and Permanent council of the Ministers of Culture, summit at the level of heads of state and celebration day as international organization.

TURKSOY, which is called as UNESCO of Turkish language people, has realized several measures directed to strengthening of cooperation between UNESCO, ISESCO, European Council, European Commission, Inter-state Humanitarian Cooperation Organization (IHCO) and CIS.

Republic of Azerbaijan was and is one of the leading state both in establishment and further activity of TURKSOY. II meeting of TURKSOY was held in Baku city (November 30- December 2, 1992) and significant decisions were made referred to strengthening of the activity of organization. Holding of three significant measures in connection with unity of Turkish people and their literary – cultural relations in Baku city on November 6-7, 1996 (VIII meeting of TURKSOY, III meeting of Turkish world writers and final event of 500 years anniversary of Mahammad Fuzuli) again proved that, Azerbaijan is turning in one of leaders of Turkish world.

# История



ИРАДА НУРИЕВА
Доктор политических наук, профессор

## ВНЕШНЕПОЛИТИЧЕСКИЕ ОТНОШЕНИЯ МЕЖДУ ОСМАНСКОЙ ТУРЦИЕЙ И АЗЕРБАЙДЖАНСКОЙ ДЕМОКРАТИЧЕСКОЙ РЕСПУБЛИКОЙ (1918-1920 ГОДЫ)



*Кабинет министров АДР IV-го состава. Декабрь 1919. Слева направо сидят А. Сафикурдский, , Х. Мелик-Асланов, С. Мехмандаров, Н. Усуббеков, М. Ю. Джафаров, А. Гасанов и А. Н. Достаков_ стоят Х. Амаспюр, Р. З. Капланов, А. Аминов, Дж. Гаджи*

28 мая 2018 года исполняется 100 лет образования Азербайджанской Демократической Республики. В этот исторический день Азербайджанская Демократическая Республика, создавая на Востоке первый демократический строй, объявила независимость азербайджанского народа. Как отмечалось в Постановлении о провозглашении Азербайджана независимым государством в 28 мае 1918 года, «политическое положение Азербайджана, связанное с ликвидацией войны, возникшей между Россией и Оттоманской империей (Турцией), а также небывалая анархия внутри страны, повелительно диктуют Азербайджану, состоящему из Восточного и Южного Закавказья, необходимость создания собственной организации, дабы вывести народы Азербайджана из того тяжелого внутреннего и внешнего положения, в котором они оказались» [6, s. 10].

Азербайджанская Демократическая Республика вела активную независимую внешнюю политику, несмотря на напряженную и сложную общественно-политическую обстановку. Были сформулированы основные принципы внешней политики Азербайджанской Республики: признание великими державами независимости Азербайджанской Республики, обеспечение территориальной целостности страны и поддержание добрососедских отношений с соседними государствами. В акте об объявлении независимости было отмечено: «установить добрососедские отношения со всеми членами международного сообщества, а в особенности с сопредельными народами и государствами» [11, s. 1, 6].

После провозглашении акта о независимости, Азербайджанская Республика, проводя активный

внешнеполитический курс, присоединилась к международным отношениям государств. Внешнеполитические отношения Азербайджанской Демократической Республики с Турцией в 1918-1920 годы были на мирных и дружественных основах. По обращению Министра иностранных дел М.Г.Гаджинского в Министерство иностранных дел Османского правительства турецкие посольства, находящиеся в государствах Европы, в Москве посредничали между Азербайджаном и европейскими странами: «В виду этого мое правительство желает узнать, не согласится ли «Довлети Сение» (турецкое правительство) быть посредником между Азербайджаном и европейскими державами, взяв на себя представительство по международным обычаям во всех тех европейских столицах, где имеются турецкие посольства, в том числе и в Москве» [14]. Это свидетельствовало о близких отношениях между Турцией и АДР.

В начале XX века посольства Турции, функционирующие в разных странах, сыграли важную роль в признании этих государств Азербайджанской Демократической Республики [12, s. 78]. На первом плане было решение вопроса определении границ новых государств, объявивших о своей независимости после роспуска Закавказского Сейма. В Батуми между представителями Азербайджана и Армении был подписан договор о создании армянского кантона в пределах Александропольской губернии Азербайджана. Город Иреван передавался армянам как государственная столица с тем условием, что они откажутся от притязаний на часть Елизаветпольской губернии, то есть на Карабах. 4 июня 1918 года между Турцией, Азербайджаном и Арменией был подписан договор о «Мире и дружбе» [2, s.54], в котором говорилось о том, что между Азербайджаном и Османским правительством всегда будут мирные и дружественные отношения, в ближайшее время между Азербайджаном, Грузией и Арменией будет подписан протокол, определяющий границы этих государств и в случае необходимости Османское правительство, «обязуется оказывать помощь вооруженной силой правительству Азербайджанской Республики, буде таковая потребуется для обеспечения порядка и безопасности в стране» [13]. А Азербайджанское правительство берет на себя обязанность разоружения вооруженных бандитских группировок, действовавших на приграничных территориях. Кроме этого в договоре был отражен вопрос о консульской конвенции, обязательства сторон по железнодорожным перевозкам. По договору Брест-Литовское соглашение остается в силе между сторонами.

После договора от 4 июня, были подписаны еще два соглашения: Первое соглашение, подписанное между Азербайджаном, Грузией и Турцией было связано с договоренностью сторон об обеспечении безопасности нефтепровода Баку-Батум на своей территории: «Договаривающиеся стороны взаимно берут на себя обязательство поддерживать в прекрасном виде керосинопроводы, находящиеся на их соответствующих территориях для обеспечения постоянного действия керосинопровода» [8, s. 364]. Так как договор имел важное значение для развития нефтяной промышленности Азербайджана, гарантировал его выход на мировой рынок. Второе соглашение, подписанное между Османской Турцией, Азербайджаном, Грузией и Арменией относилось к железной дороге. В документе предусматривалось разделение железнодорожных транспортных средств между сторонами,

*Офицеры армии АДР*



согласно их территориальным пределам [10, s. 365].

Огромное историческое значение имела дипломатическая борьба, проводимая Азербайджанской Республикой летом 1918 года за освобождение Баку. В этот период Баку стал ареной борьбы между Османской империей, Германией, Великобританией и Советской Россией [12, s. 97]. В такое сложное и трудное для Азербайджана время между Германией и Советской Россией как добавление к Брест-Литовскому договору подписывается соглашение от 27 августа [10, s. 437-445]. Статья 14 этого договора, состоящего из 8 глав, 17 статей, была непосредственно связана с Азербайджаном. В статье говорилось, что «Германия в военных операциях на Кавказе, за пределами Грузии не будет оказывать никакой помощи какой-либо третьей стране. В документе подчеркивалось, что Германия будет содействовать, чтобы на Кавказе вооруженные силы третьей страны не входили на территорию от устья реки Кура до села Петропавловск, вдоль границы Шемахинского уезда до села Алиоба, вдоль Бакинского, Шемахинского и Губинского уездов, от северных границ Бакинского уезда до моря» [1, s. 266]. Германия подписала этот документ с Россией без учета интересов Австро-Венгрии, в котором под названной третьей стороной подразумевалась Турция. А самое главное это соглашение было угрозой против территориальной целостности Азербайджана. И по этим причинам Азербайджанское государство начало дипломатическую борьбу против соглашения от 27 августа.

Представители Азербайджана в начале сентября в Стамбуле обсуждали с Телет Пашой позицию Германии по Бакинскому вопросу, несмотря на возражение азербайджанской делегации, было решено в скорейшем времени освободить Баку. Во время визита в Берлин Телет Паша потребовал у Германии срочного аннулирования соглашения от 27 августа. «12 сентября представители азербайджанского правительства вручили посольству Германии в Османском государстве ноту протеста» [4, s. 53]. В ней на исторических, этнографических, географических и экономических фактах доказывалось, что Баку является неотъемлемой частью Азербайджана. В ноте отмечалось: «Население Азербайджана никогда не откажется от желания вернуть Баку обратно. Для Азербайджана это не только вопрос территории, теперь он стал для народа вопросом жизни и смерти» [15], а для России и других государств Баку представляет интерес только с экономической точки зрения.

В начале сентября отношения между правительством Азербайджана и Османской Турцией развивались довольно интенсивно. Во время встреч Султана Мехмета VI 6 сентября



*Офицеры Кавказской исламской армии и сотрудники Министерства здравоохранения Азербайджанской Демократической Республики в Гяндже*

1918 года в Стамбуле с представителями Азербайджана, в октябре – с Чрезвычайным и Полномочным представителем Азербайджана в Стамбуле А.М.Топчибашевым стороны заявили, что между тюрками-османами и азербайджанскими тюрками существуют братские отношения: «Великий Падишах, у нас, азербайджанцев, всегда было и есть много недоброжелателей. Но смею уверить, что азербайджанцы никогда не боялись этих врагов, т.к. знали, что у них есть и великий друг. «Нет не друг, а брат» - был Высочайший ответ» [17]. Обращаясь к А.М.Топчибашеву, Султан Мехмет VI отметил: «… будьте уверены, что османские турки никогда не откажут вам в помощи» [17]. В результате переговоров между Азербайджаном и Турцией азербайджанско-турецкие войска освободили Баку 15 сентября. После 15 сентября в Баку прибыли военный и торговый представитель Германии барон Фон дер Гольдс, а также дипломатическая делегация Австро-Венгрии [5, s. 82]. Благодаря поддержке Телет Паши Азербайджанской Демократической Республики, правительство Германии заявило об аннулировании соглашения от 27 августа и официальном признании Азербайджанской Республики независимым государством и в скором времени открыть консульство в Баку.

Одной из основных задач национального правительства в этот период было создание представительств Азербайджанского Государства в сильных влиятельных европейских странах. Во внешнеполитической деятельности правительства председатель парламента Азербайджана А.М.Топчибашев имел большие заслуги. Под руководством Али бека Гусейнзаде была проведена встреча с представителями зарубежных стран в Швейцарии, и по указанию А.М.Топчибашева была создана делегация, которая оттуда должна была направиться во Францию, Голландию и Италию [3, s. 64]. Однако встречи не осуществились, так как страны Антанты не дали въездные визы. На встречах А.М.Топчибашева с Телет Пашой и министром иностранных дел Турции Ахметом Несим беем 2 октября, с военным министром Энвер Пашой 3 октября было заявлено, что Азербайджанская Республика, руководствуясь принципами добрососедства и дружбы, заинтересована в создании межгосударственных отношений: «Вы изволите призывать нас к мирному сожительству с соседями - грузинами и армянами. С самого начала образования нашего государства мы сочли долгом идти полном согласии с государственной политикой Турции. Поэтому и 15 данном вопросе мы, конечно, последуем вашему - призыву, тем более, что и нами руководит в отношениях наших с армянами и грузинами это же начало» [9, s. 7]. Министр иностранных дел Ахмет Несим бей отметил необходимость формирования отношений между Азербайджаном, Грузией и Арменией на основе взаимопонимания и согласия. А.М.Топчибашев выразил признательность военному министру Энвер Паше за освобождение Баку турецкой армией, за помощь в создании азербайджанской армии, а также за большие заслуги перед азербайджанским народом Исламской Армии под руководством Нуру Паши.

Многочисленные встречи и дипломатические переговоры, осуществленные А.М.Топчибашевым в Стамбуле свидетельствовали о способности проведении Азербайджанской Республики независимую внешнюю политику. После поражения блока Германия - Турция в Первой мировой войне осенью 1918 года и принятия Турцией тяжелых условий Мудросского перемирия 30 октября, по статье 11 этого договора была выведена турецкая армия из Азербайджана и Закавказья. Отрядам турецкой армии в Азербайджане был предъявлен ультиматум о выводе войск из Баку в недельный срок, а спустя месяц – из всего Азербайджана. Согласно «по статье 15 договора о перемирии между императорским оттоманским правительством и правительством Антанты часть закавказского железнодорожного пути была свободна и полностью уступлена в пользование Антанты» [6, s. 94]. Через день после официального оглашения 3 ноября условий Мудросского договора А.М.Топчибашев в знак протеста против части документа, связанной с Азербайджаном, направил ноту протеста заместителю министра иностранных дел Османского правительства Решаду Хикмет бею. В ней отмечалось, что несмотря на признание Османского правительства Азербайджанскую Республику, включение в Мудросский договор статьи, касающейся Баку противоречит международным правовым принципам и подчеркнута необходимость проведения дипломатических переговоров для решения вопросов, противоречащих по условиям Мудросского перемирия интересам Азербайджана или непосредственно с правительством Азербайджана, или же при посредничестве Османского правительства: «…в переговорах, в коих не участвовал Азербайджан в лице своего представителя, не могло быть и речи ни о Баку, ни о Закавказской железной дороге, ибо и тот и другая составляют достояние названной республики, самостоятельность которой всегда подчеркивалась и признавалась турецким правительством» [16].

Мудросское перемирие препятствовало также признанию ведущими странами мира независимости Азербайджанской Республики. Для обеспечения своей национальной безопасности и, в первую очередь, сохранения независимости, правительство Азербайджана считало целесообразным создать отношения стратегического сотрудничества с одним из влиятельных государств мира и получить у него помощь. Бесспорно, что в этом вопросе для Азербайджанской Республики, как подчеркивалась, самым близким государством была Турция. Однако поражение Турции в Первой мировой войне затрудняло это стратегическое партнерство. [5, s. 93]. Но, несмотря на эти проблемы, правительство Азербайджана делало все возможное для признания национального государства.

Благодаря успешной внешней политике Азербайджанского правительства, особенно азербайджанской делегации, была признана независимость Азербайджанской Республики на Парижской мирной конференции. Это историческое событие в Азербайджане торжественно было отмечено [5, s. 98-99].

Председательствующий на заседании парламента Гасан бек Агаев отметил, что «этот праздник является не только праздником азербайджанского народа, но будет праздником всего тюркского народа. Нужно было доказать, что мы достойны самостоятельной жизни. Европа через своих представителей, находящихся в нашем государстве, убедилась в жизнеспособности нашего народа и признала нашу независимость. Ценою крупных жертв добились мы этих результатов» [7, s. 852]. М.Э.Расульзаде выступая на этом торжественном заседании Парламента по случаю признания Антантой независимости Азербайджана 14 января говорил: «Нация, которая решив жить своей национальной жизнью, сумела претворить это решение в непоколебимую веру, всегда победит. Одухотворенный такой верой в торжество народных идеалов, я …, указывая на дорогое нам знамя, сказал: «Раз поднявшееся знамя больше не опустится!» [7, s. 853].

Успехи, достигнутые Азербайджанской Демократической Республикой в области внешней политики в 1918 – 1920 годы, сыграли важную роль в признании национальной независимости азербайджанского народа и Азербайджана как цивилизованной и демократической республики в мире.

**ЛИТЕРАТУРА:**


1. *Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. İki cilddə. I cild. Bakı, "Lider nəşriyyatı", 2004, 440 s.*
2. *Nəsıblı N,L. Azərbaycan Demokratik Respublikasını xarici siyasəti. Bakı, Qanun nəşriyyatı, 2011, 328 səh,*
3. *Nəsiman Yaqublu. CÜMHURİYYT QURUCULARI Bakı, "NURLAR" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2018, 504 səh.*
4. *Həsənov Ə.M. Azərbaycanın geosiyasəti. Dərslik. Bakı, "Zərdabi LTD" MMC, 2015, 1056 s.*
5. *Али Гасанов. Современные международные отношения и внешняя политика Азербайджана (Второе издание, дополненное), Баку, "Zərdabi LTD" MMC, 2013, 1008 стр.*
6. *Азербайджанская Демократическая Республика. Внешняя политика. (Документы и материалы) – Баку, изд. «Азербайджан», 1998, 632 с.*
7. *Азербайджанская Демократическая Республика (1918-1920). Парламент. (Стенографические отчеты). Баку, издательство «Азербайджан», 1998, 992 с.*
8. *Документы и материалы по внешней политике Закавказья и Грузии. Тифлис, 1919, 514 с.*
9. *Дипломатические беседы А.А.Топчибашева в Стамбуле. (Записи чрезвычайного посланника и полномочного Министра Азербайджанской Республики). 1918-1919 гг. Баку, 1994, 160 с.*
10. *Русско-германский договор к Мирному договору между Россией, с одной стороны, и Германией, Австро-Венгрией, Болгарией и Турцией – с другой. 27 августа 1918 г. – Документы внешней политики СССР, Т. I*
11. *Собрание узаконений и распоряжений правительства Азербайджанской Республики. 1919. №1, ст.1.*
12. *C.P.Həsənli. Azərbaycan Xalq Cümhuriyyətinin Xarici Siyasəti (1918-1920). Bakı, «GARISMA» MMC, 2009, - 576 səh.*
13. *ГААР, ф. 894, оп.2, д. 88, л. 1-3. Пер. с тур. яз., современный подлиннику*
14. *ГААР, ф.970, оп.1, д. 5, л. 14. Отпуск*
15. *ГААР, ф. 970, оп.1, д. 16, л. 3-4. Пер. с фр. яз., современный подлиннику. Текст на фр. яз. - 970, оп. 1, д. 8, л. 8-9.*
16. *ЦГАНИ, ф. 894, оп. 10,д. 151, л.4-6.*
17. *ЦГАНИ, ф.97О.оп.1, д. 158.л.2.Подлинник*



**Ключевые слова:** *независимость, демократия, внешняя политика, дружественные отношения, Турция, Азербайджан, международные соглашения.*
**Açar sözlər:** *müstəqillik, demokratiya, xarici siyasət, dostluq münasibətləri, Türkiyə, Azərbaycan, beynəlxalq sazişlər.*
**Keywords:** *independence, democracy, foreign policy, friendly relations, Turkey, Azerbaijan, international agreements.*



**XÜLASƏ**

**Osmanlı Türkiyəsi ilə Azərbaycan Demokratik Respublikası arasındakı xarici siyasi münasibətlər (1918-1920-ci illər)**

28 may 1918-ci ildə müstəqil dövlət kimi bəyan edilən Azərbaycan Respublikası fəal xarici siyasət kursu həyata keçirərək dünya dövlətləri ilə mehriban qonşuluq münasibətlərinə qədəm qoydu. Mayın 30-da bir sıra böyük dünya dövlətlərinin paytaxtlarına Azərbaycanın müstəqilliyinin elan edilməsi ilə bağlı радиограмма göndərilmişdi; bir neçə gün sonra isə, 4 iyun 1918-ci ildə Türkiyə ilə "sülh və dostluq" haqqında müqavilə, Türkiyə, Gürcüstan və Ermənistan ilə ilk beynəlxalq sazişlər imzalanıbdır. Müqavilədə Azərbaycan və Osmanlı hökuməti arasında əbədi sülh və dostluq münasibətləri xüsusi olaraq vurğulanırdı, Azərbaycan Respublikasında zərurət olduqda ölkənin təhlükəsizliyini təmin etmək üçün hərbi yardım, həmçinin Azərbaycan hökumətinin vəzifələri haqqında qeyd olunurdu. Bu yaxınlarda müstəqillik əldə edən Azərbaycan 4 iyun müqaviləsini imzalayaraq, beynəlxalq münasibətlərə qoşulması və böyük dövlətlər tərəfindən Azərbaycan Respublikasının müstəqilliyinin tanınması üçün böyük səylər göstərirdi.

Türkiyə və Azərbaycan Demokratik Respublikasının arasında mövcud olan dostluq münasibətlərini Sultan VI Mehmetin sözləri sübut edirdi: "...və əmin olun ki, Osmanlı türkləri heç vaxt sizə yardımdan imtina etməyəcəklər". Sonrakı tarixi hadisələr Türkiyənin Azərbaycan ilə dostluq münasibətləri saxladığını bir daha göstərdi. Türkiyə həmişə Azərbaycanın strateji əməkdaşı, osmanlı türkləri ilə azərbaycan türkləri arasında isə qardaşlıq münasibətləri mövcud olmuşdur.



**ABSTRACT**

**FOREIGN POLICY RELATIONS BETWEEN THE OTTOMAN EMPIRE AND THE AZERBAIJAN DEMOCRATIC REPUBLIC (1918-1920 years)**

The Republic of Azerbaijan, being proclaimed as an independent state on May 28, 1918, putting forward an active foreign policy, entered into good neighbourhood with the states of the world. On May 30 the radio message with the declaration of Azerbaijan's independence was sent off to the number of capitals of the world's largest states; in just a few days, on June 4, 1918, the treaty on «Peace and Friendship» with Turkey and the first international agreements with Turkey, Georgia and Armenia were signed. The treaty emphasized the eternity of peaceful and friendly relations between Azerbaijan and the Ottoman government, the military assistance to the Azerbaijan Republic to ensure the security of the country in case of need, as well as the duties of the Azerbaijani government. Having signed the treaty dated on June 4, Azerbaijan, which gained independence a while back, made great efforts to join the international relations and for the recognition of Azerbaijan's independence by the major nations.

The friendly relations between Turkey and the Azerbaijan Democratic Republic are evidenced by the words of Sultan Mehmed VI: «... be sure that Ottoman Turks will never turn their back to you.» Subsequent historical events prove the friendly international relations of Turkey with Azerbaijan. Turkey has always been a strategic cooperator of Azerbaijan. The fraternal relations existed between the Ottoman and Azerbaijani Turks.

# Konfliktologiya



FUAD BABAYEV
Siyasi elmlər üzrə fəlsəfə doktoru,
əməkdar jurnalist

## SOVET İTTIFAQI VƏ YUQOSLAVİYANIN SÜQUTU NƏTICƏSİNDƏ YARANMIŞ SİLAHLI MÜNAQİŞƏLƏR: OXŞAR VƏ FƏRQLİ CƏHƏTLƏR



Otən əsrin doxsanıncı illəri Qərb ilə Şərq arasında soyuq qarşıdurmanın bir qədər mülayimləşməsi ilə əlamətdar olsa da, bu, böhranların sayının azalmasına gətirib çıxarmadı. "Soyuq müharibə" dövründə mövcud olan ayrı-ayrı münaqişələr SSRİ-nin dağılması və ideoloji kolliziyaların başa çatması üzündən keçmişdə qaldı. Lakin postsovet məkanında və Şərqi Avropada əvvəlkindən heç də az kəskin olmayan başqa münaqişələr yarandı. SSRİ-nin dağılmasından sonrakı keçid dövrü çərçivəsində böyük dövlətlərin uzağı görməyən mövqe tutması beynəlxalq koordinatlar sistemində yeni böhranın yaranmasına səbəb oldu. Nəticədə beynəlxalq hüquqa riayət edilməsi sahəsində vakuum vəziyyəti yarandı, bunun ardınca beynəlxalq münasibətlər kompleksində dağıdıcı meyillər gücləndi. (2)

XX yüzil SSRİ və Yuqoslaviyanın dağılması nəticəsində bir sıra etnik münaqişələrin alovlanması ilə başa çatdı. 1999-cu ilin martında başlayan Yuqoslaviyanın məhv edilməsi üzrə "humanitar aksiya" həm də birqütblü dünyanın birinci dəfə də olmasa, daha təsirli və parlaq surətdə dərk olunmasının nəticəsi kimi maraqlıdır. "Soyuq müharibə" bir çox etnik, dini və irqi münaqişənin yaranmasını ləngidirdi, onun başa çatması ilə onlar tam gücü ilə meydana çıxdı. Tədqiqatçıların fikrincə, müharibələr daha çox dini və etnik zəmində baş verir, nəinki siyasi ideologiyalar arasında fərqlər ucbatından. XX əsrin son qərinəsində "müharibə" anlayışı tədricən "münaqişə" anlayışı ilə əvəzləndi. Hərçənd aydındır ki, bu anlayışın arxasında müharibənin mahiyyətcə daha dərin izləri var. Bu isə o deməkdir ki, müharibənin subyektləri siyasi subyektlərə, silahlı zorakılıqlar isə ziddiyyətlərin həlli üçün əsas vasitəyə çevrilir. (3)

Sovet İttifaqı ilə Yuqoslaviyanın süqutundakı əsas fərqlilik ondan ibarətdir ki, SSRİ-də əksər hallarda "qan yaddaşı"ndan doğan qlobal milli qarşıdurma yox idi. Əlbəttə SSRİ-də də çoxmillətli dövlətlərin əksəriyyətində olduğu kimi belə faktlar yetərincə idi – elə təkcə 1944-cü ildə Stalinin kütləvi deportasiyalarını xatırlatmaq kifayətdir (2,7 milyon insan

– qaraçaylar, çeçenlər, almanlar, inquşlar, kalmıklar, Krım tatarları, bolkarlar və s.). İllərlə, onilliklərlə yığılmış ziddiyyətlər, inciklikləer, anlaşılmazlıqlar olsa da, SSRİ-də xalqlar sülh şəraitində yaşayırdılar. Dövlət Təhlükəsizlik Komitəsinin məlumatlarına görə, 1957-1986-cı illərdə SSRİ ərazisində 24 münaqişə olub ki, onun da yalnız 5-i (digər məlumatlara görə 12-si) etnik zəmində baş verib. Milli-etnik münaqişələr dalğası yalnız yenidənqurmadan sonra başlayıb. Yuqoslaviyanın mövcudluğu isə o qədər də xoş görünməyən tarixi yaddaşla çətinliyə salınmışdı. (13)

Maraqlıdır ki, artıq 1992-ci ildə postsovet məkanında etnoterritorial zəmində baş verən münaqişələrin sayı 180-ə çatdı. (5)

Milli məsələnin nə keçmiş Yuqoslaviyada, nə də sabiq Sovet İttifaqında hər kəsi qane edə biləcək səviyyədə həllini tapmadığı məlum oldu. Kommunist rejimlərinin süquta uğraması nəticəsində mütləqləşdirilmiş ideal – beynəlmiləlçilik hansısa millətin aliliyi ideyası ilə əvəzləndi. Milli dövlət bir çox xalqlar üçün ideya fiksə çevrildi ki, bu da onsuz da kəskinləşmiş ziddiyyətlərin daha da dərinləşməsinə səbəb oldu. Xüsusilə Yuqoslaviyada qarşıdurma tərəflərinin hər birinin “XIX əsr prinsipi”ni - “bir milli xüsusiyyət – bir ərazi – bir millət – bir dövlət” ideyasını həyata keçirməyə cəhd göstərməsi təhlükəsi qeyri-sabitliyə yol açdı və qanlı münaqişələrə gətirib çıxardı. (7)

Həm SSRİ, həm də Yuqoslaviyada mərkəzçi qüvvə kimi çıxış edən federal mərkəz federasiyanı qorumağa cəhd göstərərək, onun transformasiyasına imkan yaradırdı. Hər iki halda federal mərkəz federasiyanın danışıqlar vasitəsilə dinc yollarla qorumaq yollarını axtarırdı (Novo Oqaryova prosesi, YSFR Rəyasət Heyəti daxilində, sonra isə 6 yuqoslav respublikasının prezidentləri ilə danışıqlar). Bu danışıqlar zaman etibarilə az qala sinxron gedirdi (1991-ci ilin yaz-yay aylarında). Moskvada və Belqradda respublikalarda separatçı qüvvələri güc yolu ilə “dayandırmaq”, hərbi çevriliş variantları müzakirə olunurdu. Yuqoslaviyada bu cəhd birbaşa hərbi yolla Slovaniya və Xorvatiyanın saxlanmasına yönəldi. 1991-ci ilin iyununda Yuqoslaviya on illik müharibə girdabına yuvarlandı. SSRİ-dəki 1991-ci ilin avqustunda baş verən qiyam isə ölkəni hərbi münaqişənin astanasına gətirdi. Və burada iki ölkənin federal mərkəzinin arasındakı fərq tam aşkarlığı ilə görünür. Yuqoslaviyada federal mərkəz faktiki olaraq Yuqoslaviya Milli Ordusu ilə əlaqələri olan Serbiya Respublikasının rəhbərliyi tərəfindən qəsb edilmişdi. Beləcə vəziyyət Serbiya – separatçı respublikalar hərbi qarşıdurmasına transformasiya olunmuşdu. SSRİ-də isə federal mərkəzin respublikalar səviyyəsində möhkəm dayağı yox idi, amma ona zidd çıxan əsas qüvvə məhz Rusiya rəhbərliyi idi. Məhz Rusiya rəhbərliyi mərkəzin respublikların ayrılmasının qarşısını zorla almaq cəhdinə (Bakı, Tiflis və Vilnüs hadisələri) qarşı çıxdı. (4)

Yuqoslaviya qeyd olunduğu kimi, 6 respublikanı və iki muxtariyyəti birləşdirən federal respublika idi. Yuqoslaviyanın dağılma ərəfəsində əhalisinin sayı 10 milyon nəfər, tərkibi isə aşağıdakı kimi idi: 62% - serblər, 17% - albanlar, 5% - çernoqoriyalılar, 3%-müsəlmanlar, 3% - macarlar və başqaları. 1990-cı illərin əvvəllərində əhalinin əksəriyyətini serblərin təşkil etdiyi Serbiya və Çernoqoriya birləşərək Yuqoslaviya ittifaqını yaratdılar. Qalan dörd respublika (Xovatiya, Sloveniya, Bosniya və Hersoqovina, Makedoniya) federal mərkəzdən müstəqillik almağa çalışırdı. Makedoniyada serblərin sayı az olduğundan və bu




respublika investorlar üçün heç vaxt əhəmiyyət kəsb etmədiyindən, keçirilən referendum sayəsində müstəqillik əldə etdi. Keçmiş Yuqoslaviya ərazisində ilk silahlı münaqişə isə serb və xorvatlar arasında baş verdi. Serb-xorvat qarşıdurmasında 20 min nəfər zərər çəkdi, bir çox şəhər və kənd dağıdıldı, respublikanın təsərrüfatına böyük zərər vuruldu, 230 min serb qaçqın düşdü. 1992-ci ildə beynəlxalq ictimaiyyətin təzyiqi ilə hərbi əməliyyatların dayandırılması haqqında saziş imzalandı və Xorvatiyanın müstəqil dövlət kimi tanınması baş tutdu. 1991-ci ildə Bosniya və Hersoqovinada əhalinin 44%-ni müsəlmanlar, 31%-ni pravoslav serblər, 17%-ni isə katolik xorvatlar təşkil edirdi. 1992-ci ildə respublikanın müstəqilliyi haqqında referendum keçirildi və onun nəticələri ilə Bosniya serbləri razılaşmadı. Onlar Bosniyadan ayrı milli dövlətlərini qurmaq istəyirdilər. Serblər Srayevo müsəlmanlarına və onları dəstəkləyən xorvatlara qarşı çıxmağa hazır idilər. Serbiya hökumətindən dəstək almaqla və Yuqoslaviya ordusunun yardımı ilə onlar vətəndaş müharibəsinə başladılar. Bu hərbi qarşıdurma böyük qırğınlara və etnik təmizləmələrə səbəb oldu. (12)

1991-1995-ci illərdə Yuqoslaviyadakı vətəndaş müharibəsinin gedişində Serbiya ordusu Bosniya və Hersoqovinanın şərqindəki Srebrenisa şəhərində əməliyyat həyata keçirdi. “Krivaya-95” adlı bu əməliyyata serb generalı Ratko Mladiç rəhbərlik edirdi. 11 iyul 1995-ci ildə Serebrenisaya girən ordu Mladiçin rəhbərliyilə 8 min 372 bosniyalını qətlə yetirdi. Birləşmiş Millətlər Təşkilatının Srebrenisanı güvənli bölgə elan etməsinə və oraya Hollandiyanın 400 nəfərdən ibarət sülhməramlılarını yerləşdirməsinə rəğmən, qətliamın qarşısı alınmamışdı. Şəhərdə bir həftə davam edən qətliam İkinci Dünya müharibəsindən sonra baş vermiş ən böyük cinayət olaraq tarixə düşdü. (10)

Yuqoslaviyada yaranmış situasiya federasiyanın altı dövlətə parçalanması ilə nəticələndi. Etnik qrupların rəhbərləri öz qrupları daxilində mövqelərini möhkəmlətmək üçün qrup əndişələrini idarə edirlər. Öz etnik qrupu ilə birgə seçilməyə güclü ehtiyacı olan etnik



fəallar cəld və birbaşa sosial polyarlaşma prosesləri yaratmaq üçün mənsubiyyət və əndişələrdən sui-istifadə edir ki, bu da qruplar arasında düşmənçilik və əndişəni gücləndirir. Polyarlaşma davam etdikcə etnik qrupun üzvləri yalnız öz etnik qrupuna mənsubiyyəti göstərməsi və digərləri ilə qarşılıqlı əlaqələri kəsməsi üçün Öz rəhbərləri tərəfindən təsirə və rəqib qrupda düşmənçiliyin əks təsir kimi intensivləşməsinə məruz qalır. Məsələn, keçmiş Yuqoslaviyada xorvatlar və serblər arasında yüksək sosial inteqrasiyaya baxmayaraq, etnik fəallar ailələri parçalamaq və üzvləri Özlərini yalnız bir qrupla eyniləşdirməyə məcbur edən prosesi başlamağa qabil olmuşlar. Siyasi qazanc imkanları axtaran "siyasi işbazlar" öz siyasi məqsədlərinə çatmaq üçün bənzər proseslərdəki sosial qütbləşmə prosesinin yaratdığı üstünlüklərdən istifadə edə bilər. Onlar etnik fərqləri kəskinləşdirmək, incikliyi və əndişəni artırmaq üçün tarixi faktlara və ənənələrə bilərəkdən yeni yozum verirlər. Slobodan Miloşeviç həm etnik fəal, həm də siyasi işbaz idi: U.G.Titonun ölümündən sonra Yuqoslaviyanın dövlət strukturu zəiflədikdə o, serblərin siyasi hakimiyyətini gücləndirmək üçün müqəddimə kimi Xorvatiya serblərinə qarşı xorvatların zorakılığını və Kosovoda müsəlmanların Serbiyaya təhdidini şişirtmişdi. (1)

SSRİ onun tərkibindəki respublikaların əhalisinin etnik müxtəlifliyi ilə xarakterizə olunurdu. Bu müxtəliflik əhalinin əsas qrupları arasında gərginlik yaratsa da, əsil münaqişələr respublikaların müstəqillik əldə etmələri ilə başlandı. Yeni dövlətlərin yaranması ilə etnik ziddiyyətlər gücləndi və separatçılıq meyilləri meydana çıxdı. Bir çox hallarda Rusiya təsiri münaqişəyə təkan verirdi. Çünki SSRİ-nin varisi üçün bütün mürəkkəbləşmələr sərfəli idi. 1988-ci ildə başlamış Dağlıq Qarabağ münaqişəsi 1992-ci ildə hərbi əməliyyatlar fazasına qədəm qoydu. Bu günədək həll olunmamış münaqişə dövründə yalnız 1988-1994-cü illərdə 24 min nəfər həlak olub. Ermənistan Silahlı Qüvvələri Dağlıq Qarabağı və ona bitişik 7 Azərbaycan rayonunu işğal altında saxlayırlar.

1989-cu ildə Moldova və Rumıniyanın birləşməsi məsələsi gündəmə gələndə, Dnestrin şərq sahilində məskunlaşmış slavyanlar müstəqil Dnestryanı Moldav Respublikasının yarandığını elan etdilər. Bu addım 1992-ci ildə Dnestryanıda müharibə üçün bəhanə oldu. Min beş yüzdən artıq insan həlak oldu və barışıq imzalanması ilə yekunlaşdı. Danışıqların baş tutmaması və bütün təkliflərin rədd olunmasından sonra 2016-cı ildə referendum keçirildi, əhalinin 97,1%-i Moldovadan dərhal ayrılaraq Dnestryanıda 1500 nəfərlik kontingent saxlayan Rusiyaya birləşmək haqqında qərar qəbul etdi. (14)

Ümumiyyətlə, 1988-1991-ci illərdə keçmiş sovet respublikalarında etnik zəmində 150 münaqişə olub ki, onlardan da 20-də insan tələfatı baş verib. Keçmiş SSRİ ərazisində nizami hərbi dəstələrin iştirakı və ağır artilleriyadan istifadə edilməklə 6 regional silahlı münaqişə olub: 1988-1994-cü illərdə Ermənistan-Azərbaycan, 1991-1992-ci illərdə gürcülər-cənubiosetinlər, 1992-1994-cü illərdə gürcü-abxaz, 1992-ci ildə Dnestryanı, 1994-1996 və 1999-2001-ci illərdə rus-çeçen münaqişəsi və 1992-1996-cı illərdə Tacikistanda vətəndaş müharibəsi olub. Eləcə də 20-dək dinc əhali arasında itkilərə səbəb olan qısamüddətli silahlı toqquşmalar baş verib ki, bunlardan da ən böyüyü 1992-ci ildə olan osetin-inquş qarşıdurması idi. (6)

Sovet İttifaqı və Yuqoslaviyanın süqutu nəticəsində yaranmış silahlı münaqişələr arasındakı mühüm fərqlərdən biri də dünya ictimaiyyətinin və beynəlxalq təşkilatların bu münaqişələrə münasibəti ilə bağlı idi.

Ümumi maraqların müdafiəsi üçün ən geniş əks-tədbirlərdən biri beynəlxalq birlik tərəfindən keçmiş Yuqoslaviyaya qarşı həyata keçirilmişdir. Kosovodakı genosidə cavab olaraq Avropa İttifaqına üzv ölkələr Yuqoslaviyaya maliyyə aktivlərinin dondurulmasını nəzərdə tutan və hava gəmilərinin uçuşuna qadağa qoyan qanun qəbul ediblər. Almaniya, Fransa və Böyuk Britaniyanın tətbiq etdiyi tədbirlər müvafiq dövlətlə ikitərəfli müqavilə üzrə münasibətlərin dayandırılmasını nəzərdə tuturdu. Bu müqavilə normalarının fəaliyyətinin denonsasiyası öz-özlüyündə müəyyən bir hüquqi prosedur tələb edirdi ki, bu da məlum səbəbdən gözlənilməmişdi. (9)

Kosovoda etnik albanlara qarşı həyata keçirilmiş diskriminasiya siyasətinə beynəlxalq birlik 1999-cu ildə Rambuye danışıqlarında geniş şəkildə öz münasibətini bildirmişdir. Beynəlxalq birliyin Yuqoslaviya daxilində Kosovoya muxtariyyət statusunun verilməsi və Kosovonun dövlət atributlarına sahib olmasına dair təklifinə Miloşeviçin birmənalı qaydada qarşı çıxması göstərilən tarixdə həyata keçirilən 1-ci və 2-ci Rambuye danışıqlarının nəticəsiz yekunlaşmasına səbəb olmuşdur. Birləşmiş Millətlər Təşkilatının (BMT) qətnaməsi olmadan 1999-cu ilin 24 mart - 9 iyun tarixlərində NATO hava zərbələri ilə Miloşeviçi sülh planını qəbul etməyə məcbur etdi. Daha sonra BMT-nin himayəçiliyi altında Kosovonun statusunun müəyyən edilməsi məqsədilə Aİ-nin və qlobal güclərin birbaşa iştirakı ilə danışıqlar həyata keçirilmişdir.16 Serbiyanın ölkə suverenliyi daxilində gecikmiş "ən yüksək muxtariyyət" mövqeyi Kosovonun müstəqillik mövqeyi ilə üst-üstə düşməmişdir. (8)

Ən mühüm məqamlardan biri də Yuqoslaviya ilə bağlı Beynəlxalq Tribunalın çağırılması oldu. 1993-cü ilin mayında BMT Təhlükəsizlik Şurası keçmiş Yuqoslaviya ərazisində 1 yanvar 1991-ci ildən Təhlükəsizlik Şurasının sülhün bərpa olunmasından sonra müəyyənləşdirəcəyi tarixədək trubunalın yaradılması haqqında qərarı yekdilliklə qəbul etdi. Tribunalda Cenevrə konvensiyasının, müharibə aparılması qaydalarının pozulmasına, soyqırım törədilməsinə cavabdeh olan şəxslərin cəzalandırılması nəzərdə tutulurdu. Bu, Nürnberq tribunalından və Uzaq Şərqdəki hərbi cinayətkarları mühakimə edən tribunaldan sonra ilk hadisə idi. Müttəhimlər kürsüsündə serblərin demək olar ki, bütün mülki və hərbi rəhbərliyi əyləşmişdi – Yuqoslaviya prezidenti Slobadan Miloşeviç, Serbiya prezidenti Milan Militunoviç, Yuqoslaviyanın




müdafiə naziri Draqolyub Oydaniç, Serb Respublikasının prezidenti Bilyana Plavşiç, Serb Respublikasının xarici işlər naziri Miço Stanişiç, Serbiyanın baş naziri Nikola Şainoviç, Serb Kraina Respublikasının prezidenti Milan Babiç, Serb Respublikasının prezidenti Radovan Karaciç və bir çox başqaları. Beynəlxalq tribunal tərəfindən cinayətlərdə ittiham edilən 161 nəfərin 100 nəfərdən çoxunu serb tərəfi təmsil edirdi. 24 il davam edən Beynəlxalq tribunal öz işini yalnız 2017-ci ilin sonunda başa vurdu. (11)

Sonda hər iki ölkədə milli məsələnin qoyuluşundakı fərqə diqqət yetirmək lazımdır. Hər iki halda Federasiya böhranının detonatorları millətlərarası qarşıdurmalar idi. YSFR-də bu, Kosova hadisələri (əvvəlcə 1981, sonra isə 1989-cu ildə), SSRİ-də 1988-ci il Dağlıq Qarabağ hadisələri, sonra isə millətlərarası münaqişələr ocağının daha geniş yayılması (Abxaziya, Cənubi Osetiya, Orta Asiya, Dnestryanı) ilə bağlı idi. Lakin Yuqoslaviyadakı qarşıdurma serb - Kosova albanları, serblər - qonşu respublikaların (Bosniya və Hersoqovina, Xorvatiya) "titul" xalqları oxu üzrə gedirdisə və mərkəzi ümummilli məsələ ənənəvi serb problemi ilə bağlı idi. SSRİ-də isə millətlərarası münaqişələr regional səviyyədə baş verir və başlanğıcda rus əhalisini təsir etmirdi (bu, sonradan SSRİ-nin dağılmasından sonra olacaqdı), bu münaqişələrə yerli etnik qruplar cəlb olunmuşdu. Beləliklə, YSFR-də məhz serb məsələsinin kəskinliyi, federasiyanın dağılması halında sərhədlərin yenidən "biçilməsinin" prinsipial mümkünsüzlüyü iki ölkə arasındakı vəziyyəti prinsipial surətdə fərqləndirirdi. (4)

İki ölkənin süqutu nəticində yaranmış silahlı münaqişələrdən danışarkən bir ən böyük fərqə də diqqət yetirmək lazımdır. Beynəlxalq ictimaiyyətin səyi ilə keçmiş Yuqoslaviya ərazisindəki bütün silahlı münaqişələr nizamlanıb, günahkarlar cəzalandırılıb. Keçmiş SSRİ ərazisindəki münaqişələr isə nəinki aradan qaldırılıb, əksinə yeniləri (Krım, Donbas) əlavə olunub. Və bu münaqişələr zaman-zaman aktiv vazaya qədəm qoyurlar (avqust, 2008, Gürcüstan-Rusiya, aprel 2016, Ermənistan-Azərbaycan).

## ƏDƏBİYYAT

1. *Abbasbəyli A., Darabadi P., İbrahimov Ə. Konfliktologiya. Bakı, 2006*

2. *Mehdiyev R. Avropa strukturlarının deqradasiyasının mənbələri haqqında və ya Azərbaycana münasibətdə ikili standartlar siyasəti. Dünya nizamından "nizamsızlığa" doğru, Bakı, 2015*

3. *Богданович В.Ю., Маначинский А.Я., Бутенко С.Г. Конфликты и войны после распада СССР. Житомир, 2006.*

4. *Волкова Е. Г., Кирьяков Ю. С. Факторы распада СФРЮ и СССР: сравнительнотипологический анализ // Судьба России: вектор перемен. Материалы Международной научной конференции. Том I / Под ред. Р. Г. Пихои. — Екатеринбург—Москва: Академический проект, 2007.*

5. *Жирохов М. Семена распада: войны и конфликты на территории бывшего СССР. Москва, 2012*

6. *Ланцов С. Политическая конфликтология: Учебное пособие. Санкт-Петербург. 2008*

7. *Лукашенко Е.А. Распад Югославии, его уроки и международные последствия. Москва, 1997*

8. *Analitik baxış jurnalı.iyul-avqust 2010*

9. *Strateji Təhlil jurnalı. 25 avqust 2016*

10. *Yanyatan A. Srebrenitsa katliamı nedir? Srebrenitsa soykırımı tarihi. Milliyet qazetesi (Türkiye), 11 temmuz 2018*

11. *Аргументы и факты, 8 декабря 2017 г.*

12. *Бовал В. Что мы знаем о югославской войне// https://topwar.ru/13678-chto-my-znaem-o-yugoslavskoy-voyne.html*

13. *Сербы и россияне в период распада СФРЮ и СССР: так ли случайны несовпадения? //http://www.profi-forex.org/novosti-rossii/entry1008079997.html*

14. *https://inosmi.ru/social/20161211/238374383.html*

**Açar sözlər:** *SSRİ, Yuqoslaviya, etnik münaqişə, silahlı münaqişə, hərbi əməliyyat, beynəlxalq tribunal, etnik qruplar, vətəndaş müharibəsi.*

**Ключевые слова:** *СССР, Югославия, этнический конфликт, вооруженный конфликт, военная операция, международный трибунал, этнические группы, гражданская война.*

**Key words:** *USSR, Yugoslavia, ethnic conflict, military operation, international tribunal, ethnic groups, civil war.*

## ЗАКЛЮЧЕНИЕ

В статье повествуется о вооруженных конфликтах, возникших в результате развала СССР и Югославии, причинах появления новых независимых государств. Автор комментирует проблему постановки национального вопроса в обеих странах, исследует схожие черты и различия вооруженных конфликтов. Неудовлетворительная ситуация с решением национального вопроса как в бывшей Югославии, так и бывшем СССР указывается в качестве причины, приведшей к вооруженным конфликтам. В статье исследуется период с конца 1980-х годов до наших дней.

## SUMMARY

The article talks about armed conflicts occurred as a result of the collapse of USSR and SFR Yugoslavia. Author interprets problem of putting national issue in both countries, investigates similar and different aspects of the armed conflicts. As the national issue could not be solved neither by the former Yugoslavia nor the Soviet Union, it is shown as a reason that caused the armed conflicts. The period beginning from the end of the 1980s until today is investigated in the article.

# İNFORMASİYA TEXNOLOGİYALARININ SİYASİ PROSESLƏRƏ TƏSİRİ

VÜQAR HÜSEYNOV
Azərbaycan Respublikası Müdafiə Nazirliyi




İctimai hakimiyyət sahəsində müxtəlif ideologiyaların, hisslərin, dəyərlərin, simvolların, doktrinaların, rəsmi normaların və bu normalardan fərqlənən müxtəlif aktorlar tərəfindən verilən qiymətləndirmələrin və irəli sürülən fikirlərin formalaşması və mövcudluğu xüsusi siyasi prosesi təşkil edir. Siyasi subyektlər tərəfindən məlumatların ötürülməsi və mübadiləsi vasitəsilə qarşı tərəflərə öz mövcudluğunu bildirilməsi və onlarla zəruri kontakt və əlaqələrin yaradılması bu siyasi prosesin mahiyyətini təşkil edir. Bu əlaqələr onlara fərqli siyasi rollarda iştirak etməyə imkan verir. Beləliklə, məlumatları daha da tez mübadilə etmək qabiliyyətinə malik olan subyektlərin öz istəyinə nail olmaq ehtimalı daha da yüksəkdir. Bundan ötrü isə o, məhz informasiya texnologiyalarından mümkün qədər çox istifadə etməlidir.

Lakin, bütün mövcud və mübadilə olunan məlumatlar siyasət aləmində fəaliyyət göstərən və siyasi proseslərə cəlb olunan insanlar üçün eyni dərəcəyə malik deyildilər. Xüsusilə, dövlət hakimiyyəti sahəsində zəruri qərarların hazırlanması və qəbulu, və ya öz funksiyalarının icrası, həmçinin digər müvafiq fəaliyyətin həyata keçirilməsi üçün siyasətçilər tərəfindən müxtəlif məlumatlar axınından seçilən məlumatlar siyasi informasiya adlanır. Bu mənada informasiya istənilən siyasi subyektin fəaliyyətinin ilk şərti və eyni zamanda öz məqsədlərinə nail olunması naminə siyasi sahədə effektiv qarşılıqlı təsir göstərmək imkanı verən mühüm əhəmiyyət kəsb edən resurs qismində çıxış edir. Zəruri informasiyanın olub-olmaması səbəbindən siyasi subyekt hakimiyyəti, təsir etmək qabiliyyətini və ya siyasi sahədə öz maraqlarını həyata keçirmək imkanını itirə bilər. Beləliklə, siyasi sahədə fəaliyyət göstərən, siyasi proseslərə cəlb olunan, siyasi fəaliyyətlə məşğul olan və hakimiyyətə təsir göstərmək marağında olan istənilən subyektin ilk və vacib məqsədlərindən biri məhz zəruri informasiyanı əldə etməkdir. Əlbəttə, bu məqsədə müvəffəqiyyətlə nail olmaq üçün ilk növbədə informasiya texnologiyaların rolu böyükdür.

Demokratik cəmiyyətin inkişafının bütün mərhələlərində informasiyanı əldə etmək, işləmək və çatdırmaq qabiliyyəti mühüm rol oynamışdır. Yaşadığımız informasiya dövründə bu qabiliyyətin əhəmiyyəti daha da artır. İstənilən dövlətdə məlumatların ötürülməsi müəyyən texniki vasitələrin istifadəsini nəzərdə tutur, bu səbəbdən də informasiya prosesləri özündə müvafiq təşkilati-struktur komponentlərini daxil edir. İlk növbədə, bu strukturlara informasiyanı yayan (translyasiya edən) texniki kanalları, həmçinin informasiyanı nəinki ötürmək və ayırd etmək, hətta toplamaq, nəzarət etmək, qorumaq və mühafizə etmək qabiliyyətinə malik strukturları da aid etmək lazımdır. İnformasiya texnologiyalarının inkişafını və kiber cinayətlərin yayılmasını nəzərə alaraq, sözügedən strukturların xarici müdaxilədən qorunması – müvafiq cavabdeh qurumların ilk vacib vəzifələrindəndir.

Müasir informasiya texnologiyaları insanların yaşama tərzini əhəmiyyətli dərəcədə dəyişdirir, iş proseslərinin və proseduraların, həmçinin cəmiyyətin müxtəlif sahələrinin təşkilinin mahiyyətinə təsir göstərir. Cəmiyyətin inkişaf səviyyəsinin qiymətləndirilməsi üçün istifadə olunan yeni meyarlar meydana çıxır: hər insan üçün informasiya mənbələrinin sayı, internet xidmətlərin əlçatanlığı, internet şəbəkəsinin yayılması və dövləti əhatə etmə sürəti, kompüter və internet sahəsində peşəkar insanların sayı və s.

Kütləvi İnformasiya Vasitələrinin (KİV), xüsusən də televiziyanın, internet xidmətlərinin və müasir informasiya texnologıyalarının siyasətdə oynadığı rol birmənalı qiymətləndirilə bilməz. KİV-lər, televiziya, internet informasiya texnologiyaları ilə birlikdə – müəyyən dövlətdə və ya dünyanın istənilən ölkəsində baş verən hadisə və proseslər barədə yerli əhalinin məlumatlandırılması, cəmiyyətdə müəyyən fikrin yaradılması və baş vermiş hadisələrə siyasi qiymətləndirmənin verilməsi üçün təyin olunan mürəkkəb və çox şaxəli institutdur. Burada xüsusi diqqət istifadə olunan informasiya texnologiyalarına verilməlidir, çünki məhz onlar bir çox müxtəlif tapşırıqların həyata keçirilməsində mühüm rol oynayırlar.

İnformasiya texnologiyalarının siyasi prosesə, cəmiyyətin həyatına və hər birimizə necə təsir göstərməsi sualı müasir cəmiyyətinin əksəriyyətini maraqlandırır. İnformasiyanın sosial cəmiyyətə necə təsir göstərməsi hələ də birmənalı olaraq məlum deyil. Keçmişdə insana, cəmiyyətə və siyasi proseslərə qəzet və jurnalların, çap olunmuş ədəbiyyatın təsiri sözsüz idi. Radionun kəşfindən sonra texniki vasitələrə daha da üstünlüyün verilməsi başlamışdır. Televiziya və internet meydana gəldikdən sonra isə, cəmiyyətdə kütləvi şəkildə fikir yaratmaq, amil və meyllərə təsir göstərmək, siyasi prosesləri idarə etmək sahəsində televiziyanın və internetin ən vacib vasitələr olması aydındır. Hələ 1927-ci ildə məşhur amerikalı politoloq, müasir politologiyanın banilərdən biri H. Lassuell KİV-rin dörd əsas funksiyasını müəyyən etmişdir: dünyanı müşahidə etmək (informasiyanın toplanması və yayılması); redaktə funksiyası (informasiyanın seçilməsi və şərh edilməsi); ictimai fikrin yaradılması; mədəniyyətin yayılması [1]. Eyni zamanda isə, bu alətlərin bütün imkanları hələ də tamamilə öyrənilməyib [2].

Son onilliyin hadisələri dünyanın bir çox ölkələrinin cəmiyyətlərinin siyasi həyata aktiv şəkildə cəlb olunmasını, vətəndaşların siyasi iştirakı səviyyəsinin kəskin surətdə artmasını göstərmişdir. İnsan kütləsinin siyasətə qarışmasının səbəbləri və nəticələri fərqli və birmənalı deyil. Lakin hətta səthi təhlil cəmiyyətin kütlə şəklində aktivləşməsində müasir kommunikasiya vasitələrinin və ilk növbədə internet və informasiya texnologiyalarının mühüm rol oynamasını göstərir. Siyasi prosesdə internetin rolu haqqında müzakirələrin aparılması zamanı insanların əksəriyyəti bu alətlə öz ümidlərini bağlayır, çünki informasiya texnologiyaları vaxt və məkan məhdudiyyətlərini pozaraq insanların istədiyinə daha da tez nail olmasına kömək edir [3], lakin, eyni zamanda, bu texnologiyalar insanları bir-birindən təcrid edərək bilavasitə ictimai iştirakdan məhrum edir.

"Həqiqi demokratiya" ideyası kiber-mədəniyyətdə, daha doğru desək, internet məkanını öz maraqlarında istifadə edən siyasi texnoloqlar tərəfindən yaradılmış informasiya-mədəniyyət məkanında kök atmışdır. Sözsüz ki, xüsusi məqsədlərlə yaradılmış və siyasətlə məşğul olan kompaniyalar siyasi informasiyaların yayılması üçün İT-texnologiyaları yetərli qədər istifadə edirlər. Lakin, siyasi proseslə əlaqəli olan bir çox məsələləri kompüter



proqramları və ya texnologiyalar ilə tamamilə əvəz etmək hələ ki mümkün deyil. Məsələn, qanunvericilik sahəsində xüsusi tədqiqatların aparılması, siyasi gündəmin yaradılması, koalisiya və ittifaqların yaradılması və s. təsadüfi deyil ki, bu funksiyalar siyasi vasitəçilər qismində iştirak edən insan və təşkilatlar tərəfindən yerinə yetirilir. Vasitəçi qismində fərdlər, maraq əsasında yaranmış qruplar, təşkilatlar, partiyalar və s. çıxış edə bilər. Müasir texnologiyalar məlumatı ani şəkildə dünyanın istənilən nöqtəsinə çatdırmaq qabiliyyətinə malikdirlər, lakin yuxarıda göstərilən vasitəçilər olmadığı təqdirdə bütün səylər müvəffəqiyyətsiz olardı [4].

Siyasi sistemlərin inkişafının müasir təcrübəsi sənaye sektorunun inkişaf etmiş ölkələrdə texniki vasitələrin, o cümlədən informasiya texnologiyalarının siyasi proseslərin təşkilində rolunun artırılması meyllərini göstərir. Bu meyllər daha da çox səsvermə prosesində əlavə texniki imkanların meydana gəlməsi (məsələn, interaktiv əlaqə elektron sistemləri), KİV-nin siyasi prosesdə rolunun və əhəmiyyətinin artırılması, dövlət idarəçilik sistemində ənənəvi iyerarxik əlaqələrin kəsilməsi və nisbətən aşağı səviyyəli strukturların müstəqilliyinin artırılması kimi sahələrdə müşahidə olunur. Lakin, bu amillər – sadəcə hakimiyyət institutlarının və subyektlərin fəaliyyət tərzlərinin təkmilləşdirilməsi üçün əlavə vasitədir, çünki meydana çıxan yeni informasiya texnologiyaları müxtəlif qrupların öz siyasi maraqlarının, onların arasındakı mübahisə və ziddiyyətlərin, o cümlədən ictimai vasitəçilər şəbəkəsinin aparıcı rolunu heç də aradan qaldırmır.

Məntiqlə, "elektron demokratiya" adlanan konsepsiya demokratik rejimlər təcrübəsində öz təsdiqini tapmır, çünki demokratik quruluşa malik dövlətlərdə geniş ictimai vasitəçilər şəbəkəsi mövcuddur. Sivil cəmiyyətin müxtəlif strukturları, siyasi partiyalar, ictimai təşkilatlar, kütləvi informasiya vasitələri müasir dövrdə heç də öz təsir etmə imkanını itirməmiş və itirmək arzusunda da deyildilər. Əksinə, sadalanan qruplar həm öz gündəlik həyatında, həm də ən intensiv siyasi proseslərin gedişində (məsələn, seçkilər, referendumlar, müxtəlif səsvermələr zamanı) təbliğat məqsədilə internetdən geniş istifadə edirlər. Vahid maraqlar əsasında təşkil olunan ənənəvi qruplar öz tərəfdarlarını elektron kommunikasiyalara cəlb etməklə hətta internet dövründə siyasi həyatının əsas oyunçuları rolunda qalırlar. Siyasi məlumatların həcminin hədsiz artması şəraitində siyasi vasitəçilərin əhəmiyyəti heç də aşağı düşə bilməz, çünki məhz onlar nüfuzlu ekspertlərə çevrilirlər və onların rəyinə cəmiyyətin bir çox dairələri etibar edir [5].

Lakin, virtual əsasda yaranan qruplar (cəmiyyətlər) sosial qarşılıqlı əlaqələrin yaradılması üçün möhkəm bünövrəni təşkil



etmir. Elektron demokratiya vətəndaşların əksəriyyətindən aktiv siyasi mövqe tələb edir, bu isə müasir həyatının əsas meyllərdən biri olan – vətəndaşların siyasi aktivliyinin səviyyəsinin aşağı düşməsi meylinə – ziddir. Yeni informasiya texnologiyaları vasitəsilə siyasi məlumatları asanlıqla əldə etmək və öz fikrini azad söyləmək imkanı nəyinki aktiv siyasi həyata stimul yaratmır, hətta qorxudur. Cəmiyyətdə informasiya-kommunikasiya imkanlarının artması vətəndaşlarda siyasətə qarşı etibarsızlıq yaratmış və marağın itirilməsinə səbəb olmuşdur [6]. Digər aşkar nümunə 2011-ci ilin əvvəlində Misirdə və Tunisdə baş vermiş hadısələrdir. Bu hadısələr hər iki ölkənin prezidentinin istefasına səbəb olmuş və həmçinin digər qonşu ölkələrdə analoji hadisələrin baş verməsinə, ölkə vətəndaşlarının siyasi rəhbərlərinə etibarın itirilməsinə və kütləvi şəkildə asayışın pozulmasına gətirib-çıxarmışdır. Qısa müddət ərzində çoxalmış informasiyanın həcmi insanları daha da bilikli və məlumatlı olmasına, o cümlədən hadisələri daha da dərindən anlamasına gətirmir, çünki informasiyanın miqyası, mürəkkəbliyi və böyük həcmliliyi vətəndaşlara daha da böyük tələbləri irəli sürür [7]. Bununla yanaşı, demokratik rejimlərin formal legitimliyinin pozulması baş verir [8].

İnformasiya texnologiyalarının yayılması müəyyən problemli məsələlərin ortaya çıxmasına səbəb oldu. Beləliklə, bu gün siyasi aləmdə, xüsusilə də İT-texnoloqlar mühitində bir maraqlı fikir yayılıb: “Həqiqi demokratiya” nəyinki insanlara evdən çıxmayaraq səsverməyə qoşulmaq imkanını verəcək, hətta interneti istifadə etməklə öz iradəsini bildirilməsi ilə əlaqəli olan bir çox məsələni həll etmək üçün şərait yaradacaq. Lakin, yadda saxlamaq lazımdır ki, hətta ənənəvi səsvermə zamanı seçki məntəqələrində seçki kabinaları və əllə doldurulan bülletenlər vasitəsilə keçirilən səsvermə prosesinin saxtalaşdırılmamasına, seçiciləri isə öz səslərini müəyyən namizədə verməyə məcbur etməməsinə əmin olmaq olmaz [9].

Bu məsələ ilə əlaqəli bir nümunə gətirmək olar. 2009-cu ilin mart ayının 1-də Rusiyada fəaliyyət göstərən “Rusiya Federasiyasının subyektlərində vahid səsvermə günü” adlı İnformasiya mərkəzinin fəaliyyəti çərçivəsində eksperiment keçirilmişdir. Eksperimentin gedişində seçicilər internet şəbəkəsi vasitəsilə səsverməyə cəlb olunmuşdur. Eksperimentin sonunda səsverməni təmin edən sistemə qeyri-qanuni daxilolma səyləri barədə məlumat açıqlanmışdır. Məlum olmuşdur ki, eksperimentin gedişində həmin sistemə 270 mindən çox hücum qeydə alınmış, onların sırasında isə 212 min hücum potensial təhlükə təşkil etmişdir. Cinayətkarlar tərəfindən müdafiə sistemini sındırmaq naminə 746 dəfə cəhd qeydə alınmışdır [10].

Müasir elektron səsvermə sistemlərində təhlükəsizlik tədbirlərinin tam şəkildə yerinə yetirilməməsi, o cümlədən icazə verilmədən sistem administratorlarının səlahiyyətlərinin genişləndirilməsi, şifrələmənin düzgün tətbiq olunmaması, şəbəkələrdə zəifliklərin olması, proqram təminatının zəif inkişafı kimi problemlərin mövcudluğu haqqında tez-tez fikirlər söylənir. Bununla yanaşı, sistemə qulluq göstərən heyət (seçki məntəqələrinin işçiləri, proqramçılar və s.) tərəfindən sistemə müdaxilə olunma ehtimalı var. Bu müdaxilələr nəyin ki, fərdi səsvermənin nəticələrini dəyişdirə, hətta seçicinin təhlükəsizliyinin zəmanətini təmin edən səsvermə anonimliyini poza bilər və səslərin qeyri-qanuni yolla əldə etmək imkanını yarada bilər. Beləliklə, internet vasitəsilə səsvermə zamanı seçicilərin məlumat bazalarına qanunsuz daxilolma və manipulyasiyalar nəticəsində bəzi seçicilər öz səslərini vermək imkanından məhrum ola bilər.

Yuxarıda qeyd olunduğu kimi, proqram təminatının müəyyən tələblərə cavab verməməsi problemli məsələlərdən biridir. Proqram təminatı səsvermə texnologiyasına və səsvermənin nəticələrinin hesablama prosesinə olan tələblərə ciddi şəkildə uyğun olmalıdır ki, bu da səsvermənin şəffaflığının artırılmasına, nəticələrin çıxarılmasının operativliyinə, səslərin hesablanması zamanı səhvlərə yol verilməməsinə və seçki məntəqələrində səsvermənin nəticələrinin saxtalaşdırılmamasına gətirib-çıxarar [11]. Bütün bunlar seçicilərdə seçkilərə olan etibarın artırılması üçün şərait yaradacaq [12]. Təəssüf ki, sadalanan problemləri İT-texnoloqlarının əksəriyyəti dərk etmir, çünki onlar “səsvermə” anlayışını yalnız texniki nöqteyi-nəzərdən müəyyən edir, digər problemlər isə onlar üçün aydın deyil və əhəmiyyət kəsb etmir [13].

Ənənəvi KİV-lə müqayisədə sözsüz ki internet bir neçə kommunikativ üstünlüklərə malikdir. İnternet istifadəçiləri qlobal informasiyaya birbaşa çıxışa malik olaraq fəal interaktiv ünsiyyəti və dialoqu qura bilərlər. İnternet informasiyanın əldə edilməsi və ünsiyyətin yaradılması üçün keçmişdə görünməmiş və mümkün olmayan sürəti və ucuzluğu təmin edir. İnformasiyanın yayılma sürəti bir çox ənənəvi KİV-nin öz çap olunmuş nəşrlərinin onlayn versiyalarının yaradılmasına məcbur edib. Dövlət, ticarət və digər ittifaqlar və təşkilatlar isə Dünya Şəbəkəsində özlərini təmsil etməyə can atır və öz fəaliyyətlərini daha da böyük həcmdə təşkil edirlər. Əlbəttə, internet əhalinin məlumatlandırılması üçün imkanlar verməklə yanaşı, yalan məlumatların və dezinformasiyanın yayılması üçün də şərait yaradır və eyni zamanda həm qanuna riayət edən vətəndaşlara, həm də cinayətkar və terrorçulara eyni dərəcədə əlçatandır. İnternet vasitəsilə vətəndaşlarla hakimiyyətin yaxınlığını təmin edəcək ideya həmçinin şübhəlidir. İctimai ideal qismində Kiber məkan konsepsiyası yalnız texnologiyalara şamil edilir, internetə peşəkar yanaşma isə onun yalnız “vasitəçilik xidmətlərini” göstərərək bu sahədəki mövcud vəziyyəti dəyişdirə biləcəyi barədə geniş yayılmış və standart düşüncəni əks etdirir. “Vasitəçilik xidmətləri” anlayışı bir çox insanın sosial təsəvvüründə mərkəzi yer tutmağa başlayıb [14]. Onların fikrincə, kompüter nəzəri olaraq siyasi institutların, kommersiya fəaliyyətinin, ali təhsilin, tibbin və s. dəyişilməsini təmin etməlidir [15]. Müasir menecment nəzəriyyəsinin banilərindən biri, görkəmli amerikalı iqtisadçı Piter Druker orta təbəqə menecerlərin kommunikativ funksiyası nümunəsində bu hadisəni izah etməyə çalışmışdır. Belə ki, sözügedən menecerlərin əsas vəzifəsi və işi məlumatın yuxarıdan aşağı və əks istiqamətdə göndərilməsindən ibarətdir. Lakin, yaxşı təşkil olunmuş kompüter şəbəkələrinin iyerarxiyası bu menecerləri

əvəz edə bilər, informasiya texnologiyaları isə öz imkanları və müstəqil fəaliyyətləri sayəsində bütün dünyaya əhəmiyyətli "effekt" göstərə bilər. Məhz həmin bu ideyalar İT personalının texniki heyəti arasında daha da geniş yayılıb [16].

Buna baxmayaraq, "vasitəçilik" missiyalarının gizli tərəfləri də vardır və onları bilmək vacibdir. İnformasiya texnologiyalarının əhəmiyyətli sosial dəyişikliklərdə iştirak etməsinə heç kəs şübhə etmir. Lakin bu iştirak digər amillərlə qarşılıqlı ünsiyyətdən asılı olaraq fərlidir. İT texnologiyalarının "vasitəçilik" missiyası tamamilə fərqli və daha da əhəmiyyətli effektə malikdir, çünki məhz onlar insanlara keçmişdə gördüyü işlərə nisbətən xeyli böyük həcmli və yüksək keyfiyyətli işləri görməyə imkan verir, bəzi sahələrdə insanların imkanlarını dəfələrlə çoxaldırlar. Ancaq bu məsələ sonrakı tədqiqatları tələb edir ki, bu da İT texnologiyalarının siyasi prosesdə rolunu daha da aydın anlamasına gətirib-çıxarar [17].

Məsələn, elektron poçt sənədin, məlumatın və ya kollektiv məktubun hazırlanmasını və operativ razılaşdırılmasını asanlaşdırır. Bu fəaliyyətin iştirakçıları canlı rejimdə təqdim olunan layihə ilə öz razılığını və ya razı olmadığını bildirmək imkanına malikdir. Belə təcrübə davamlı olaraq geniş yayılır və bununla da gündəlik siyasi fəaliyyətdə iştirak edən insanların sayının artırılması üçün potensial yaradır. Bundan başqa, bir sıra ölkələrdə (Almaniya, Danimarka, ABŞ, Kanada və s.) bir neçə ildir ki referendumlar və ictimai dinləmələr canlı rejimdə müvəffəqiyyətlə həyata keçirilir.

Lakin, bu işlərin keyfiyyət göstəriciləri dəyişilməyib. Yəni, müəyyən maraqlar əsasında təşkil olunan qruplar, onların koalisiyaları, koalisiyaların iştirakçıları və ümumiyyətlə insanları cəlb edən şəxslər öz əhəmiyyətini itirmədən fəaliyyətlərini davam etdirirlər. İT texnologiyalar bunun üçün geniş imkanlar yaradır, bu tədbirləri əhəmiyyətli dərəcədə sürətləndirir, onların tətbiq olunma sahəsini genişləndirir və onlar haqqında cəmiyyətdə məlumatlandırmanın miqyasını əhəmiyyətli dərəcədə artırır. Bütün bunlar internetin tətbiqi ilə mümkündür [18]. Bu fenomenin əhəmiyyətli aspektlərindən biri – siyasi prosesin qloballaşmasında internetin gözəçarpan roludur. Məsələn, hətta qlobal miqyasda müəyyən maraq əsasında təşkil olunmuş qrupların yaranması (ekoloji qruplar, biznes strukturlar, xakerlər qrupları, terrorçu və ekstremist təşkilatlar, cinayət cəmiyyətlər və s.) və bu qrupların bir neçə ölkədə uzlaşdırılmış fəaliyyətinin aparılması məlumdur [16]. Lakin, internetə və onun siyasi prosesinin qlobalaşmasında oynadığı rola birmənalı baxmaq olmaz, çünki qloballaşma olduqca çox böyük hadisədir, internet isə - qloballaşma prosesini genişləndirən qloballaşmanın ayrılmaz tərkib hissəsidir.

Fiziki şəxslərin şəxsi məlumat bazalarının istifadəsini, vətəndaşların siyasi meylləri haqqında məlumatların avtomatlaşdırılmış işlənilməsini və nəticədə onları maraqlandıran məsələlərin müəyyən edilməsini siyasi kampaniyaların aparılması çərçivəsində informasiya texnologiyalarının tətbiqi nümunəsi kimi göstərmək olar. Belə məlumat bazaları adətən potensial seçicilərə materialların göndərilməsi üçün istifadə olunur. Müəyyən materialları göndərməklə, seçicilər tərəfindən gələcəkdə ediləcək seçim prioritetləri haqqında təxmini məlumatın toplanılması mümkündür [15]. Lakin, buna oxşar üsullar İT texnologiyaları meydana gəlmədən də əvvəl mövcud idi, sadəcə informasiya texnologiyaları bu prosesi daha da effektiv və ucuz başa gələn edir. İnformasiya texnologiyalarının bu keyfiyyətləri onların siyasi prosesdə tətbiqini izah edir [19].

Tam əminliklə demək olar ki, internet meydana gəldikdən sonra siyasi proseslərin ayrılmaz hissəsi olan kollektiv idrak prosesi cəmiyyət üçün daha da aydın görünən oldu. Nümunə kimi onlayn müzakirə qruplarının mövcudluğunu gətirmək olar. Bu qrupların üzvləri vahid maraq əsasında birləşir, onlar qarşılıqlı suallara cavab verir, müəyyən məsələləri dəqiqləşdirir, xəbərlərlə bölüşürlər. Fərqli maraqların müxtəlifliyinə baxmayaraq, internet həmin insanlara birlikdə fəaliyyət göstərmək üçün şərait yaradır. İnternetin digər xüsusiyyəti qlobal ictimai təşkilatların yaranmasında böyük əhəmiyyətə malikdir [20] olmasıdır.

Bu tədbirlər "kiber-məkan" adlanan mühitdə daha çox inkişaf olunur. Kiber-məkan real dünyadan keyfiyyətcə çox fərqlidir. Lakin, internet – öz-özünə və ya planlı şəkildə yaradılmış, insan tarixi boyunca meydana gəlmiş və insanların niyyətlərini birləşdirmək məqsədini daşıyan sadəcə sosial mexanizmlərdən biridir. İnternetin təsirinin düzgün qiymətləndirilməsi üçün onun bütün digər mexanizmlərlə qarşılıqlı əlaqəsinin mahiyyətinin başa düşülməsi vacibdir.

İnternetin cəmiyyətdə rolu haqqında müzakirələrdə tez-tez bir maraqlı fikir səslənir: utopik nəzəriyyəsinə zidd olaraq, internet vasitəsilə maraqsız, məlumatsız, etinasız insanların maraqlanan, məlumatlı, aktiv kiber-vətəndaşlara çevrilməsi mümkündür [6]. Lakin, sosioloji sorğular informasiya texnologiyalarının vətəndaşların siyasi passivliyinin artırılmasına səbəb olmasını göstərirlər. Şəbəkəli KİV-nin öz gəlirlərini artırmaq istəyi onların daha çox əyləndirici resurslara üstünlük verməsinə səbəb olur. Digər tərəfdən isə, informasiya həcminin əhəmiyyətli dərəcədə böyüməsi vətəndaşların məlumatlığını heç də mütləq artırmalı və ya baş verən hadisələri daha da dərindən düşünmək imkanı verməli deyil. İnformasiyanın miqyası, mürəkkəbliyi və böyük həcmi vətəndaşların hazırlıq səviyyəsinə və bacarıqlarına daha da ciddi tələbləri təqdim edir [11].

İnternet bəzi sosial prosesləri görməyə kömək edir və sivil cəmiyyət haqqında bizim anlamımızı dəyişdirir. Lakin, indiki mərhələdə internet sayəsində baş verən müxtəlif dəyişikliklərin ölçüləri, sayı və istiqaməti haqqında nəticələri çıxarmaq erkən və çətindir. Buna baxmayaraq, birmənalı demək olar ki, informasiya texnologiyalarının meydana gəlməsi keçmişə bir dəfə də qayıtmağımızı mümkünsüz edib, çünki müasir ictimai təşkilatlarda keçmişdəki kimi sabit üzvlük tələb olunmur, mütəmadi görüşlər keçirilmir, hər bir fərdə təsdiq olunmuş qaydalarla və əmələ gəlmiş ənənələrlə ölçülən tələblər irəli sürülmür. Kiber-məkanın yeni dünyasının məhz bu sahə üzrə qiymətləndirilməsi hələ ki çətindir, çünki o vətəndaşların və cəmiyyətin tamamilə fərqli və müxtəlif sahələrinə daxil olur [5].

Ənənəvi texnologiyaların əksəriyyəti dünyada baş verən konkret vəziyyətə həmçinin təsir göstərir, lakin onları görmək, qiymətləndirmək və sənədlər əsasında müqayisə etmək mümkündür. İnternetin ictimai həyatın hər bir sahəsinə daxil olması isə bizi bu imkandan məhrum edir, çünki bu fenomenin kompleks şəkildə dərk edilməsi çətindir.

**Nəticə**

Beləliklə, müasir informasiya texnologiyalarının inkişafı şəraitində onların cəmiyyətin siyasi-mədəni sisteminə, ictimai layihələrin həyata keçirilməsinə təsiri haqqında məlumatlı olmaq və onu tədqiq etmək, informasiya cəmiyyəti haqqında müxtəlif fikirlərin və miflərin yaranması təbiətini başa düşmək vacibdir. Lakin, bunun edilməsi bir sıra səbəbdən mürəkkəbdir, insanların

İT texnologiyalar vasitəsilə nəyin edilməsinin və, öz növbəsində, İT texnologiyalar insanlara hansı təsirin göstərilməsi mənzərəsini əldə etmək, bu amillərin səbəblərini və nəticələrini, onların təsirinin əhəmiyyətini müəyyən etmək çətindir. Bunların hamısı hələ ki bizdən gizlidir. Gizli və dərk olunmayan hadisələr, adətən, insanlarda əlçatmayan ümidləri və müxtəlif qorxuları əmələ gətirir.

Bunun başa düşülməsi, tədqiq olunan məsələnin texniki cəhətlərini bilməklə yanaşı konkret ölkə, insanlar, onların yaşayış tərzi, adət-ənənələri haqqında tarixi məlumatların bilinməsi vacibdir. Bunların hamısını dərk edəndən sonra, ideyaların hansı material qüvvəyə malik olmasını, o cümlədən informasiya texnologiyalarının siyasi proseslərdə və cəmiyyətdə tətbiqinə yanaşmaların formalaşmasını başa düşmək olar.

## ƏDƏBİYYAT


1. *Lasswell H/ structure and Functions of Communications in Society // Mass Communications / Ed.by W. Shramm/ urbana, 1960.*
2. *Bimber B. Интернет и политические коммуникации в сезон выборов: аналитическая записка факультета полити¬ческих наук Калифорнийского университета в Санта-Барба¬ре. URL://www.sscf.u csb.edu /~survey1/ mobilize.htm (yoxlama tarixi:10.04.17.).*
3. *Grossman L.K. Электронная республика: новый взгляд на демократию в век информации. Нью-Йорк: Viking, 2005.*
4. *Agre P.E. Information Technology in the Political Process. Department of Information Studies University of California, Los Angeles, California 90095-1520. URL: http://polaris. gseis.ucla.edu/ pagre (yoxlama tarixi: 10.04.17.).*
5. *Девис Р. Сеть политики: влияние Интернета на американскую политическую систему // Актуальные проблемы Европы. Средства массовой информации и демократия в современном мире: сб. статей и рефератов. М.: РАН ИНИОН, 2002.*
6. *Janda K., Berry J., Goldman J. The callenge of democracy: government in America. Boston: Houghton Mifflin Company, 1999.*
7. *Даль Р. О демократии. М.: Аспект-пресс, 2000.*
8. *Hill K.A., Hughes J.E. Cyberpolitics: citizen activism in the age of the Internet. Oxford, UK: Rowman and Littlefield Publishers Inc., 1998.*
9. *Niemi V., Renvall A. Как предотвратить покупку голосов на выборах через компьютер. М.: Наука, 1994.*
10. *Предварительные итоги эксперимента по электронному опросу избирателей с применением сети Интернет. Управление общественных связей и информации ЦИК России. URL: www. cikrf.ru/experiment2 (yoxlama tarixi: 06.02.11).*
11. *Методы и средства защиты компьютерной информации. URL: www.zo.volpi.ru/education/zki/index. php?man=1&page=20 (yoxlama tarixi: 06.02.11).*
12. *Андреев А. Защита информации. URL: www.re.mipt.ru/ infsec (yoxlama tarixi: 06.02.11).*
13. *Neuman W.R. The paradox of mass politics: knowledge and opinion in the American electorate. Cambridge: Harvard University Press, 1996.*
14. *Agre P.E. Designing genres for new media, in Steven G. Jones, ed. Cyber Society 2.0: Revisiting CMC and Community, Newbury Park, CA: Sage. URL: www.volpi.ruzki/index.php. (yoxlama tarixi: 10.04.17.).*
15. *Putnam R.D. Bowling alone: America's declining social capital // Journal of democracy. 1995. № 6(1).*
16. *Drucker P. The coming of the new organization // Harvard Business Revew. 1988. № 66(1).*
17. *Sclove R.E. Democracy and technology. N. Y.: The Guilford Press, 1995.*
18. *Drohan M. How the net killed the MAI: Grassroots groups used their own globalization to derail deal, Globe and Mail (Toronto). URL://www.sscf.ucsb.lize.htm (дата обращения: 11.06.11).*
19. *Feenberg A. The online patient meeting, paper delivered at the sixth International Symposium on ALS/MND // Quality of Life Issues. Dublin, 1995. October.*
20. *Shain B. Миф об американском индивидуализме, Princeton: Princeton University Press, 1996.*


**Açar sözlər:** *informasiya texnologiyaları, informasiya cəmiyyəti, elektron demokratiyası, siyasi proses, Kütləvi İnformasiya Vasitələri.*

**Ключевые слова:** *информационные технологии, политические процессы, информационное общество, электронная демократия, средства массовой информации.*

**Key words:** *information technologies, political process, information society, electronic democracy, mass-media.*

**АННОТАЦИЯ**

**Влияние информационных технологий на политический процесс**

**В.М. Гусейнов**

В статье обсуждается роль интернета в современных политических процессах, степень его влияния, возможности, предоставляемые человечеству от применения информационных технологий и их вмешательство в политическую жизнь. Наряду с этим, рассматриваются вопросы, связанные с наличием сети общественных посредников, существующей в странах с устоявшимся демократическим устройством, а также способность оказания влияния этими посредниками.

В статье подчёркивается важность получения и изучения информации о влиянии информационных технологий в условиях современности на политико-культурную систему, в том числе их влиянии на осуществление общественных проектов, а также информированности о различных идеях и мифах, появляющихся в информационном сообществе.

**SUMMARY**

**Influence of Information Technologies on Political Process**

**V.M. Huseynov**

In the article author discusses the role of the Internet in modern political processes, the degree of its influence ability, opportunities gaining by society from application of the information technologies and theirs intervention to the political life. At the same time, issues of existence of the net of public-social mediators in the countries with democratic governmental systems, and influence ability of these mediators are considered in the article.

# Beynəlxalq münasibətlər

## AZƏRBAYCAN-POLŞA SİYASİ ƏLAQƏLƏRİ

MEHDİ İSMAYILOV
Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası



Azərbaycanın Avropa İttifaqı və NATO-ya üzv olan Şərqi Avropa dövlətləri içərisində Polşa ilə münasibətlər xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan – Polşa münasibətlərinin tarixi XV əsrə gedib çıxır. 1472-ci ildə Azərbaycanın Ağqoyunlu və Polşanın Reç Rospolita dövlətləri arasında diplomatik əlaqələr yaradılmışdı.

XIX əsrin əvvəllərində Azərbaycanla yanaşı, Polşa da Rusiya imperiyasının tərkibinə daxil edildi. Həmin dövrdə əsir götürülmüş polyaklar və müxtəlif zamanlarda Polşada baş vermiş üsyanların (1812, 1830, 1860) iştirakçıları Azərbaycana sürgün olundular. Azərbaycanda sürgün olunmuş həmin polyakların hesabına güclü polyak icması formalaşdı. Həmin dövrdə Bakıya gəlmiş polyak ziyalılar şəhərin inkişafında fəal iştirak edirdilər. Bu icmanın üzvləri sayəsində Azərbaycanda "Avropa ədəbiyyatı" kitabxanaları açıldı. O dövr üçün proqressiv olan məktəblərdə, xüsusən də qızlar məktəbində polyak əsilli müəllimlər də dərs deyirdi. Bakı Qubernatorunun Dəftərxanasında 10 nəfər polyak çalışırdı. 1878-1894-cü illərdə icra başçısı polyak əsilli Stanislav İvanoviç Despot-Zenoviçin Bakı şəhərinin quruculuq işlərində xidmətləri olmuşdu. XIX əsrdə bir sıra polyak memarları Bakıda, Gəncədə, Şəkidə, Şuşada, Şamaxıda görkəmli binaların memarları olmuşdu. Bunlardan Azərbaycan Milli Elmlər Akademiyasının, Bakı şəhər İcra hakimiyyətinin, M. Muxtarovun sarayının, M.Nağıyevin mülkünün, Azərbaycan Dövlət Tarix Muzeyinin və Dövlət Kukla Teatrının binalarını göstərmək olar.

Azərbaycan neft sənayesinin inkişafında polyak neftçiləri P. Pototski və V. Zqlenitski mühüm yer tuturdular. V. Zqlenitski dünyada ilk dəfə Xəzər dənizinin şelfində neft çıxarmanın layihəsini vermiş, P. Pototski isə onun həyata keçirilməsində iştirak etmişdi. (12) XIX əsrin ortalarında Azərbaycanın qəhrəmanlıq dastanı olan "Koroğlu" polyak Xodzko tərəfindən tərcümə edilərək ingilis və fransız dillərində nəşr olunmuşdu.

1918-ci ildə Azərbaycan Demokratik Respublikasının ilk milli ordusunun qərargah rəisi milliyyətcə polyak olan general Sulkeviç olub. Birinci dünya müharibəsindən sonra polyaklar Polşadan deportasiya olunarkən on minlərlə insan Azərbaycana gəlib.(8)

XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycan ilə Polşa arasında əlaqələr yalnız iqtisadi və mədəni baxımdan deyil, həmçinin siyasi sahədə də inkişaf etməyə başladı. 1918-ci ildə Azərbaycan Demokratik Respublikası Polşada səfirlik təsis etdi, Polşa isə ADR-də konsulluq açaraq bu səlahiyyəti S. Rılskiyə həvalə etdi. Polşa hökuməti yüksək səviyyəli diplomatları Bakıya göndərərək Polşa tərəfindən Azərbaycana hər cür dəstək verməyə hazır olduğunu bildirirdi. ADR Milli Ordusunun Baş Qərargah rəisi polyak M.Sulkeviç, artilleriya komandanı isə polkovnik E.Dunin-



Martsinkeviç idilər. M.Sulkeviç Azərbaycanda XI ordu tərəfindən həbs edilərək, Bayıl həbsxanasında güllələnmişdi.(12)

1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyəti dövründə iki dövlətin hakimiyyət nümayəndələri arasında görüşlər keçirilmiş, dövlətlərarası əlaqələr qurulmuşdu. 1919-cu ildə Paris sülh konfransında iki dövləti təmsil edən nümayəndə heyətlərinin görüşü keçirildi. Bu görüşdə Azərbaycanı xarici işlər naziri və nümayəndə heyətinin rəhbəri Əlimərdan bəy Topçubaşov, Polşanı isə Nazirlər Şurasının sədri İqnasi Yan Paderevski və bu ölkənin nümayəndə heyətinin rəhbəri Roman Dımovski təmsil edirdi. Həmin dövrdə Polşa Azərbaycanın dövlət müstəqilliyini tanıyan ilk dövlətlərdən oldu.

AXC-nin süqutundan sonra bir çox azərbaycanlı siyasətçiləri və dövlət xadimləri Polşaya mühacirət etdilər. Onların mühacir həyatına Polşanın tanınmış dövlət xadimi Y. Pilsudski himayədarlıq edirdi.(12)

Sonrakı illərdə hər iki ölkənin SSRİ nəzarətində olması Azərbaycan və Polşa arasında müxtəlif sahələr üzrə əlaqələrin mövcud olmasına şərait yaradırdı. Azərbaycan yenidən müstəqillik qazandıqdan sonra da iki ölkə arasında münasibətlər yeni formada təşəkkül taparaq inkişaf etdi.

Polşa 1991-ci il dekabrın 27-də Azərbaycanın dövlət müstəqilliyini tanıdı. Azərbaycan ilə Polşa arasında diplomatik münasibətlər 1992-ci il fevralın 21-də quruldu.(7)

Azərbaycanla Polşa arasında diplomatik-siyasi sahədə münasibətlərin inkişafına ehtiyac var idi. Azərbaycan Respublikasının Polşa ilə münasibətləri inkişaf etdirməsi onun xarici siyasətinin tərkib hissəsi idi. SSRİ dövründə iqtisadi və mədəni sahədə mövcud olan münasibətlər qarşılıqlı əməkdaşlığın yeni sahələrini müəyyənləşdirməyi labüd edirdi.

Polşa da Azərbaycana xüsusi maraq göstərirdi. Azərbaycanın Şərqlə Qərb arasında əlverişli strateji-coğrafi mövqedə yerləşməsi, zəngin karbohidrogen ehtiyatlara malik olması Polşanın maraq dairəsində idi.

Azərbaycan, eyni zamanda Dağlıq Qarabağ münaqişəsinin həllində əsas vasitəçi olan ATƏT-in Minsk Qrupunun səylərinin artırılmasına çalışırdı. Bu kontekstdə Polşanın ATƏT-ə sədrlik etməsi vacib amil idi.(14,II hissə, s. 105)

Münasibətlərin inkişafında Azərbaycan Prezidenti Heydər Əliyevin 1997-ci il avqustun 25-28-də Polşaya rəsmi səfəri mühüm rol oynadı. Bu, Prezident Heydər Əliyevin Polşaya ilk rəsmi səfəri idi. Polşa Prezidenti Aleksandr Kvasnevski ilə keçirilən təkbətək görüşdə Azərbaycan Prezidenti Heydər Əliyev Ermənistanın Azərbaycana qarşı təcavüzü, münaqişənin ATƏT-in Lissabon sammitinin prinsiplərinə uyğun olaraq həllinə tərəfdar olduğunu bildirdi.(10, XII kitab,s.20-21)

Polşa Prezidenti Aleksandr Kvasnevski ölkəsinin ATƏT-də sədrliyi müddətində Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinə nail olmaq üçün əlindən gələni əsirgəməyəcəyini bəyan etdi. Prezidentlər arasında keçirilən görüşdə Azərbaycanın Polşanın NATO-ya üzvlüyü məsələsində onu dəstəkləməsi ifadə olundu. Danışıqlar zamanı qarşılıqlı olaraq diplomatik nümayəndəliklərin açılması məsələsi də müzakirə edildi. Azərbaycan Prezidenti Heydər Əliyev Polşanın Avroatlantik strukturlara inteqrasiyasını yüksək qiymətləndirdi: “Avropa təhlükəsizliyinin möhkəmlənməsində, Avropa strukturlarında özünü təsdiqləməkdə Polşanın təcrübəsi bizim üçün qiymətlidir. Mən bilirəm ki, Polşa Avropa Birliyinin üzvü olmağa çalışır. Biz bunu da alqışlayırıq. Biz Avropa Birliyi ilə əməkdaşlq haqqında bəyannaməni ancaq imzalamaq imkanına malik olmuşuq. Polşanın oraya daxil olması çox yaxşı hal olacaqdır. Əlbəttə, biz Avropa – Atlantik Tərəfdaşlıq Şurasının üzvüyük və burada fəal əməkdaşlıq edirik. Polşanın bu təcrübəsi də, Avropa – Atlantik Tərəfdaşlıq Şurası çərçivəsində əməkdaşlığımız da bizim üçün faydalıdır”(10, XII kitab,s.25). Səfər zamanı Azərbaycanın NATO-nun “Sülh naminə tərəfdaşlıq Proqramı”nda iştirakı müsbət qarşılandı.

Heydər Əliyev Polşaya səfəri çərçivəsində Polşa seyminin marşalı Yuzef Zıx, Polşa senatının vitse-marşalı xanım Zofiya Kuratovskaya, xarici işlər naziri Darius Rosati, Nazirlər Şurasının sədri Vlodzimey Cimoşeviç ilə keçirdiyi danışıqlarda ölkədə keçirilən islahatlar, Ermənistanın Azərbaycana təcavüzü haqqında fikir mübadiləsi aparıldı.(10, XII kitab,s.25-36)

Prezident Heydər Əliyevin Polşaya rəsmi səfəri zamanı iki ölkə arasında dostluq və əməkdaşlığın inkişaf etdirilməsi haqqında 9 ənddən ibarət bəyannamə və xarici işlər nazirlikləri arasında əməkdaşlıq haqqında müqavilə, iqtisadi sahədə əlaqələri əhatə edən sazişlər imzalandı. (14, II hissə, s.106)

Azərbaycanın dövlət başçısının Polşaya ilk rəsmi səfərinin mühüm nəticələri oldu. Azərbaycanla Polşa arasında diplomatik-siyasi sahədə praktik addımlar atıldı. İki ölkə arasında müqavilə-hüquq bazası yaradıldı. Hər iki dövlətin ərazisində diplomatik nümayəndəliklərin açılması haqqında razılığa gəlindi. Polşa eyni zamanda Azərbaycanın da iştirak etdiyi nəqliyyat layihələrində və Azərbaycan neftinin Avropaya ixrac edilməsində maraqlı tərəf idi.

İki ölkə arasında münasibətlərdə mühüm mərhələni 1999-cu il oktyabrın 27-29-da Polşa Prezidenti Aleksandr Kvasnevskinin Azərbaycana rəsmi səfəri təşkil edirdi. Polşa Prezidentinin Azərbaycana ilk rəsmi səfəri zamanı aparılan danışıqlarda Ermənistanın Azərbaycana təcavüzü, Dağlıq Qarabağ münaqişəsinin dinc yolla nizamlanması məsələləri müzakirə edildi. Baltik dənizi ilə Qara dəniz, Cənubi Qafqaz ilə Mərkəzi Avropa arasında regional əməkdaşlıqda, Azərbaycan neftinin Xəzər dənizindən Qərbi Avropaya nəql edilməsində qarşılıqlı maraq ifadə olundu.

Azərbaycan Prezidenti Heydər Əliyev Avroatlantik strukturlara inteqrasiya baxımından Polşa ilə münasibətlərin böyük önəm kəsb etdiyini bildirdi: “... Çünki Azərbaycan Avropanın bir hissəsidir, özü də Avropa qitəsinin qurtaracağında yerləşir, Azərbaycandan sonra Asiya başlanır. Avropa ilə Asiya arasında yerləşən ölkə kimi, Azərbaycan bütövlükdə ölkələrin, xüsusən Qərb və Şərq ölkələrinin

öz aralarında münasibətləri üçün, hesab edirəm, az rol oynamır, odur ki, Polşa ilə əməkdaşlıq bizim üçün böyük əhəmiyyətə malikdir"(10, İyirmi ikinci kitab,s. 158).

Görüş zamanı Polşa xarici işlər nazirinin müavini Pşemıslav Qrudzinski Polşanın təhlükəsizlik məsələləri, eyni zamanda NATO çərçivəsində Azərbaycanla münasibətlərə önəm verdiyini, alyansın Cənubi Qafqazda strategiyasını müəyyənləşdirməyin vacib amil olduğunu bildirdi.Səfər zamanı siyasi əməkdaşlıq sahəsində imzalanan ən mühüm sənəd Azərbaycan və Polşa prezidentlərinin birgə bəyanatı oldu.(10, XXII kitab, s. 155-164)

Bəyanata görə, tərəflər Avroatlantik strukturlara inteqrasiya prosesində qarşılıqlı fəaliyyət göstərəcəkdilər. Sənəddə Azərbaycan və Polşa beynəlxalq münasibətlərdə zor işlətmək və ya zor işlətməklə hədələməyin yol verilməzliyi prinsiplərinin yerinə yetirilməsində və bununla bərabər Birləşmiş Millətlər Təşkilatı, Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, habelə digər beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın inkişaf etdirilməsində öz iradələrini təsdiq etdilər. Onlar, münaqişələrin BMT-nın Nizamnaməsinə və ATƏT-nın sənədlərinə uyğun olaraq, dövlətlərin ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı əsasında sülh yolu ilə həll edilməsinə tərəfdar olduqlarını bildirdilər. Demokratik dəyərlərin, qanunun aliliyinin, insan hüquqları və əsas azadlıqlarının, o cümlədən milli azlıqların hüquqlarının qorunmasının əhəmiyyəti qeyd olundu.(1)

Polşa prezidentinin Azərbaycana səfərinin mühüm siyasi əhəmiyyəti var idi. Bu səfər ilə iki ölkə arasında münasibətlərin hüquqi əsası yaradıldı. Beynəlxalq təşkilatlarda qarşılıqlı olaraq bir-birinin mövqeyini müdafiə etmək, siyasi dialoq və qanunverici təsisatlar arasında münasibətlərin inkişafı istriqamətində razılıq əldə edildi.

Qarşılıqlı rəsmi səfərlər öz bəhrəsini verirdi. 1998-ci ildə Polşanın Bakıda səfirliyi açıldı. Ona qədər isə Polşanın Ankaradakı səfiri Azərbaycana da akkreditə olunmuşdu.(17)

2000-2001-ci illərdə Polşa ilə Azərbaycan arasında təhlükəsizlik sahəsində münasibətlər genişləndirildi, xarici işlər nazirlikləri arasında məsləhətləşmələr həyata keçirildi. 2004-cü il avqustun 30-da Azərbaycanın Polşada səfirliyi açıldı.(7)

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də Polşa ilə münasibətlərin inkişafına böyük əhəmiyyət verdi. 2005-ci il martın 30-31-də Azərbaycan Prezidenti İlham Əliyev Polşada rəsmi səfərdə oldu. Bu səfər Azərbaycanla Polşa arasında siyasi, hərbi sahələrdə əməkdaşlığın inkişaf etdirilməsində mühüm əhəmiyyətə malik idi. Səfər zamanı iki ölkə arasında müdafiə sahəsində əməkdaşlıq haqqında saziş imzalandı.(2)

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müxtəlif vaxtlarda – Varşavada 2005-ci il mayın 17-də Avropa Şurasının III Sammitində, 2007-ci il mayın 11-12-də Krakov Enerji Sammitində iştirak etmək məqsədilə işgüzar səfərlərdə oldu.(7)

Azərbaycan Prezidenti İlham Əliyevin 2008-ci il fevralın 26-27-də Polşaya rəsmi səfəri ikitərəfli müqavilə və sazişlərin imzalanması baxımından əhəmiyyətli oldu. Fevralın 26-da Azərbaycan və Polşa dövlət başçısı arasında Birgə bəyannamə imzalandı. Bəyannaməyə görə, tərəflər strateji tərəfdaşlıq münasibətlərinin gücləndirilməsi sahəsində siyasi dialoq aparacaq, BMT, ATƏT, GUAM və digər beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın səmərəliliyini artırmaq istiqamətində səylərini davam etdirəcəkdilər. Sənəddə Dağlıq Qarabağ münaqişəsinin BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri və ATƏT-in Lissabon Sammitinin üç prinsipinə uyğun olaraq, Azərbaycan Respublikasının suverenliyi, ərazi



*Polşa prezidenti Lex Kaçinski Bakıda*

bütövlüyü və sərhədlərinin toxunulmazlığına hörmət əsasında sülh yolu ilə həllinin əhəmiyyəti vurğulanır, sülh əməliyyatları, silahlı qüvvələrə demokratik nəzarət və müdafiə və təhlükəsizlik sektorunda islahatlar sahəsində əməkdaşlığı genişləndirmək məqsədilə, Avroatlantika Tərəfdaşlıq Şurası və NATO-nun Sülh Naminə Tərəfdaşlıq Proqramı çərçivəsində sıx əməkdaşlığı dəstəklədiklərini ifadə edirdilər. Azərbaycanın Avropa təsisatlarına inteqrasiyasının inkişafı baxımından Avropa Qonşuluq Siyasətinin həyata keçirilməsinin və Avropa İttifaqı ilə Azərbaycan arasında Fəaliyyət Planının qəbul edilməsinin əhəmiyyətini qeyd etdilər. Bu kontekstdə, 1 mart 2007-ci il tarixində Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Polşa Respublikası Xarici İşlər Nazirliyi arasında Avropaya inteqrasiya üçün 2007-2008-ci illərdə əməkdaşlıq haqqında Memorandum"un, eləcə də Azərbaycan və Vişeqrad qrupu arasında sıx əməkdaşlığın əhəmiyyəti vurğulandı.(3)

Azərbaycan Prezidenti İlham Əliyev iki ölkə arasında imzalanan bəyannaməni qarşılıqlı münasibətlərin bütün aspektlərini əhatə etmək baxımından yüksək dəyərləndirdi: "Polşa bütün dövrlərdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normalarına uyğun şəkildə, ölkələrin ərazi bütövlüyü çərçivəsində həll olunmasının tərəfdarı olmuşdur. Siz bu mövqeyi bu gün də təkrarladınız. Bu, münaqişənin həlli üçün çox əhəmiyyətlidir".(16) Azərbaycan Prezidenti İlham Əliyev Ermənistanın Azərbaycana qarşı etnik təmizləmə siyasəti, Xocalı soyqırımı haqqında Polşanın dövlət başçısına məlumat verdi.

Polşa Prezidenti Lex Kaçinski Azərbaycanın Polşanın strateji müttəfiqi olduğunu və Polşanın Azərbaycanın Avroatlantik strukturlarla münasibətlərinin inkişaf etdirilməsində yardım göstərməyi vacib saydığını bəyan etdi. Polşanın dövlət başçısı Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ölkəsinin Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini, beynəlxalq hüquqa əsasən Dağlıq Qarabağ ərazisinin Azərbaycanın bir hissəsi olduğunu bəyan etdi.

Azərbaycan Prezidenti İlham Əliyev Polşanın Baş naziri Donald Tusk, Polşa senatının marşalı Boqdan Boruseviç ilə də görüşlər keçirdi. İki ölkə arasında parlament səviyyəsində əməkdaşlığın Avropanın parlament strukturları, eləcə də Avropa Şurası Parlament Assambleyası və digər təşkilatlarla əlaqələrin genişlənməsi işinə xidmət etdiyi bildirildi. (11, XXIX kitab, s. 39-56)

Polşa prezidentləri olmuş Lex Kaçinskinin (30-31 mart 2007-ci ildə rəsmi, 18-19 iyun 2007-ci ildə GUAM sammitində iştirak




məqsədilə, 12 avqust 2008-ci ildə Gürcüstana işgüzar səfər edərkən Gəncəyə, 14 noyabr 2008-ci ildə IV Bakı Enerji Sammitində iştirak etmək məqsədilə və 2-3 iyul 2009-cu ildə rəsmi səfər) və Bronislav Komorovskinin (24-26 iyul 2011-ci ildə rəsmi səfər) Azərbaycana səfərləri qarşılıqlı münasibətlərin inkişaf etdirilməsi baxımından mühüm əhəmiyyət daşıyırdı. Bu səfərlər zamanı imzalanan hüquqi sənədlər iki ölkə arasında siyasi, iqtisadi və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsinə xidmət edirdi.

Polşa Prezidenti Lex Kaçinskinin 2009-cu ildə Azərbaycana səfəri çərçivəsində Azərbaycan Respublikası Təhlükəsizlik Şurası və Polşa Respublikası Milli Təhlükəsizlik Bürosu arasında 2009-2010-cu illər üçün Əməkdaşlıq Cədvəli imzalandı. Sənədə əsasən, Azərbaycan və Polşanın təhlükəsizliyi üçün ümumi təhdidlər və çağırışlar təfsilatı, bu məsələlərin həlli istiqamətində fəaliyyətlər, regionda “dondurulmuş münaqişələrin” həlli, Avropa Təhlükəsizlik və Müdafiə Siyasəti (ATMS) proqramlarının həyata keçirilməsində Azərbaycanın iştirakının cari vəziyyəti və perspektivləri, Azərbaycan – Avropa İttifaqı və Azərbaycan Avroatlantik əməkdaşlığının mövcud durumu, transmilli cinayətkarlıqla mübarizədə əməkdaşlığın genişləndirilməsi, sərhəd təhlükəsizliyinin təmin olunması, Azərbaycan və Polşada təhlükəsizlik sektorunda islahatların həyata keçirilməsi təcrübəsinin mübadiləsi sahəsində məsləhətləşmələr həyata keçiriləcəkdi.(4)

2011-ci ilin iyul ayında Polşa Prezidenti Bronislav Komorovskinin Azərbaycana rəsmi səfəri zamanı Azərbaycan – Avropa İttifaqı münasibətləri geniş müzakirə edildi. Dövlət başçıları arasında keçirilən görüşdə Xəzər dənizi – Qara dəniz – Baltik dənizi ölkələri arasında əməkdaşlığın daha da intensivləşdirilməsinin Polşa–Azərbaycan əlaqələrinin inkişafında mühüm rol oynadığı bildirildi.(6)

Qeyd edək ki, Polşa Azərbaycanın Avropa İttifaqı ilə assosiativ üzvlük haqqında sazişin imzalanması istiqamətində danışıqların aparılmasını dəstəkləyirdi. Polşa eyni zamanda Avropa İttifaqının təsdiq etdiyi və Azərbaycan neftinin Avropaya nəqlini nəzərdə tutan Odessa-Brodı-Plotsk-Qdansk boru kəmərinə də siyasi baxımdan dəstəyini ifadə edirdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2017-ci il iyunun 26-28-də Polşaya rəsmi səfər etdi. Bu, Azərbaycan dövlət başçısının 2008-ci ildən sonra Polşaya ilk rəsmi səfəri idi. Prezident İlham Əliyevin Polşaya səfəri çərçivəsində “Azərbaycan Respublikası ilə Polşa Respublikası arasında Tərəfdaşlıq və İqtisadi Əməkdaşlığa dair Yol Xəritəsi haqqında Birgə Bəyannamə” eləcə də digər 5 sənəd imzalandı.(5)

Azərbaycan Prezidenti İlham Əliyevlə keçirilən görüşdə Polşa Prezidenti Andjey Duda Azərbaycanın Avropa ilə Asiya arasında əhəmiyyətli körpü olduğunu bildirdi. Prezident Andjey Duda Azərbaycanı vacib tərəfdaş, Şərq tərəfdaşlığı proqramında əhəmiyyətli dövlət adlandırdı.(18) Azərbaycan Prezidenti İlham Əliyev imzalanan sənədlərin, xüsusilə də “Azərbaycan Respublikası ilə Polşa Respublikası arasında Strateji Tərəfdaşlıq və İqtisadi Əməkdaşlığa dair Yol Xəritəsi haqqında Birgə Bəyannamə”nin münasibətlərin daha da inkişafı üçün iki ölkənin siyasi iradəsinin göstəricisi olduğunu vurğuladı. Dövlət başçısı siyasi münasibətlərin yüksək səviyyəsinin iqtisadi əlaqələr üçün də yeni perspektivlər açdığını bildirdi.(15)

Azərbaycan Prezidenti İlham Əliyev səfər çərçivəsində Polşa seyminin marşalı Stanislav Karçevski ilə görüşdü. Görüşdə parlamentlərarası əməkdaşlığın böyük önəm daşıdığı vurğulandı, Polşanın BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsində Azərbaycanın göstərdiyi dəstəyə görə seymin marşalı Prezident İlham Əliyevə minnətdarlığını ifadə etdi.(13)

Beləliklə, tədqiq edilən illərdə qarşılıqlı rəsmi səfərlərin həyata keçirilməsi siyasi və digər sahələrdə münasibətlərin inkişafına şərait yaradır, yeni əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirilməsinə imkan verirdi.

İki ölkə arasında yüksək səviyyəli görüşlər də keçirilirdi. 2017-ci ilin oktyabr ayında Polşanın xarici işlər naziri Vitold Vaşçikovski Azərbaycanlı həmkarı Elmar Məmmədyarovla görüşdü. Görüş zamanı polşalı nazir Azərbaycan kimi təhlükəsiz ölkənin polşalı turistlər üçün əlverişli olduğunu bildirdi. Polşanın ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı ilə bağlı birmənalı mövqe nümayiş etdirməsini yüksək qiymətləndirən xarici işlər naziri Elmar Məmmədyarov iki ölkə arasında qədim tarixə malik əlaqələrin olduğunu vurğulayaraq, Polşa, Baltik dənizi, Ukrayna, Gürcüstan və Azərbaycandan Çinə qədər uzanan nəqliyyat dəhlizinin müzakirə olunduğunu, Avropa İttifaqı ilə əməkdaşlığın Azərbaycanın xarici siyasət prioritetlərindən biri olmasını söylədi.(9)

Tədqiq edilən illərdə Azərbaycanla Polşa arasında parlamentlərarası münasibətlər də inkişaf edirdi. Polşa senatının marşalı B.Boruseviçin 2006-cı il noyabrın 8-10-da rəsmi və 2008-ci il iyunun 18-20-də Azərbaycan Respublikası parlamentinin 90 illiyi ilə əlaqədar Bakıda keçirilən təntənəli tədbirlərdə iştirak məqsədilə Azərbaycana səfərləri, 2007-ci il mayın 22-də Milli Məclisin sədri O.Əsədovun rəsmi və 2008-ci il noyabrın 10-12-də Polşa Respublikasının yaranmasının 90 illik yubileyi ilə əlaqədar keçirilən tədbirdə iştirak məqsədilə Polşaya səfərləri qanunvericilik orqanları arasında əməkdaşlığın möhkəmləndirlməsi baxımından əhəmiyyət daşıyırdı.(7)

Ümumiyyətlə, tədqiq edilən illərdə Azərbaycanla Polşa arasında münasibətlərə bir sıra amillər təsir edirdi. Polşanın Avropa İttifaqının və NATO-nun üzvü olması Azərbaycanın Avroatlantik strukturlara inteqrasiyasında əhəmiyyətli rol oynaya bilərdi. Azərbaycanla Polşa arasında münasibətlərdə Ermənistanın Azərbaycana qarşı təcavüzü məsələsi daim müzakirə olunurdu. Polşa Azərbaycanın ərazi bütövlüyünü müdafiə edir, Azərbaycanı Cənubi Qafqazda vacib tərəfdaş hesab edir. Polşa Azərbaycan neftinin Avropaya nəqlində, nəqliyyat layihələrində iştirak etməkdə maraqlıdır.

## ƏDƏBİYYAT


1. *Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin və Polşa Respublikası Prezidenti Aleksandr Kvasnevskinin Birgə Bəyanatı // http://www.e-qanun.az/framework/250*
2. *Azərbaycan Respublikası ilə Polşa Respublikası arasında 2005-ci il martın 30-da Varşava şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // http://www.e-qanun.az/framework/10474*
3. *Azərbaycan Respublikası Prezidenti və Polşa Respublikası Prezidentinin Birgə Bəyannaməsi // http://www.e-qanun.az/framework/15066*
4. *Azərbaycan Respublikası Təhlükəsizlik Şurası və Polşa Respublikası Milli Təhlükəsizlik Bürosu arasında 2009-2010-cu illər üçün Əməkdaşlıq Cədvəli // http://www.e-qanun.az/framework/18313*
5. *Azərbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyevin Polşa Respublikasına rəsmi səfəri // http://www.baku.msz.gov.pl/az/x_b_rl_r/az _rbaycan_respublikas_n_n_prezidenti__c_nab_ilham__liyevin_polsa_respublikas_na_r_smi_s_f_ri*
6. *Azərbaycan və Polşa prezidentləri birgə mətbuat konfransı keçirmişlər // https://president.az/articles/2836/print*
7. *Azərbaycan – Polşa münasibətləri // http://warsaw.mfa.gov.az/content/3*
8. *Azərbaycan – Polşa münasibətləri // http://lib.aliyev-heritage.org/az/ 7202360. Html*
9. *Azərbaycan – Polşa münasibətləri müzakirə olunub // http://cbc.az/az/az/v _story/azrbaycan-pola-mnasbtlr-mzakr-olunub*
10. *Əliyev H. Ə. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr (iyun,1993 - may, 1994). 45 cilddə: XII kitab. Bakı: Azərnəşr, 2004, 432 s.; XXII kitab. Bakı: Azərnəşr, 2007, 528 s*
11. *Əliyev İ. H. İnkişaf – məqsədimizdir: XXIX kitab: fevral 2008-aprel 2008. Bakı: Azərnəşr, 2016, 400 s.*
12. *Həsənov H. Azərbaycan – Polşa diplomatik əlaqələrinin 540 illik tarixi // http://www.azhistorymuseum.az/index.php?mod=5&id=445*
13. *İlham Əliyev Polşa Senatının marşalı ilə görüşüb // https://az.president.az/ articles/24452*
14. *Qasımlı M. C. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). 2 hissədə: I hissə, Bakı: Mütərcim, 648 s.; Qasımlı M. C. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). 2 hissədə: II hissə, Bakı: Mütərcim, 664 s.*
15. *Polşa Respublikasının Prezidenti Andjey Dudanın adından İlham Əliyevin şərəfinə rəsmi ziyafət verilib // https://az.president.az/articles/24455*
16. *Prezident İlham Əliyevin Polşaya rəsmi səfərinə dair birgə mətbuat konfransında dövlət başçılarının bəyanatları, Azərbaycan Prezidenti İlham Əliyevin bəyanatı // http://archive.president.az/articles.php?item_id= 20080227100605816&sec_id=70*
17. *Bilateral cooperation // http://www.baku.msz.gov.pl/en/wspolpraca_ obustronna/*
18. *President Duda: Azerbaijan important bridge between Europe and Asia // http://www.president.pl/en/news/art,480,president-duda-azerbaijan-important-bridge-between-europe-and-asia-.html*



**Açar sözlər:** *siyasi əlaqələr, təhlükəsizlik əlaqələri, münaqişələrin həlli, transmilli cinayətkarlığa qarşı mübarizə, parlamentlərarası əlaqələr*

**Ключовые слова:** *политические отношения, отношения безопасности, разрешение конфликтов, борьба против транснациональной преступности, межпарламентские отношения*

**Key words:** *political relations, security relations, conflict resolution, struggle against transnational crime, inter-parliamentary relations*


**Political relations between Azerbaijan and Poland**

**RESUME**


In article the relations with Poland are considered that is one of the important directions of foreign policy of Azerbaijan. In article it is noted that development of the relations with Poland is important from the point of view of development of cooperation with the countries by Eastern Europe and also with the European Union and NATO.

In article are emphasized that the political relations between Azerbaijan and Poland, cover the definition of threat to security and joint activities of the countries for the solution of these problems, settlement of «the frozen conflicts» in the region, current state and the prospects of participation of Azerbaijan in implementation of programs of the European security and military policy, a present condition of the relation Azerbaijan-EU and Euro-Atlantic cooperation of Azerbaijan, expansion of cooperation in fight against transnational crime, ensuring boundary safety, carrying out consultations on exchange of experience in reforming of the sphere of security in Azerbaijan and Poland and other questions.


**Политические отношения Азербайджана с Польшей**

**РЕЗЮМЕ**


В статье рассматриваются отношения с Польшей, что является одним из важных направлений внешней политики Азербайджана. В статье отмечается, что развитие отношений с Польшей имеет важное значение с точки зрения развития сотрудничества со странами Восточной Европой, а также с Европейским союзом и НАТО.

В статье подчеркиваются что политические отношения между Азербайджаном и Польшей охватывает определение угрозы безопасности и совместная деятельность стран по решению этих проблем, урегулирование «замороженных конфликтов» в регионе, текущее состояние и перспективы участия Азербайджана в реализации программ европейской безопасности и военной политики, нынешнее состояние отношения Азербайджан-ЕС и Евроатлантического сотрудничества Азербайджана, расширение сотрудничества в борьбе с транснациональной преступностью, обеспечение пограничной безопасности, проведение консультаций по обмену опытом в реформировании сферы безопасности в Азербайджане и Польше и другие вопросы.

# Psixologiya

Vəfa NAĞIYEVA
Psixologiya üzrə fəlsəfə doktoru

## SOSİONOMİK PEŞƏ NÜMAYƏNDƏLƏRİNDƏ EMOSİONAL TÜKƏNMƏ SİNDROMUNUN (ETS) FORMALAŞMASINA TƏSİR GÖSTƏRƏN AMİLLƏR





Müasir dövrdə emosional tükənmə sindromu (ETS) anlayışı və sindromun öyrənilmə tarixi, formalaşma modelləri, inkişaf mərhələləri və simptomları məsələləri araşdırılır. Xüsusi vurğulanır ki, sindrom dünya psixologiya elmində nisbətən yeni, ən az öyrənilmiş, aktual problemlərdəndir və bu problem Azərbaycanda öyrənilməmişdir. Bizim araşdırmalar ilk təşəbbüsdür (1; 2). Bu məqalədə sidromun pedaqoqlarda və digər sosionomik peşə nümayəndələrində yaranmasına təsir göstərən amillərdən bəhs edilir.

Ümumiyyətlə, peşələr müxtəlif meyarlar əsasında müxtəlif cür də qruplaşdırılır. Əməyin predmeti meyarına, yəni insanın iş fəaliyyəti prosesində nə ilə üzləşməsi, fəaliyyətinin nə ilə əlaqədar olması meyarına uyğun olaraq peşənin beş tipi ayırd edilir: "İNSAN – TƏBİƏT", "İNSAN – TEXNİKA", "İNSAN – İNSAN", "İNSAN – İŞARƏLƏR SİSTEMİ", "İNSAN – BƏDİİ OBRAZ". Sosionomik peşə deyəndə əmək predmeti insan olan (məsələn, həkimlik, müəllimlik, psixoloq, hüquqşünas və s.) peşələr nəzərdə tutulur. Heç şübhəsiz, sosionomik peşələrdə peşə sahibləri ilə "əmək predmeti" arasında müəyyən emosional münasibətlər labüddür. Lakin xoşagəlməz hallarda yaranan emosional gərginlik xroniki patoloji hala çevrilə bilir. Bu isə emosional tükənmədir. Onun təzahürləri, bir qayda olaraq, belə təsvir edilir: emosional, əqli və fiziki üzülmə – depressiv hal, yorğunluq və boşalmışlıq hissi, enerji və şövq çatışmazlığı, öz əməyinin pozitiv nəticələrini görmək qabiliyyətini itirmə, işə və bütövlükdə həyata qarşı neqativ köklənmə, müştərilərə (təhsilalanlara, pasiyentlərə) mənfi münasibət və s. (1).

Göstərilən sosionomik peşələrin mütəxəssisləri, o cümlədən ali məktəb müəllimləri, insanlarla həmişə intensiv təmasda olurlar və deməli, yüksək emosional yüklənməyə də məruz qalırlar. Bunun səbəbi aşağıdakı amillərdir: çoxlu sayda yüksək emosional gərginlikli təmaslarla dolu iş günü; ünsiyyətin nəticəsinə görə böyük məsuliyyət, nəticənin isə yalnız işçidən deyil, həm də onun ünsiyyətdə olduğu tərəf-müqabilindən asılı olması (onların xüsusiyyətlərini və qarşılıqlı əlaqəyə motivasiyasını başa düşmək lazımdır); gərgin ünsiyyət situasiyalarının tezliyi (27; 28).

İstehsalat stressi probleminə emosional tükənmə sindromu çərçivəsində tədqiqatçı marağı artmaqdadır. Nəticədə, ETS-in yaranmasına gətirib çıxaran çoxsaylı amillər (stressorlar) aşkar edilmişdir.

ETS-ə həsr edilmiş tədqiqatlarda müxtəlif konsepsiyalardan istifadə olunduğundan, həmin amilləri çoxluğun qəbul etdiyi kateqoriyalaşdırmanın yaradılmasında çətinliklər meydana çıxır. Belə təsnifatlardan daha çox populyar olanları burada göstərməyi məqsədəmüvafiq sayırıq.

Belə ki, V.A.Bodrova görə, ədəbiyyatda amillərin aşağıdakı kateqoriyalarına rast gəlinir:

- həll olunan məsələlərin peşə tələbləri və xarakteristikası;
- rol tələbləri və ya gözləntilər;
- təşkilati tələblər və gözləntilər;
- xarici tələblər və ya şərtlər;
- stress imkanları (arzuolunan nəyinsə olması imkanları);
- nailiyyətlərdə məhdudiyyət stressi;
- arzuolunan nəyəsə nail olmağın tələbləri, hərçənd bu nailiyyətin imkanları qeyri-müəyyəndir və s. (3; 22).

A.Y.Tabaçnikov emosional tükənmənin risk amillərini fərdi amillərə (işçinin özü ilə bağlı olanlar) və situasiya amillərinə (peşə fəaliyyəti şəraitlərilə bağlı olanlar) ayırır (26). Digər müəlliflər daha mürəkkəb təsnifatlar təklif edirlər. Onlar qeyd edilən iki qrupu bir neçə kateqoriyaya bölürlər. Məsələn, B.Perlman və Xartman və başqaları (23; 11) fərdi amilləri oxşar tərzdə ayırd edirlər, lakin situasiya amillərini rol və təşkilati amillərə bölürlər (15). Bir başqaları, əksinə, təşkilatla bağlı bütün amilləri bir qrupa aid edirlər, fərdi amilləri isə psixoloji (onları "fərdi" adlandıraraq) və sosial-demoqrafik amillərə bölürlər (20; 17;).

Müəlliflər işçi ilə bağlı ETS amilləri sırasına aşağıdakıları daxil edirlər:

1. Xarakter cizgiləri. Hazırda şəxsiyyət cizgiləri strukturunun peşə tükənməsi ilə əlaqələri haqqında məlumatların elmi ədəbiyyatda geniş və sistemli şəkildə təqdim edilməsi yetərincə deyil. B.Perlman empatiya səviyyəsi, şəxsiyyətin reaktivliyi, avtoritarizm və ETS-in inkişaf riski arasında əlaqənin mövcudluğunu qeyd edir. Bunun üçün ekstraversiyaya, astenizasiyaya meyillilik, impulsivlik, emosional rigidliklə birgə hissiyatlılıq (belə insanlar öz prestijlərini saxlamaq üçün çox narahat olurlar və həqiqi və yalançı ədalətsizliklə bağlı neqativ hisslərdən uzun müddət canlarını qurtara bilmirlər), neyrotizm (həyəcanlılıq) və onunla assosiasiya yaradan xarakteristikalar (6; 11; 25), aqressivlik (21; 10), aşağı özünüqiymətləndirməyə və dünyaya neqativ münasibətə meyillilik kimi xarakter cizgilərinin vacibliyi bir sıra müəlliflər tərəfindən vurğulanır

T.V.Bolşakovanın hesab edir ki, psixi tükənmənin formalaşmasına təkcə ayrı-ayrı xarakter cizgilərinin inkişaf səviyyəsi deyil, həm də onların struktur təşkilinin spesifikası əhəmiyyətli dərəcədə təsir edir. Arzuolunmayan subyektiv şəraitlərə özünüqiymətləndirmənin emosional və ya koqnitiv komponentləri hiperaktivləşmiş peşə adamları düşürlər.

T.V.Reşetovanın fikrincə, qeyri-emosionallıq da ETS-in inkişafına səbəb ola bilər. İ.İ.Qaletskaya və M.M.Melnik dünyaya müsbət yanaşan və yüksək özünühörmətə malik mütəxəssislərdə tükənmə ehtimalının daha az, tükənmə intensivliyinin daha aşağı olmasına diqqət yetirmişlər. A.Y.Tabaçnikov hesab edir ki, humanist həyat ustanovkasına malik olan, özlərini başqaları ilə eyniləşdirməyə meyilli insanlar ETS-ə daha artıq dərəcədə məruz qalırlar (26).

Bəzi alimlər ETS-in formalaşmasına səbəb olan şəxsiyyət cizgiləri məsələsini sindromun uğurlu profilaktika və korreksiyası



üçün vacib sayırlar (4; 7).

Y.A.Leşukovaya görə, ETS-in yaranma riskinə hamıdan çox üç tip insanlar məruz qalır:

– Birinci tip "vasvasılardır". Bu tipin əsas xarakteristikaları: mütləqliyə qədər qaldırılmış düzlük, həddindən artıq səliqəlilik, hər işdə nümunəvi qaydaya nail olmağa çalışmaq (hətta özünün ziyanına olsa belə).

– İkinci tip "nümayişkaranə" insanlardır. Bu tip insanlar hər şeydə birinciliyə, daima göz qabağında olmağa cəhd edirlər. Bununla belə, onlara nəzərəçarpmaz mühafizəkar işlərin icrası zamanı yüksək dərəcədə əldən düşmə xasdır.

– Üçüncü tip "emotiv" insanlardır. Emotiklər empatiyanın, qayğıkeşliyin yüksək səviyyəsi ilə seçilirlər (16).

2. Həll olunmamış şəxsiyyət münaqişələri. Pedaqoqun keçmiş psixi zədələrlə bağlı olan şəxsiyyət kimi yetişməməzliyi, təmin olunmamış şöhrətpərəstliyi və eqoizmi müəllim işini onun üçün cəlbedici edə bilər, ona görə ki, həmin iş ona diqqət mərkəzində olmaq, başqalarını idarə etmək, özünü başqalarından ağıllı hiss etmək imkanı verir. Bu tələbatlar həyat reallıqları ilə toqquşmada təmin olunmayanda emosional tükənmə sindromu yarana bilər. Ekzistensial psixologiya məktəbi zənn edir ki, tükənmə yaşayan insanlara işlərində ekzistensial məna çatışmır – onlar özlərini gerçəkləşdirmir, işin köməyilə hakimiyyətə, rifaha, şöhrətə və digər məqsədlərə nail olmağa çalışırlar (13).

3. Müəyyən davranış strategiyalarından istifadə. Bir sıra alimlərin fikrincə, tükənmənin səviyyəsi ilə qeyri-effektiv kopinq-strategiyalar, eksternal lokus nəzarət, fərdi xüsusiyyətlər arasında əlaqənin olmasına dəlalət edən məlumatlar mövcuddur (26; 11).

4. Həyatməqsədli (həyatmənalı) oriyentasiyalar. Y.Q. Ojoqova qeyd edir ki, emosional tükənmə sindromunun ifadə olunmadığı və cüzi ifadə olunduğu peşə adamları (onlara "islahatçı" və "harmoniyalaşdırıcı" tipləri uyğundur) üçün həyatmənalı oriyentasiyalar sistemində komponentlərin harmonik nisbəti və "mənəvi məmnunluq", "yaradıcılıq" və "fəal sosial həyat" kimi terminal dəyərlərin üstünlüyü xarakterikdir. Eyni zamanda, sindroma qismən və ya tam şəkildə məruz qalan işçilərdə ("istifadəçilər" və "istehlakçılar") həyatmənalı oriyentasiyalar sistemində uzlaşdırılmanın pozulduğu və terminal dəyərlərin dominantlığı – "öz fərdiliyini saxlamaq", özünü inkişaf etdirmək" və "yüksək maddi vəziyyət" – müşahidə olunur (18).

5. Öz işinə nəzərən müəyyən ustanovkalar. L.S.Çutkonun fikrincə, əməkçilik ETS-in inkişafına səbəb olan vacib amillərdən biridir (29). Onun bu fikri ilə razılaşan V.Kozin qeyd edir ki, bir qayda olaraq, öz işinə əvvəldən laqeyd və etinasız yanaşanlar, peşə fəaliyyətində sosial nailiyyətlər və ya malikolma modusunu



kerçəkləşdirənlər deyil, əksinə, əsil peşəkarlar "yanırlar"; bu, o insanlardır ki, onlar üçün fəaliyyət əvvəldən əhəmiyyətli olur, şüurlu şəkildə seçilir, fəaliyyəti məlum emosional münasibəti, başqa insanlara oriyentasiyanı nəzərdə tutur, yəni xidmət modusunu gerçəklşdirirlər.

6. Ailə problemləri. Çutkoya görə, qohumluq əlaqələrinin çatışmazlığı (sosial dayağı təmin edən amil kimi), ailədə psixoloji dəstəyin olmaması, qohumların müəllim peşəsinin spesifikasını yetərincə başa düşməməsi ETS-in formalaşmasında əhəmiyyətli rol oynayır.

7. Fərdin sosial-demoqrafik xarakteristikaları. ETS-in inkişaf riskini təhsil səviyyəsi, iqtisadi rifah, yaş və iş stajı sürəkliliyi ilə bağlayırlar.

Elmi ədəbiyyatda yaş və iş stajının ET-nin inkişaf riski ilə əlaqəsi haqqında ziddiyyətli məlumatlar verilir. Əgər bəzi müəlliflər bu əlaqənin müsbət xarakterə malik olmasını təsdiqləyirsə (9), digərləri gənc mütəxəssislərin, o cümlədən iş stajı bir ilə yaxın olanların ETS-in inkişafına daha artıq dərəcədə məruz qaldıqlarını yazırlar. Onların fikrincə, bu ona görə belədir ki, gənc mütəxəssislərin iş və insanlara kömək haqqında təsəvvürləri ideallaşdırılmış, real situasiya isə onların gözlənti və təsəvvürlərindən uzaq olur. Bundan başqa, gənc işçilərə öz peşə və şəxsiyyət imkanlarını olduğundan yüksək, şişirdilmiş qiymətləndirmək də xasdır. Bu isə tez əldən düşməyə və özlərinin real nailiyyətlərindən narazı qalmalarına gətirib çıxarır. ETS-in yaşlı mütəxəssislərdə yaranma ehtimalının az olmasının lehinə də bəzi dəlillər mövcuddur.

ETS-in meydana gəlməsi ehtimalına cinsin təsir etməsinə dair tədqiqatların nəticələri də ziddiyyətlidir. Tədqiqatçıların bir qismi hesab edir ki, kişilər tükənmə prosesinə qadınlardan daha çox məruz qalırlar, eyni zamanda, başqaları tamamilə əks qənaətə gəlirlər (Daniel, Gibson), üçüncü qisim müəyyənləşdirmişdir ki, kişilərdə depersonalizasiya üzrə daha yüksək göstəricilər müşahidə olunur, qadınlar isə daha artıq dərəcədə emosional əldən düşməyə məruz qalırlar (19). Alimlər bu fərqi, bir tərəfdən, kişilərdə instrumental dəyərlərin üstünlüyü ilə, digər tərəfdən, qadınlarda emosional qayğıkeşliyin daha çox olması və öz müştərilərinə qarşı daha az ifadə olunan özgələşmə ilə əlaqələndirirlər. Nigahda olanlar və uşaqları olanlar ETS-in yaranma riskinə az məruz qalırlar (17).

Bir sıra müəlliflər "emosional əprimə" sindromunun uğurlu profilaktikası və korreksiyası üçün riskin məhz fərdi amillərinin öyrənilməsi və aradan qaldırılmasını prinsipial şəkildə vacib hesab edirlər (4; 7). Bununla yanaşı, alimlərin bir çoxu ETS-in yaranmasında təşkilati amillərin dominant rolunu qeyd edir (11). Onların fikrincə, cəmiyyətdəki sosial-iqtisadi dəyişikliklərlə bağlı olaraq insanların işə münasibətləri də dəyişir: iş yerinin təminatlı olmasına əminlik itir, ixtisaslaşma, mexanikləşdirmə halları artır. Sosial əhəmiyyətli bir sıra peşənin, o cümlədən müəllim peşəsinin reytinqi düşür. Nəticədə psixi, emosional gərginlik artır, iş yerində stresslə əlaqədar olaraq tez-tez həyəcan, depressiya, emosional tükənmə sindromu, psixosomatik və psixovegetativ pozuntular üzə çıxır (24; 25).

Leiter və Kuvayeva ETS-in yaranmasının işlə bağlı risk amilləri sırasına aşağıdakıları daxil edirlər:

1. Fəaliyyətin xroniki gərgin xarakteri. Vəzifənin, rolun münaqişəliliyi, qeyri-müəyyənliyi, habelə yalnız məhsuldarlıq, peşəkarlığın daima yüksəlməsini tələb edən, müvafiq hazırlıq (məşq) istəyən iş və emosional tükənmə arasında əlaqə müəyyən edilmişdir (11). Yeknəsəq, monoton və perspektivsiz fəaliyyət, real emosiyalar və empatiyaya uyğun gəlməyən emosiya və empatiya büruzə vermək zərurəti də ETS-in inkişafına səbəb ola bilər. Nəhayət, istirahət günlərinin, məzuniyyətlərin və işdənkənar maqaqların olmaması (Skuqarevskaya, Maslaç), eləcə də iş prosesinə cəlb edilmənin yüksək səviyyəsi də mütəxəssisi ETS-ə meyillәndirən amillərdir.

Skuqarevskayanın fikrincə, pedaqoqun kommunikativ fəaliyyəti, bir qayda olaraq, yüksək intensivliyi və ünsiyyət gərginliyi, xarici amillərin işə tez-tez qarışması, müxtəlif səviyyədən olan geniş təmas şəbəkəsi, başqa insanlarla bilavasitə danışıq (şifahi) ünsiyyətin üstünlüyü ilə səciyyələnir ki, bu da həddindən artıq yorğunluğa, üzülməyə səbəb olur (25). İşdə psixoloji və ruhi üzülmə də mütəxəssislərdə ETS-in yaranma ehtimalını yüksəldir. Tələblər (daxili və xarici) uzun müddət resurslardan (daxili və xarici) üstün olanda insanda müvazinət halı pozulur, bu isə labüd şəkildə emosional tükənməyə gətirib çıxarır.

2. Fəaliyyətin destabilləşdirici təşkili. Əməkdaşın və iş prosesinin qeyri-müəyyən vəziyyəti, əməkdaşlar arasında məsuliyyətin qarışıq və ya qeyri-bərabər bölgüsü ETS-in formalaşmasına səbəb olur, hansı ki, məsuliyyətin dəqiq bölgüsü situasiyasında iş "emosional əprimə" sindromunun inkişafını məhdudlaşdırır (15). Qeyd edilir ki, peşə hərəkətlərinə görə məsuliyyət qarışıq və ya qeyri-bərabər bölünəndə bu amilin əhəmiyyəti, hətta nisbətən aşağı iş yükü olduqda belə, kəskin şəkildə artır (Maslaç).

Emosional tükənmənin inkişafına peşə situasiyaları da səbəb olur. Bu, birgə səylərin uzlaşdırılmadığı, hərəkətlərin inteqrasiyasının olmadığı situasiyalardır, burada rəqabət var, lakin uğurlu nəticə uzlaşdırılmış, ahəngdar hərəkətlərdən asılıdır. Cordes göstərdiyi kimi, bir sıra alimlər ETS-in peşədə irəliləyiş və peşə avtonomiyası imkanları ilə, iş situasiyasına nəzarətin və vacib qərarlar qəbul etməyin mümkünsüzlüyü ilə, işə qoyulan ikibaşlı tələblərlə, rəhbərliyin məqsədlərini anlamanın yetərli olmaması ilə əlaqələrinə diqqət yetirir

Qeyri-qənaətbəxş əmək şəraiti (ekstremal temperaturlar, səs-küy, passiv siqaret çəkmə, yuxunun deprivasiyası və s.) də ETS-in yaranmasına səbəb ola bilər ( 30).

Ayrıca qeyd etmək lazımdır ki, etik prinsiplərlə, şəxsiyyət prinsipləri və işin tələbləri arasındakı uyğunsuzluq ETS-in yaranma ehtimalını artırır. Məsələn, insana tapşırılır ki, kimisə aldatsın, həqiqətə uyğun olmayan bir şey desin və s. (30). Belə uyğunsuzluğun yaranması nəticəsində pedaqoq xroniki stress situasiyasında olmağa məcburdur, bu isə ETS-in yaranmasına və sonrakı inkişafına səbəb olur (25).

3. Həddən artıq iş həcmi. İş vaxtının çatışmazlığı, artıq iş yükü arasında müştərilərin sayı, eləcə də normalaşdırılmamış işə sərf edilən vaxtın həddən artıq olması və ETS-in inkişafı arasında asılılıq da göstərilmişdir (30; 15; 11).

ETS-in inkişafına iş yükünün təsirini qiymətləndirmə zərurəti ilə rastlaşan S.E.Cekson və həmkarları onu kəmiyyət və keyfiyyət

etibarilə yüklənməyə ayırmağı təklif etdilər. Kəmiyyət etibarilə yüklənmə özündə təmasların tezliyini, sürəkliliyini, eləcə də insanlarla ünsiyyətdə keçirilən vaxt faizini ehtiva edir. Sosionomik peşə işçilərində kəmiyyət etibarilə yüklənmənin tədqiqi sinif otağının ölçüləri, fasilələrin (tənəffüs), asudə vaxtın miqdarı, təhsilalanların sayı və pedaqoqların ETS-ə qarşı zəifliyi arasında asılılığın olduğunu gəstərmişdir.

Keyfiyyət etibarilə yüklənmənin ölçülməsi özündə "personallararası distansiyanı" (bilavasitə ünsiyyəti, telefonla ünsiyyəti və s.), müştərinin xarakteristikasını (yaş, davranış üslubu, növü) ehtiva edir. M.J. Fimian və L.P. Blanton həm kəmiyyət, həm də keyfiyyətcə yüklənmə ilə 1-ci il müəllim işləyənlərdə ETS-in inkişaf tezliyi arasında əlaqə tapmışlar. Yüksək keyfiyyət yüklənməsi mütəxəssisi belə bir əminliyə gətirir ki, iş ona ayrılmış müddətə yerinə yetirilə bilməz. Cekson hesab edir ki, əksər təşkilatlarda bu, resurs çatışmazlığı və arasıkəsilməyən ixtisarolunma qorxusu ilə əlaqədar baş verə bilər, nəticədə universitet əməkdaşları say etibarilə tələbələrlə həddən artıq yüklənmiş olarlar. Praktiki olaraq bütün tədqiqatlar oxşar mənzərəni verir. Həmin mənzərə isə ona dəlalət edir ki, fəaliyyətin artıq yüklənməsi, iş vaxtından artıq işləmək "tükənməni" artırır. İş gününün sürəkliliyi ilə "tükənmə" arasında asılılıq aşkar edilmişdir.

İşdə fasilələr müsbət effekt verir və "tükənmə" riskini aşağı salır, lakin bu effekt müvəqqəti xaraktar daşıyır: işə qayıtdıqdan üç gün sonra "tükənmənin" səviyyəsi qismən yüksəlir, üç həftə sonra tamamilə bərpa olunur (31) .

4. Psixoloji çətin kontingent. "Emosional tükənmə sindromu" və insanın kommunikativ sferasının əlaqəsini vurğulayan K.Maslaç bunun əsas səbəblərindən biri kimi "insanlarla uzunmüddətli yaxın təmas"ın, o cümlədən psixoloji çətin kontingentlə ünsiyyətin zəruriliyini göstərir. Tələbələrin təlimlənmə səviyyəsi onların fiziki və psixi sağlamlığında sezilən sapmaların olması müəllimlərdə ETS-in yaranmasına əhəmiyyətli dərəcədə təsir göstərir (30). İş fəaliyyətinin belə xarakteri mütəxəssisə əhəmiyyətli dərəcədə stress təsiri göstərməsilə səciyyələnir. Bir sıra müəlliflər sindromun kliniki təzahürlərinin formalaşması üçün yalnız stressin gücünün yox, həm də onun təsirinin sürəkliliyi vacib olduğunu qeyd edirlər.

5. Peşə fəaliyyətinin əlverişsiz psixoloji mühiti. Kollektivdə gərgin münasibətlər (Sankova), həmkarlar və müdiriyyət tərəfindən dəstəyin olmaması və ya bunun çatışmazlığı ETS-in inkişafına səbəb olur. Bəzi müəlliflərin fikrincə, sosial dəstək mütəxəssislərə iki yolla müsbət təsir göstərə bilər. Birincisi, dəstək işdə stresslə onun neqativ nəticələri (fəsadları) arasında buferdir. Həmkarlarından dəstək alan müəllimlər stress situasiyasına baxışlarına yenidən baxa və özlərinin həmin situasiyanın öhdəsindən gəlmək qabiliyyətlərinə inamlarını gücləndirə bilrələr. Üstəlik, güclü sosial dəstək modeli davranışın adaptiv təqlidini (surəti) nəzərdə tutur. İkincisi, sosial dəstəyin olması və onun stress situasiyalarına birbaşa təsir göstərməsidir. Hazırda sosial dəstəyin müsbət təsirinin birinci və ikinci yolunu təsdiqləyən kifayət qədər məlumat təqdim edilmişdir (30).

Bu amillər qrupuna peşə fəaliyyətindəki səhvlərlə, sənədlərin yanlış doldurulmasıyla bağlı inzibati sanksiyalar və hüquqi təqib riskini də aid etmək olar; rəhbər tərəfindən nəzarətin səviyyəsi, cərimə sanksiyalarının daimi riski (töhmət, işdən azad edilmə, məhkəmə təqibi) emosional tükənmə sindromunun yaranmasına və inkişafına səbəb olur.

6. Rəğbətləndirmə və ictimai qəbuledilmənin gözlənilənlərlə müqayisədə yetərli olmaması. Bu amillər də ETS-in yaranmasına, xüsusilə, onların sosial ədalətin pozulması kimi qavranıldığı hallarda, səbəb ola bilər (15; 30) Bunlara peşədən və peşəkar inkişafdan qeyri-məmnunluğu (7; 11), işə görə maddi və mənəvi rəğbətləndirməni (14), işin məzmunu və şəraitinə nəzərən doğrulmayan gözləntiləri (17) aid edirlər. Mütəxəssisin gözləntiləri işin real məzmunundan nə qədər çox fərqlənirsə, bu effekt bir o qədər böyük olur (30). Maslaçın fikrincə, ETS-in inkişafına təsir göstərən başlıca amillərdən biri işə görə maddi rəğbətləndirmədən subyektiv qeyri-məmnunluqdur (11).

Beləliklə, peşədən, təşkilatdan və öz effektivliyindən gözləntilərin əvvəldən şişirdilmiş səviyyəsi də emosional tükənmə sindromunun formalaşmasına əhəmiyyətli dərəcədə təsir göstərir. Bu gözləntilərin çoxu gələcək əməkdaşın təliminin keçdiyi şəraitlə və ya onu işə qəbul edən şəxzlərlə bağlıdır.

Yuxarıda verilmiş izah və şərhlərə yekun vuraraq qeyd edək ki:

1. İnsanlarda ETS-in yaranması və inkişafına bir sıra amillər təsir edir. Bu amillər barədə elmi ədəbiyyatda müxtəlif fikirlər irəli sürülür, təsnifatlar təklif edilir, peşə fəaliyyəti ilə bağlı ETS-in yaranmasının risk amilləri göstərilir.

2. Sosionomik peşə nümayəndələrində, o cümlədən pedaqoqlarda formalaşan emosional tükənmə, mütləq, neqativ nəticələrə gətirib çıxarır. Neqativ nəticələr arasında fərdi (psixi adaptasiyanın və somatik sağlamlıq vəziyyətinin pozüntuları), peşə (iş effektivliyinin azalması), şəxsiyyətlərarası (başqa insanlarla işdənkənar qarşılıqlı təsirin pozulması), davranış və istiqamətverici fəsadları ayırd etmək olar.

3. Sosionomik peşə işçilərinin əmək fəaliyyəti daimi psixoemosional gərginliklə müşayiət olunur. Bu additiv davranış işdə münaqişə kimi fenomenlərlə sıx bağlı olan emosional tükənmə sindromunun da daxil olduğu ciddi psixoloji problemlərin yaranması ilə nəticələnir. Bütün bunlar isə müxtəlif psixosomatik və nevrotik pozuntuların inkişafı üçün zəmin yaradır.

4. Emosional tükənmə sindromu işçilərin özləri üçün də, onların təşkilatları və bütövlükdə dövlət üçün də bir sıra neqativ nəticələrə malikdir (12; 30).

5. İstənilən halda, məhz ETS-in neqativ nəticələri bu aktual problemin öyrənilməsini və onun effektiv həlli yollarının axtarışını zəruri edir.

## ƏDƏBİYYAT


*1. Nağıyeva Vəfa. Emosional tükənmə sindromu: anlayışı və öyrənilmə tarixi // Dirçəliş. XXI əsr. 2013, № 176-177, s. 401-408.*

*2. Nağıyeva Vəfa. Emosional tükənmə sindromunun formalaşma modelləri, inkişaf mərhələləri və simptomları // Dirçəliş. XXI əsr. 2013, № 180, s. 214-224.*

*3. Бодров В.А. Психологический стресс: развитие и преодоление. – М.: ПЕРСЭ, 2006. – 528 с.*

*4. Бойко В. В. Энергия эмоций в общении: взгляд на себя и на других. — М.: Филин, 1996. — 472 с*

*5. Борисова М.В. Психологические детерминанты синдрома выгорания у педагогов // Сборник научных статей. Проблемы исследования синдрома «выгорания» и пути его коррекции у специалистов «помогающих» профессий (в медицинской, психологической и педагогической практике). – Курск, 2007. – с. 24- 27.*

*6. Буртовая Н. Б. Личностные и профессиональные предпосылки формирования эмоционального выгорания у преподавателей высшей школы // Вестн. Томского гос. пед. ун-та (Tomsk State Pedagogical University Bulletin). 2010. Вып. 12 (102). –С. 141-148.*

*7. Водопьянова Н.Е. Профессиональное выгорание и ресурсы его преодоления. – СПб.: Питер, 2003. – 264 с.*

*8. Водопьянова Н. Е., Старченкова Е. С. Синдром выгорания: диагностика и профилактика – 2-е изд. – СПб.: Питер, 2008. – 258 с.*

*9. Емельяненкова А.В., Сафукова Н.Н. Особенности синдрома «эмоционального выгорания» личности специалистов различных профессий системы «человек-человек»// Интеграция образования и науки на основе научно-образовательного центра: Сб.трудов участников Всероссийской научно-практич.конф.15-16 декабря 2005 г., г.Ульяновск: В 2 ч. Ч.1. – М.–Чебоксары – Ульяновск: УлГУ, 2005. – С. 106-110.*

*10. Иноземцева О.В. Синдром выгорания и увлеченность работой // Сборник научных статей. Проблемы исследования синдрома «выгорания» и пути его коррекции у специалистов «помогающих» профессий (в медицинской, психологической и педагогической практике). – Курск, 2007. – с. 68- 71*

*11. Козин В., Агибалова Т. Синдром «эмоционального выгорания»: происхождение, теории, профилактика, перспективы изучения. – Неврологический вестник – 2013. – Т. XLV, вып. 2. –С. 44-52*

*12. Leiter M.P., Maslach C. Banishing burnout: six strategies for improving your relationship with work – Jossey-Bass, A Wiley Imprint, 2005. – 193 p.*

*13. Лэнгле А. Эмоциональное выгорание с позиции экзистенциального анализа. - Вопросы психологии. 2008. № 2, с. 3-16.*

*14. Лесных Е.И. Социально-психологические факторы развития «выгорания» и принципы его коррекции у педагогов // Сборник научных статей. Проблемы исследования синдрома «выгорания» и пути его коррекции у специалистов «помогающих» профессий (в медицинской, психологической и педагогической практике). – Курск, 2007.– с. 94 - 96.*

*15. Майстренко В.И. Взаимосвязь синдрома эмоционального выгорания и степени удовлетворенности профессиональных потребностей учителей // Психологическая наука и образование. 2010. №1. – С. 21-30*

*16. Лешукова Е. Синдром сгорания. Защитные механизмы. Меры профилактики // Вестник РАТЭПП. 1995. № 1. С. 36-47.*

*17. Maslach C. The Professional Burnout // Public welfare. 1978. № 1. P. 34–57.*

*18. Ожогова Е. Г. Взаимосвязь синдрома «психического выгорания» и особенностей ценностно-смысловой сферы у педагогов общеобразовательных школ: автореферат дис. ... канд. психол. наук. – Саратов, 2008. – 25 с.*

*19. Ogus E.D., Grenglass E.R., Burke R.J. Gender-Role Differences, Work Stress and Depersonalization // Journal of Social Behavior and Personality.1990. Vol. 5. № 5. P. 387-398*

*20. Орел В.Е. Исследование феномена психического выгорания в отечественной и зарубежной психологии // Проблемы общей и организационной психологии.– Ярославль: ЯрГУ, 1999. С. 29-40.*

*21. Орел В.Е. Синдром психического выгорания личности. – М.: Изд-во «Институт психологии РАН», 2005. – 330с.*

*22. Осипова С.А., Курпатов В.И. Синдром «Эмоционального выгорания» как преморбид депрессии. - Сборник научных статей. Проблемы исследования синдрома «выгорания» и пути его коррекции у специалистов «помогающих» профессий (в медицинской, психологической и педагогической практике). – Курск, 2007. – с. 125- 130.*

*23. Пряжников Н. С., Ожогова Е. Г. Стратегии преодоления синдрома «эмоционального выгорания» в работе педагога // Психологическая наука и образование. 2008. № 2.*

*24. Рогинская, Т. И. Синдром выгорания в социальных профессиях / Т. И. Рогинская // Психологический журнал. – 2002. – № 3. – С. 85-87.*

*25. Скугаревская М.М., Игумнов С.А., Склема В.Н. Синдром эмоционального выгорания и основные этапы его развития // Сборник научных статей. Проблемы исследования синдрома «выгорания» и пути его коррекции у специалистов «помогающих» профессий (в медицинской, психологической и педагогической практике).– Курск, 2007.– с. 146-148.*

*26. Табачников О.Ю., Абдряхимова Ц.Б., Бабюк І.О., Гашкова Л.А. Основи клінічної психології. – Донецьк: ДонНМУ, ТОВ «ПП „Крила"», 2010. – 304 с.*

*27. Творогова Н.Д. Психология управления. Лекция: Учеб. пособ. для вузов. – М.: Геотар – мед., 2001.*

*28. Ушакова Т.А., Никишина В.Б., Савченко А.П. Внешние детерминанты «профессионального выгорания» у специалистов социальной работы // Сборник научных статей. Проблемы исследования синдрома «выгорания» и пути его коррекции у специалистов «помогающих» профессий (в медицинской, психологической и педагогической практике). - Курск, 2007. - с. 160 – 163.*

*29. Чутко Л.С., Сурушкина И.С. и др. Коррекция клинических проявлений синдрома эмоционального выгорания // Журн. неврол. и психиатр. им. Корсакова. 2009. №2. С. 66-68.*

*30. Cordes C. L., Dougherty T. W. A Review and an Integration of Research on Job Burnout. - The Academy of Management Review. - Vol. 18, N. 4. – 1993. - P. 621-656*

*31. Jackson, S. E., Schwab, R. L., & Schuler, R. S. 1986. Toward an understanding of the burnout phenomenon. Journal of Applied Psychology, 71: 630-640.*

**РЕЗЮМЕ**

**Вафа Нагиева**

**Факторы, влияющие на формирование СЭВ у представителей социономических профессий**

В настоящей статье раскрывается сущность социономических профессий, подчеркивается, что в современных условиях специалисты социономических профессий (в том числе, педагоги вузов) высоко подверженные эмоциональным нагрузкам. Причиной этого являются такие факторы, как высокая насыщенность рабочего дня с большим количеством эмоционально напряженных контактов; большая ответственность за результат общения, зависящий не только от самого работника, но и от его партнеров по общению (необходимо понимать их индивидуальные особенности и мотивацию к взаимодействию), значительная частота напряженных ситуаций общения.

В статье также подробно рассматриваются факторы риска возникновения и развития синдрома эмоционального выгорания.

**SUMMARY**

**Vafa Nagiyeva**

**Factors influencing the formation of burnout syndrome in representatives socioeconomic occupations**

In the current article the essence of socionomic occupation is opened; it is highlighted that in modern conditions the experts of socionomic occupations (including university professors) are very vulnerable to the emotional stress. The reason of these happenings are such factors as high intensity of the working day with the big quantity of intense contacts, big responsibility for the result of communication that depends not only on the specialist itself but also on his/her partners of communication (it is crucial to understand their individual characteristics and motivation for interaction) the significant frequency of the strained communication situations. The risk factors of emergence and development of the burnout syndrome are also detailed in the article.

# Cəmiyyət

# “İNFORMASİYA CƏMİYYƏTİ” VƏ AZƏRBAYCAN

SEVDA YUSİFOVA
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti



XX əsrin sonu - XXI əsrin arxada qalan 18 ili ərzində bəşəriyyət yeni texnologiyalara əsaslanan “informasiya cəmiyyəti” qurmaq və bəşər övladının idarəetmə və hakimiyyət forması kimi çoxdan arzuladığı “açıq cəmiyyət” ideyasını həyata keçirmək əzmindədir. XX əsrin ortalarından başlanğıcını götürən ETİ və ondan sonrakı dövrdə ictimai həyatın bütün sahələrində baş verən tərəqqi nəticəsində, bəşəriyyətin sənaye cəhətdən inkişaf etmiş ölkələrinin postindustrial, XXI əsrin əvvəlində isə internetin sürətli inkişafı elektron inqilab adlanan beşinci informasiya inqilabının əsasını qoydu ki, bunun da əsasında inkişaf etmiş ölkələrdə baş verən ictimai proseslər kommunikasiya və informasiya texnologiyalarının sürətlə inkişaf etməsinə və bu ölkələrdə “informasiya cəmiyyəti”nin qurulmasına gətirib çıxartdı. Əlbəttə ki, XX əsrin ortalarından başlayan dördüncü informasiya inqilabının əsasını təşkil edən kibernetikanın sürətlə inkişafı, elektron hesablama maşınlarının, mikroprosessorun kəşfi, kompüterin meydana çıxması, telekommunikasiya şəbəkəsinin yaradılması olmasaydı, bu gün “infomasiya cəmiyyəti”nin qurulmasından söhbət açmaq mümkün olmazdı. Müasir “informasiya cəmiyyəti” məkanından asılı olmayaraq, bütün insanların hərtərəfli informasiya və müxtəlif bilik növlərinə olan tələbatlarının ödənilməsini, insanlar arasında mövcud olan kommunikasiya mühitinin inkişafını, ən son məlumatların qısa zaman kəsiyində ictimaiyyətə çatdırılmasını nəzərdə tutur. Elmi-texniki inqilabın nəticələrindən bəhrələnən ölkələr, “postindustrial cəmiyyət”in “informasiya cəmiyyəti” formasına və mərhələsinə kecilməsi ilə, insan cəmiyyətinin qlobal informasiya məkan şərtlərini formalaşdırmış, bu isə dövlətlər və xalqlar arasında mövcud olan iqtisadi və mədəni münasibət və əlaqələrin inteqrasiyasına və yeni mərhələyə qədəm qoymasına gətirib çıxartmışdır.

Müasir dövrümüzdə informasiya cəmiyyətində ən yəni “kompüter - informasiya” texnologiyalarının yüksək inkişafı, telekommunikasiya və rəqəmsal texnologiyaya keçilməsi



nəticəsində, insan fəaliyyətinin bütün sahələrində çox böyük uğurlar əldə edilmişdir. Bu gün bütün dünyanı bürüyən qloballaşma prosesinin - bu ümumbəşəri inteqrasiya prosesinin təsiri nəticəsində, XXI əsrin 3-cü onilliyi ərəfəsində bəşər övladı elmi-texniki inqilabın və ən son kompyutor texnologiyalarının inkişafı sayəsində tarixdə ilk dəfə olaraq, planetin yüksək tezlikli qlobal sinxron informasiya fəzasını yaratmaq ərəfəsindədir. İnformasiya texnologiyalarına nəzarət edən dünyanın bir qrup ən çox inkişaf etmiş ölkəsinin qloballaşma prosesini özlərinin maraq və mənafeləri istiqamətində nizamlaması və bu prosesi öz xeyirlərinə yönləndirmələri əlbətdə ki, bu gün heç kimdə şübhə doğurmur. Bütövlükdə qloballaşmanın malik olduğu bütün müsbət cəhətlərə baxmayaraq, ilk növbədə dünyanın aparıcı ölkələri tərəfindən bu prosesdən ən çox yararlanmaları, əlbətdə bu prosesin ən zəif tərəflərindən birini təşkil edir və məhz buna görə də, çox vaxt qloballaşma inkişaf etmiş ölkələrin sıralarına daxil olmayan ölkələr tərəfindən bəşəriyyəti irəliyə, inkişafa doğru aparan bir proses kimi deyil, dünyanın ən inkişaf etmiş dövlətləri və şirkətləri tərəfindən başqalarını istismar etmək, daha da irəli getmək və varlanmaq aləti kimi başa düşülür və qəbul edilir.

İnkişaf etmiş ölkələrin öz inkişafı prosesində informasiya-kommunikasiya texnologiyalarından (İKT) bəhrələnməsi, informatika və telekommunikasiya vasitələrinin ən son nailiyyətləri əsasında bəşəriyyətin böyük hissəsinin vahid içtimai - iqtisadi və mədəni əlaqələr sisteminə cəlb olunması, artıq XXI əsrin əvvəllərində qloballaşmanın obyektiv xüsusiyyətlərindən birini təşkil edir. Hazırki dövrdə qloballaşma sənaye cəhətdən inkişaf etmiş təxminən 60-dan çox ölkəni əhatə edən inteqrasiya prosesi kimi, bəşəriyyətin tarixi inkişaf qanunauyğunluqları əsasında formalaşmış yeni bir obyektiv tarixi inkişaf mərhələsidir və bu gün bu ölkələrin payına dünya ticarətinin ¾-ü düşür. Qeyd etmək lazımdır ki, BMT - nin məlumatına görə hazırki dövrdə inkişaf etmiş ölkələrlə, inkişaf etməkdə olan ölkələr arasındakı milli məhsula görə mövcud olan fərq 12 : 1 nisbətindədir və bu nisbətin aparılan hesablamalara görə yaxın gələcəkdə yaxşılığa doğra dəyişəcəyi gözlənilmir, yəni zəif inkişaf etmiş ölkələr üçün "informasiya cəmiyyəti"nə keçid məsələsi hələlik böyük təəssüf doğursa da, uzaq gələcəyin işidir. Bu gün ancaq inkişaf etmiş ölkələrdəki müasir cəmiyyətlər XXI əsrin ikinci onilliyində mövcud olan çox istiqamətli və çox çeşidli informasiya kanallarına, çox zəngin və əhatəli informasiya ehtiyyatlarına malikdirlər və ancaq bu cür inkişaf etmiş cəmiyyətlərin üzvləri bu cür informasiyanı tam almaq və ondan tam bəhrələnmək imkanına malikdir. Məsələn, BMT-nin Genişzolaqlı Rabitə üzrə Komissiyasının qiymətləndirməsinə görə, dünyada 3.9 milyard nəfərin internetə çıxışı yoxdur. 2017-ci ildə 3.5 milyard (dünya əhalisinin 47%-i) nəfər isə internetdən istifadə edib. ( 7)

Ümumbəşəri inkişaf yolu ilə gedən ölkəmizdə də "informasiya cəmiyyəti"nə keçid üçün müvafiq mühitin yaradılması yolu seçilmişdir. Müasir şəraitdə Azərbaycanda aparılan ağıllı və uzaqgörən dövlət siyasəti nəticəsində, cəmiyyətin ən əsas inkişaf istiqamətlərinin kompüterləşdirilməsinə və informasiyalaşdırılmasına, informasiya-kommunikasiya texnologiyalarının yeni bir prioritet sahə kimi inkişafına çox böyük şərait yaranmışdır. Azərbaycanda "informasiya cəmiyyəti" qurulması istiqamətində görülən işlərin təməli isə Heydər Əliyevin 2003-cü il 17 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya" ilə qoyulmuşdur və bu Strategiyanın əsas məqsədi "informasiya və kommunikasiya texnologiyalarından geniş istifadə etməklə ölkənin demokratik inkişafına kömək etmək və informasiya cəmiyyətinə keçidi təmin etməkdir." Dünyanın inkişaf etmiş ölkələrində olduğu kimi, Azərbaycanda da XXI əsrin əvvəllərində müasir informasiya texnologiyaları artıq cəmiyyətin inkişafının ictimai-siyasi, sosial-iqtisadi və mədəni sahələrini əhatə edərək, bütövlükdə cəmiyyətin inkişafına güclü təsir göstərən əsas amillərdən birinə çevrilmişdir. Hazırki dövrdə informasiya və kommunikasiya texnologiyalarının tətbiqinin səviyyəsi hər bir ölkənin zehni və elmi potensialının, mövcud sosial-iqtisadi problemlərin həllinin, demokratiyanın inkişafının əsas göstəricilərindən hesab olunur. "İnformasiya cəmiyyəti"nin formalaşması prosesi inkişaf etmiş ölkələrin təcrübəsindən göründüyü kimi, çox mürəkkəb və çoxşaxəli bir prosesdir və bu prosesin uğurla həyata keçirilməsi cəmiyyətin hər bir üzvünün informasiya texnologiyalarının gündəlik həyatımızda əhəmiyyətini necə dərk etməsindən və ondan necə istifadə etməsindən birbaşa asılıdır. Məhz buna görə də, bu gün "informasiya cəmiyyəti"nin formalaşdırılması əksər dövlətlərdə strateji məsələ kimi qarşıya qoyulmuş və müasir informasiya texnologiyalarının cəmiyyətə inteqrasiyasının səviyyəsi ölkənin iqtisadi və mədəni inkişaf dərəcəsini əks etdirən əsas amilə çevrilmişdir.

"İnformasiya cəmiyyəti" konsepsiyasının XX əsrin 90-cı illərinin əvvəllərində formalaşmasına baxmayaraq, yalnız 2003-cü ilin dekabrında BMT və YUNESKO-nun Cenevrədə keçirilən İnformasiya Cəmiyyəti üzrə Ümumdünya Sammiti XXI əsrin əsas vəzifəsi kimi, informasiya cəmiyyəti qurulması vəzifəsini ölkələrin qarşısında əsas məsələ kimi qoymuşdu. Artıq sürətlə qloballaşan müasir dünyada ölkələr arasında gedən informasiya mübadiləsi nəinki ümumi inkişafın hərəkətverici qüvvəsinə çevrilmişdir, hətta müasir dövrdə dünyanın güc mərkəzlərinin siyasətini də çox vaxt məhz informasiya formalaşdırır. Müasir dünyada mövcud olan müxtəlif çeşidli informasiya bazası bütün dünyada çox baha qiymətə satılan, mübadilə edilən və milli sərvət kimi kifayət qədər etibarlı vasitələrlə qorunan bir məhsuldur və bu məhsulu bütün dünyada mövcud olan digər resurslardan fərqləndirən əsas cəhət, onun sərvətin elə növünə aid olmasıdır ki, informasiya heç zaman, heç bir şəraitdə tükənmir, əksinə zaman keçdikcə daha da zənginləşir, işləndikcə isə nəinki köhnəlmir , hətta ondan yeni informasiyanın yaradılmasında geniş surətdə istifadə edilir.





İnformasiya-kommunikasiya vasitələrinin və ilk növbədə internetin inkişafı nəticəsində müasir dövrdə informasiyanın yaradılması və dünyanın istənilən bir nöqtəsinə qısa zaman kəsiyində ötürülməsi və qəbul edilməsi artıq günümüzün reallığıdır və bu müasir operativliyin yüksək bir nöqtəsi hesab edilir. Eyni zamanda o da inkarolunmaz bir həqiqətdir ki, artıq internet hüdudsuz informasiya mənbələrinin getdikcə genişlənən müasir və çox möhtəşəm bir xəzinəsinə çevrilmişdir.

Qloballaşan dünyanın gələcəyinin müəyyənləşdirilməsi informasiya siyasəti və onun düzgün təşkili ilə sıx bağlıdır. Ona görə də bu sahədə qərəzsizlik və aşkarlıq müasir media məkanının vacib aspektlərindən biridir və bu barədə Asiya və Sakit Okean Ölkələri Xəbər Agentlikləri Təşkilatı (OANA) İcraiyyə Komitəsinin 2008-ci ilin sentyabrında AzərTAc-ın ev sahibliyi ilə Bakıda “Qloballaşan dünyada informasiya hamı üçün” mövzusunda keçirilmiş 30-cu iclasında da geniş danışılaraq bildirilmişdir ki, bu mühüm amil etimada əsaslanan beynəlxalq ab-havanın yaranmasına kömək edir. Unutmamalıyıq ki, Yer kürəsinin müəyyən hissəsi hələ də etnik-ərazi münaqişələrinin məngənəsindədir və bu münaqişələrin həlllininləngiməsinin əsas səbəblərindən biri, adətən, media strukturlarının formalaşdırdığı kütləvi şüur və ictimai rəydir. Siyasətçilər və mühüm məsələləri həll edənlər çox vaxt informasiya siyasətinin girovlarına çevrilir ki, bu da bəzən çox şeyi həll edir. Nəticədə biz təkcə real və düzgün mövqe tutulmamasının deyil, həm də bu və ya digər regionun xüsusiyyətlərinin başa düşülməməsi kimi halların şahidi oluruq. ( 8, s.53 ).

Deyilənlərə misal kimi, ölkəmizin tarixinə müraciət edə bilərik. Məsələn, ötən əsrin 80-cı illərinin sonu - 90-cı illərinin əvvəllərində Azərbaycan bu sahədə böyük çətinliklərlə üzləşmiş, informasiya blokadasına alınmışdı. Ölkəmizə zidd mövqe tutan, regionda öz maraqları olan bəzi qüvvələr (hətta erməni lobbisinə satılmış o vaxtkı SSRİ dövlətinin bir çox rəhbər vəzifəli şəxsləri də daxil olmaqla) bu vəziyyətdən yararlanmağa, dövlətçiliyimizə ziyan vurmağa çalışırdılar. Ümumilli lider Heydər Əliyev bu məsələ ilə bağlı müsahibələrinin birində vurğulamışdı ki: “Mən dəfələrlə bəyan etmişəm və indi də deyirəm, müstəqil Azərbaycan ... Ermənistan-Azərbaycan münaqişəsindən ... sui-istifadə edənlərlə deyil, bu münaqişənin tezliklə ədalətli şəkildə nizama salınmasına həvəs göstərənlərin hamısı ilə tərəfdaşlığa hazırdır”. ( 4, s. 217).

Bu gün Azərbaycana gələn, onun uğurlarından xəbəri olan digər dövlətlərin rəsmiləri, ölkəmizin uğurlarından yazan əcnəbi jurnalistlər yekdilliklə etiraf edirlər ki, əgər Azərbaycan təhlükəsiz bir regionda yerləşsəydi, şübhəsiz ki, o daha böyük uğurlar qazanardı. Bu gün daxili sabitlik və təhlükəsizlik, yüksək səviyyəli dövlət idarəçiliyi, hərtərəfli yüksək potensial Azərbaycanın uğurlarını təmin edən əsas amillərdir. Azərbaycanın dünyanın ən sürətlə inkişaf edən ölkələrindən birinə çevrilməsi, iqtisadi, hərbi, sosial, mədəni sahələrdə böyük nailiyyətlər qazanması bütün dünya informasiya mənbələrində dərc olunan materiallarda xüsusilə geyd edilir. Müasir dövrdə mətbuat yeni keyfiyyətlərlə zənginləşərək, ən müxtəlif mövzularda saysız-hesabsız informasiyanın yer aldığı qlobal şəbəkəyə çevrilmişdir. “İnternet” adlandırdığımız bu planetar şəbəkəyə bəzən məcazi mənada onunla bağlı məsələlərdə “ümumdünya hörümçək toru” terminindən istifadə edənlər tamamilə haqlıdırlar, çünki müasir internet şəbəkəsi bütün dünyanı artıq hörümçək toru kimi əhatə etmişdir. Müasir informasiya-kommunikasiya texnologiyalarının (İKT) sürətlə informasiya və

kommunikasiya sahələrini əhatə etməsi bu gün ölkələrin milli hüdudlarını aşaraq vahid, virtual informasiya məkanını yaratmışdır və bu virtual məkanda hər kəs nəinki onu maraqlandıran informasiyanı əldə edə, hətta fikir mübadiləsi apara, şərh verə, forumlarda iştirak edə bilər. "İnformasiya cəmiyyəti"ni ondan əvvəl mövcud olmuş cəmiyyətlərlə müqayisə edəndə, artıq yeni sosial quruluşun tarixi bir reallıq kimi mövcud olduğu tam aydın görünür. Əgər əvvəlki ictimai quruluşlarda dövlətlərin qüdrəti, onların varı bilavasitə onların malik olduqları maddi sərvətlərlə ölçülürdüsə və bu maddi sərvətlər dövlətlər arasında rəqabətə gətirib çıxardırdısa, "informasiya cəmiyyəti"ndə informasiya mübadiləsi sahəsindəki rəqabət ölkələr arasında əməkdaşlığa gətirib çıxardır və əgər onlar arasında rəqabət meydana çıxsa da bu cür rəqabət məhz intellektual mahiyyət kəsb edir. Bütün deyilənlər əsasında belə nəticəyə gəlmək olar ki, informasiya məhz o sərvətlərdəndir ki, bu sərvətlə təəssüflənmədən başqaları ilə tam bölüşmək olar. "İnformasiya cəmiyyəti" zəngin və daha geniş, çoxçeşidli xidmətlərə əsaslanır və bu cəmiyyətin inkişafında əsas rolu böyük əzələ qüvvəsi və mövcud enerji ehtiyatları deyil, məhz onu tənzimləyən və onun inkişafina təkan verən informasiya oynayır, yəni, indiki dövrdə ətraf aləm haqqında biliklərin toplanmasının da aid olduğu informasiya xarakterli proseslər, əslində, cəmiyyətin inkişaf istiqamətini və sürətini müəyyən edir və buna görə də "informasiya cəmiyyəti" termininin yaranması və ona böyük önəm verilməsi tamamilə təbiidir.

Bütün dünyada informasiyanın əhəmiyyəti durmadan artır və hazırda bu sektor bütövlükdə iqtisadiyyatın digər sahələrindən daha sürətlə inkişaf edir. Bu sahənin inkişafı Azərbaycanda da sürətlə gedir və heç də təsadüfi deyil ki, Azərbaycanda sənayenin neft-qaz sektorundan sonra inkişaf sürətinə və yatırılan sərmayələrin həcminə görə informasiya – kommunikasiya texnologiyaları sahəsi ikinci yer tutur. Beynəlxalq Telekommunikasiya İttifaqının qiymətləndirilməsinə əsasən Azərbaycan son 10 ildə İKT sahəsində dünya üzrə dinamik inkişaf edən ilk 10 ölkə sırasına daxil olub. Əhalinin 70 faizi internet istifadəçisi, 50 faizi isə genişzolaqlı xidmət istifadəçisidir. İnternet istifadəçilərinin sayına görə Azərbaycan regionda liderdir. Mobil rabitədə hər 100 nəfərə 110 mobil abunəçi düşür. Dünyanın aparıcı təşkilatlarından olan Dünya İqtisadi Forumunun (World Economic Forum -WEF) "Qlobal informasiya texnologiyaları 2013" ("Global İnformation Technology Report 2013") adlı hesabatına görə, Azərbaycan mobil rabitənin əhatə dairəsinə görə dünyanın 144 ölkəsi arasında birincilər sırasında, İKT sektoruna verdiyi dəstəyə görə isə səkkizinci sıradadır. ( 6)

Bu tarixdən sonra keçən 5 il ərzində, Azərbaycanın bu istiqamətdə gördüyü böyük miqyaslı işlər nəticəsində, əlbəttə ki, ölkəmizin qazandığı uğurlar daha da artmışdır. Məsələn, 2013-cü ilin 8 fevralında Azərbaycan Respublikasının ilk telekommunikasiya peyki olan "Azerspace - 1", sonra "Azersky" müşahidə peykinin, 2018-ci ilin 26 sentyabrında isə "Azerspace - 2" telekommunikasiya peykinin orbitə çıxarılmaşı Azərbaycanın əldə etdiyi ən yüksək texniki nailiyyətlərdəndir. Bu gün Azərbaycanda informasiya məkanının formalaşdığını sübut edən komponentlərin hamısı real surətdə mövcuddur və buna əsaslanaraq deyə bilərik ki, ölkəmiz həqiqətən də artıq dünya informasiya məkanının fəal subyektlərindən birinə çevrilib.

## ƏDƏBİYYAT


*1. Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014 - 2020-ci illər üçün Milli Strategiya. Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 2 aprel tarixli Sərəncamı ilə təsdiq edilmişdir.*

*2. Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair Milli Strategiyanın həyata keçirilməsi üzrə 2016-2020-ci illər üçün Dövlət Proqramı. Azərbaycan Respublikası Prezidentinin 2016-cü il 20 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir.*

*3.Aslanov Aslan. Cəmiyyətin həyatında informasiyanın və informasiya mübadiləsinin əhəmiyyəti. - "Fəlsəfə və sosial-siyasi elmlər", elmi-nəz. jurnal, №-2(30), Bakı, 2010. 4. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Bakı, Azərnəşr, 2009.*

*5. Əliyev İlham. İnkişaf məqsədimizdir. İkinci kitab. Bakı, Azərnəşr, 2009.*

*6.Əzizli B. Gələcəyin yüksəliş və uğur yolu - http://www.azerbaijan-news.az/ index. php?mod =3&id = 32900.*

*7. İnternetin inkişafı strategiyası müzakirə edilib.- Qərbinfo.az. 16.06.2017.*

*8.Qloballaşan dunyada informasiya hamı üćün. Bakı, Şərq-Qərb, 2009.*



**Açar sözlər:** *informasiya, cəmiyyət, internet, inteqrasiya, informasiya məkanı.*

**Ключевые слова:** *информация, общество, интернет, интеграция, информационное пространство.*

**Key words:** *information, society, Internet, integration, information space.*



**РЕЗЮМЕ**

**«Информационное общество» и Азербайджан.**

**Юсифова Севда**

В статье раскрывается сущность и роль развития «информационного общества» в начале XXI века и отмечается, что процесс формирования «информационного общества» охватывает в основном экономически развитые страны. В Азербайджане тоже взят курс на формирование «информационного общества» и республика достигла в этом деле больших успехов. В работе отмечается, что информация и общественная потребность в ее обмене в XXI веке являются уже неотъемлемой составной частью развития современного общества.



**SUMMARY**

**"Information Society" and Azerbaijan.**

**Yusifova Sevda**

The article reveals the essence and role of development of the "information society" at the beginning of the XXI century and notes that the process of the formation of the "information society" covers mainly economically developed countries. Azerbaijan has also embarked on the formation of an "information society" and the republic has achieved great success in this matter. The article notes that information and the public need for its exchange in the XXI century are already an integral part of the development of modern society.

# İdarəetmə

## AZƏRBAYCAN RESPUBLİKASINDA MÜSTƏQİLLİK İLLƏRİNDƏ DÖVLƏT İDARƏETMƏ SİSTEMİ SAHƏSİNDƏ NORMATİV-HÜQUQİ BAZANIN YARADILMASI (1993-2003)

AFAQ ZEYNALOVA
A.A.Bakıxanov adına Tarix İnstitutu




XX əsrin sonlarında dövlət müstəqilliyini bərpa edən Azərbaycan xalqı öz tarixinin mürəkkəb dövrünü yaşayıdı. Azərbaycan xalqının azadlıq uğrunda inamla mübarizə aparması düşmən dairələrin maraqlarına toxunduğundan, onlar xalqın bu yolda gələcəyə inamını zəifләtmək üçün daxildə ictimai-siyasi vəziyyəti gərginləşdirmək üçün hər vasitəyə əl atırdılar.

Xarici güclərin müdaxiləsi ilə həmin dövr ölkədə hərc-mərclik, ağır sosial-iqtisadi vəziyyət, sabitliyi pozmaq istəyən daxili və xarici qüvvələr tərəfindən həyata keçirilən təxribatlar ictimai-siyasi və sosial ziddiyyətlərin kəskinləşməsinə zəmin yaratmışdı.

Bütün bunlara baxmayaraq dövlət müstəqilliyinin möhkəmləndirilməsi uğrunda mübarizə aparan Azərbaycan xalqı bütün maneələri dəf etməyə hazır idi. Lakin müstəqilliyin ilk illərində AXC-Müsavat siyasi rəhbərliyinin səriştəsizliyi ölkədə hərc-mərclik, özbaşınalıq, saysız-hesabsız qeyri-qanuni hərbi birləşmələr və əllərdə olan silah-sursat kriminogen vəziyyəti xeyli gərginləşdirmişdi. Bu şəraitdən istifadə edən cinayətkar qrupların fəaliyyəti nəticəsində 1991-1993-cü illər ərzində qeydə alınmış qəsdən adam öldürmə, banditizm, quldurluq, soyğunçuluq, terrorçuluq cinayətlərinin sayı xeyli artmışdı.

Fərqli ictimai mövqelərinə, siyasi baxışlarına və əqidələrinə görə bir çox ziyalılar təqib edilmişdir.

O zaman Heydər Əliyevin Bakıda törədilmiş 20 Yanvar faciəsi ilə əlaqədar Azərbaycan Respublikasının Moskvadakı daimi nümayəndəliyinə getməsi, faciənin günahkarlarını kəskin ittiham etməsi ona olan təzyiqləri daha da artırmışdı. Heydər Əliyev Azərbaycana qayıtmaq qərarına gəlməsi, SSRİ və Azərbaycan SSR rəhbərlərini bərk narahat etmişdir. Onun Vətənə qayıtmasına mane olmaq üçün mərkəzi hökuməti Ayaz Mütəllibov Moskvaya Heydər Əliyevə xəbər göndərək bildirmişdi ki, onun qayıdışı ilə “Azərbaycanda böyük qarışıqlıqlar baş verə bilər” (4, 227; 14, 46). Əslində bu bir tərəfdən A.Mütəllibovun çökməkdə olan imperiya rəhbərliyindən asılılığının təsdiqi idisə, digər tərəfdən ona mərkəzdən edilən əmrin icrasını həyata keçirmək idi. Heç şübhəsiz A.Mütəllibovun bu həddə qorxmasına əhəmiyyət verməyən Heydər Əliyev Vətənə qayıtdıqda onu Bakı hava limanmda qarşılamağa hazırlaşan şəxslərdən biri, görkəmli naşir Əjdər Xanbabayev 50 gün əvvəl yəni 1990-cı il mayın 30-da qətlə yetirilmişdi (4, 227; 11, 8).

1993-cü il iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin sədri seçilən Heydər Əliyev Milli təhlükəsizlikdəki çıxışında Əjdər Xanbabayevlə dost olduğunu və onun qətlinin MTN-də planlaşdırıldığını qeyd etmişdi (11). Bu terror aktı SSRİ və respublikanın o zamankı rəhbərliyinin və xüsusi xidmət orqanlarının istifadə etdiyi ən çirkin üsullardan biri idi.

Bütün bunlara baxmayaraq Azərbaycan xalqı dövlət müstəqilliyini bərpa etdikdən sonra onun nail olduğu bütün uğurlar ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyev zəngin dövlətçilik təcrübəsindən istifadə etmək uçuruma yuvarlanan, böhranlar içində çabalayan, gələcəyini heç kimin aydın təsəvvür etmədiyi zəngin tarixə və mədəniyyətə malik bir xalqı və ölkəni xilas etdi.

Ümummlilli lider Heydər Əliyevin xalqın tələbi ilə hakimiyyətə gəlməsi ilə Azərbaycan xalqının dövlət müstəqilliyi və onun möhkəmləndirilməsi istiqamətində normativ-hüquqi bazanın möhkəmləndirilməsi sahəsində uğurlu addımlar atıldı.

Dövlət Müstəqilliyinin bərpasından sonrakı dövrdə yeni ictimai-siyasi və iqtisadi formasiyaya keçid bütün sahələrdə dövlət strukturlarına yenidən baxılmasını tələb edirdi. Bunu nəzərə alan ulu öndər Heydər Əliyev ilk növbədə dövlət strukturlarında hüquqi-normativ bazanın yaradılmasının zəruriliyini bildirərək bu sahədə ciddi addımların atılması üçün göstərişlər verdi.

Milli Məclisin 6 dekabr 1993-cü il tarixli qərarı ilə Azərbaycan Respublikası Konstitutiya layihəsinin hazırlanması üzrə dövlət komissiyası yaradıldı. 1994-cü ildə Heydər Əliyevin sədrliyi ilə yeni Konstitutisiya layihəsinin hazırlanmasına məsul olan xüsusi komissiyanın fəaliyyətə başlaması qərara alındı. Ümummilli lider layihənin hazırlanması zamanı onun hər bir müddəasını



özü şəxsən nəzərdən keçirir, dövlətin gələcək taleyi, demokratik imici baxımından bu işə son dərəcə həssaslıqla yanaşırdı. O, bu xüsusda deyirdi: "Biz elə bir layihə hazırlamalı və nəhayət, elə bir Konstitutisiya qəbul etməliyik ki, o, müstəqil Azərbaycan Respublikasının demokratik prinsiplər əsasında uzun müddət sabit yaşamasını təmin edən əsas qanun, tarixi sənəd olsun. Hakimiyyət bölgüsü, - ali icra, qanunvericilik, məhkəmə hakimiyyəti,- bunlar hamısı xalqın iradəsinə söykənməli, seçkilər yolu ilə təmin olunmalıdır" (5, 48).

Ulu öndər Heydər Əliyev ölkəmizdə normativ-hüquqi bazanın yaradılması və insan hüquqlarının daha etibarlı müdafiəsinə xidmət edən məhkəmə-hüquq sisteminin müasirləşdirilməsi üzrə məqsədyönlü tədbirlər həyata keçirdi. 1994-cü il avqustun 9-da "Cınayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsi tədbirləri haqqında" fərman imzaladı. Bu fərman ölkədə konstitusiyalı dövlət quruluşunun mühafizəsinə, insan hüquq və azadlıqlarının cinayətkar qəsdlərdən qorunmasına yönəlmiş və cinayətkarlığa qarşı mübarizədə əsaslı dönüş yaratdı (15, 5).

1994-cü il oktyabrın 2-də Surət Hüseynov və Rövşən Cavadovun başçılığı ilə dövlət çevrilişinə silahlı cəhd göstərildi, Mahir Cavadovun rəhbərliyi ilə XTPD-nin və cinayətkar ünsürlərin qüvvələri respublika prokurorluğuna silahlı basqın etdilər, vəzifəli şəxslər barədə zorakılıq tətbiq etdilər, prokurorluğun işini pozdular, dövlət əmlakına ziyan vurdular (3, 165-166; 17).

1994-cü il oktyabr və 1995-ci il mart dövlət çevrilişləri cəhdlərinin qarşısının alınması, Surət Hüseynovun, Rövşən və Mahir Cavadov qardaşlarının kölgəsi altında, onların başçılıq etdikləri cinayətkar dəstələrin, XTPD kimi dövlət strukturlarına daxil olan bir qurumun qanunsuz hərəkətləri fonunda əl-qol açan digər cinayətkar qrupların ifşa olunması və zərərsizləşdirilməsi respublikada bütövlükdə cinayətkarlıqla mübarizənin yeni vüsətdə güclənməsinə təkan verdi.

Həmin fərmana əsasən Azərbaycan dövlətinin inkişafına mane olan amillərə qarşı mübarizə usul və addımları genişləndirilmiş, cinayətkarlığa şərait yaradan halların aradan qaldırılmasına yönəldilmiş əməli tədbirlər gücləndirilmiş, müvafiq təşkilati və praktiki tədbirlər planlaşdırılmış və uğurla həyata keçirilmişdi.

Məhz bu illərdə Azərbaycan xalqına, onun Ə.Xanbabayev, A.Cəlilov, Ş.Rəhimov, Z.Bünyadov kimi görkəmli nümayəndələrinə qarşı törədilən cinayətlərin üstü açılmış, onların sifarişçiləri və icraçıları müəyyən edilmiş və cinayət məsuliyyətinə cəlb edilmişlər.

Cinayətkarlıqla mübarizədə görülmüş işlər nəticəsində cinayətlərin azalması meyli son illərdə ardıcıl və dönməz xarakter almışdır. 1992-ci illə müqayisədə 2000-ci ildə qeydə alınmış cinayətlərin sayı 37,8 faiz, o cümlədən cinayət axtarış xətti ilə 39,0 faiz, onların ağır növləri, o cümlədən qəsdən adamöldürmələr 2,5 dəfə, quldurluq və soyğunçuluqlar 3,8 dəfə, oğurluqlar 3,3 dəfə, nəqliyyat vasitələrinin oğurlanması və qaçırılması 10,6 dəfə azalmışdır.

Həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində cinayətlərin açılması ildən-ilə yaxşılaşaraq 1992-ci illə müqayisədə 67 faizdən 2000-ci ildə 92,4 faizədək yüksəlmişdir. Axtarışda olan cinayətkarların tutulması 4,6 dəfə artmışdır (2, 60-61; 10, 147).

Bunun nəticəsidir ki, MDB ölkələri arasında Azərbaycan Respublikası kriminogen durumunun vəziyyətinə görə ən sabit olan ölkədir. 2000-ci ildə əhalinin hər 100 min nəfərinə düşən cinayətlərin sayına görə Azərbaycanda Respublikasında Rusiya Federasiyasından 11,4, Belarusdan 7,5, Ukraynadan 6,2, Qazaxıstandan 5,4, Moldovadan 5,1 dəfə az cinayət törədilmişdir (16).

Ölkədə sabitliyin və vətəndaş sülhünün qorunması üçün ayrı-ayrı cinayətkar qurumların nəzarətində olan külli miqdarda silah-sursat aşkar edilmişdir. Qanunsuz saxlanılan 21 mindən artıq müxtəlif növ odlu silah, milyonlarla hərbi sursat aparılmış əməliyyat-axtarış və profilaktiki tədbirlər nəticəsində müsadirə olunmuşdur və bütün bunlar odlu silahla törədilən cinayətlərin sayını 7 dəfə azaltmağa imkan vermişdir.

Ulu öndər Heydər Əliyev öz sinəsini sipər edərək Azərbaycan Respublikasının dünya birliyinin müstəqil bir hüquqi subyekti olmaq hüququnu özünə qaytardı. Onun həyata keçirdiyi təxirə salınmaz sosial-iqtisadi, siyasi və mənəvi tədbirlərin nəticəsi kimi, bir tərəfdən Milli Ordunun formalaşdırılması, Azərbaycanın dövlətinin milli mənafelərini qorumağa qadir olan nizami silahlı qüvvələrin yaradılması, torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm addımlar atılmağa başladı, digər tərəfdən, bütün siyasi və diplomatik vasitələrin işə salınması ilə 1994-cü ilin may ayında həyati əhəmiyyət kəsb edən atəşkəs əldə edilib. Məhz bu müqavilədən sonra ölkənin dünya birliyinə inteqrasiya etməsi, öz iqtisadi potensialından səmərəli istifadə edərək dünya bazarına daxil olmağa şərait yaradan beynəlxalq müqavilələr, razılaşmalar və s. əldə edildi. Ölkə daxilində yaranmış nisbi sabitlikdən, həmçinin, beynəlxalq aləmdə Azərbaycan Respublikasına münasibətdə artan inam və maraqdan istifadə edərək 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi" imzalandı. Bununla da ulu öndər Heydər Əliyev tərəfindən işlənib hazırlanan və müstəqil Azərbaycan Respublikasının iqtisadi inkişaf konsepsiyasının əsasını təşkil edən neft strategiyasının həyata keçirilməsinə başlanıldı. Məhz ümummilli liderimiz Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində 1995-ci ilin noyabrın 12-də demokratik, hüquqi dövlətin təməlini təşkil edən Konstitusiya qəbul olundu. Beləliklə də, ölkədə daha geniş miqyaslı islahatların aparılması üçün normativ-hüquqi baza formalaşdırıldı (1, 3).

Bu xüsusda "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında", "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında", "Veteranlar haqqında" və digər qəbul edilmiş qanunların adını çəkmək olar. Ulu öndərin "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi və iqtisadiyyatın maliyyə vəziyyətinin

sabitləşdirilməsi tədbirləri haqqında" 1994-cü il 15 iyun tarixli fərmanı əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində çıxış edən növbəti mühüm sənəd olmuşdur. Fərmandan irəli gələn vəzifələrin daha effektiv yerinə yetirilməsinin təmininə nail olmaq və yol verilən bəzi qüsurların aradan qaldırılması üçün Heydər Əliyev "Əhalinin sosial müdafiəsi sahəsində əlavə tədbirlər haqqında" növbəti sənəd imzalamışdır ki, bu, bilavasitə əhalinin sosial müdafiəsinin daha etibarlı şəkildə qorunmasında vacib əhəmiyyət kəsb etmişdir. Beləliklə, ulu öndərin həyata keçirdiyi sosial siyasətin məzmunu onun ölkənin iqtisadi bazisinə əsaslandığını, dayanıqlı olduğunu, eyni zamanda mükəmməl normativ-hüquqi bazaya söykəndiyini göstərir (8, 5).

Ulu öndər tərəfindən 2002-ci il yanvarın 1-dən ölkəmizin sosial siyasətində yeni bir mərhələnin başlanğıcı qoyuldu. "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında" 15 noyabr 2001-ci il tarxli qanunla güzəşt və imtiyazlardan istifadə edən əhali kateqoriyasının dairəsinə yenidən baxıldı, həmçinin kommunal və nəqliyyatdan istifadəyə görə güzəştlər müavinətlərlə əvəz olundu. Bütün bunlar bazar iqtisadiyyatı şəraitində dövlət vəsaitlərinin xərclənməsinin səmərəliliyinin yüksəldilməsinə, enerji daşıyıcılarından səmərəli və qənaətlə istifadənin təmin olunmasına, sosial müdafiənin ünvanlılığının artırılmasına xidmət edən vacib məqamlara çevrildi və zaman bu islahatların nə dərəcədə doğru olduğunu sübuta yetirdi. Görülən digər tədbirlər, o cümlədən yoxsulluğun səviyyəsinin azaldılması üçün müvafiq proqramın təsdiqi ulu öndərin rəhbərliyi altında həyata keçirilən sosial siyasətin yüksək səmərəliliyi ilə yanaşı, xalqın rifah halının yüksəldilməsi istiqamətində real nəticələr əldə olundu (8, 5).

1995-ci ildə Azərbaycan dövlətinin ilk parlamentinə keçirilən seçkilər isə dövlət müstəqilliyinin möhkəmləndirilməsi prosesinin hüquqi bazasının yaradılmasına daha geniş imkanlar verdi. Heydər Əliyev böyük şəxsiyyət olaraq cəmiyyətin sivil inkişafını hər bir fərdin maraq və mənafelərinin etibarlı təminatında görür və buna xidmət edən bütün zəruri tədbirləri həyata keçirirdi. Onun gərgin səyləri nəticəsində hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu yolu ilə irəliləyən müstəqil Azərbaycan Respublikasında vətəndaş cəmiyyətinin formalaşması, insanların azad, sərbəst yaşaması, qanunun aliliyinin təmin edilməsi məqsədi ilə ən yüksək tələblərə cavab verən normativ-hüquqi baza yaradıldı. Ulu öndər 1997-ci ildə xarici jurnalistlərlə görüşündə müxbirin dövlətçilik ənənələrinin yaranması və hansı göstəricilərlə şərtlənməsi ilə bağlı sualını cavablandıraraq demişdi: "...Bu, ilk növbədə, əhalinin xalqa, xalqın millətə, sakinlərin vətəndaşlara çevrilməsi istiqamətində gedən prosesdir. Dövlətçilik insanlarda vətənpərvərlik duyğusunu, vətən anlamının milli mənə daxil edilməsini nəzərdə tutur. Əgər hər hansı bir ölkədə hər kəs təkcə öz mənafeyini, ailəsinin mənafeyini düşünürsə, xalqın taleyinə, ümummilli siyasi və iqtisadi mənafelərə biganədirsə, deməli, burada dövlətçilik ənənələri yoxdur. Gərək hər bir vətəndaş ölkəsinin böyük siyasəti haqqında düşünsün".

Ümummilli liderin dövlətçilik siyasəti sayəsində Azərbaycanın özü ilə birlikdə onun səhiyyə sistemi də xilas edildi. Heydər Əliyevin o vaxtlar ölkədəki siyasi-iqtisadi vəziyyəti yaxşılaşdırmaq naminə gördüyü işlər, yerinə yetirdiyi əvəzsiz xidmətlər tarixin səhifələrinə qızıl hərflərlə həkk olundu (9, 2).

1995-ci il Konstitusiyanın qəbulundan sonra Ümummilli lider Heydər Əliyev hüquq-mühafizə orqanlarının fəaliyyətinin yeni dövrün tələblərinə uyğunlaşdırılması üçün bir sıra mükəmməl qanunvericilik aktlarının qəbulunu təmin etmişdir. Bu məqsədlə 21 fevral 1996-cı il tarixdə Hüquq islahat komissiyası yaradılmış, Avropa Şurasının tövsiyələri nəzərə alınmaqla hazırlanmış "Konstitusiya məhkəməsi haqqında", "Məhkəmələr və hakimlər haqqında", "Vəkillər və vəkillik fəaliyyəti haqqında", "Prokurorluq haqqında", "Polis haqqında", "Əməliyyat-axtarış tədbirləri haqqında", "Notariat haqqında" və s. qanunların qəbulu məhkəmə-hüquq islahatlarının məntiqi yekunu olmuşdur (6, 7).

Ulu öndər ölkədə mürəkkəb ictimai-siyasi şərait, iqtisadi böhran, müharibə şəraiti, qaçqınlar problemi və üstəlik vətəndaş qarşıdurması təhlükəsi hökm sürən bir dövrdə bir çox maneələrə baxmadan, heç nədən çəkinmədən, cəsarətlə xalq təsərrüfatında islahatların aparılmasını təkidlə tələb etdi və onun həyata keçirilməsinə rəhbərliyi bilavasitə öz üzərinə götürdü. Ölkəmizin bazar iqtisadiyyatı yolu ilə inkişaf etdiriləcəyi bəyan olundu. Bununla əlaqədar aqrar sahədə başlanan islahatların normativ-hüquqi bazası yaradıldı. Bir-birini təkrarlayan səmərəsiz strukturlar ləğv olundu, bazar iqtisadiyyatının tələblərinə uyğun daha çevik fəaliyyət göstərə biləcək yeni qurumlar yaradıldı. Heydər Əliyevin qısa bir müddətdə həyata keçirdiyi titanik işlər bütün dünyanı heyran qoydu. Daxildən və xaricdən törədilən əngəllərə baxmayaraq az vaxt ərzində ölkədə sabitlik yaradıldı.

Heydər Əliyevin 26 iyul 1994-cü il tarixli fərmanı ilə Gənclər və İdman Nazirliyi və 14 yanvar 1998-ci il tarixli fərmanı ilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yaradıldı (13, 3).

MDB ölkələri arasında ilk dəfə Azərbaycan Respublikasında 1996-cı ildə “Meliorasiya və irriqasiya haqqında” Qanun qəbul edildi. Bundan iki il sonra “Azərbaycan Respublikasının Su Məcəlləsi”, daha sonra isə “Hidrotexniki qurğuların təhlükəsizliyi haqqında” Qanun qüvvəyə mindi (7, 4).

Bu proqramın əsas vəzifələri isə fundamental elmin, vacib tətbiqi tədqiqatların, araşdırmaların inkişafını və milli istehsalatın yeni texnologiyalara tələbatını ödəmək məqsədi ilə təşkilati və iqtisadi mexanizmlərin yaradılması, elmi, elmi-texnoloji və innovasiya fəaliyyətinin normativ-hüquqi bazasının təkmilləşdirilməsi, elm və texnologiyalar sahəsində yüksək ixtisaslı elmi və mühəndis kadrların hazırlanması sisteminin təkmilləşdirilməsi, dünyadakı müasir meyilləri nəzərə alaraq, elmi tədqiqatların və təcrübi işləmələrin prioritet istiqamətlərinin müəyyənləşdirilməsi, beynəlxalq elmi-texniki əməkdaşlığın inkişaf etdirilməsi, elm və təhsilin inteqrasiyası, milli innovasiya sisteminin formalaşdırılması, elmi işçilərin statusunun, sosial təminatının və gəlirlərinin artırılmasına yönəlmiş qanunvericilik bazasının yaradılmasının həyata keçirilməsinə yönəldilmişdir.

Bundab başqa Azərbaycan Respublikasında ölüm hökmü tam ləğv olunmazdan əvvəl cəmiyyətdə geniş ictimai müzakirəyə çıxarılmış, Avropa Şurası ilə geniş məsləhətləşmələr aparılmışdır. Ulu öndər 1998-ci il fevralın 3-də Milli Məclisə ölüm hökmünün ləğvi ilə bağlı müraciətində cinayət-hüquq siyasətini hərtərəfli təhlil edərək ədalət, azadlıq, humanizm və insanpərvərlik kimi yüksək idealları rəhbər tutmaqla ölkədə ölüm cəzasının ləğv edilməsi qənaətinə gəldiyini bildirmiş və bu tarixi bəyanatın zəruriliyini əsaslandırmışdır. Gərgin müzakirələrdən sonra Milli Məclis ölüm hökmünün ləğvi ilə bağlı ölkə Prezidentinin təklifini dəstəkləmiş, 10 fevral 1998-ci ildə belə bir tarixi qərar qəbul etmişdir.

Həyata keçirilən mütərəqqi məhkəmə-hüquq islahatlarının məntiqi nəticəsi olaraq Azərbaycan Respublikası 2001-ci ilin yanvarında Avropa Şurasına tamhüquqlu üzv seçilmiş, təşkilat qarşısında götürdüyü bütün öhdəlikləri vaxtlı-vaxtında icra etmişdir. İmzalanmış çoxsaylı əfv fərmanları nəticəsində qondarma "siyasi məhbuslar" problemi qapanmış, insan hüquqlarının təminatına xidmət edən yeni qanunlar qəbul olunmuş, o cümlədən İctimai Televiziya fəaliyyətə başlamışdır. Rəsmi Bakı təşkilatın ölkənin demokratik inkişafına xidmət edən bütün mütərəqqi təklif və

tövsiyələrini nəzərə alaraq, AŞ PA həmməruzəçilərinin respublikada müntəzəm monitorinq aparmasına şərait yaratmışdır. 28 dekabr 2001-ci il tarixdə "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Konstitusiya Qanununun qəbulu, 2002-ci ildə ombudsman institutunun fəaliyyətə başlaması üçün maddi-texniki bazanın təşkili insan və vətəndaş hüquqlarının təmini istiqamətində respublikada həyata keçirilən hüquqi islahatların məntiqi davamı olmuşdur (6, 7).

Prezident Heydər Əliyevin rəhbərliyi altında aparılmış son dərəcə gərgin fəaliyyət nəticəsində ölkədə cinayətkarlıq cilovlanmış və kriminogen durum tam nəzarət altına alınmışdır. Bunun nəticəsidir ki, MDB ölkələri arasında Azərbaycan krımınogen durumun vəziyyətinə görə ən sabit olan ölkədir. 2000-ci ildə əhalinin hər 100 min nəfərinə düşən cinayətlərin sayına görə Azərbaycanda Rusiyadan 11,4, Belarusdan 7,5, Ukraynadan 6,2, Qazaxıstandan 5,4, Moldovadan 5,1 dəfə az cinayət törədilmişdir. Azərbaycan Respublikasında ictimai-siyasi sabitliyə nail olunması vətəndaşların hüquq və mənafelərinin müdafiəsinə, bazar münasibətlərinə əsaslanan iqtisadiyyatın və sahibkarlığın inkişafına, beynəlxalq iqtisadi və maliyyə sisteminə inteqrasiyaya istiqamət götürən, sosial ədalət prinsipinə əsaslanan demokratik, hüquqi dövlət quruculuğu yoluna qədəm qoymağa imkan yaratmışdır (2, 58-62).

Ulu öndər Heydər Əliyevin imzaladığı 1998-ci il 22 fevral tarixli "İnsan hüquq və azadlıqlarının müdafiəsinə dair" Fərmanı və "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı"nın təsdiq olunması barədə 1998-ci il 18 iyun tarixli Sərəncamı mühüm qanunvericilik və institusional islahatlara təkan vermiş, ölkəmizdə insan hüquqlarının təmini sahəsində effektiv müdafiə mexanizmlərinin formalaşdırılmasını şərtləndirmişdir (12, 40-42).

1995-2003-cü illərdə ümummilli lider Heydər Əliyev tərəfindən 32 əfv fərmanı imzalanmış, bu fərmanlar 3104 məhkuma şamil edilmişdir. Azərbaycan Respublikası Prezidentinin qanunvericilik təşəbbüsü əsasında Milli Məclisdə 1996-2003-cü illərdə 8 amnistiya haqqında qanun qəbul olunmuş, 21325 məhkum azadlığa buraxılmış, bu amnistiya aktları 77 mindən artıq məhkuma şamil edilmişdir. (6, 7).

Ümummilli Lider Heydər Əliyevin gərgin səyləri nəticəsində hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu yolu ilə irəliləyən müstəqil Azərbaycan Respublikasında vətəndaş cəmiyyətinin formalaşması, insanların azad, sərbəst yaşaması, qanunun aliliyinin təmin edilməsi məqsədi ilə ən yüksək tələblərə cavab verən normativ-hüquqi baza yaradıldı.

Ulu Öndər Heydər Əliyev dünyanın gələcək inkişafına həmişə qlobal yanaşmış, demokratik ideallarına doğru aparan yola inam bəsləmiş, yeni yaranmış Azərbaycan Respublikasını öncül görməyə çalışmışdır. Belə bir mövqe onun davamçısı olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən bu gün də inamla həyata keçirilir.

## ƏDƏBİYYAT


*1. Aliyev İsa, Əsədov Aqil, Heydər Əliyev Müstəqil Azərbaycan dövlətinin qurucusu və memaridir. "Xalq qəzeti".-2011.-5 may.-N 96.*

*2. Azərbaycan Respublikası 1991-2001.B. XXI-Yeni Nəşrlər Evi, 2001, 280 s.*

*3. Azərbaycan Respublikasının tarixi. (1991-2003).1-ci cild.Bakı, ATİB, 2016, 704 s.*

*4. Azərbaycan tarixi. Yeddi clddə. VII cild (1941-2002-ci illər). Bakı. "Elm". 2008. 608 səh. + 80 səh. İllüstrasiya.*

*5. Cəbrayılov R. Azərbaycan Respublikasında hüquqi islahatlar. Bakı, 2014, 304 s.*

*6. Cəfərov Zahid. Hüquqi dövlət ideyasini gerçəkliyə çevirən lider "Azərbaycan".-2013.-20 aprel.-N 83.-S.7.*

*7. Əhmədzadə Əhməd. Azərbaycanda Meliorasiya və su təsərrüfatinin dinamik inkişafi Ulu Öndərimizin adi ilə bağlidir . "Xalq qəzeti".-2009.-11 dekabr.-N 275.-S.4.*

*8. Ələkbərov Fizuli. Əhalinin sosial müdafiəsinin mükəmməl modelini yaradan lider. "Azərbaycan".-2011.-11 may.-N 100.*

*9. Əmiraslanov Əhliman.Heydər Əliyevin ideyalari Azərbaycan səhiyyəsinin inkişafında mühüm amildir. "Azərbaycan".-2012.-29 aprel.-N 92.*

*10. Heydər Əliyev. İki cilddə. 2-ci cild. Bakı, "Turxan", 2013, 704 s.*

*11. Qayıdış (1990-1993). Sənədlər toplusu, - Bakı, «Azərbaycan», 1996, 791 s*

*12. Qurbanov Faiq. Heydər əliyev və Azərbaycan Ədliyyəsi. "Qanunçuluq".-2009.-№5*

*13. Rəcəbli Hadi. Sosial sabitlikdən sosial rifaha. "Azərbaycan".-2011.-30 aprel.-N 92.*

*14. Ülki İ. Qızıl ulduzdan hilala doğru: Heydər Əliyevin fırtınalı həyatı. - Bakı, 1994, 164 s.*

*15. Vəliyev Xanlar. Milli qürurumuzun təntənəsi. "Xalq qəzeti".-2011.-12 oktyabr.-N 225.*

*16. http://penitensiar.justice.gov.az/224-21-heydr-liyev-prezident-1993-2003-sabitliyin-tminats.html. Prezident (1993-2003): sabitliyin təminatçisi. müstəqil dövlət quruculuğunun əsas istiqamətləri.*

*17. http://www.e-qanun.az/framework/9205. Azərbaycan Respublikası Ali Sovetinin sədri. Bakı şəhəri, 22 mart 1995-ci il. № 989.*

*18. http://www.nuh.az/11754-1990-c-ild-ldrln-jdr-xanbabayev-v-dnn-glllnn-xanbabayev.html.*



**Açar sözlər:** *Azərbaycan Respublikası, Heydər Əliyev, dövlət idarəçilik sistemi, hüquqi-normativ baza*
**Key words:** *Azerbaijan Republic, Heydar Aliyev, state administration system, regulatory / legislative base.*
**Ключевые слова:** *Азербайджанская Республика, Гейдар Алиев, система государственного управления, нормативно-юридическая база*


## SUMMARY


**Creation of normative and legal base in the system of state administration in the years of independence of the Republic of Azerbaijan (1993-2003)**

The article highlights chaos, outrages, threats of civil war, news of the coup d'etat and other facts during the coming to power of the national leader Heydar Aliyev in 1993.

The article also provides with information on the reforms and the legal framework created in 1993-2003 and implemented in the state administration by national leader Heydar Aliyev.


## РЕЗЮМЕ


**Создание нормативно-юридической базы в системе государственного управления в годы становления независимости Азербайджанской Республики (1993-2003 гг.)**

В статье освещен хаос, бесчинство, угрозы гражданской войны, новости государственного переворота и др. факты в период прихода к власти общенационального лидера Гейдара Алиева в 1993 году.

Также в статье дана информация о претворяемых в жизнь общенациональным лидером Гейдаром Алиевым в 1993-2003 гг. реформах и созданных в госуправлении юридически-правовой базы.

# İqtisadiyyat

## BAKI-TBİLİSİ-CEYHAN VƏ CƏNUBİ QAFQAZ BORU KƏMƏRLƏRİNİN TİKİNTİSİNDƏ BP VƏ TƏRƏFDAŞLARININ ROLU

İLHAM ƏLİZADƏ
AMEA Gəncə Bölməsi




BP və tərəfdaşlarının gərgin fəaliyyətinin nəticəsi olaraq 2004-cü ilin fevralında Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac boru kəmərinin maliyyələşdirilməsi sazişi imzalandı və bununla da boru kəməri layihəsini üçüncü tərəfin maliyyələşdirməsi məqsədilə aparılan gərgin işlər uğurla tamamlandı. Layihənin danışıqlar üzrə rəhbəri Bill Brauninqin dediyi kimi“ bu sxemdə digər səhmdarlarla müqasiyədə BP şirkəti daha böyük riskə girmişdi. Belə ki, BTC layihəsində özünün 30,1 %-lik iştirak payından əlavə BP Azərbaycan tərəfin də 25 %-lik səhm zəmanətinin təxminən üçdə ikisinə də zamin oldu.Bu tikinti mərhələsində maliyyə baxımından BP şirkətinin qeyri proporsional təsir altında qalması demək idi.Biz ümumilikdə 2,448 mld. dollar borc götürdük. 1,575 milyard dollar kreditorlardan, 0,872 milyard dollar isə dörd səhmdardan alındı ki, buraya ən böyük tək kreditor kimi BP-dən alınmış 0,535 milyard dollar da daxildir”(5, s.8-10).

Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac boru kəmərinin tikintisi layihəsinin maliyyələşdirilməsi münasibətilə Bakıda üç tranzit ölkə hökumətinin,layihə sponsorlarının, kreditorların iştirakı ilə rəsmi mərasim keçirildi.Mərasimdə Avropa Yenidənqurma və İnkişaf bankının vitse-prezidenti Norin Doyl çıxış edərək bildirdi ki, “Biz inanırıq ki, bu günə qədər ən yaxşı boru kəməri layihəsi kimi qiymətləndirilən Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac boru kəməri bölgənin iqtisadi potensialını üzə çıxaracaqdır.Biz bu potensialın gercəkliyə çevrilməsi üçün bu layihəin sponsorları və hökumətlərlə birlikdə işləmək əzmindəyik” (4, s.7).

18 noyabr 1999-cu il tarixdə ATƏT-ə üzv olan ölkələrin İstanbul zirvə görüşü çərçivəsində “Xam neftin Azərbaycan Respublikası,Gürcüstan və Türkiyə Respublikasının əraziləri ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri vasitəsilə nəql edilməsinə dair Azərbaycan Respublikası,Gürcüstan və Türkiyə Respublikası arasında Saziş”in imzalanmasından sonra BP şirkəti layihənin operatoru kimi əsas ixrac boru kəmərinin maliyyə mənbəyinin axtarılması ilə paralel olaraq vacib məsələlərdən olan Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin tikintisi üçün Torpaq Ayırma Proqramının Əsas Prinsiplərinin (TAPƏP) hazırlanması ilə də məşğul oldu.Belə bir Proqramın hazırlanması həm də layihəyə kredit ayıracaq Beynəlxalq Maliyyə Korporasiyasının (BMK),Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB),Dünya Bankının tələblərindən biri idi.Bu proqramın həyata keçirilməsi layihələrin icrası prosesində çox mühüm,həm də son dərəcə




*BP-nin Londonda Baş ofisi*

məsuliyyətli mərhələdir. Prosesin aparılması üçün mükəmməl qanunvericilik bazası olmalı,həm də bu qanunvericilik beynəlxalq qanunlara zidd olmamalı idi.Belə bir vacib və hazırlanması çox böyük zəhmət tələb edən Proqramı layihənin operatoru olan BP şirkəti beynəlxalq təcrübəyə əsaslanaraq qısa müddətdə hazırlaya bildi .

Əsas ixrac boru kəmərinin Bakı-Tbilisi-Ceyhan marşrutu ilə çəkiləcəyini hələ 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi" imzalanandan sonra qətiləşdirmiş Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ölkə iqtisadiyyatının dirçəldilməsi tədbirləri sırasında torpaq islahatının aparılmasını strateji vəzifələr sırasına daxil etmişdi. İslahatın kəmərlərin tikintisinin başlanmasına qədər başa çatdırılması ölkənin iqtisadiyyatı, xüsusilə kənd təsərrüfatının inkişaf etdirilməsi üçün çox vacib bir tədbir olmaqla yanaşı, həm də torpaq üzərində dövlət, xüsusi və bələdiyyə mülkiyyətinin yaranması, nəticə etibarı ilə torpaq mülkiyyətçisinə çevriləcək Azərbaycan kəndlisinin kəmərlərə görə kompensasiya alması demək idi. Bu tarixi islahatın reallaşması üçün ilk növbədə 16 iyul 1996-cı il tarixdə "Torpaq islahatları haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul olundu (2,s.89). "Aqrar islahatların həyata keçirilməsini təmin edən bəzi normativ-hüquqi aktların təsdiq edilməsi barədə" ölkə Prezidentinin 10 yanvar 1997-ci il tarixli 534 saylı Fərmanı ilə islahatlar daha da sürətləndirildi. Respublikada mövcud olmuş 2032 təsərrüfat, kolxoz və sovxozlar ləğv edilərək onların əkinə yararlı torpaqları əhaliyə paylandı. Azərbaycanın işğal altında olan rayonlarının əhalisi istisna olmaqla pay torpağı almaq hüququ olan 870 min ailə,başqa sözlə 3 milyon 442 min 778 nəfər torpaq payı aldı.Torpaq üzərində dövlət,bələdiyyə və xüsusi mülkiyyət növü müəyyən edildi.Ölkənin vahid torpaq fondunu təşkil edən 8 mln.641 min 506 ha torpağının 56,9 faizi (4mln.913 min 639 ha) dövlət mülkiyyətində saxlanıldı, 23,5faizi (2 mln. 032 min 744 ha) bələdiyyə mülkiyyətinə, 19,6% faizi (1mln. 695 min 123 ha) isə xüsusi mülkiyyətə ayrıldı (6,s.1).

1997-ci ildən başlamış torpaq islahatı qısa müddətdə başa çatdırıldı.İslahat nəticəsində torpaq mülkiyyətçisinə çevrilmiş fiziki və hüquqi şəxslər 2001-2002-ci illərdə dövlət torpaq aktları ilə təmin olundular.

Kəmərlərin tikintisi üçün torpaqların icrayə götürülməsində artıq torpaq mülkiyyətçisi statusu almış Azərbaycan kəndlisi bu prosesdə tərəf kimi iştirak etmək hüququ qazandı. Mülkiyyətində olan torpaq sahəsinin kəmərlərin keçdiyi hissəsini uzunmüddətli icarəyə verməklə kəndli ABŞ dolları ilə kifayət qədər yüksək kompensasiya ala bildi ki, bu da 4250 ailənin öz həyat səviyyəsini yüksətməsi,təsərrüfatını inkişaf etdirməsi və digər problemlərinin həll edilməsi üçün yaxşı imkanlar demək idi.

BP şirkəti tərəfindən Torpaq Ayırma Proqramının Əsas Prinsiplərinin (TAPƏP) hazırlanması ilk növbədə Azərbaycan qanunvericiliyinin bu proqramın həll etməli olduğu məsələlərin tənzimləməsini tələb edirdi. Ona görə də Azərbaycan Respublikasının bəzi qanunlarında və normativ-hüquqi aktlarında dəyişikliklər edilməsi, yeni normativ-hüquqi aktlar qəbul olunması zərurəti yaranmışdı. Məhz bu zərurətə görə Azərbaycanda yeni 52 normativ-hüquqi akt hazırlandı.TAPƏP-in hazırlanması üçün milli qanunvericiliyin müddəaları əsas kimi qəbul edildi. Azərbaycan Respublikasında torpaqayırma və kompensasiya işlərinin əsaslarının hazırlanması və onlara nəzarəti həyata keçirmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 15 may 2001-ci il tarixli Fərmanına əsasən BP şirkətinin operator olduğu "BTC Co", ARDNŞ, Yanacaq və Energetika Nazirliyi, Azərbaycan Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin nümayəndələrindən ibarət layihənin işçi qrupu yaradıldı. İşçi qrupunun təşəbbüsü ilə Birgə Torpaqayırma Qrupu (BTAQ) təşkil edildi. BTAQ BP şirkəti adından boru kəmərlərinin tikintisi üçün ayrılmış torpaqla bağlı bütün məsələlərlə məşğul olur, həmçinin Azərbaycan-Gürcüstan-Türkiyə boru kəmərləri layihəsinin Azərbaycan bölməsində müvafiq icmalarla əlaqələri təmin edirdi. Bütün bu işlərin şəffaf və aşkarlıqla aparılması, təsirə məruz qalan şəxslərə məsləhətlərin verilməsi üçün yerli Qeyri Hökumət Təşkilatlarının xidmətindən də istifadə olundu.

Kəmərlərin keçdiyi 13 rayonun- Abşeron, Qaradağ, Hacıqabul, Ağsu,Kürdəmir, Ucar, Ağdaş, Yevlax, Goranboy,Samux, Şəmkir, Tovuz və Ağstafa rayon icra hakimiyyətlərində "Torpaqayırma və kompensasiyanın qiymətləndirilməsi komissiyası" yaradıldı. BP nümayəndələrinin, kəmərlərin keçdiyi tranzit rayonların icra hakimiyyətlərinin başçılarının da daxil olduğu rayon torpaqayırma və kompensasiyaların qiymətləndirilməsi komissiyaları torpaqayırma proqramını icra edir, torpaqayırma strategiyasının əsas prinsiplərinə uyğun olaraq Dövlət adından torpaq mülkiyyətçisi ilə 2066-cı ilə qədər olan müddətə torpağın icarəyə götürülməsi haqqında notarial qaydada müqavilə imzalayır,mülkiyyətçi ilə razılaşmanın hər hansı bir səbəbdən əldə edilməsi mümkün olmadıqda məhkəmə vasitəsilə torpağın bazar qiyməti ödənilməklə dövlət ehtiyacları üçün alınmasını təmin edirdi.İcarə müqaviləsi ilə əldə edilmiş hüquqları Dövlət xüsusi müqavilə ilə "BTC Co" şirkətinə ötürürdü.

Azərbaycan-Gürcüstan-Türkiyə Boru Kəmərləri layihələrinin həyata keçirilməsi üçün hazırlanmış İlkin Torpaqayırma Proqramına görə aşağıdakı tədbirlər həyata keçirildi:1."BTC Co" şirkəti adından çıxış edən BP şirkətinin torpaqayırma qrupu birinci mərhələdə Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi və bələdiyyələrlə birlkdə layihə tərəfindən təsirə məruz qalmış 100 metrlik dəhlizdə torpaq mülkiyyətçilərinin və istifadəçilərinin müəyyən edilməsini təmin etdi. Sonra Birgə Torpaqayırma Qrupu tərəfindən 100 metrlik dəhlizə düşən torpaq mülkiyyəti növləri və bu dəhlizə daxil olan mülkiyyətçilərin torpaq bölgüsü xəritəsi siyahıları tərtib olundu. Torpaq islahatı materiallarından istifadə etməklə yeraltı və yerüsrü kommunikasiya xətləri, qurğular, çaylar, suvarma və drenaj kanalları, arxlar, yollar, abidələr, ağaclar,

kollar, meşə, qəbiristanlıqlar müəyyənləşdirildi. Dəqiqləşdirilmiş mülkiyyət növlərindəki torpaq sahələrinin ölçüləri və sahəsi hesablandı. Dövlət Torpaq və Xəritəçəkmə Komitəsində 100 metr enindəki dəhlizin təsviri 1:2000 miqyaslı xəritələrə köçürüldü və bu dəhlizə düşən mülkiyyət növləri- dövlət, bələdiyyə və xüsusi mülkiyyətlər üzrə nömrələnmiş adlı siyahı tərtib olunaraq bölgü xəritəsi ilə birlikdə BP-yə təqdim edildi. 2.Birgə Torpaqayırma Qrupu (BTAQ) rayon icra hakimiyyətləri ilə birlikdə ilkin torpaqayırma proqramının stategiyası və təqvimi barədə yerlərdə müşavirələr keçirərək mülkiyyətçi və istifadəçiləri məlumatlandırdı və onlarla ilkin anlaşma memorandumunu imzaladı. 3.Başa çatdırılmış ilkin torpaqayırma proqramının nəticələri Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim olundu və bu nəticələr hökumətin 22 may 2002-ci il tarixli 95 saylı qərarı ilə təsdiq edildi (3,s.32).

Təsirə məruz qalan hər bir mülkiyyətçi və istifadəçilərlə keçirilən görüşlərdə işin mahiyyətini ətraflı izah etdikdən sonra tikinti dəhlizi üçün torpağın alınmasını, təsir altında qalan zonanı və onun şərtlərini,ağacların və digər daşınmaz əmlakın təsvirini özündə əks etdirən ilkin anlaşma memorandumunun imzalanması növbəti mərhələdə kompensasiyaların hesablanması üçün əsas oldu.Torpaqayırma proqramının ikinci mərhələsi Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri və Cənubi Qafqaz qaz boru kəməri üçün 58 metrlik enində mühafizə zolağı daxilində 44 metrlik tikinti dəhlizinin layihələndirilməsi və icrası mərhələsi oldu. BP şirkətinin operatorluğu ilə işləyən”BTC Co” şirkəti təyin edilmiş 58 metrlik dəhlizin sərhədlərinin bölgü xəritəsinə köçürülməsi üçün Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinə təqdim etdi. Daha sonra torpaq mülkiyyətçilərinin pay torpaqlarının və istifadəçilərin torpaqlarının sərhədləri 58 metrlik dəhlizin əks olunduğu xəritəyə köçürüldü. Torpaq sahələrinin növünü,onların təyinatını dəqiqləşdirmək üçün Birgə Torpaqayırma Qrupu 58 metrlik dəhlizdə araşdırmalar apararaq tikinti dəhlizi ilə kəsişən yeraltı və yerüstü kommunikasiya bütün xətlərini- dəmir yolu, şose və torpaq yollarını, su kanallarını, meşə zolaqlarını, tikili və qurğuları inventarlaşdıraraq tikinti şitkətinin istifadəsi üçün hazırladı (3, s.34)

Kəmərlərin tikintisindən əvvəlki daha bir mərhələ torpağın icarəsi və alqı-satqı müqavilələrinin hazırlanması və notarial qaydada imzalanmasının təmin edilməsi mərhələsi idi. Müqavilə layihələri “Beyker and Botts” hüquq şirkəti tərəfindən hazırlanaraq“BTC Co” şirkətinin işçi qrupu və respublikanın Ədliyyə Nazirliyi ilə razılaşdırıldı və təsdiq edildi. Beləliklə,iki növ müqavilə hazırlanaraq imzalanma üçün təqdim edildi: 1.Dövlətlə mülkiyyətçi, dövlət torpağının istifadəçisi, bələdiyyə və bələdiyyə torpağının istifadəçiləri arasında torpağın icarə müqaviləsi. 2.Dövlət və mülkiyyətçi (bələdiyyə) arasında alqı-satqı müqaviləsi. Müqavilədə Dövlət və mülkiyyətçinin hüquq və öhdəlikləri əks etdirilmiş,bu hüquq və öhdəliklərin yerinə yetirilməsinə nəzarət isə BP-nin ictimai əlaqələr üzrə məsul şəxslərinə, texniklər qrupuna və rayon icra hakimiyyətlərinin komissiyalarına həvalə edilmişdi (3, s.37) .

Müqaviləni Dövlət adından ərazisindən kəmərlər keçən rayonların İcra Hakimiyyətləri Başçılarının sərəncamı ilə imza etmək səlahiyyətləri verilmiş kənd icra nümayəndələri və mülkiyyətçilər,bələdiyə torpaqlarının icarəyə verilməsi müqavilələrini isə bələdiyyə sədrləri və səlahiyyət verilmiş kənd icra nümayəndələri imzaladılar.İcarəyə götürülmüş torpaqlara görə bağlanmış müqavilə əsasında mülkiyyətçiyə kompensasiya ödənildi.Dövlət bu müqavilə ilə mühafizə zonası ilə birlikdə tikinti dəhlizinə görə əldə etdiyi torpağın icarə hüququnu, yerüstü qurğulara, daimi giriş-çıxış yollarına tələb olunan torpaq üzərində mülkiyyət hüququnu “BTC Co” şirkətinə ötürdü. Azərbaycan Republikasının Nazirlər Kabineti bu hüquqların Dövlət tərəfindən “BTC Co” şirkətinə verilməsini təsdiq etdi.Tranzit Əraziyə Malik olan Ölkənin Hökuməti ilə Sazişə (TƏMÖHS) görə dövlət və bələdiyyə torpaqları üzərində mülkiyyət və icarə hüququ “BTC Co” şirkətinə ödənişsiz verilsə də Cənubi Qafqaz Boru Kəməri layihəsində bələdiyyələrə də kompenasiya ödənildi.

Torpaq ayırma proqramının əsas elementlərindən və icrası mərhələlərindən biri də torpaq mülkiyyətçilərinə veriləcək kompensasiyanın hesablanması və təqdim olunmasının təşkil edilməsi prosesidir.Bu prosesin aparılması müəyyən çətinliklər yaratmışdı.Səbəb isə beynəlxalq maliyyə qurumlarının tələbləri ilə yerli torpaq qanunvericiliyi arasında uyğunsuzluğun olması idi.Ölkədə torpağın dəyərinin hesablanması üçün aydın üsulların və təcrübənin, bölgədə torpaq bazarının olmaması səbəbindən xərclərin və ödənişlərin hesablanması üçün torpaq qiymətlərinin müəyyənləşdirilməsində bir sıra qeyri müəyyənliklər yaranmışdı. Qeydiyyata alınmış torpaq mülkiyyətçiləri və istifadəçilərinin bir qrupunun həbsxanada və ölkədən kənarda olması da icarə müqavilələrin imzalanmasında və kompensasiyaların ailə üzvləri arasında bölüşdürülməsində problemlər yaratdı. Buna baxmayaraq BP şirkəti bu işləri tənzimləyə bilən beynəlxalq qanunvericiliyi və təcrübəni, Dünya Bankının prinsiplərini tətbiq etməklə bu problemləri nizamlaya bildi. Digər məsələlər, xüsusilə məhsuldarlıq səviyyəsi ilə bağlı rəqəmlər rayon komissiyalarının verdiyi orta rəqəmlər əsasında hesablandı (3, s.38-46).

Torpaq ayırma qrupu növbəti əkin, əkilmiş və əkilməsi planlaşdırılan bitkilər haqqında məlumatları isə torpaq mülkiyyətçilərinin verdiyi məlumatlar əsasında hesablayırdı. Tikintinin təsirinə məruz qalmış torpaqlar yenidən əvvəlki məhsuldarlığını bərpa edənə qədər ehtimal olunan məhsulun azalması nəticəsində itiriləcək gəlir kompensasiyada birdəfəlik hesablanır,çoxillik bitkilərdən olan ağac, kol və üzüm tənəyi bir ağaca və bir kola əsaslanmaqla qiymətləndirilirdi. Otlaqdan istifadənin itirilməsinə görə kompensasiyanın hesablanması bir mövsüm ərzində bir qoyunun yediyi otun qiyməti və dərəcələri isə hər bir rayon üçün kənd təsərrüfatı nazirliyinin verdiyi məbləğə əsaslandı (3, s.42).

“BTC Co” şirkəti tərəfindən 44 metrlik tikinti dəhlizi də daxil olmaqla 58 metrlik mühafizə zolağının daxilində təsirə məruz qalmış torpağın istifadəsinə məhdudiyyət qoymaq üçün ”Layihə tərəfindən təklif olunan torpaq qiyməti”nin 20 faizi miqdarında, boru kəməri üzərində olan 8 metrlik boru zolaqları üçün isə ”Layihə tərəfindən təklif olunan torpaq qiyməti” nin 60 faizi miqdarında torpaq mülkiyyətçilərinə kompensasiya da ödənildi. Layihənin təsirinə məruz qalan mülkiyyətçiləri gözlənilməz maliyyə itkilərindən qorumaq üçün kompensasiyanın hesablanmış yekun qiymətinin 12 faiz artırılması da nəzərdə tutulmuşdu. Bundan başqa hesablanmanın əsas elementlərinə əlavə olaraq mülkiyyətçinin alacağı kompensasiya nəzərdə tutulmuş minimum kompensasiya məbləğindən -145 ABŞ dollarından az olduqda fərqi qapamaq üçün əlavə ödənişlər edilmişdir (7, s.11).

Kompensasiyaların ödənişi Azərbaycan Beynəlxalq Bankının yerli şöbələri vasitəsilə həyata keçirildi. BP şirkəti ilə Azərbaycan





Beynəlxalq Bankı arasında imzalanmış sazişə görə bütün bank rüsumları və xərcləri, o cümlədən fərdi hesab açma rüsumu layihə tərəfindən ödənildi. Beynəlxalq Bankın yalnız boru kəmərlərinin keçdiyi Qaradağ, Kürdəmir, Ağdaş, Yevlax və Şəmkir rayonlarında şöbələrinin olduğunu nəzərə alaraq tranzit rayonlarının yaxınlığında yerləşən Bakı, Əli Bayramlı (Şirvan), Göyçay, Gəncə və Qazax şəhər və rayonlarının bank şöbələrindən də istifadə olundu. Kompensasiyalar ABŞ dolları ilə hesablanaraq ona ekvivalent olan Azərbaycan manatı ilə ödənildi. Azərbaycanda 3921 nəfər torpaq mülkiyyətçisi,153 icarədar, 6 qeyri rəsmi istifadəçi və 152 müəssisə işçiləri, cəmi 4232 torpaq mülkiyyətçisi olan ailə 14 milyon 327 min dollar məbləğində kompensasiya aldı (3,s.43).

Azərbaycanda aparılmış torpaq islahatının gedişində yol verilmiş nöqsanlar torpaqayrılma proqramının müxtəlif mərhələlərində vətəndaşar tərəfindən haqlı şikayətlərin yaranmasına səbəb oldu. Belə ki, Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin və yerli icra hakimiyyətlərində torpaq islahatının həyata keçirilməsinə cavabdeh olan komissiyaların mütəxəssislərinin torpaqların bölüşdürülməsi zamanı apardıqları ölçmə işlərində və torpaq mülkiyyətçilərinə verilmiş Dövlət torpaq aktlarının tərtibində yol verdikləri ciddi nöqsanlar 58 metrlik dəhlizə düşən torpaq mülkiyyətçilərinin müəyyənləşdirilməsi və kompensasiyaların hesablanmasında ciddi narahatlıqlar yaratdı. Torpaqların ayrılması,məhsulun inventarlaşdırılması və kompensasiyaların hesablanması ilə bağlı vətəndaşların şikayətlərinə baxılmasına da BP şirkəti son dərəcə məsuliyyətlə yanaşmış,şikayətlərin qəbulu, araşdırmaların nəticələrinin torpaq mülkiyyətçilərinə rəsmi məktubla bildirilməsi Azərbaycan Respublikasının "Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında" Qanununa əsaslanan BP-nin proseduru ilə tənzimlənmişdir (7, s. 7).

Beləliklə, BP-Azərbaycan şirkətinin operatorluğu ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin və Cənubi Qafqaz qaz boru kəmərinin tikintisinin başlanması üçün çox mühüm mərhələ olan torpaqların ayrılması proqramı uğurla başa çatdırıldı. 2002-ci ilin 18 sentyabrında Səngəçal terminalında Azərbaycan, Gürcüstan və Türkiyə prezidentlərinin iştirakı ilə kəmərin tikintisinin təntənəli təməlqoyma mərasimi keçirildi. 2003-cü ilin aprelində isə konsorsium üzvü olan şirkətlərin ayırdığı ilkin sərmayə hesabına Azərbaycan, Gürcüstan və Türkiyə ərazisində Bakı-Tbilisi- Ceyhan kəmərinin tikintisinə başlanıldı.

2004-cü il dekabr ayının 14-də Londonda, Avropa Yenidənqurma və İnkişaf Bankının binasında "Şah dəniz"kredit sazişinin imzalanması ilə Cənubi Qafqaz Boru Kəmərinin çəkilməsinin maliyyə problemi həll edildi. Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac boru kəmərinin tikintisi üçün torpaqayırma və torpaqların alınması prosesində Cənubi Qafqaz Boru kəmərinin də tikintisinin nəzərə alınması bu kəmərin tikintisi işlərinin sürətlə aparılmasına imkan verdi. 2004-cü il oktyabrın 16-da Ağstafa rayonunda,Azərbaycan-Gürcüstan sərhədində Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin Azərbaycan və Gürcüstan hissələrinin birləşdirilməsi mərasimi keçirildi. Neft və qaz kəmərlərinin paralel olaraq bir dəhlizdə tikilməsi qərarı və "Azərbaycan-Gürcüstan-Türkiyə (AGT) boru kəmərləri layihəsi" adı altında birləşdirilməsi iqtisadi və texniki baxımdan səmərəli oldu.Bunun nəticəsində kəmərlərə kapital qoyuluşunda 100 milyon ABŞ dollarına qənaət edildi. BTC və CQBK 58 metrlik mühafizə zolağının daxilində yerləşən,hər biri 22 metr olmaqla 44 metrlik dəhlizdə inşa edildi. Bu kəmərlərin tikintisinin qoşa zolaqlarda paralel aparılması hər iki dəhlizdən istifadəyə şərait yaratmaqla 30 faiz həcmində torpağa qənaət etməyə imkan verdi.Əgər kəmərlər ayrı-ayrılıqda tikilsəydi, onların hər birinə 32 metr enində dəhliz lazım olacaqdı (3, s.145).

BTC və CQBK layihələri ilə bağlı işlər və tikintinin texniki göstəriciləri miqyasına görə həqiqətən də qlobal həcmlidir. Kəmərin tikintisində istifadə olunan avadanlıqlar 13 ölkədən gətirilmiş,polad kəmər boruları Yaponiyadan, turbinlər Böyük Britaniyadan, örtüklənmiş borular isə Malayziyadan alınmışdır.

Təchizat işləri BP-nin dünyanın 30 ölkəsindəki ofisi vasitəsilə koordinasiya olunmuşdur. Neft-qaz kəmərlərinin Azərbaycan hissəsinin tikintisini yunan şirkəti "CCİC", Gürcüstan ərazisində fransız-amerikan alyansı "SPİE/Petrofac" şirkəti, Türkiyə ərazisindəki hissəni isə Türkiyə şirkəti "Botaş" həyata keçirdi (4.s.9).

2006-cı ilin dekabrında "Şah dəniz" yatağından qaz hasilatına və Cənubi Qafqaz Boru Kəmərinin istismarına başlanıldı.2007-ci ilin iyul ayında birinci qaz "Şah dəniz" yatağından Türkiyəyə çatdırıldı. Noyabr ayında isə "Şah dəniz"də böyük ehtiyatlara malik qaz-kondensat yatağı kəşf edildi və onun ardınca Xəzərdə rekord - 7300 metrdən çox dərinlikdə quyu qazılması təmin edildi. Mart 2007-ci ildə isə BTC-nin ötürücülük qabiliyyəti gündə bir milyon barrelə çatdırıldı.

Beləliklə, BP və tərəfdaşlarının iştirakı ilə reallaşan Heydər Əliyevin neft strategiyası sayəsində Azərbaycan 1997-2017-ci illərdə "Əsrin müqaviləsi"ndə nəzərdə tutulan 34 milyard dollardan təxminən 4 dəfə artıq-130 milyard 551milyon ABŞ dolları gəlir əldə edərək ölkə iqtisadiyyatının dirçəldilməsinə,əhalinin sosial müdafiəsinin,həyat səviyyəsinin yüksəldilməsinə yönəltdi (6,s.2). "Azəri-Çıraq-Günəşli" yatağının dərinsulu hissəsindən olan gəlirlər hesabına ölkədə qaçqın və məcburi köçkünlər, şəhid ailələri və Qarabağ müharibəsi əlilləri üçün qəsəbələr salındı.Yoxsulluq səviyyəsi 2001-ci ildə olan 49 faizdən, 2015-ci ildə 5 faizə qədər azaldı.3 mindən artıq məktəb, 600 xəstəxana, 50 idman-olimpiya kompleksi tikildi. 11 min km-dən artıq yollar salındı.Ölkənin enerji infrastrukturu yeniləndi, iqtisadiyyatın şaxələndirilməsi üçün mühüm layihələr həyata keçirildi (6,s.4). Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin istifadəyə verilməsinə həsr olunmuş təntənəli mərasim 2006-cı ilin 13 iyulunda Türkiyənin Ceyhan şəhərindəki terminalda keçirildi.Mərasimdə çıxış edən prezident İlham Əliyev bildirdi ki, " bu gün biz Heydər Əliyevin müəllifi olduğu,eyni zamanda onun müdrik qərarları ilə reallaşan neft strategiyası sayəsində bu gözəl anları yaşayırıq. Azərbaycan, Gürcüstan, Türkiyə rəhbərlərinin iradəsi və ABŞ dövlətinin verdiyi böyük siyasi dəstək BTC əfsanəsini gerçəkliyə çevirdi." İlham Əliyev bu layihənin həyata keçirilməsində xarici şirkətlərin fəaliyyətini xüsusi vurğulayaraq qeyd etdi ki, "BP şirkətinin rəhbərliyi ilə Azərbaycanda 1994-cü ildən fəaliyyət göstərən beynəlxalq konsorsiumun işini yüksək qiymətləndirirəm. BP şirkəti eyni zamanda, BTC layihəsində aparıcı rol oynayır və bu şirkətin Azərbaycana verdiyi töhfələri biz çox yüksək qiymətləndiririk.Bu bizə imkan verdi ki, Azərbaycan iqtisadi cəhətdən inkişaf etsin, neft amilindən məharətlə istifadə etsin"(1, s.262).

BP və tərəfdaşları ilə əməkdaşlığın ilkin uğurlu nəticələri gələcəkdə bu əlaqələrin daha da inkişaf etdirilməsinə geniş imkanlar açdı.

## ƏDƏBİYYAT


1. *Əliyev İ.H.İnkişaf-məqsədimizdir.Kitab18. Bakı:Azərnəşr,2014, 423s.*
2. *Azərbaycan Respublikasının Torpaq Məcəlləsi. Bakı: Hüquq ədəbiyyatı. 1999, 89 s.*
3. *Safiquliyev Ch.,Abbasov N., Rzazade S., Asadov H. The encyclopaedia of the successful land acquisition process of the Baku-Tbilisi-Geyhann and South Caucasus pipelines projects in Azerbaijan.Baku,Nurlar,2 010, 255 p*
4. *BP-Azərbaycanda. Davamlı inkişaf haqqında hesabat-2003. Bakı: 2003, 60 s.*
5. *BP-Azərbaycan Strateji İcra Bölümü. "Compass"jurnalı. Bakı: Nurlar. 2008, 35 s.*
6. *https://www.bp.com/az_az/caspian/press/pressreleases.html*
7. *FinalLand Acquisition Proqramme.Compensation Payment Procedure.Baku 2002*



**Açar sözlər:** *neft strategiyası, boru kəmərləri, torpaq ayırma proqramı, birgə torpaqayırma qrupu, kompensasiyaların ödənişi prosesi*

**Keywords:** *oil strategy, pipelines, land acquisition program, joint land acquisition team, compensation payment process*

**Ключевые слова:** *нефтяная стратегия,трубопроводы, программа отвода земли, совместная группа отвода земли,процесс оплата компенсаций*


**Alizade İlham**

**Role of BP and partners in construction of Baku-Tbilisi-Ceyhan and South Caucasus Pipelines**

**SUMMARY**


Following the signing of an agreement in Istanbul on November 18, 1999, on the construction of the main export pipelines through Baku-Tbilisi-Ceyhan route, along with settling pipeline financing problem, BP also prepared Basic Principles of the Land Acquisition Program (BPLAP). Preparation of the Program was one of the requirements of The International Financial Corporation(IFC), the European Bank for Reconstruction and Development (EBRD) and World Bank. The article studied BP role in identification of pipeline route and land owners/users, land inventory, land lease agreements signing process, calculation and payment of compensation amount within this Program. It also provides information on activities carried out in Azerbaijan at the expense of the earliest revenues gained from the operation of the main export pipelines


**Ализаде Ильхам**

**Роль ВР и её партнеров в строительстве трубопроводов Баку-Тбилиси-Джейхан и Южный Кавказ**

**РЕЗЮМЕ**


После подписания 18 ноября 1999 года в Стамбуле, соглашения о строительстве основных экспортных трубопроводов по маршруту Баку-Тбилиси-Джейхан, наряду с урегулированием проблемы финансирования трубопровода ВР также подготовила «Основные принципы программы отвода земли» (ОППОЗ) , Подготовка Программы была одним из требований Международной Финансовой Корпорации(МФК),Европейского Банка Реконструкции и Развития (ЕБРР) и Всемирного банка. В статье изучалась роль ВР в определении маршрута трубопровода и владельцев / пользователей земли, инвентаризации земель, процесса подписания договоров аренды земли, расчета и выплаты суммы компенсации в рамках данной Программы. В нем также содержится информация о деятельности, проводимой в Азербайджане за счет самых ранних доходов, полученных от эксплуатации основных экспортных трубопроводов.

# Tarix

ŞAHLAR ŞƏRİFOV
İlahiyyat üzrə fəlsəfə doktoru

## RAŞİDİLƏR DÖVRÜNDƏ SASANİLƏRƏ QARŞI BAŞ VERƏN DÖYÜŞLƏR



Islam peyğəmbəri Həzrəti Məhəmmədin (s) rehlətindən sonra hakimiyyətə gələn xəlifələr nəhəng Sasani imperatorluğuna qarşı hərbi yürüşlərə başlamışlar. Miladi 632-ci ildə xəlifə seçilən Əbu Bəkr ibn Əbu Quhafə (632-634) sasanilərin təhlükəsini müsəlmanlardan uzaq tutmaq üçün onlara qarşı ilk hərbi əməliyyatlara başlamışdır.

Xəlifə Əbu Bəkrin göstərişinə əsasən ilk öncə İraq bölgəsinə Müsənna ibn Haris kiçik bir dəstə ilə göndərildi. Şimalda Şəttul-Ərəbə qədər irəliləyən Müsənna uğur qazandı. Onun ardınca Xalid ibn Vəlid İraq istiqamətində Sasani sərkərdəsi Hörmüzə qarşı göndərildi. Bəsrədə Suveyd ibn Qutbə ilə birləşən Xalid sasnilərə qarşı baş verən döyüşlərdə uğur qazanaraq Hirə xalqı ilə hər il 90 min dirhəm cizyə ödəmək, sasanilərə qarşı müsəlmanların tərəfini tutmaq şərti ilə sülh bağladı (2, II, s.307).

Bu müqavilədən sonra xəlifə Əbu Bəkr yardım olaraq İraq bölgəsinə İyaz ibn Ğanəmi ilə Kaka ibn Əmri göndərdi. Ubullaya yaxınlaşan Xalid ordusunu üç yerə ayırıb bir hissəsini Müsənna ibn Harisin başçılığı ilə irəliyə göndərdi. Müsənnanın ardınca Ədiyy ibn Hatəmi, onun ardınca da özü hərəkət etdi. Xəfir adlı məntəqədə baş verən döyüşdə Hörmüz öldürüldü və iran ordusu məğlub edildi (2, II, s.309-310).

İslam ordusundan intiqam almaq istəyən sasanilər yenidən Vələcə adlı məntəqədə toplandılar. Lakin 633-cü ildə baş verən Vələcə döyüşündə də Xalidin başçılığı altinda olan İslam ordusu sasaniləri məğlub etdi. Vələcə döyüşündə Bəkr ibn Vail qəbiləsinə mənsub olan xristian ərəblərin öldürülməsi ilə əlaqədar olaraq intiqam almaq istəyən Bəni Bəkrlilər Ulleys adlı məntəqədə yenidən toplandılar. Kəsra III Yəzdəgird yardım olaraq Cabanın başçılığı altında olan ordunu Ulleysə göndərdi. Lakin bu döyüşdə də Xalidin başçılığı altında olan islam ordusu qalib gəldi (2, II, s.310-315; 3, II, s.384-389).

Vələcə və Ulleys döyüşlərindən sonra Əmgişiyanı da ələ keçirən Xalid Hirəyə daxil olaraq yerli əhali ilə 190 min dirhəm cizyə vermək şərtilə sülh bağladı. Hirənin fəthindən sonra ətrafdakı qəbilə rəisləri Hirəyə gəlib təslim oldular və naticədə Ənbar şəhərinin valisi Şirzad özünə toxunmamaq şərtilə şəhəri müsəlmamlara təslim etdi (2, II, s.323). Ənbarın fəthindən sonra Aynut-təmir qalasını ələ keçirən müsəlmanlar, Dumətul-Cəndəl,

Husayd və Hənəfis adlı məntəqələrdə də sasani ordularını məğlub etdilər. Aynut-təmir qalası uğrunda gedən döyüşdə sasani sərkərdəsi Ükeydir ibn Əbdülməlik öldürülmüşdür (7, s.71).

Miladi 634-cü ildə xəlifə Əbu Bəkrin vəfatından sonra bu yürüşləri onun vəsiyyəti əsasında xəlifə təyin edilən Ömər ibn Xəttab (634-644) davam etdirmişdir (3, II, s.415-418).

Ömər ibn Xəttab xəlifə Əbu Bəkrin vəfatından sonra onun vəsiyyətinə əsasən miladi 634-cü ildə İslam ümmətinin ikinci xəlifəsi seçilmişdir. Onun xilafəti dövründə o dövrün iki böyük imperatorluğu olan Bizansa və Sasanilərə qarşı bir çox döyüşlər baş vermişdir. Biz bu yazımızda yalnız Sasanilərə qarşı baş verən döyüşlər haqqında məlumat verməyə çalışacağıq.

1) Körpü (Cisr) döyüşü: Xəlifə Ömərin dövründə İranın kəsrası olan III Yəzdəgird qısa müddət ərzində dağınıq Sasani sarayına əl gəzdirərək əhalini ətrafına toplamağı bacarmışdı. Bu vaxt Hirə ətrafında baş verən döyüşdə Müsənnaya məğlub olan Sasani sərkərdəsi Calinus Mədainə qayıdıb vəziyyəti III Yəzdəgirdə danışdı. Vəziyyətdən xəbərdar olan III Yəzdəgird özünəməxsus Drəfşi-Qaviyan adlı bayrağı Bəhmən Cazaveyhə verərək onu böyük bir ordu ilə Müsənna ibn Harisin üzərinə göndərdi. İki ordu Fərat çayı sahilində qarşılaşdı. İran ordusunda olan filləri görən ərəb atları irəli getmək əvəzinə geri qaçırdı. Bu mənzərəni müşahidə edən İslam sərkərdəsi Əbu Ubeydə əs-Səqəfi qılınc çəkib fillərə hücum etsə də, fillərin ayaqları altında qalaraq öldü. Başçılarının öldüyünü görən müsəlmanlar qaçmağa başladılar. Müsəlmanlardan biri qoşunun düşmən müqabilində qaçdığını görüb körpünü sındırıb onları hücum etməyə çağırsada bunun heç bir nəticəsi olmadı. Qaçanlardan bir hissəsi özlərini çaya atdı, az qalmışdı ki, qoşun bütövlükdə tələf olsun. Lakin bacarıqlı sərkərdə olan Müsənna ibn Haris qoşunu tam surətdə fəlakətdən qoruyaraq sağ qalanları Fərat çayının o biri sahilinə keçirtdi. Bu döyüşdə qalib gələn İran ordusu İslam ordusunu təqib etmək əvəzinə Tisfunda baş verən qalmaqalla əlaqədar olaraq geri qayıtdı (2, II, s.366-369; 3, II, s.438-440).

2) Büveyb döyüşü: Miladi 634-cü ildə baş verən Körpü döyüşündən sonra bir il müddətincə müsəlmanlar İraqda heç bir hərbi əməliyyat aparmadılar. 635-ci ildə Cərir ibn Abdullah əl-Bəcəlinin başçılığı altında olan İslam ordusu Mədinədən İraqa doğru hərəkət etdi. İraqda Müsənna ibn Harisin qüvvələri də bu orduya qoşuldu. Bu iki ordu hicri 14/ miladi 635-ci ilin yayında Fərat çayı hövzəsində yerləşən Büveyb adlı məntəqədə İran ordusunu darmadağın etdi. Döyüş meydanında çoxlu sayda sasani əsgərin cəsədi qalmışdı. Öldürülənlər arasında sasni sərkərdəsi Mehran Mehrbəndzadə də var idi. Büveyb zəfərindən sonra müsəlmanlar Fərat çayı sahili boyunca Hirədən tutmuş Kəsgər və Aynut-Təmrə qədər olan ərazilərdə reydlər keçirdilər (2, II, s.369-370; 4, VII, s.56).

3) Qadisiyyə döyüşü: III Yəzdəgirdin hakimiyyətə gəlişindən sonra daxili iğtişaşlara son qoyan Sasanilər Fərat çayı hövzəsində hərbi əməliyyatlar apararaq itirilmiş bəzi şəhər və qalaları müsəlmanlardan geri ala bilmişdilər. Baş verən hadisələrdən sonra narahat olan xəlifə Ömərin göstərişi ilə müxtəlif ərəb qəbilələrindən toplanan ordunun başçısı məşhur sərkərdə Səd ibn Əbu Vəqqas təyin olunaraq Mədinədən İraqa göndərildi. Təmim, Bəni Əsəd, Quzaə, Bəcilə, Bəni Bəkr, Teyy və.s ərəb qəbilələrindən toplanan 25 min nəfərlik ordu miladi 636-cı ildə İraqın Qadisiyyə adlı məntəqəsində Rüstəm və Firuzanın başçılığı altında olan İran ordusunu məğlub etmişdir. Dörd gün davam edən




döyüşdə müsəlmanlardan 6000, Sasanilərdən isə 10 mindən çox canlı qüvvə tələf olmuşdur. Məşhur Sasani sərkərdəsi Rüstəm də döyüşdə öldürülmüşdü (2, II, s.382; 5, II, s.321-328; 3, II, s.448; 4, VII, s.54-55). Alban knyazı Varaz Qriqor da III Yəzdəgirdin tələbi ilə Sasani ordusunda ərəblərə qarşı vuruşmaq üçün İraqa kiçik bir dəstə göndərmişdi. Bu dəstəyə Cavanşir başçılıq edirdi. Döyüşdə üç dəfə yaralanan Cavanşir Fərat çayını keçib qurtula bilmişdi.

4) Mədainin fəthi: Qadisiyyə döyüşündə qalib gələn İslam ordusu Səd ibn Əbu Vəqqasın başçılığı ilə Dəclə çayını keçib Sasanilərin paytaxtı Mədaini mühasirəyə aldılar. Şəhərdə kiçik hərbi dəstədən başqa heç kim qalmamışdı. Müsəlmanlar Mədaini demək olar ki, miladi 637-ci ildə heç bir müqavimətə rast gəlmədən ələ keçirdilər. Mədainin təslim olduğunu eşidən III Yəzdəgird Hulvana qaçdı. İranlıların Bəyaz sarayı məscid halına gətirildi və orada ilk cümə namazı qılındı. Səd ibn Əbu Vəqqas saraya daxil olarkən Duxan surəsinin 25-28-ci ayələrini oxumuşdur: “Onlar neçə-neçə bağlar, çeşmələr qoyub getdilər. Neçə-neçə əkinlər, gözəl yerlər. Və zövq aldıqları neçə-neçə nemətləri tərk etdilər. Bu belədir və onlara başqa bir milləti varis etdik.” (15, s.238).

5) Cəlula döyüşü: Qadisiyyə döyüşündən sağ çıxan Sasani əsgərləri İslam ordusuna ağır zərbə vurmaq üçün Mehran ər-Razinin başçılığı altında yenidən Cəlulu adlı məntəqədə toplandılar. Bundan xəbər tutan xəlifə Ömər Haşim ibn Utbənin başçılığı altında olan ordunu Səd ibn Əbu Vəqqasa yardım etmək üçün göndərdi. On iki min nəfərdən ibarət olan İslam ordusu 637-ci ildə çətinliklə də olsa bu döyüşdə qalib gəldi. Bunu eşidən III Yəzdəgird Hulvandan Reyə qaçdı. Hulvana qədər irəliləyən müsəlmanlar buranı da fəth etdilər (6, s.377-379; 2, II, s.468-473).

6) Cəzirənin fəthi: Miladi 637-ci ildə Səd ibn Əbu Vəqqas, Əbu Musa Əşəri və İyaz ibn Ğanəmin başçılıq etdikləri hərbi dəstələr əl-Cəzirəni fəth etdilər. Xəlifə Ömərin əmri ilə əl-Cəzirə qəsəbəsi əyalət mərkəzi və İyaz ibn Ğanəm də bu əyalətə vali təyin edildi. Malatya şəhərindən Şimali Afrikaya qədər olan məmləkətlər bu əyalətə daxil edildi. İyaz ibn Ğanəm Yərmuq döyüşünün qəhrəmanlarından idi. O, valiliyə başlayandan sonra müxtəlif istiqamətlərdə fəth hərəkatını davam etdirmiş, Diyarbəkir, Urfa, Hərran kimi Şimali Mesopatamiyanın (Kürdüstan) bir sıra



şəhərlərini fəth etmişdi. Bu şəhər əhaliləri ilə sülh bağlanmış və yerli əhali cizyə ödəmək şərtini qəbul etmişdi (1, s.175-181).

Daha sonra İyaz ibn Ğanəm Osman ibn Əbul Ası Ərməniyyənin fəthi üçün göndərdi. Qısa müddət ərzində təslim olan əhali hər ev başına ildə bir dirhəm cizyə ödəmək şərtini qəbul etdilər (4, VII, s.126). Ardından Ərzurum, Əhlat və Bitlisi ələ keçirən ərəblər Azərbaycan torpaqlarına daxil oldular (1, s.175-181).

7) Əhvazın fəthi: Əhvaz Bəsrəyə yaxın bir çox Sasani şəhərlərinin yerləşdiyi böyük bir məntəqə idi. Oranın hakimi Sasani liderlərindən olan Hörmüzan idi. III Yəzdəgird 638-ci ildə Əhvaz və Fars əyalətlərinin əhalisinə müraciət edərək, onları ərəblərlə müharibədə lazımi şəkildə iştirak etmədikləri üçün danladı. Bundan sonra həmin əyalətlər müharibə üçün ciddi hazırlıqlar görməyə başladılar. Bundan xəbər tutan xəlifə Ömər ibn Xəttab dərhal Kufə valisi Səd ibn Asa belə bir məktub yazdı: "Nöman ibn Müqərrinin əmrinə böyük bir ordu ver və Əhvaz əmiri Hörmüzanla döyüşmək üçün göndər." Bu əmrə əsasən Səd ibn As sərkərdə Nömanı böyük bir ordu ilə Əhvaza yola saldı. Bundan əlavə xəlifə Ömər ibn Xəttab Bəsrədə olan Əbu Musa Əşəriyə də məktub yazaraq yanındakı mücahidlərlə Əhvaza, Nöman ibn Müqərrinə köməyə getməsini əmr etdi. Hörmüzanın sərkərdəlik etdiyi ordunu Nöman ibn Müqərrin 638-ci ildə Əhvaz ətrafında məğlub etdi. Qaçaraq Tustər qalasına sığınan Hörmüzan qalanın müdafiəsini möhkəmlətdi. Qala müsəlmanlar tərəfindən mühasirəyə alındı və bir müddət sonra qaladakılardan biri Əbu Musa ilə əlaqə quraraq şəhərin gizli girişini ona bildirdi. Gizli girişdən şəhərə daxil olan müsəlmanlar Tustəri fəth etdilər. Çoxlu sayda sasani əsgəri, o cümlədən sərkərdə Hörmüzan da əsir alındı. Əsirlikdə olarkən İslamı qəbul edən Hörmüzanı xəlifə Ömər azad edərək özünün müşaviri vəzifəsinə təyin etdi (4, VII, s.140-143).

8) Bəhreyndən Sasani torpaqlarına açılan cəbhə: Miladi 639-cu ildə Bəhreyn valisi olan Əla ibn Hədrami sərkərdə Səd ibn Əbu Vəqqasın qazandığı uğurları görüb onunla rəqabət aparmaq üçün xəlifə Ömərin xəbəri olmadan Bəhreyn sahillərindən Sasanilarə qarşı bir cəbhə açdı. Gəmilərlə qarşı sahilə çıxan Əla ibn Hədrami İstərx sahillərinə qədər irəlilədi. Lakin çox keçmədən o iranlılar tərəfindən mühasirəyə alındı. Bundan xəbər xəlifə Ömər Utbə ibn Qəzvanı 12 min nəfərlik ordu ilə göndərərək onu azad etdi.

9) Nəhavənd döyüşü: Cəlula döyüşündən sonra Hulvandan qaçan III Yəzdəgird yenidən əsgər toplamağa başladı. Bu məqsədlə Rey, Kuməs, İsfəhan, Həmədan və Mahan əhalisi ilə məktublaşan III Yəzdəgird böyük bir ordu topladı və bu orduya Firuzanı başçı təyin etdi (2, II, s.518-519). Bu əsnada Kufə valisi olan Əmmar ibn Yasir Mədinəyə məktub yazaraq III Yəzdəgirdin fəaliyyətlərindən xəlifə Öməri xəbərdar etdi. Bundan xəbər tutan xəlifə Ömər Sasanilərlə vuruşmaq üçün böyük bir ordu toplanmasını və ordunun sərkərdəliyini Nöman ibn Müqərrinə tapşırdı. Bununla yanaşı xəlifə Ömər Bəsrə, Şam və Ommandakı ordu sərkərdələrinə də göstəriş verdi ki, Cindişapura gedib Nöman ibn Müqərrinin ordusuna birləşsinlər. Bu orduda Müğeyrə ibn Şubə, Cərir ibn Abdullah, xəlifə Ömərin oğlanları Abdullah və Ubeydullah, Əmr ibn Madikərb kimi səhabələr də iştirak edirdilər. Sasanilərin birləşmiş ordusuna isə məşhur sərkərdə Mərdanşah Hörmüzd başçılıq edirdi (4, VII, s.180-187).

Hicri 21, miladi 642-ci ilin yayında iki ordu Həmadanla İsfəhan arasında yerləşən Nəhavənd şəhəri yaxınlığında qarşılaşdı. Çərşənbə günü başlayan döyüş üç gün davam etmişdir. Cümə günü döyüş müsəlmanların parlaq qələbəsi ilə başa çatmışdır. Baş verən döyüşdə baş sərkərdə Nöman ibn Müqərrin öldürülmüş, onu Hüzeyfə ibn Yəman əvəz etmişdir (4, VII, s.196-199).

Nəhavənddəki məğlubiyyətdən sonra Sasani ordusu bir daha özünə gələ bilmədi və imperiya sürətlə yıxılmağa başladı. Qalalara çəkilən iranlılar fərdi qaydada müqavimət göstərməyə başladılar.

Məlum olduğu kimi 642-ci ildə meydana gələn Nəhavənd döyüşü ilə Sasanilər müsəlmanlar qarşısında darmadağın olmuş, III Yəzdəgird də Bəlxə qaçaraq türklərdən kömək istəmişdi. Türklərdən topladığı ordu ilə III Yəzdəgird müsəlmanlara qarşı müqavimətini bir müddət daha davam etdirə bildi. Amma bu zaman meydana gələn bir hadisə müsəlmanların III Yəzdəgirddən xilas olmasına səbəb oldu. Belə ki, III Yəzdəgirdə ərəblərə qarşı hərbi kömək edən Toxarıstan hakimi Nizək Tarxan Sasanı şahının qızı ilə evlənmək istədi. Bu məqsədlə Mərvdə olan III Yəzdəgirdə elçilər göndərən Nizək ondan gözləmədiyi bir cavab aldı. Yəzdəgərd ona "Sən mənim qullarımdan birisən. Mənim qızımla evlənməyə necə cəsarət edirsən?" deyə cavab verdi. Hadisələrin davamını əl-Bəlazuri belə şərh edir: "Bunun üzərinə Mərv mərzubanı Mahaveyh Nizəkə yazdığı məktubunda onu Yəzdəgirdə qarşı qızışdıraraq belə dedi: "Məğlub və qovulmuş bu adama hakimiyyətini geri qaytarmaq üçün sən kömək etdin. Ancaq o, sənə nələr dedi". Bundan sonra Nizək ilə Maheveyh Yəzdəgirdi öldürmək üçün razılaşdılar. Nizək türklərin başında hərəkətə keçib əl-Cünabıza gəldi. Yəzdəgird ilə döyüşdü. Əvvəlcə iki tərəf bir-birinə üstünlük saxlaya bilmədilər. Sonra döyüş Yəzdəgirdin əleyhinə cərəyan etməyə başladı. Adamları öldürüldü, ordugahı yağmalandı. Yəzdəgird Mərvə qaçdı, amma mərvlilər onu şəhərə buraxmadılar. O da əl-Murğab çayı kənarında bir dəyirmançının evində gizləndi. Amma Maheveyhin adamları onu tapıb öldürdülər" (6, s.453-454).

Xəlifə Ömər III Yəzdəgirdin yenidən müqavimət göstərməsinin qarşısını almaq üçün müsəlman hərbi dəstələrinə Sasani imperiyasının müxtəlif əyalətlərinə yürüşlər təşkil edərək əhalini itaət altına almaq və Yəzdəgirdə kömək etməkdən çəkindirməyi əmr etmişdi. Qaçan Sasani ordusu Həmədana getsə də bura Nuaym ibn Müqərrin və Kaka ibn Əmr tərəfindən mühasirəyə alındı. Nəticədə illik vergi vermək şərtilə Həmədan müsəlmanlara təslim edildi.

Bu qələbədən sonra Abdullah ibn Budeyl xəlifənin əmrinə əsasən İsfəhana doğru hərəkət etməyə başladı. İsfəhan hakimi Fədusfan qaladan çıxıb Abdullahın düşərgəsinə gəldi və sülh bağlayaraq İsfəhanı müsəlmanlara təslim etdi. Sülhə görə şəhər əhalisindən kim istəsə köçüb gedəcək, istəməyən isə şəhərdə

qalacaqdı. Qalanların canları və mallarının toxunulmazlığına, cizyə ödəmələri şərtilə, zəmanət verilmişdi. Köçüb gedənlərin daşınmaz əmlakı isə müsəlmanlara veriləcəkdi (2, V, s.196; 15, s.238).

Abdullah ibn Budeyl İsfəhanı aldıqdan sonra Yəzdəgirdi təqib etsədə ələ keçirə bilmədi. İsfəhandan Kirmana, oradan da Xorasana gələn Yəzdəgird Mərvdə öldürüldü (5, II, s.331-334; 3, III, s.5-16; 2, II, s.531-539).

Qısa müddət sonra fəth edilmiş Həmədan şəhərinin əhalisi Kaka ibn Əmr ilə bağladıqları əhdi pozaraq üsyan etdilər. Bunu öyrənən xəlifə Ömər Nuaym ibn Müqərrinə Həmədana getməyi əmr etdi. Nuaym qardaşı Suveyd ibn Müqərrinlə birlikdə 12 min nəfərlik ordu ilə Həmədana yürüş etdi. Şəhər əhalisi yenidən sülh bağlamaq istədiklərini bildirdilər. Onların istəyini yerinə yetirən Nuaym sülhü təzələyərək şəhərə daxil oldu.

Bu hadisələr baş verərkən Deyləm, Rey və Azərbaycan əhalisi ərəblərlə vuruşmaq üçün öz qüvvələrini birləşdirmiş və müharibəyə hazırlaşmışdılar. Azərbaycanlı əsgərlərə Qadisiyyədə öldürülən Rüstəmin qardaşı İsfəndiyar ibn Fərruxzad başçılıq edirdi. 643-cü ildə Vaci-Ruz adlı məntəqədə baş verən döyüşdə İslam ordusu qalib gəldi. İsfəndiyardan sonra qardaşı Bəhram mübarizəni davam etdirsə də o da məğlub olmuşdur. Sonda İsfəndiyar 644-cü ildə müqavilə bağlamağa razı olmuşdur. Müqaviləyə görə azərbaycanlılar ərəblərə tabe olmalı, vergi verməli, ərəb əsgərlərini bir gecə gündüz evində saxlamalı idilər. Vaci-Ruz döyüşündən sonra xəlifə Ömərin əmri ilə Nuaym ibn Müqərrin Rey şəhərini mühasirəyə alaraq fəth etmişdi (4, VII, s.200-201).

Miladi 644-cü ildə İsfəhan Abdullah ibn Utbənin, Dərbənd Süräqa ibn Əmrin, Xorasan isə Əhnəf ibn Qeysin başçılığı ilə fəth edildi. 642-644-cü illərdə İsfəhan, Təbəristan, Fars, Kirman, Sistan və Xorasan əyalətlərinin fəth edilməsi ilə İran demək olar ki, tamamilə müsəlmanların əlinə keçmiş, beləcə qocaman Sasani imperiyası süqut etdi.

Ömərin xilafəti dövründə dövlət Məkkə, Mədinə, Kufə, Bəsrə, Suriya, Fələstin, Cəzirə və Misir olmaqla səkkiz vilayətə ayrılmışdı. Hər vilayətdə vali, baş katib, sahibul-xərac, sahibul-əhdas (polis), sahibul-beytul-mal və qazi yəni, din məmurları fəaliyyət göstərirdi. Dövlət gəlirini xərac və üşürdən (əldə olunan məhsulun onda biri) başqa zəkat, cizyə, xums təşkil edirdi. Eyni zamanda ilk pul və ilk həbsxana da Ömərin dövründə təşkil edilmişdir.

Xəlifə Ömər ibn Xəttab fars əsilli Əbu Lölö ləqəbilə tanınmış Firuz tərəfindən qətlə yetirilmişdir. Qəbri Mədinədə Peyğəmbərin (s) qəbri yanındadır. Cənazə namazını Süheyb Rumi qılmışdır (2, II, s.559-561; 3, III, s.52).

Xəlifə Osmanın dövründə yeni ekspedisiyalarla birgə xəlifə Ömər tərəfindən işğal olunmuş ərazilər yenidən işğal olundu və bundan sonra Raşidi Xilafətinin sərhədləri şərqdə aşağı Hind çayına, şimalda Amu-dərya çayına kimi uzandı. 654-cü ildən etibarən isə Bəlx müsəlmanların nəzarəti altına girmişdir. Sülh yolu ilə müsəlmanlara təslim olan Bəlx hakimləri onlarla bağladıqları razılaşmaya görə, illik 400 min dirhəm xərac müqabilində bölgəni sərbəst idarə edəcəkdilər.

Xəlifə Ömər ibn Xəttabdan sonra xəlifə olan Osman ibn Əfvan (644-656) və Əli ibn Əbu Talibin (656-661) xilafəti dövründə İslamiyyət Sasani torpaqlarında daha sürətlə yayılmışdır.

**ƏDƏBİYYAT**


*1. Əbu Abdullah Məhəmməd ibn Ömər əl-Vaqidi, "Futuhuş-Şam", Beyrut tarixsiz.*

*2. Məhəmməd ibn Cərir ət-Təbəri, "Tarixil-uməm vəl-muluk", Beyrut-1987.*

*3. İbn Əsir, İzzuddin Əbul-Həsən Əli ibn Məhəmməd. "əl-Kamil fit-tarix", Beyrut-1965.*

*4. İbn Kəsir, Əbul Fida İsmayıl ibn Ömər. əl-Bidayətu vən-Nihayə", Məktəbətul-Maarif, Beyrut-1966, 1981.*

*5. Əbul-Həsən Əli ibn Hüseyn Məsudi, "Murucuz-Zəhəb", Misir-1964.*

*6. Bəlazuri, Əbul-Həsən Əhməd ibn Yəhya. "Futuhul-buldan", Ankara-1987.*

*7. Şahlar Şərifov, İslam tarixi, Nurlar nəşriyyatı, Bakı-2013.*

*8. Əbul Fida İsmail ibn Ömər ibn Kəsir əş-Şafii, Tarixi-ibn Kəsir, tarixsiz.*

*9. Nuri Ünlü, İslam tarixi, I cild, İstanbul-1997.*

*10. İbn Əsakir, Əbul-Qasim Əli ibn Həsən. Tarixi-Dəməşqi, Beyrut çapı, 1908.*

*11. Əbdülməlik ibn Hişam. əs-Sirətun-nəbəviyyə, Beyrut-1971.*

*12. Əbul Həsən Əli ibn Hüseyn Məsudi. Murucuz-zəhəb, Beyrut-1989.*

*13. Əbdulvəhhab Nəccar, əl-Xuləfai-Raşidin, Darul-Fiker, tarixsiz.*

*14. Philip Hitti, İslam tarixi, tər. S.Tuğ, İstanbul-1980-1981.*

*15. Cəlaləddin Siyuti, Əbul-Fəzl Əbdürrəhman ibn Kəmaləddin. Tarixul-xüləfa, Qahirə-1969.*



**Açar sözlər:** *Əbu Bəkr, Ömər ibn əl-Xəttab, Osman ibn Əfvan, Əli ibn Əbu Talib, Məkkə, din*

**Key words:** *Abu Bakr, Umar ibn al-Khattab, Osman ibn Afwan, Ali ibn Abi Talib, Mecca, religion*

**Ключевые слова:** *Абу Бакр, Умар ибн аль-Хаттаб, Осман ибн Афван, Али ибн Аби Талиб, Мекке, религия,*




**Шахлар Шарифов**


**РЕЗЮМЕ**

Умар ибн аль-Хаттаб который является вторым ро рашиди халифой после 13 лет года слона, родился в Мекке в 583 году.По завешанийе халифа Абу Бакра, после его смерте в 634 году был назнацен халифа.

Во время своего халифата ряде сражений боев с бизансами и сасанидских победили большинство мусульман.

Во время халифата Умара, Исламское Государство Мекке, Медине, Басра, Куфе, Фаластине, Сирии и Египта Джазира было разделено на 8 регион.


**Shahlar Sherifov**


**SUMMURY**

The second caliphate of rashidi Umar ibn al-Khattab was born 13 years after the year of elephant in 583 in Mecca. According to the precept of the first caliphate Abu Bakr ibn Guhafa after his death the Umar ibn al-Khattab was appointed as a caliphate in 634 years.

There were some battles during his caliphate against Sasani and Bizantines and the majority of these battles were won by Muslims.

During the caliphate of Umar the Islamic state was divided into eight province including Mecca, Medine, Syria, Kufa, Palestine, Egypt and Jazeera.



SEVİNC HƏSƏNOVA
Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası

# İDARƏÇİLİKDƏ STRESS PROBLEMİ



*"Rəhbərlik etmək, yəni adamları öyrətmək və tərbiyələndirmək üçün gərək mənəvi haqqın olsun"*
**Ulu öndər, Ümummilli lider Heydər Əlirza oğlu Əliyev.**

Hal – hazırki dövrdə dövlət idarəçiliyi yalnız o vaxt işləyər ki, orda əməkdaşlıq ruhu hökm sürsün, rəhbər vəzifələri dəqiq müəyyənləşdirsin, hər bir dövlət qulluqçusu isə öz iş yerində uğurunun qeydinə qalsın.

İnsanlar bütün ömür mərhələlərində streslə qarşılaşır və onun mənfi təsiri altında yaşamalı olur. Fəal iqtisadiyyat dövründə bir çox şəxslər ömrünün üçdə bir hissəsini iş şəraitində keçirməli olur. Tədqiqatlar göstərmişdir ki, gün ərzində yığılan stress insan sağlamlığına, onun şəxsiyyətliliyinə, ətrafdakı insanlarla münasibətinə öz mənfi təsirini göstərir.

Cəmiyyətin yeni dövlət idarəçilik strukturunun təşəkkülü mərhələsində idarəetmə əsasında stress problemi xüsusi əhəmiyyət kəsb edir. İdarəetmə fəaliyyətinin çətinliyi, rəhbərin hazirdakı dövrün iqtisadiyyatına xas olan müxtəlif növ dəyişikliklərə psixoloji cəhətdən hazır olması əsas komponentlərindəndir. İdarəetmə subyekti olan hər bir rəhbər şəxsiyyət rəhbərlik etdiyi müəssisənin yüksək səmərəlilik göstəricilərinə nail olmağına yönəldilmiş müddəaları dürüst ifadə edərək, psixoloji cəhətdən dərk etməli, idarəetmədə sağlam düşüncəyə və real idarəçilik münasibətlərinə əsaslanan idarəetmə sisteminə keçməlidir. Müasir rəhbərdə yeniliklərə və dəyişikliklərə adaptasiya olmaq, işdə stress halının qarşısını almaq bacarığı birinci yeri tutmalıdır.

İdarəetmə sistemi elə şərtləri təmin etməlidir ki, bu halda hər bir dövlət qulluqçusu özünün ən əsas vəzifəsini əmək məhsuldarlığının artırılması üçün real imkanların fəal sürətdə təşkil edilməsində görsün. Bununla bərabər idarəetmə sistemi özünütənzim və özünütəkmilləşdirmə qabiliyyətlərinə malik olaraq, yüksək səmərəli təşkilatçılıq formalarının və idarəetmə metodlarının, yeni texnologiyaların geniş tətbiq olunmasına yönəlməlidir. [3,s175]

Rəhbərlərdən daha yüksək səviyyəli professionallıq tələb olunur. Məlumdur ki, idarəçilikdə nailiyyət əldə etmək üçün rəhbərə yalnız baza biliklərinə və təcrübəyə malik olması kifayət deyildir, ona görədə o daima özünün stress hallarına hazır olmalı və streslə mübarizə aparmaq bacarığına malik olmalıdır.

Ölkənin müəssisə və təşkilatlarında tamamilə yeni, reallıqla ayaqlaşan, müxtəlif çətin situasiyalardan çıxmaq bacarığına malik olan, düzgün riskə gedən, yaradıcılığından istifadə edən və stress vəziyyətlərindən məharətlə çıxmağı bacaran rəhbərlər bu gün olduqca lazımdır.

"Yaxşı rəhbərlər öz səhvlərindən öyrənir" – XX əsr yazıçısı, marketinq qurusu Cefri Foks özünün "Necə böyük rəhbər olmalı" kitabında yazmışdır. "Yaxşi rəhbər adamlarda entuziazm yaradır. O, tabeçiliyində olanların vəzifəsini yüksəldir, onları mükafatlandırır və tərifləyir. Yaxşı rəhbər adamları özlərinə inanmağa vadar edir, onlarda

hər kəs kimi olmadıqlarına, xüsusi seçilmiş olmalarına inam oyadır.” Ən əsası yaxşı rahbər əməkdaşlarına özlərini yaxşı hiss etməkdə kömək edir. [2,s 13]

Hər hansı bir dövlət qurumunun idarə olunması ən əvvəl onun missiyasına uyğun olan məqsədin seçilməsindən başlayır. Seçilmiş məqsəd idarə olunan obyektin missiyasına nə qədər uyğun olarsa, o zaman idarəetmə bir o qədər asan təşkil oluna bilər və daha uğurlu nəticələr verib, stress vəziyyətlərindən uzaqlaşdırar. [6,s 87]

Iyirminci əsrin əvvəllərində idarəetmə nəzəriyyəsinin müxtəlif konsepsiyaları meydana çıxmışdı. F. Teylorun “ Elmi İdarəetməsi”, M. Veberin “İdeal bürokratiya”sı və s. Teylor istismaredici və üzücü sisteminə qarşı insan amilinin idarə olunmasının yeni metodlarını axtarıb tapmağa cəhd göstərmişdir. Fransada elmi idarəetməni geniş yaymaq üçün “Teylor sisteminin fəlsəfəsi” adlı kitabın müəllifi Le Şatalye bu barədə çoxlu fikirlər irəli sürmüşdür. Rusiyada idarəetmə elminin əsaslarını qoyanlardan biri K. Adametski olmuşdur. İyirminci əsrin 20-30 – cu illərdə “insan münasibətləri” adlanan yeni bir nəzəriyyə meydana çıxır, bu da daha zərif üsullarla əməyi yüksəltmək işinə yönəlir. Sonralar L. Lant “Konfliktsiz rəhbər”, V. Q. Polokov “İdarəetmə dünyasında insan” və s. araşdırmaları aparmışlar.

Stress problemi, onun iş fəaliyyətinə təsiri və rəhbərin professional fəaliyyət zamanı işçinin bacarıq və adaptasiya şərtləri haqqında keçmiş dövrlərdə kifayət qədər araşdırmalar aparılıb. Bununla belə bu gün yenə də idarəçilikdə stress problemi öz aktuallığını itirmir. Bu gün yeni tipli dövlət idarəçiliyində stress problemi daha da aktuallaşmışdır. İdarəçilik qərarlarının işlənib hazırlanması və qəbul edilməsi - stressin şəxsi mənbələrini özündə cəmləşdirən kifayət qədər stressli prosesdir. Temperament və xarakterin bəzi şəxsi xüsusiyyətləri idarəçilik qərarları qəbul edərkən əlavə olaraq həm rəhbər, həm də tabeçiliyində olanlar üçün stressə səbəb olur.  Məsələn, temperamentin rigidlik və impulsivlik kimi xüsusiyyətləri qəbul edilən qərarın sürət və keyfiyyətinə mənfi istiqamətdə təsir edir. İmpulsiv qərar əsaslanmamış şəkildə erkən qəbul edilir, rigid qərar isə təxirə salınır, rəhbər yalnız bir variant üzərində düşünür və yekun qərar verə bilmir. Xarakterin destruktiv xüsusiyyətləri çox zaman yüksək təşviş, konformluq, eqosentriklik şəklində özünü büruzə verir. Yüksək təşviş: rəhbər daim səbəbsiz şəkildə həyəcanlanır. Bununla əlaqədar olaraq qərar qəbulunu ləngidir. Bu, əlbəttə ki, həm rəhbər, həm də tabeçiliyində olanlar üçün stressə səbəb olur. Konform davranış ona görə təhlükəlidir ki, rəhbər kollektivə tabe olaraq düşünülməmiş, keyfiyyətsiz qərar qəbul edə bilər. Digər sözlərlə, qəbul edilən qərara o, öz şəxsi töhfəsini vermir, yalnız rəhbərin çox zaman dərk və analiz etmədən qəbul etdiyi və öz adından təqdim etdiyi digər insanların fikirləri yer alır. «Mən də hər kəs kimi düşünürəm, hər kəs necə hesab edirsə mən də elə hesab edirəm» — konform qərara nümunədir. Eqosentrik qərar özünün sərt birtərəfliliyilə fərqlənir: «iki fikir vardır - mənim fikrim və yanlış fikir». Belə qərarlar həmçinin əməkdaşlar üçün də potensial stress amili hesab edilirlər. [6,s 65-75]

Dövlət idarəetməsi subyektiv xarakter daşıdığından onun formalaşması və inkişafı üçün insan təfəkkürünün məhsulu olan informasiya, bilik, təşkilatı və normativ resurslar, ideyalar, ekspert qiymətləndirmələri, dövlət qulluqçularının və dövlət idarəetməsində iştirak edənlərin fəaliyyəti kimi elementlər zərurət təşkil edir. [7,s 122-128]Bunlarla yanaşı nəzərə alınmalıdır ki, dövlət idarəçiliyi sistemində idarəetmə fəaliyyətinin zəruri olan daxili qanunauyğunluqları cəmləşir. Bu qanunauyğunluqlar idarəetmə məsələlərində və qərar qəbulunda çox mühüm əhəmiyyət kəsb edir. Unutmamalıyıq ki, dövlət idarəçisi insandır və o, təfəkkürünün mənbəyindən istifadə edir. İnsan təfəkkürünü isə tormozlaşdıran amillərdən biridə stress faktorudur.

Xarici ölkə psixoloqlarının tədqiqatlarında stress vəziyyətinin idarəetmə üslubuna təsiri haqqında kifayət qədər araşdirmalar aparılır, onların daha səmərəli olması ilə bağlı nəticələrə gəlinir. [8,s 28] Bu özünü, xüsusilə, dövlət idarəçiliyində fəaliyyətin idarə olunması üslubu ilə bağlı tədqiqatlarda daha kəskin şəkildə göstərir. Dövlət idarəetmə üslubunun psixoloji təhlili kifayət qədər mürəkkəb olmaqla fərqli baxımdan yanaşılan, araşdırılan problemlərdəndir. İdarəetmə üslubu idarəedənin və tabeçilikdə olanların müəyyən davamlı ünsiyyəti, daxili həmrəyliyi şəraitində idarəetmə funksiyasının səmərəliliyini təmin edən fəaliyyət formasıdır. Dövlət idarəçiliyi üslubunun daxili vəhdəti və onun tamlığı digər komponentləri də müəyyənləşdirməklə fəaliyyətin səmərəliliyini yüksəldir, məqsədin reallaşmasına şərait yaradır. Stress vəziyyəti isə idarəetmənin səviyyəsini aşağı salır, onun bütövlüyünü pozur.

Dövlət idarəçiliyi cəmiyyətin ideoloji, siyasi quruluşuna, iqtisadi bazisinə, eləcə də sosial-psixoloji qanunauyğunluqlarına əsaslanmalıdır. Stress vəziyyətinin dövlət idarəçilik üslubuna və idarəetmə prinsiplərinə təsir göstərməsi qaçılmazdır.

İdarəçilikdə stress neçə onilliklərin probleminə çevrilib. Ilk dəfə stress problemini iyirminci əsrin 30 – cu illərində həkim Qans Selye araşdıraraq, belə bir fikir irəli sürmüşdür ki, “stress halı orqanizmin bütün qıcıqlayıcılara olan adaptasiya üsuludur. Stress insanın təbii davranış reaksiyasıdır və yaranan çətinliklə mübarizə aparmağa təkan verir. Hətta stress kiçik dozalarda xeyirli də ola bilər.” Amma tədqiqatlar göstərir ki, dövlət idarəçiliyində stressin az dozada olması haqqında söhbət belə gedə bilməz.

Stress ingilis sözü olub insanın psixi halətində baş verən gərginlik və sıxıntını bildirir. Yəni insanın gündəlik fəaliyyətində, xüsusi şəraitdə rastlaşdığı çətin və mürəkkəb amillərin yaratdığı psixi gərginliyə stress deyilir. Stress orqanizmin daha çox gözlənilməz halda, birdən – birə, qeyri-adi ekstremal və çətin təsirlərə məruz qalması ilə əlaqədar olaraq baş verir və müxtəlif təzahürlərə malik olur. [1,s 168]

Bir tərəfdən idarəçilikdə stress rəhbərin öhdəsindən gələcəyi işinin effektivliyinə, digər tərəfdən rəhbərin şəxsi keyfiyyətlərinə, subyektiv vəziyyətinə, fiziki və psixoloji sağlamlığına, həmçinin idarəçiliyin müvəffəqiyyətlə icra olunmasına bütövlükdə təsir edir.

Müasir dövrdə idarəçilik istiqamətlənmiş məqsədyönlü fəaliyyətdir. Müasir tələblər idarəçilikdə yüksək keyfiyyətlərə və bacarıqlara malik olan işçi şəxsiyyətləri tələb edir və onların üzərinə ağır yük qoyulur. Bu yükü idarəçilikdə rəhbər işçi daşıyır.

Hər bir professsional fəaliyyət özü ilə stress faktorları daşıyır. Sadəcə fəaliyyətdən asılı olaraq stress özünün kəmiyyət və keyfiyyətinə görə dəyişilir. Stressin həmçinin fiziki, sosial və təşkilatı faktorlarını nəzərdən keçirmək olar. Fiziki faktorlara müəssisədə səliqəsizlik, səs-küy, işıqlandırma,temperatur, şərait və s., sosial faktorlara isə işçilərlə konflikt, rəhbər və işçi arasındakı münasibətlər, başqa təşkilatlarla əlaqə və s., aid etmək olar. Təşkilatı faktorlara planlaşdırılmamış iş saatı, yüksək iş intensivliyi, təcili qərar qəbul etmək, karyera imlkanlarının qalxması və s., daxildir. [5,s 93-95]

Çətin iş şəraitində buraxılacaq səhvlərin sayı artır, səhv nəticələr, işin dəqiqliyinin azalması, psixi prosseslərin fəaliyyətinin zəifləməsi, iradi nəzarətin aşağı düşməsi halları meydana çıxır. Moskva Dövlət Universitetinin professoru A. B. Leonova qeyd edirdi ki, bu hallar meydana çıxdıqda rəhbər işçidə üzərinə düşən işin çoxluğundan yorğunluq və halsızlıq, monotonluq zamanı darıxma, yuxululuq, emosional gərginlik zamanı isə həyacan, əsəbilik və qorxu yaranır.

A.B. Leonavanın sözləri ilə desək, müasir idarəetmədə stress “kədərli zərurətə” çevrilir. Kadr potensialının qorunması, şəxsi



sağlamlıq və bütövlükdə sağlam təşkilatın yaranması idarə edənin özündə yaranan stressi idarəetməsi qabiliyyəti ilə bağlıdır. [4,s 75-85]

Dövlət idarəçiliyində rəhbərdən tələb olunan peşəkar təhlil etmək bacarığı, siyasi və sosial erudisiya, işə yaradıcı yanaşma, ünsiyyətçilik, obyektivlik, düzgünlük, ləyaqətlilik və s. yüksək keyfiyyətlər sirf stress faktoru ilə zəifləyir. Cəmiyyətə şərəf və ləyaqətlə xidmət etmək, ədalətli və təmiz vicdanlı olmaq, prinsipiallıq, məsuliyyət hissi və digər yüksək mənəvi keyfiyyətlər rəhbərin peşəkarlığının mühüm şərtlərindəndir.



### ƏDƏBİYYAT


*1. Ə.S. Bayramov, Ə.Əlizadə. Psixologiya – Bakı 2002 s.168*

*2. Cefri Foks. Necə böyük rəhbər olmalı- Qanun nəşriyyatı 2015 s.13*

*3. Самед Сеидов. Психология менеджта – Баку 2000 s.175*

*4. Леонова А.Б. Комплексная стратегия анализа професесионального стресса: от диагностики к профилактике и коррекции // Психологический журн. 2004. Т. 25. 2. стр. 75-85;*

*5. Дементий Л.И., Корнев К.И. Копинг-поведение руководителей в условиях профессиональных стрессовых ситуаций // Психология совладающего поведения: материалы Междунар. науч-практ. конф. / отв. ред. Е.А. Сергиенко, Т.Л. Крюкова. Кострома, 2007. стр. 93-95.*

*6. Горбунова М.,А, Горшкова Л.А. Основы теории управления. Учеб.пособие. Н.Новгород,1998 стр.65-75/87*

*7. Розанова В.А. Психология управления. Ч. 1-2. М.,1999 стр.122-128*

*8. Work stress and cardiovascular disease:a life course perspective Loer Broks, A.Bosma,H.Peter,A.Angerer p.28*

*İstifadə olunan ədəbiyyatlarda səhifələrin ümumi sayı:34*



**Açar sözlər:** *fəal iqtisadiyyat, real idarəçilik, səmərəli təşkilatçılıq, konfliktsiz rəhbər, kədərli zərurət, idarəçilikdə stress, professional stress.*
**Ключевые слова:** *активная экономика, реальное управление, эффективная организационность, безконфликтное руководство, печальная необходимость, стресс управления, профессиональный стресс*
**Key words:** *active economics, real estate, efficient organization, unconflict leader, sad necessity, stress management, professional stress*



**Севиндж Гасанова**


**Проблема стресса в управленченской деятельности**

**РЕЗЮМЕ**


В статье речь идет о стрессогенных факторов в управленческой деятельности. К таким факторам могут быть отнесены физические условия труда, социальные и организационные факторы. В управленческой деятельности, как правило, подразумевается выстраивание структуры управления и взаимодействия с подчиненными такой, в рамках которой каждый элемент функционирует взаимосвязанно и гармонично со всеми другими элементами. Если в гармоничной системе появляется сбой, то это приводит к «системной поломке», называемой стрессом.

Разработка и принятие управленческого решения — достаточно стрессогенный процесс, таящий в себе личностные источники стресса. Некоторые личностные особенности, темперамента и характера при принятии управленческого решения также чреваты лишними стрессами и для руководителя, и для подчиненных. Стресс, профессиональное выгорание достаточно часто возникают в ситуации поверхностного и некачественного планирования. Попытка сделать очень много дел за один раз, плохое планирование рабочего дня, синдром откладывания, изменения в очередности работ, акцент на второстепенных целях и задачах — вот немногие примеры недостаточного качества планирования как собственной работы, так и работы своих подчиненных.



**Sevinj Hasanova**


**The problem of stress in management**

**SUMMARY**


The article deals about stressogen factors in administrative activity. These factors can be attributed to physical working conditions, social and organizational factors. In management activities, as a rule, implies the alignment of the management structure and interaction with the subordinates such of, within the framework of which each element functions interrelated and harmonious with all other elements. If a fault occurs in the harmonious system, then this leads to a «systemic breakdown», called stress.

The development and adoption of a management decision is quite a stressful process, concealing personal sources of stress. Some personal characteristics, temperament and character when making managerial decisions are also fraught with unnecessary stress for both the manager and subordinates. Stress, professional burnout often occur in a situation of superficial and poor-quality planning. Trying to do a lot of things at once, poor scheduling of the working day, postponement syndrome, changes in the order of work, emphasis on secondary goals and objectives - here are a few examples of the lack of quality of planning for their own work, and the work of their subordinates.

# Diaspor

## AZƏRBAYCANIN DİASPOR SİYASƏTİNİN HƏYATA KEÇİRİLMƏSİNDƏ XARİCİ ÖLKƏLƏRDƏ FƏALİYYƏT GÖSTƏRƏN AZƏRBAYCAN GƏNCLƏRİNİN İCTİMAİ TƏŞKİLATLARININ YERİ VƏ ROLU

NİSA PAŞAYEVA
Azərbaycan Respublikası
Gənclər və İdman Nazirliyi,
Bakı Slavyan Universiteti

AZƏRBAYCAN RESPUBLİKASININ
DİASPORLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ
www.diaspor.gov.az

Müasir beynəlxalq münasibətlər sistemində dövlətlərin xarici siyasət strategiyasının prioritet istiqamətlərindən birini diaspor quruculuğu, diaspor ilə iş və onunla əməkdaşlıq məsələsi təşkil edir.

Bu məqalədə ölkə hüdudlarından kənarda dünyanın müxtəlif ölkələrində yaşayan Azərbaycan diasporunun həyata keçirdiyi lobbiçilik fəaliyyətinin əsas subyektlərindən biri olan və xaricdə fəaliyyət göstərən Azərbaycan gənclərinin ictimai təşkilatlarının yeri və rolu təhlil edilir. Müəllif gənclərin xarici siyasət sahəsinə fəal şəkildə cəlb olunmasının və dövlət maraqlarımızın xarici ölkələrdə və beynəlxalq tədbirlərdə qorunması, tarixi və mədəni irsimizin təbliğ edilməsi, dövlətlər arasında qarşılıqlı anlaşma və əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsində xaricdə fəaliyyət göstərən ictimai təşkilatların fəaliyyətinin dəstəklənməsinin vacibliyini diqqətə çatdırır.

Azərbaycan dövlət müstəqilliyini bəyan etdikdən sonra xarici siyasət kontekstində qarşıda duran əsas vəzifələrindən biri xarici ölkələrdə yaşayan azərbaycanlıların təşkilatlanması və onların ölkəmizin milli maraqlarının müdafiəsi işinə cəlb edilməsi olmuşdur. Bu minvalla diaspor quruculuğu və lobbiçilik fəaliyyətinə dəstək Azərbaycan Respublikasının dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilmişdir. Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş diaspor siyasətinin məqsədi dünya azərbaycanlılarının tarixi vətənimiz ilə əlaqələrini və həmvətənlilərimizin milli özünəməxsusluğunu qoruyub saxlamaq, diasporun potensialından istifadə etməklə milli maraqlarımızın müdafiəsi istiqamətində müvafiq işlər aparmaq, diasporlararası əlaqələri genişləndirmək və onların mədəni-siyasi hüquqlarının müdafiəsini təmin etməkdən ibarətdir.

Dövlətimiz tərəfindən dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın yaratdıqları diaspor təşkilatları, gənc soydaşlarımızın ictimai təşkilatları, Azərbaycan icmaları, cəmiyyətləri və birlikləri ilə ölkəmiz arasında, o cümlədən təşkilatların özləri arasında əlaqələrin möhkəmləndirilməsi və həmrəyliyin qorunması məqsədilə davamlı strateji işlər aparılır. Buna bariz nümunə olaraq 2001-ci ildə ümummilli lider H.Əliyevin imzaladığı Sərəncama əsasən Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi həmrəylik ideologiyasının gerçəkləşdirilməsi istiqamətində mühüm addım olmuşdur. Qurultay Azərbaycan tarixinə böyük bir prosesin başlanğıcı kimi daxil olmuşdur [5]. Bu tədbir xaricdə yaşayan soydaşlarımızın ümumi məqsəd və ideya ətrafında birləşməsinə və şəbəkələşməsinə hədəflənmiş önəmli bir hadisə kimi qiymətləndirilmişdir.

Baş verən proseslərin gedişatı istər Azərbaycan vətəndaşı, istərsə də xarici ölkənin vətəndaşı kimi xaricdə yaşayan həmvətənlilərimiz ilə sistemli işin təşkil edilməsi üçün xüsusi bir dövlət qurumunun yaradılmasını vacib etmişdir. Azərbaycan diasporunun formalaşması prosesinin sürətləndirilməsinə təkan vermək üçün belə bir qurumun yaradılması ideyasını ilk dəfə H.Əliyev irəli sürmüşdür. Bundan irəli gələrək 5 iyul 2002-ci il tarixdə ölkə prezidenti tərəfindən "Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması haqqında" Fərman imzalanmışdır. Qeyd etmək lazımdır ki, Fərman dünya azərbaycanlılarının siyasi və ideoloji birliyinin təmin edilməsi baxımından müstəsna əhəmiyyət kəsb edən mühüm bir sənəd olmuşdur. Bir müddət sonra isə Azərbaycan Respublikasının

Prezidenti İlham Əliyevin 2008-ci il 19 noyabr tarixli Sərəncamı ilə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin əsasında Diasporla İş üzrə Dövlət Komitəsi yaradılmışdır. Müasir beynəlxalq sistemdə diaspor anlayışı artıq xarici siyasətin və beynəlxalq münasibətlərin vacib elementinə çevrilmişdir. Bu səbəbdən irəli gələrək qloballaşan dünyanın reallıqları diaspor ilə iş sahəsində Azərbaycanın və digər dövlətlərin qarşısında yeni vəzifələr qoyur. Xalqlar arasında gedən sürətli inteqrasiya prosesləri, diaspor təşkilatlarının beynəlxalq siyasətdə artan rolu bu sahədə daha genişmiqyaslı fəaliyyətlərin həyata keçirilməsini vacib edir.

Azərbaycan diasporunun fəaliyyətində xaricdə yaşayan, təhsil alan və işləyən azərbaycanlı gənclərin təşkilatlanması xüsusi yer tutur. Təqdirəlayiq haldır ki, gənclərimiz xarici ölkələrdə təşkilatlanaraq Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, milli-mənəvi dəyərlərimizin qorunması, zəngin mədəni irsimizin təbliğ edilməsi işinə öz töhfələrini verərək, könüllü şəkildə diaspor quruculuğu işində fəal iştirak edirlər. Gənc soydaşlarımız təsis etdikləri ictimai təşkilatlar vasitəsilə yaşadıqları ölkələrin dövlət orqanları, qeyri-hökumət təşkilatları, ictimai xadimləri və kütləvi informasiya vasitələri ilə sıx əlaqələr qurur, Azərbaycanın həmin dövlətlər ilə əməkdaşlıq əlaqələrinin və dostluq münasibətlərinin inkişafında müstəsna rol oynayırlar. Lobbiçilik fəaliyyətinin həyata keçirilməsində gənclərin maraqlı ideyalar və təşəbbüslər ilə çıxış etməsi bu sahədə yeni nailiyyətlər qazanmağa imkanlar açır. Bu səbəbdən də ölkəmizin maraqlarının müdafiəsində gənclərin fəal iştirakının təmin edilməsi gənclər ilə bağlı həyata keçirilən dövlət siyasətinin prioritet istiqamətlərindən biri hesab edilir. Hazırda dünyanın beş qitəsində, fərqli ölkələrdə (Almaniya Federativ Respublikası, Böyük Britaniya, Fransa, Gürcüstan, İsveç Krallığı, Latviya, Macarıstan, Niderland, Norveç Krallığı, Kanada, Rumıniya, Rusiya Federasiyası, Türkiyə, Ukrayna və s.) azərbaycanlı gənclərin təsis etdiyi ictimai təşkilatlar (Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatı (AMOR), Azərbaycan-Fransız Gənclik Assosiasiyası, Gürcüstanın Azərbaycanlı Gənclər İttifaqı, Ukrayna Azərbaycanlı Gənclər Birliyi, Kvebek Azərbaycanlıları Assosiasiyasının Gənclər Təşkilatı, Azərbaycan-Niderland Gənclər Assosiasiyası, Norveç Azərbaycan Gənclər Assosiasiyası, Azərbaycan Gənclər Mərkəzi, Rumıniya-Azərbaycan Gənclər və Mədəniyyət Assosiasiyası, Azərbaycan Tələbə Şəbəkəsi və s) fəaliyyət göstərir [2].

Bu təşkilatlar azərbaycanlı gəncləri bir araya gətirərək onların şəbəkələşməsinə, diaspor və lobbiçilik işində birgə fəaliyyət göstərməsinə şərait yaradır. Həmin təşkilatlar vasitəsilə gənclər Xocalı, 31 mart soyqırımları, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin yaşadıqları ölkələrin ictimaiyyətinə, hökumət üzvlərinə, beynəlxalq təşkilatlara, kütləvi informasiya vasitələrinə çatdırılması məqsədi ilə müxtəlif kampaniyalar təşkil edir, elmi-praktiki konfranslar və etiraz aksiyaları keçirirlər.

Buna misal olaraq, Azərbaycan diasporunun böyük bir hissəsinin, 2,5 milyona yaxın soydaşımızın məskunlaşdığı Rusiya Federasiyasında 2009-cu ildə təsis edilmiş Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatı (AMOR) Azərbaycan həqiqətlərinin Rusiya və dünya ictimaiyyətinə çatdırılmasında, milli dəyərlərimizin və mədəni irsimizin qorunmasında, gənclərin sosial, təhsil və s. təşəbbüslərinin dəstəklənməsində, onların Rusiya cəmiyyətinə fəal inteqrasiyasında xüsusi rol oynayır [2]. Bu təşkilat vasitəsilə gənclər Rusiyada öz etnik qruplarının və tarixi vətənlərinin milli mənafeyini və maraqlarını qoruyan vasitəçilərə çevrilərək ikitərəfli əlaqələrin inkişafına böyük töhfələr vermiş olurlar [8]. Dövlətimiz tərəfindən yaradılan geniş imkanlar və göstərilən dəstək nəticəsində gənclərin lobbiçilik fəaliyyətinin miqyası genişləndikcə gənclər arasında beynəlxalq əlaqələrin kəmiyyət və keyfiyyət göstəriciləri inkişaf edir və bu da öz növbəsində dövlətlər arasında əməkdaşlıq əlaqələrinin, siyasi və iqtisadi münasibətlərin inkişafına müsbət təsir göstərir. On minlərlə Azərbaycanlının yaşadığı Fransa Respublikasında 1999-cu ildə Strasburqda təhsil alan bir qrup azərbaycanlı tələbə tərəfindən təsis edilmiş Fransada Azərbaycanlı Tələbələr Assosiasiyası (FATA), 2003-cü ildə Parisdə təsis edilmiş Azərbaycan-Fransız Gənclik Assosiasiyası (AFGA) Azərbaycan ilə Fransa arasında dostluq əlaqələrini möhkəmləndirmək, iqtisadi, elmi və mədəni münasibətlərin inkişafına dəstək vermək, mədəniyyətimizi və tariximizi təbliğ etmək, Azərbaycan həqiqətlərini Fransa ictimaiyyətinə çatdırmaq məqsədilə Fransanın müxtəlif şəhərlərində fərqli mövzularda tədbirlər və layihələr həyata keçirir. 2009-cu ildən Gürcüstanın Marneuli şəhərində fəaliyyət göstərən Azərbaycanlı Tələbələr Assosiasiyası (GATA), 2010-cu ildən isə Marneulidə Gürcüstanın Azərbaycanlı gənclərinin I Qurultayında təsis edilmiş Gürcüstanın Azərbaycanlı Gənclər İttifaqı gəncləri bir araya gətirərək onların gürcü cəmiyyətinə inteqrasiyası sahəsində layihələr həyata keçirirlər. Qeyd etmək lazımdır ki, Azərbaycanlılar Gürcüstandakı etnik qruplar arasında say çoxluğuna görə birinci yerdədir.

20 minə yaxın azərbaycanlının yaşadığı Böyük Britaniyada isə 2005-ci ildə təsis edilmiş Azərbaycan Gənclər Klubu fəal diaspor təşkilatlarından biri hesab olunur. Təşkilatın bu ölkədəki türk diasporu ilə sıx əlaqələri mövcuddur. Təşkilat türk icmaları, həmçinin Londonun İqtisadiyyat və Siyasi Elmlər Məktəbinin nəzdində fəaliyyət göstərən Azərbaycan Cəmiyyəti ilə birlikdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, xalqımıza qarşı törədilmiş soyqırım aktları ilə bağlı etiraz aksiyaları, foto sərgilər, elmi praktiki konfranslar təşkil etmişdir [2].

Dünyanın digər ölkələrində də fəaliyyət göstərən gənclərin diaspor təşkilatları eyni məqsədə və amala xidmət edərək Azərbaycanın qeyri-rəsmi səfirləri kimi onun təmsilçiliyində, beynəlxalq əlaqələrinin genişləndirilməsində və dövlətlər arasındakı münasibətlərin inkişafında xüsusi rol oynayırlar. Bu təşkilatların şəbəkələşməsi, onların diaspora və lobbiçilik işində iştirakının artırılması Azərbaycanın təbliği və informasiya müharibəsində layiqli yer tutmasına geniş imkanlar yaradır. Gənc soydaşlarımız tərəfindən xarici ölkələrdə yaradılan təşkilatların fəaliyyəti 2007-ci ildə Bakıda Azərbaycan Respublikası Prezidentinin təşəbbüsü ilə keçirilmiş Azərbaycan Türk diaspor təşkilatları rəhbərlərinin I Forumunda qəbul edilmiş, “Azərbaycan və Türk diaspor təşkilatlarının birgə fəaliyyət strategiyası” sənədində də xüsusilə vurğulanmış, Azərbaycan və Türk gənclər təşkilatlarının birgə fəaliyyət perspektivləri ilə bağlı təkliflər öz əksini tapmışdır. Bundan əlavə sənəddə gənclərlə iş və təhsil sahəsində Azərbaycan və Türk diaspor təşkilatlarının birgə fəaliyyətinin vacibliyi qeyd olunmuşdur [1, s. 25-26]. Xarici ölkələrdə yaşayan və fəaliyyət göstərən azərbaycanlı gənclərin diaspor quruculuğu işinə cəlb olunması, ictimai-siyasi fəallığının artırılması və ölkəmiz ilə əlaqələrinin möhkəmləndirilməsi məqsədi ilə 2010-cu il noyabrın 26-28-də Gənclər və İdman Nazirliyi ilə Diasporla İş üzrə Dövlət Komitəsi tərəfindən Almaniyanın Frankfurt şəhərində Dünya Azərbaycanlı Gənclərinin I Konqresi təşkil edilmişdir. Tədbirdə xarici ölkələrdə fəaliyyət göstərən Azərbaycan diaspor və gənclər təşkilatlarının, o cümlədən respublikamızda fəaliyyət göstərən gənclər təşkilatlarının nümayəndələri, xaricdə təhsil alan tələbələr, Azərbaycan hökuməti nümayəndələri, ölkəmizin Avropa Şurası, TürkPA, İKT Gənclər Forumundakı nümayəndələri, İnsan Hüquqları üzrə Avropa Məhkəməsi təmsilçiləri iştirak etmişdir. Araşdırmalardan

məlum olur ki, diaspor quruculuğunda və Azərbaycan həqiqətlərinin təbliğ edilməsində gənclərin fəaliyyətinin genişləndirilməsi, mədəniyyətlərarası dialoqun inkişafında onların rolunun artırılması, xaricdə yaşayan azərbaycanlı gənclərin cəmiyyətə inteqrasiyası dövlətimiz tərəfindən daim diqqətdə saxlanılan məsələlərdir. Çünki bu günün gəncləri məyyən zamandan sonra dövlətin həm daxili inkişafını, həm də xarici siyasət vektorunu müəyyən edən gələcək elitanın bir hissəsinə çevriləcək potensialdır. Bunun üçün də onların inkişafına və fəaliyyətinə hər cür dəstək, dövlətimizin güclənməsinə və inkişafına yaradılan zəmindir. Bu səbəbdən diaspor siyasətində gənclərin səmərəli fəaliyyətini təmin etmək üçün gənclər ilə bağlı olan daxili normativ-hüquqi sənədlərdən - Qanun, Sərəncam və s irəli gələn öhdəliklər və dövlət proqramları çərçivəsində təsdiq edilmiş müvafiq beynəlxalq tədbirlər və layihələrin həyata keçirilməsi gənclərin lobbiçilik fəaliyyətin reallaşdırılmasının konseptual və praktiki əsaslarını özündə əks etdirir. Belə ki, 2002-ci ildə ümummilli lider H.Əliyevin Sərəncamı ilə təsdiq edilmiş “Gənclər siyasəti haqqında” Azərbaycan Respublikasının Qanununda dövlət qurumları qarşısında gənclərin beynəlxalq tədbirlərdə iştirakına, dünya gəncləri ilə və xarici ölkələrdə yaşayan gənc həmvətənlilərimizlə qarşılıqlı əlaqələrinin inkişafına gənclərin ölkə hüdudlarından kənarda müasir peşə və ixtisaslar üzrə təhsil almalarına imkan və şəraitin yaradılması və s. kimi vəzifələr qoyulmuşdur [6, s. 19]. Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 30 avqust tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Gəncliyi Dövlət Proqramı (2005-2009-cu illər)” çərçivəsində dünya Azərbaycanlı gənclərin tarixi vətənləri ilə əlaqələrinin möhkəmləndirilməsi, onların potensialının ölkənin inkişafına səfərbər edilməsi məqsədilə, həmçinin Prezidentin 2011-ci il 7 iyul tarixli Sərəncamı ilə təsdiq edilmiş ”Azərbaycan gəncliyi 2011-2015-ci illərdə” Dövlət Proqramı çərçivəsində gənclərin beynəlxalq mübadilə və mədəniyyətlərarası dialoqda iştirakının dəstəklənməsi, diaspor və lobbiçilik işinin təşkilində iştirakının artırılması məqsədilə bir sıra işlər görülmüşdür [3, s. 216, 250-252, 4]. Hazırda həyata keçirilən “2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası” isə Azərbaycan üçün prioritet kəsb edən ölkələrin gəncləri ilə əlaqələrin inkişaf etdirilməsi, beynəlxalq əməkdaşlığın dəstəklənməsi, xarici ölkələrdə yaşayan və təhsil alan azərbaycanlı gənclərin fəaliyyətinin əlaqələndirilməsi, Azərbaycan həqiqətlərinin dünyaya yayılması istiqamətində gənclər tərəfindən aparılan işlərə təşkilati və maddi-texniki dəstəyin göstərilməsi, Azərbaycanın gənc dostlarının sıralarının genişlənməsi məqsədilə işlərin görülməsini nəzərdə tutmuşdur [7].

Nəticəyə gəlmək olur ki, bu gün Azərbaycanın xarici siyasət strategiyasının prioritetlərindən biri olan diaspor siyasətində və lobbiçilik işində gənclərin fəaliyyətinin həcmi xüsusi çəkiyə malikdir. Bunun üçün də xaricdə yaşayan, işləyən və təhsil alan gənc soydaşlarımızın həmrəyliyinin təmin edilməsi və onların yaratdıqları qeyri-hökumət gənclər təşkilatlarının fəaliyyətinin və iş birliyinin dəstəklənməsi üçün strateji fəaliyyət konsepsiyasının və xüsusi proqramların hazırlanması, mütəmadi kütləvi tədbirlərin keçirilməsi zəruridir. Xalqlar arasında əlaqələrin daha da gücləndirilməsi, Azərbaycan mədəniyyətinin dünyada təbliği, Azərbaycan ilə xarici ölkələrin müvafiq qurumları arasında əməkdaşlıq və digər perspektivlər ilə bağlı işlər bundan sonra da xarici ölkələrdə fəaliyyət göstərən azərbaycanlı gənclərin təşkilatlarının əsas hədəfi olmalıdır. Dövlət başçısı düzgün olaraq hesab edir ki, hər bir müstəqil dövlətin beynəlxalq nüfuz və qüdrəti onun ölkə hüdudlarından kənarda formalaşdırdığı diasporun, lobbinin fəaliyyət imkanlarının səviyyəsi ilə ölçülür.

## ƏDƏBİYYAT


1. *Azərbaycan və Türk Diaspor Təşkilatlarının Birgə Fəaliyyət Strategiyası, Bakı: 2007, 27 s.*
2. *Azərbaycan diaspor təşkilatları http://diaspora.gov.az/index.php?options=content&id=87*
3. *Azərbaycan Gəncliyi Dövlət Proqramı (2005-2009-cu illər), Bakı: Gənclər siyasəti ilə bağlı normativ hüquqi sənədlər toplusu, 2009, 373 s.*
4. *“Azərbaycan gəncliyi 2011-2015-ci illərdə” Dövlət Proqramı. http://gencler2011-2015.az/pdf/dovlet%20proqrami.pdf*
5. *"Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 23 may 2001-ci il tarixli, 724 nömrəli Sərəncamı http://files.preslib.az/site/diaspora/gl2.pdf*
6. *“Gənclər Siyasəti” Haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı: Gənclər siyasəti ilə bağlı normativ hüquqi sənədlər toplusu, 2009, 373 s.*
7. *“2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası”. http://www.president.az/articles/14132*
8. *Новое время. -2016. - 12 июля. - С.5. http://anl.az/down/meqale/novo_vremya/2016/iyul/498866.htm*


**Ключевые слова:** *Азербайджан, молодежная политика, внешняя политика, международная деятельность молодежи, международное сотрудничество*
**Keywords:** *Azerbaijan, youth policy, foreign policy, international activity of youth, international cooperation*




## РЕЗЮМЕ

В системе современных международных отношений одним из приоритетных направлений внешней политики стран является создание диаспоры, работа и сотрудничество с диаспорой.
В этой статье анализируется роль и место общественных организаций азербайджанской молодежи как одной из основных субъектов лоббистской деятельности азербайджанской диаспоры в разных странах мира. Автор подчеркивает важность активного привлечения молодежи в область внешней политики и поддержки общественных организаций молодежи в защите наших государственных интересов в зарубежных странах и на международных мероприятиях, в продвижении нашего исторического и культурного наследия, в развитии взаимопонимания и сотрудничества между государствами.



## SUMMARY

In the system of modern international relations, one of the priority directions of the foreign policy of the countries is the creation of a diaspora, work and cooperation with the diaspora.

This article analyzes the role and place of the public organizations of Azerbaijani youth as one of the main subjects of the lobbying activity of the Azerbaijani diaspora in different countries of the world. The author emphasizes the importance of active involvement of youth in foreign policy and support of youth NGOs in protecting our state interests in foreign countries and at international events, promoting our historical and cultural heritage, developing mutual understanding and cooperation between the states.

NEMAN ŞÜKÜROV
Azərbaycan Respublikasının
Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyası

# RABİTƏ MÜƏSSİSƏLƏRİNDƏ LOGİSTİK İDARƏETMƏNİN TƏHLİLİ






Müasir dövrdə dinamik inkişaf edən rabitə xidmətləri bazarında poçt rabitəsi xidmətləri informasiyanın göndərilməsində yenə də mühüm vasitələrdən biridir. Qeyd etmək lazımdır ki, Azərbaycanda poçt rabitəsi mühüm sosial funksiyanı yerinə yetirir: indiki dövrdə hələ də bir çox ucqar yaşayış məntəqələrində poçt rabitəsi yeganə rabitə vasitəsi olaraq qalır. Azərbaycan Respublikasında poçt rabitəsinin kifayət qədər güclü iqtisadi potensialı və müəyyən rəqabət üstünlükləri vardır: Azərbaycanda poçt rabitəsi şəbəkəsi bütün ölkə ərazisini əhatə edir (poçt rabitəsi şəbəkəsinin 1480 şöbəsi fəaliyyət göstərir, digər müəssisələr və maliyyə şirkətlərinin öz şöbələrini yaratmaq istəmədikləri məntəqələrdə poçt rabitəsi şöbələri fəaliyyət göstərir (1). Yüz illər ərzində təşəkkül tapmış istehsal sisteminin "nou-hau" ilə birləşdirilməsi; respublikanın bütün regionlarında avtomobil nəqliyyatı vasitələri parkının, həmçinin əsas magistral xətlərində poçt vaqonlarının mövcud olması; dünyanın 190 ölkəsi ilə sıx beynəlxalq əməkdaşlıq-ümumdünya poçt ittifaqının üzvləri ilə əməkdaşlıq bütün bunlar poçt rabitəsi şəbəkəsinin təkcə logistik operator kimi fəaliyyət göstərməsinə imkan yaratmır, eyni zamanda kommersiya və maliyyə təşkilatı kimi fəaliyyət göstərməsinə də real olaraq şərait yaradır.

Azərbaycanda poçt xidmətinin zəngin potensialına baxmayaraq özünün fundamentallığı və qeyri-mütəhərrik olması səbəbindən sözügedən sahədə istehsal proseslərinə yeni texnologiyaların tətbiq edilməsi qeyri mümkündür. Məsələnin bir qədərdə çətinləşməsi onunla bağlıdır ki, poçt rabitəsi xidmətləri bazarında kifayət qədər sərt rəqabət vardır: beynəlxalq şirkətlər, bir sıra milli və müştərək şirkətlər inkişaf edərək bu sahənin ən mənfəətli seqmentlərini, yüklərin ekspress çatdırılması, logistik xidmətlər sahələrinə nəzarət edirlər.

Belə şirkətlər adətən əsas iri şəhərlərin nəqliyyat qovşaqlarını mənimsəyirlər: Bakıda, Gəncədə, Lənkəranda, Yalamada, Qazaxda. Qeyd edək ki, Azərbaycanda dövlət poçt xidmətinin payı azdır, 10-15% civarındadır, müştərilərin şirkətə inamının artmasına və şirkətin bəzi rəqabət üstünlüklərinə baxmayaraq mövqeyinin güclənməsinə poçt göndərişlərinin çatdırılması vaxtının çox uzun olması, həmin göndərişlərin saxlanması və mühafizəsi keyfiyyəti və etibarlılığı ilə əlaqədar yaranan problemlər neqativ təsir göstərir.

Bir faktıda qeyd etməliyik ki, yazılı məktubların vaxtında çatdırılması göstəricisi İsveçrədə 97,4%, Azərbaycanda isə 87,1%, Bakıda 44,3 %-dir ( 2).



**Şəkil 1. Poçt xidmətin əsas göstəicilərinin dinamikası.**




Mənbə: (3).

Şəkil 1.-dən göründüyü kimi poçt və kuryer xidmətlərin həcmi 2012-2016-ci illər müddətində artmışdır.Belə ki, 2012-ci illə müqayisədə 2016-ci ildə 1.5 dəfə və ya 34.6% artmışdır. Nəzərə alsaq ki, poçt müəssisələrində çalışan işçilərin orta illik sayı həmin müddətdə təqribən cəmi 5% artmışdır, qeyd etmək olar ki poçt müəssilərində əmək məhsuldarlığı da artmışdır. Təbii ki, tədqiq olunan dövrdə poçt sifarişlərin ümumi həcmin də artması göz qarşısındadır.Xüsusilə bu elektron ticarətin geniş yayılması nəticəsində baş vermişdir. Eyni zamanda şəkildən nəticə çıxarmaq olar ki, Azərbaycanda poçtalyon və kuryerlərin sayı respublikada olan poçt bölmələrin sayına təqribən bərabərdir.Bu isə o deməkdir ki, həmin kadrlar poçt xidmətində səmərəli paylaşmayıb və xidmət sahələri tam istismar olunmur. Məsələn, aparıcı qərb ölkələrində hər poçt bölməsinə təqribən 20-100 nəfər poçtalyon düşür ( 4 ).

İstehsal proseslərinin dəyişilməsi, yeni logistik sxemin yaradılması ilə əlaqədar “Azərpoçtda” həyata keçirilən tədbirlər poçt göndərişlərinin emalı, çatdırılması və daşınması ilə bağlı texnologiyanın dəyişilməsini, həmçinin marşrutların dəyişilməsi və optimallaşdırılmasını, optimal nəqliyyat növlərinin seçilməsini tələb edir. Müəssisənin logistikasının səmərələşdirilməsində ən səmərəli üsul idarəetməyə inteqrasiyalı üsulun tətbiq edilməsidir- fikrimizi bir qədər fərqli sözlərlə ifadə edərək qeyd etmək olar ki, inteqrasiya olunmuş logistik konsepsiyaya ehtiyac vardır.

Qeyd edək ki, “Azərpoçt” üçün nə nəzəri, nə də praktiki məzmunlu dəqiq təsbit olunmuş poçt müəssisələrinin inkişafı ilə bağlı yeni konsepsiya hazırlanmamışdır. Müəssisələrin inkişaf etdirilməsinin logistik konsepsiyasının əsası inteqrasiyalaşdırılmış logistika konsepsiyasının klassiklər D.Bauersoks və D.Kloss tərəfindən işlənilmişdir (5).

Poçt rabitəsinin nəqliyyat vasitələrinin peyk vasitələri ilə izlənilməsi və naviqasiya vasitələri ilə təmin olunması imkanları, həmçinin poçt rabitəsində magistral və regional daxili poçt rabitəsi logistikasının mühüm vəzifələri araşdırılır. Nəzərdə tutulan bütün bu tədbirlər müasir dövrdə “Azərpoçt” müəssisələrinin inkişaf etdirilməsi üçün olduqca əhəmiyyətlidir, lakin həmin tədbirlərin həyata keçirilməsini çətinləşdirən və mürəkkəbləşdirən bir sıra səbəblər vardır. Bunlar aşağıdakılardır: rabitə sisteminin müəssisələri arasında bəzən çevik və operativ qarşılıqlı əlaqənin mövcud olmamağı, rabitə müəssisələrinin müxtəlif aparatlarında logistik proseslərin idarə olunması müxtəlif idarəetmə aparatı vasitəsi ilə həyata keçirilir.

Müəssisələrdəki logistik şəbəkə çox səviyyəli sistemdir, bir-birini təkrar edən çox saylı elementlərdən ibarətdir. Nəzərə almaq lazımdır ki, poçt rabitəsində əsas logistik proseslər magistral və regionlar daxili proseslərdir. Eyni zamanda qeyd etmək lazımdır ki, hər bir yarımsistemin öz vəzifələri vardır və həmin vəzifələr cədvəl 1.-də təqdim olunmuşdur.

**Cədvəl 1. Magistral və regional poçt logistikasının vəzifələri**

| Magistral logistika | Regional logistika |
|---|---|
| 1. Logistik proseslərinin inkişaf istiqamətləri və logistik xidmətlərin növlərinin müəyyənləşdirilməsi.<br>2. Optimal kəmiyyətlərdə magistral mərkəzlərinin müəyyənləşdirilməsi (yüklərin daşınması, çeşidlənməsinin aparıldığı digər obyektlərdə) və yerləşdirilməsi<br>3. Magistral səviyyədə poçt yükləri axınına xidmətin rasional logistik məqsədlərinin müəyyənləşdirilməsi (planlaşdırma, təşkil etmə, idarəetmə və nəzarət) | 1. Daxil olması ərəfəsində.<br>1.1. Poçt göndərişlərinin qəbulu və emalının təşkili.<br>1.2. Aderslərdən daxil olan yük axınının anbar əməliyyatlarının təşkili (qablaşdırma, komplektləşdirmə, magistrala bilavasitə yüklənilməsi.<br>1.3. Poçtun magistrala yüklənməsi<br>2. Çatdırılma ərəfəsində.<br>2.1. Poçt axınlarının istiqamətlər üzrə planlaşdırılması və bölgüsü<br>2.2. Çatdırılmanın təşkili və nəqliyyatla təmin olunmasına nəzarət<br>2.3. Çatdırılan poçt yüklərinin anbar əməliyyatlarının təşkili (boşaltma, çeşidləmə, digər əməliyyatlar) |

1. Logistik proseslərinin inkişaf istiqamətləri və logistik xidmətlərin növlərinin müəyyənləşdirilməsi.

2. Optimal kəmiyyətlərdə magistral mərkəzlərinin müəyyənləşdirilməsi (yüklərin daşınması, çeşidlənməsinin aparıldığı digər obyektlərdə) və yerləşdirilməsi

3. Magistral səviyyədə poçt yükləri axınına xidmətin rasional logistik məqsədlərinin müəyyənləşdirilməsi (planlaşdırma, təşkil etmə, idarəetmə və nəzarət) 1. Daxil olması ərəfəsində.

1.1. Poçt göndərişlərinin qəbulu və emalının təşkili.

1.2. Aderslərdən daxil olan yük axınının anbar əməliyyatlarının təşkili (qablaşdırma, komplektləşdirmə, magistrala bilavasitə yüklənilməsi.

1.3. Poçtun magistrala yüklənməsi

2. Çatdırılma ərəfəsində.

2.1. Poçt axınlarının istiqamətlər üzrə planlaşdırılması və bölgüsü

2.2. Çatdırılmanın təşkili və nəqliyyatla təmin olunmasına nəzarət

2.3. Çatdırılan poçt yüklərinin anbar əməliyyatlarının təşkili (boşaltma, çeşidləmə, digər əməliyyatlar)

Mənbə: cədvəl (5) əsasında müəllif tərəfindən tərtib edilib.

Yuxarıda göstərilən vəzifələrdən də çox aydın görünür ki, poçt rabitəsinin logistikasının informasiya konsepsiyası kifayət qədər informasiya tələb edir, eyni zamanda çevik və operativ idarəetmənin həyata keçirilməsinə imkan yaratmır, bütün bunlar isə proses iştirakçılarının qarşılıqlı əlaqələrinin operativ və çevik zəminlər üzərində qurulmasını, logistikanın idarə edilməsində dəyişikliklərin aparılmasını tələb edir.

Burada optimallaşdırmanın bəlli sullarının bilavasitə poçt rabitəsinin istehsal sisteminə tətbiqi poçt şəbəkəsində səmərəli logitik sistemin qurulmasına xidmət edir. Modernləşdirilmiş logistik sistemin yaradılmasında məqsəd müəssisələrin müasir tələblərə uyğun müştərilərə poçt rabitəsi xidmətlərinin göstərilməsinə nail olunmasıdır. Bizim tərəfimizdən aparılan araşdırmalara əsaslanaraq “Azərpoçtda” istehsal proseslərində bir çox dəyişikliklərin aparılmasının vacib olması müəyyənləşdirilmişdir. Bunlar aşağıdakılardır:

1. Poçt rabitəsi şəbəkəsi obyektlərinin qurulması tarixən sosial

prinsip əsasında, obyektin fəaliyyətinin iqtisadi səmərəliliyi nəzərə alınmadan həyata keçirilmişdir. Belə bir vəziyyət poçt rabitəsinin yüksək məsrəfli sahəyə çevrilməsinə səbəb olmuşdur;

2. Müəssisənin nəqliyyat parkının mövcud vəziyyətini qənaətbəxş hesab etmək olmaz. Poçt yükünün konteynerlərdə daşınmasının təşkili, həmçinin avtoparkın yenilənməsi çox böyük xərc tələb edir;

3. Yolların keyfiyyətinin aşağı səviyyədə olması (körpülərin tez-tez təmiri, yolların təmir üçün bağlanması, yol örtüyünün keyfiyyətinin aşağı səviyyədə olması və digər problemlər) yüklərin planlaşdırılmış vaxtda çatdırılmasına imkan yaratmır. Yollardakı tıxaclar və yüklərin vaxtında, gündüzlər daşınmasının qeyri mümkün olması paytaxtda yüklərin vaxtında daşınmasını bahalaşdırır;

4. Poçt logistikasında islahatların aparılması və zona-qovşaq prinsipinin tətbiqi proqramı poçt göndərişləri haqqında qeyri dəqiq məlumatlara əsaslanır. Burada müəssisələrin yeni xidmət növləri axını ilə bağlı göstəriciləri nəzərə alınmamışdır, bütün bunlar isə poçt göndərişlərinin çətinliyi, poçt göndərişlərinin kəmiyyət və keyfiyyət göstəricilərinin qeyri dəqiqliyi, marketinq proqnozlarının dəqiq aparılmaması ilə bağlıdır;

5. Xarici məsləhətçilərin təklif etdiyi avtomatlaşdırılmış çeşidləmə mərkəzindən belə bir logistik sxemin reallaşdırılmasının qeyri mümkünlüyü.

Yuxarıda göstərilən çətinliklər aşağıdakı qənaətə gəlməyə əsas verir:

— Çeşidləmənin çox saylı istiqamətlərdə aparılması və müvafiq olaraq poçtun uzun istehsal tsikillərində emalı (hətta avtomatlaşdırılmış rejimdə belə);

— Uzun məsafələrdə avtomobil nəqliyyatı vasitəsi ilə poçt yüklərinin göndərilməsi səbəbindən nəqliyyat xərclərinin artması, magistral çeşidləyici qovşaqda xidmət zonasının çox böyük olması;

— Poçt göndərişlərinin emalı və çatdırılması müddəti uzun sayıla bilər.

" Azərpoçt" MMC-də poçt rabitəsinin idarəetməsinin təşkilati strukturundakı aparılmış müqayisəli təhlillər göstərdi ki, informasiya buraxılışı və ötürücülüyünün hesablanmasında əsas amil idarəetmə sistemində idarəetmə axınının istiqamətlərinin müəyyənləşdirilməsi və kəmiyyətinin qiymətləndirilməsidir.

Poçt rabitəsinin idarəetmə orqanının funksional təyinatına uyğun olaraq belə bir yarım sistem idarəetmə təsirini idarəetmə-sərəncamverici sənədlər vasitəsi ilə göstərir həmin sənədlər poçt rabitəsinin ərazi subyektlərinə (filiallara və digər törəmə təşkilatlara ) iş prosesində və işin icrası zamanı istifadə edilməsi üçün göndərilrir. Statistik məlumatlara görə idarəetmə sisteminə daxil olan və çıxan sənədlərin orta kəmiyyəti ayda 5 və ya 4 vahidə bərabərdir.

İdarəetmənin təşkilati strukturlarının informasiya ötürücülüyü əmsalı cədvəl 2.-də verilmişdir.

**Cədvəl 2. Poçt xidmətlərinin idarəetmə sistemində informasiya axınının hesablanması**

| Təşkilati forma | Struktur vahidləri kəmiyyəti | İdarəetmə axını | | Təşkilati strukturların səmərəliyi | İnformasiya buraxılışı qabiliyyəti |
|---|---|---|---|---|---|
| | | Çıxan | Daxil olan | | |
| "Azərpoçt" | 78 | 5 | 4 | 4,47 | 0,12 |
| Özəl şirkətlər | 9 | 5 | 4 | 2,48 | 0,22 |
| | 10 | 5 | 4 | 2,56 | 0,22 |
| | 12 | 5 | 4 | 2,64 | 0,21 |
| | 16 | 5 | 4 | 2,70 | 0,21 |

Mənbə: Cədvəl "Azərpoçt"un müəssisələrinin ilkin materiallarının və özəl poçt şirkətlərinin materiallarının təhlili əsasında tərtib olunmuşdur.

Hesablanmış əmsalların təhlili göstərir ki, "Azərpoçtun" inzibati idarəetmə sistemi özünün sistemli, məxsusi və daxili mürəkkəbliyinə görə demək olar ki, istənilən struktur vahidləri kəmiyyətində poçt rabitəsinin korporativ modelinin analoji göstəricilərindən iki dəfə çoxdur (onların kəmiyyəti rasional struktur gərginlikləri sahəsinə aiddir).

Təhlillər göstərdi ki, daxili mürəkkəblik səviyyəsinin azaldılması sistemin özü üçün çalışması səviyyəsini əks etdirir, eyni zamanda idarəetmə sisteminin bütün bölmələrinin fəaliyyətlərinin əlaqələndirilməsi imkanlarını səciyyəizə etməyə imkan yaradır. Beləliklə, respublikada poçt rabitəsinin korporativ təşkil edilməsi forması təkrarlanmaları və funksiyaların çarpazlaşması səviyyəsini aşağı salır. Deyilənlərlə yanaşı logistik qərarların qəbul edilməsi prosesi sürətlənir, məsuliyyət hissinin hüdudları aradan qaldırılır və bununla da əlavə sinergetik effektlər əldə edilir.

Tədqiqatdan məlum oldu ki,poçt xidmətlərin təşkilati strukturu nə qədər sadədirsə, onun səmərəliliyi də bir o, qədər yüksəkdir və idarəetmə qərarları bir o qədər çevik, sürətli və şəffaf qəbul olunur. Bütün bunlar isə poçt logistikasının fəaliyyət göstərməsində böyük rol oynayır.

## ƏDƏBİYYAT


*1. "Azərpoçt" MMC-nin rəsmi saytı - http://www.azerpost.az/?options=content&id=10*

*2. European Commission's official site http://ec.europa.eu/growth/sectors/postal-services/statistics_en*

*3. Azərbaycan respublikası Dövlət Statistika Komitəsinin rəsmi saytı - https://www.stat.gov.az/source/communication/az/002_1.xls*

*4. Официальный сайт Международной Почтовой Организации (Universal Postal Union) - http://pls.upu.int/pls/ap/ssp_report.CreateReport*

*5. Бауэрсокс Д.Дж., Клосс Д.Дж. Логистика. Интегрированная цепь поставок. – М.: Изд. ЗАО «ОЛИМП-БИЗНЕС», 2001. - 640с.*



**Açar sözlər:** *logistika, poçt, rabitə, idarəetmə, təşkilatı struktur.*
**Ключевые слова:** *логистика, почта, связь, управление, организационные структуры.*
**Keywords:** *logistics, mail, communication, management, organizational structures.*


## РЕЗЮМЕ


В статье анализируются особенности современного логистического управления предприятий связи Азербайджана. В статье также уделяется особое внимание формированию и этапам развития почтовой службы в стране. Автор проводит сравнительный анализ национальной логистической концепции в сфере связи, классифицирует задачи магистральной и региональной логистики и т.д. В конце статьи даются общие выводы и рекомендации по исследуемой теме.


## SUMMARY


In article features of modern logistic management of telecommunications agencies of Azerbaijan are analyzed. In article special attention is also paid to formation and stages of development of post service in the country. The author carries out the comparative analysis of the national logistic concept in the sphere of communication, classifies problems of the main and regional logistics, etc. At the end of article, the general conclusions and recommendations on the studied subject are given.

# Mətbuat

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ DÖVRÜNDƏ MÜSTƏQİL MƏTBUATIN ƏSASLARINI ŞƏRTLƏNDİRƏN AMİLLƏR

ŞƏRƏF MƏMMƏDOVA
Bakı Dövlət Universitetinin Jurnalistikanın nəzəriyyəsi və təcrübəsi kafedrasının dissertantı

Milli-siyasi birliyə çağrış Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ərəfəsində Azərbaycan milli mətbuatının başlıca şüarına çevrilmişdi. Bu zaman Azərbaycanda siyasi hakimiyyət uğrunda mübarizə özünün ən yüksək həddinə çatmışdı və 20-ci yüzilliyin ikinci on illiyinin əvvəllərindən daha kəskin şəkildə özünü büruzə verirdi.

Gənc tədqiqatçı S.Xalidoğlu Azərbaycan Xalq Cümhuriyyətinə gedən yolun məhz bu dövrdən keçməsini vurğulayaraq yazır: "Cümhuriyyətimizin elmi, nəzəri və ideoloji konsepsiyası bu zaman kəsiyində və həm də mətbuat səhifələrində yaranmış, formalaşmış" (4, s.6). Həmin dövrdə mətbuatda millilik, millətçilik, türkçülük məsələləri ciddi şəkildə təbliğ edildiyi üçün "məhz bu amil istiqlala- Azərbaycan Xalq Cümhuriyyətinə gedən yolda ilk addım kimi dəyərlədirilməlidir" (4, s.182).

Azərbaycan xalqının milli müstəqilliyini heç çürə qəbul emək istəmiyən çar hökuməti buna mane olmaq, xalqı müstəmləkə əsarətində saxlamaq üçün milli şüurun, milli mədəniyyətin inkişafına ağır zərbə vururdu. Bu özünü əsasən mətbuat, maarif, mədəniyyət sahəsində əks etdirirdi. "Mətbuatın mühüm milli qüvvələrdən biri" (3, s. 40) olduğunu dərk edən çar senzurası bu sahələrə, xüsusən də milli mətbuatın inkişafına qənim kəsilmişdir.

Görkəmli nəzəriyyəçi alim f.e.d. prof. C.Məmmədli çox düz olaraq qeyd edir ki: "Mətbuatımızın söz azadlığı barədə bəxti uzun müddət gətirməyib". Azad mətbuatın cəmiyyətdə böyük əhəmiyyət kəsb etdiyini dərk edən klassiklərimiz əsrlərlə qanlı-qadalı mübarizələr apararaq ilk dəfə Azərbaycan Xalq Cümhuriyyəti dövründə buna nail oldular.

"Azərbaycan Xalq Cümhuriyyəti yaranana qədər çar Rusiyası tərkibində olan Azərbaycanda mətbuat azadlığı yox idi" (1, s.70). Demokratik prinsiplər üzərində bərqərar olunan Azərbaycan Xalq Cümhuriyyəti müstəqil və azad mətbuatın zəruriliyini anlayaraq bu sahədə çox mühüm addımlar atdı. Yeni qurulan demokratik hökumət dövlətçilik ənənələrini möhkəmləndirmək, ölkənin ictimai, siyasi, mədəni, iqtisadi inkişafını təmin etmək üçün fəaliyyətə başladığı ilk gündən ölkədə bir sıra demokratik islahatlar aparmağa başladı. Heç də təsadüfü deyil ki, AXC-nin bu dövrünü xalqımızın ictimai-siyasi həyatında "əsaslı tərəqqi dövrü" də adlandırırlar. Daha çox mətbuat, elm, maarif sahəsinə şamil edilən islahatlar mədəni həyatımızda bir çox ilklərə yol açdı, ciddi naliyyətlər əldə etməyimizə səbəb oldu.

"Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin 1918 -ci il 9 noyabr tarixli sərəncamı ilə mətbuat və kütləvi informasiya vasitələrinin məzmunu, nəşri və yayılması üzərində dövlət nəzarəti ləğv olundu" (1, s.71). Senzuranın ləğvi ölkədə azad, müstəqil və peşəkar mətbuatın inkişafına yol açdı.

"O, millət o məmləkət xoşbəxt və azaddır ki, onların mətbuatı azad və xoşbəxt olsun" (3, s. 40) söyləyən milli-azadlıq mücadiləmizin ideoloqlarından biri M.Ə. Rəsulzadə və onun məsləkdaşları Azərbaycan jurnalistikasının inkişafı üçün hüquqi bazanın yaradılması istiqamətində mühüm işlər gördülər.

Azərbaycan Xalq Cümhuriyyəti dövrünə aid arxiv sənədləri ilə tanış olarkən aydın olur ki, hökumət imətbuat işinə son dərəcə həssas yanaşaraq, siyasətində ona xüsusi əhəmiyyət verib. Bunu mətbuatla bağlı parlametdə gedən gərgin müzakirə və mübahisələri tam reallığı ilə özündə əks etdirən parlamet materiallarından, dövrü mətbuatın səhifələrindən də görmək mümkündür. "Mətbuata dair verilən əmr və göstərişlərin, qanun və qərarların geniş məsələlərə toxunması aparılan işin ciddiliyindən xəbər verirdi" (2,s.48). Odur ki, Azərbaycan Hökuməti və Parlamenti tərəfindən bu sahədə qəbul edilən qərarlar, qanunlar ölkə də azad mətbuatın inkişafına böyük təkan verdi. Bu gün həmin dövrün mətbuatı ilə tanış olarkən belə bir qənaətə gəlirik ki "Azərbaycan mətbuatı tarixində 1918-1920-ci illər, bütün əvvəlki dövrlərə nisbətən, ən yüksək inkişaf mərhələsidir. Bu həm keyfiyyət, həm də kəmiyyət baxımından da özünü büruzə verdi" (1, s.67).

Yeni qurulan hökumət ölkədə mətbuatın, nəşriyyatların işini dövrün tələbləri səviyyəsində qurmaq və nizamlamaq üçün Palamentin "1919-cu il 30 oktyabr tarixli qərarı ilə "Mətbuat haqqında nizamnamə"ni qəbul etdi. "Siyasi-hüquqi və sosial mədəni əhəmiyyətinə görə, xüsusi diqqət çəkən" (2, s.48) "Nizamnamə" ölkəmizdə kütləvi informasiya vasitələrinin fəaliyyətini tənzimləyən ilk qanunverici akt olmaqla yanaşı həm də "milli demokratik mətbuatımıza dair milli demokratik dövlətimizin ilk rəsmi hüquqi sənədi idi" (2, s.56).

1919-cu ilin 30 oktyabrında Parlament iclasında qəbul olunan "Mətbuat haqqında nizamnamə" iki hissədən (birinci hissə 20 bənd, ikinci hissə 3 bənd) ibarətdir. Parlametdə uzun sürən müzakirələrdən, mübahisələrdən sonra qəbul olunan "Nizamnamə"nin Azərbaycan mətbuatı tarixindəki rolunu və yerini yüksək dəyərləndirən mətbuat tarixçilərimizin əsasən fikirləri budur ki: "ölkəmizdə mətbuatın fəaliyyətini tənzimləyən ilk qanunverici akt olan bu "Nizamnamə" ölkənin informasiya məkanının yad təsirlərdən qorunmasına, ölkədə normal KİV sisteminin yaradılmasına, formalaşmasına yönəldilən bir sənəd oldu" (2, s.54).

Qabaqcıl Avropa ölkələrinin hüquqi standartlarına uyğun olan "Nizamnamə" ölkə mətbuatımızı məsuliyyətsiz çıxışlardan, pərakəndəlikdən, qeyri-sabitlikdən və qeyri-peşəkarlıqdan uzaqlaşdırmağa istiqamətləndirdi və qismən də olsa buna nail oldu. Qismən ona görə qeyd edirik ki, 1918-1920-ci illərdə Azərbaycan

Demokratik hökuməti ilə müxalifətdə olan mətbuat "içərisində ən fəali və güclüsü bolşevik mətbuatı idi" (1, s.71). Onlar Rusiya bolşeviklərinin maddi dəstəyi ilə ölkədə demokratik hökumətimizə qarşı ideoloji mübarizə aparırdılar. 1918-1920-ci illərdə bolşevik mətbuatının ən fəal nümayəndəsi olan Əliheydər Qarayev rus və azərbaycan dilində çap olunan bir neçə mətbu orqanına rəhbərlik edib. Həmin mətbu orqanları əks təbliğat apararaq xalqı gənc demokratik hökumətə qarşı mübarizəyə səsləyirdi. Tədqiqat əsərlərindən aydın olur ki: "Bu dövrdə Bakıda bolşeviklərin 40-dan çox qəzet və jurnalı demokratik respublikanın əlehinə fəaliyyət göstərib (2, s.55). Onların bu fəaliyyəti bir daha təsdiq edir ki, ölkədə həqiqətən söz, mətbuat azadlığı olub.

Ölkəmizdə azad mətbuatın fəaliyyətində, inkişafında mühüm rol oynayan bu "Nizamnamə"nin qəbul olunması Azərbaycanda informasiya agetliyinin də yaradılmasına səbəb oldu. Azərbaycan Teleqraf Agentliyi Azərbaycan Xalq Cümhuriyyətinin "1919-cu il 3 mart tarixli qərarı ilə yaradılmışdır" (1, s.181). Ölkənin ilk agentliyi əvvəlcə Maarif Nazirliyində fəaliyyətə başlayıb. "Sonra Poçt və Teleqraf Nazirliyi yanında fəaliyyət göstərən agentlik 1919-cu ilin avqustundan müstəqil olaraq fəaliyyətini davam etdirib" (1, s.181). 1920-ci ilin fevralın 2-də hökumət "poçt və teleqraf nazirinin təqdimatı ilə Azərbaycan Teleqraf Agentliyinin yaradılması haqqında yeni qərar qəbul edir" (1, s.181). Görülən bu işlərdən sonra "AZƏRTAc 1920-ci il martın 1-dən Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurası yanında müstəqil quruma çevrilir" (1, s.181) və 1920-ci ilin 28 aprel işğalına kimi fəaliyyətini davam etdirir.

Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin və Parlamentinin mətbuatla bağlı həyata gecirdiyi islahatlar, gördüyü işlər bir daha deməyə əsas verir ki, hökumət mətbuata hər zaman qayğı və sevgi ilə yanaşıb. Milli ruhlu mətbuat da bu zaman ölkənin siyasi, ictimai, mədəni və iqtisadi həyatını tam dolğunluğu ilə obyektiv şəkildə əks etdirib. Buna daha çox "Azərbaycan", "İstiqlal", "Bəsirət", "Qurtuluş yolu", "Əfkari-mütəllim", "Şeypur" və "Zənbur" mətbu orqanlarında rast gəlmək olur. İqtisad, siyasi, mədəni məsələlərə həsr edilən müxtəlif janrda olan bu yazılarda ölkənin hər sahəsinə müdaxilə edilmiş, sağlam, obyektiv fikirlər, rəylər söylənilmiş, problemlərin həlli yolları göstərilmişdi. Deməli mətbuat ölkənin bütün həyatını tam dolğunluğu ilə əks etdirməyə çan atmış və demokratik ideyaların təbliğinə istqamətləndirilmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə milli mətbuatın inkişafına təkan verən amillərdən biri də hökumətin "1918-ci il 27 iyun tarixli qərarına" (1, s.139) əsasən, Azərbaycan türk dilinin bütün ölkə ərazisində dövlət dili elan edilməsi oldu. Bu illərdə Bakıda müxtəlif dillərdə, əsasən rus, erməni, fars dillərində qəzet və jurnallar da fəaliyyətdə idi. Çox təəssüf ki, onların əksəriyyəti Milli Hökumətə qarşı çıxan qüvvələrin mənafeyini müdafiə edirdilər.

Bu illərdə çap olunan mətbu orqanlarını tədqiqatçı alim Q.Dünyamin qızı istiqamətinə görə aşağıdakı kimi quruplaşdırır:

1) Demokratik və ya mütərəqqi mətbuat.
2) Liberal mətbuat.
3) Mühafizəkar mətbuat (2, s.21).

Onu da qeyd etmək lazımdır ki, istər milli-demokratik, istərsə də bolşevik mətbuatının böyük əksəriyyəti janrından asılı olmayaraq ictimai-siyasi məzmun daşıyırdı. Sovet dövrü tədqiqatlarında isə bu dövrün mətbuatı bir ideologiyaya uyğun-bolşevik, sosialist və nəhayət kommunist ideologiyasına uyğun tədqiqata cəlb edilib.

Bir çox ilklərə imza atan Azərbaycan Xalq Cümhuriyyəti ölkəmizdə azad, müstəqil mətbuatın bünövrəsini qoymaqla cəmiyyətdə sosial ədaləti təmin etdi. Bu isə ölkəmizdə milli şüurun, milli özünüdərkin siyasi mədəniyyətin və bütövlükdə sağlam mənəvi dəyərlərin formalaşmasında mühüm rol oynadı. Odur ki, bu gün KİV-z zəngin və böyük tarixə malik olan milli mətbuatımızın müsbət xüsusiyyətlərdən bəhrələnməli və onu davam etdirməlidir.

## ƏDƏBİYYAT


1. *Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası, iki ciliddə, I cild. "Bakı: "Lider nəşriyyatı", 2004*

2. *Qərənfil Dünyaminqızı. Cümhuriyyət dövründə Azərbaycan mətbuatı (1918-1920-ci illər). Bakı: "Elm", 2011*

3. *Rəsulzadə M.Ə. Əsərləri. II cild (1909-1914). İkinci nəşri. Bakı: "Təhsil", 2014*

4. *Samir Xalidoğlu. I Dünya müharibəsi illərində Azərbaycan mətbuatı (1914-may 1918). Baki: "Qanun", 2018*


**Ключевые слова:** *историк, неследовонние, литературный процесс, политическая среда, независимость*

**Key words:** *Literary process, critique historian, sosial contact, independence*

## РЕЗЮМЕ

Перелистывая периодическую печать, которая действовала в 1918-1920-х годах, становится ясно, что Азербайджанская Народная Республика сосдавалась в очень сложной и трудной обстановке. Журналистика периода АДР по идейно-политическому положению в себе два основных направления: 1-национально-демократическая печать, которая несла, распространяла и пропагандировала демократические идей; 2-большевистская печать, которая искусственно раздувала социальные пропагандировала вредную идеологию, хотела разьединить народ и создать противостояние. Естественно, журналистика период АДР в связи со сложной историической обстановкой имела несколько функций и многогранную деятельность.

## SUMMARY

While listing the periodical press activity during 1918-1920 years becomes clear that. The Azerbaijan Peoples Republic created in a very complicated and difficult situation. Azerbaijan Peoples Republic periodical journalize showed two main principles for its idea-political position. Teh national demjcratic press carrying, spreading and propagating the peoples ideas was the Bolshevik press which overstayed the social problems artificially breaking people, created counteraction and broke the national unity as the class struggle. Naturally, that the Peoples Republic periodical journalism had the multifunctional activity circle depending on complicated of its historical situation. The Peoples Republic periodical journalism Stood in a Leading position during the national state construction process.